**AZƏRBAYCAN  RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN ŞEİRİNDƏ GERÇƏKLİYİN ƏKSİ

İxtisas: 57. 16. 01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

Filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün
təqdim edilmiş
**DİSSERTASİYA**

İddiaçı:_________________filologiya üzrə fəlsəfə doktoru, dosent
**Bahar Hüseynəli Məmmədova**

Elmi məsləhətçi:___________filologiya elmləri doktoru, professor
**Jalə Fazil Əliyeva**

**BAKI - 2023**

**MÜNDƏRİCAT**

**GİRİŞ** ... 3
**I FƏSİL. MÜSTƏQİLLİK UĞRUNDA MÜBARİZƏNİN POETİK TƏCƏSSÜMÜ** ... 20
1.1. Milli azadlıq hərəkatı və şeirimiz ... 20
1.2 Qarabağ mövzusunun – Birinci Qarabağ müharibəsinin şeirdə əksi ... 53
1.3. İkinci Qarabağ müharibəsi – Vətən müharibəsi poeziyamızda ... 78
**II FƏSİL. POEMALARIN ƏKS ETDİRDİYİ TARİXİ GERÇƏKLİK** ... 87
2. 1. Sabir Rüstəmxanlının poemalarında azərbaycançılıq ... 87
2. 2. Qabilin poemalarında şəxsiyyət amili ... 103
2. 3. Nurəngiz Günün poemalarında müharibə və sülh amili ... 118
2. 4. Elçin İsgəndərzadənin poemalarında Vətən oğullarının tərənnümü ... 132
**III FƏSİL. HƏYATIN FƏLSƏFİ İNİKASI** ... 153
3. 1. Qabilin şeirləri fəlsəfi kontekstdə ... 153
3. 2. Nurəngiz Gün poeziyasının fəlsəfi yükü ... 166
3. 3. Sabir Rüstəmxanlı şeirləri fəlsəfi aspektdə ... 174
3. 4. Əbülfət Mədətoğlunun fəlsəfi dünyası ... 182
3. 5. Elçin İsgəndərzadənin fəlsəfi düşüncələri ... 184
3. 6. Müstəqillik dövrü şeirində bədii idrakın beynəlmiləl xüsusiyyətləri ... 188
**IV FƏSİL. MƏNƏVİ AZADLIĞIN ASBEKTLƏRİ -MƏHƏBBƏT VƏ TƏBİƏT ŞEİRLƏRİ** ... 209
4. 1. Qabil şeirində məhəbbət notları ... 209
4. 2. Sabir Rüstəmxanlının şeirlərində məhəbbət motivləri ... 213
4. 3. Nurəngiz Gün lirikasının özəllikləri ... 219
4. 4 Əbülfət Mədətoğlunun məhəbbət şeirləri ... 229
4. 5. Elçin İsgəndərzadənin məhəbbət lirikası ... 232
4. 6. Təbiət vətənləşmiş obraz kimi ... 235
**NƏTİCƏ** ... 268
**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT** ... 274

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** İyirminci əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərindən başlayaraq Respublikamızda ictimai-siyasi hadisələrin təbəddülatları, SSRİ adlı nəhəng imperiyanın çökməsi, Vətənimizin Müstəqilləşməsi, ictimai-siyasi quruluşun dəyişməsi, həmçinin, keçid dövrünün çətinliyi, ağrıları, eyni zamanda, Qarabağ münaqişəsi, onun müharibəyə çevrilməsi, nəticədə Respublika ərazisinin iyirmi fazinin itirilməsi, Qarabağ əhalisinin qaçqına, köçkünə çevrilməsi, çadır şəhərciklərinin salınması və sair məsələlər tarixə düşdü. Bütün bunların fonunda otuz illik bir zamanı əhatə edən Müstəqilliyimizin ilk on – on beş ili, yəni keçid dövrü ağır, ləngərli, üzücü, bədnam qonşularla mübarizə, müharibə, gərginlik şəraitində keçdi.

Bu zaman kəsiyində ədəbiyyatımızın qarşısında böyük problemlər qoyulmuşdu. Postsovet məkanında, həmçinin bizim bölgədə və ümumiyyətlə, cəmiyyətdə gedən ictimai - siyasi prosesləri, qlobal məsələləri ədəbiyyata gətirmək və onu bədii sözün gücü ilə öz xalqına, həm də beynəlmiləl səviyyədə başqa millətlərə, xalqlara çatdırmaq problemi öz həllini gözləyirdi.

Hadisələr çox sürətlə bir - birini əvəzlədiyindən iri həcmli əsərlər yazmaq qeyri mümkün idi. Ona görə bu dönəmdə poeziyadan və publisistik bədii mətnlərdən geniş istifadə olunurdu. Xüsusilə şeir xalqın azadlıq arzusunu, mübarizəsini, fəaliyyətini daha çevik şəkildə əks etdirə bilirdi. Bütün tarixi dönəmlərdə, yəni üsyanlar, inqilablar, münaqişələr, müharibələr zamanında kiçik ölçülü əsərlərə həmişə ehtiyac böyük olub. Bu mənada həyat gerçəkliyini əks etdirmək baxımından şeir öndə idi və bütün ədəbi nəsillər də bu günləri poetik şəkildə xalqa çatdırmaq üçün söz meydanında idi. Onlar, əlbəttə ki, öz istedad və bacarıqları müqabilində bədii sözün qüdrətli tutumundan geniş, əhatəli, obrazlı şəkildə istifadə etməyə çalışırdılar. Lakin ən çox yaşlı və qismən də orta nəslə mənsub ədəbi nəsillər – yəni 50 - 60 və 70- 80-ci illər ədəbi nəsillərin nümayəndələri poeziyanın bu çevik imkanlarından daha çox bəhrələnmişdir. Çünki onlar həyat hadisələrini daha tez görür, onu dərk edib

qiymətləndirməyi daha yaxşı bacarır və nəticə çıxardaraq poetik şəkildə vəsv edə bilirdilər. Bu ədəbi nəslin nümayəndələrindən Xalq şairləri - Qabil, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Xəlil Rza Ulutürk, Mirvarid Dilbazi, Məmməd Araz, Söhrab Tahir, Nəriman Həsənzadə, Vahid Əziz, Sabir Rüstəmxanlı, şairlərdən Nurəngiz Gün, Əbülfət Mədətoğlu, Elçin İsgəndərzadə, Məmməd İsmayıl, Ələmdar Quluzadə, Şahmar Əkbərzadə, Hüseyn Kürdoğlu, Hüseyn Arif, Famil Mehdi, Gülxani Pənah, bir çoxlarının bədii nümunələri vətənpərvərlik duyğularının tərənnümü baxımından diqqəti daha çox çəkir.

Dissertasiyada bu böyük ədəbi ordu içərisindən seçilmiş Xalq şairlərindən Qabilin, Sabir Rüstəmxanlının, şairə Nurəngiz Günün, Əbülfət Mədətoğlunun, Elçin İsgəndərzadənin bütün poeziyası, Gülxani Pənahın isə yalnız Qarabağ mövzusunda yazdığı poetik nümunələr götürülmüş, müqayisəli şəkildə təhlilə cəlb edilmişdir. Niyə məhz bu şairlər? Əvvala, bu şairlər müxtəlif ədəbi nəsilləri təmsil edirlər. Yəni Qabil XX əsrin 40-50-ci illər ədəbi nəslindəndir. Sabir Rüstəmxanlı 70-ci illər ədəbi nəslinə mənsubdur. Nurəngiz Gün, Əbülfət Mədətoğlu 80-ci illər, Elçin İsgəndərzadə isə 90-cı illər ədəbi nəslini təmsil edir. İkincisi, bu şairlərin poeziyası istər vətənpərvərlik duyğularının, Vətən təbiətinin tərənnümü baxımından, istərsə də cəmiyyətə, həyata, dünyaya, kainata fəlsəfi baxışın əks etdirilməsi baxımından çox zəngindir, əhatəlidir, fərqlidir, özünəməxsusdur və çox - çox ibrətamizdir, tərbiyəvi əhəmiyyətə malikdir. Üçüncüsü, ən önəmlisi, bu şairlərin poeziyası ardıcıl olaraq elmi çəhətdən araşdırılmayıb, geniş tədqiq olunmayıb. Demək, bu günümüzün gözü ilə baxsaq bu növ poeziyanı izləmək, araşdırmaq, onu yeni nəslin güzgüsünə çevirmək nöqteyi-nəzərindən də mövzu **yenidir və aktualdır**.

Çox zəngin, kəmiyyətcə çoxluq təşkil edən Müstəqillik dövrü Azərbaycan poeziyası zaman azlığından hələ geniş araşdırılmayıb, işıqlandırılmayıb və Müstəqillik dövrü Azərbaycan ədəbiyyatşünaslığında öz yerini layiqincə tutmayıb. Bu mənada mövzunun işlənməsi vacibdir, lazımdır və əhəmiyyətlidir.

Beləliklə, bu beş şairin yalnız poeziyası mövzular üzrə quruplaşdırılaraq araşdırılıb və təhlil edilib. Eyni zamanda, bu şairlərin sovet dönəmindəki poetik

yaradıcılığı da  mövzular üzrə götürülüb müqayisəli  şəkildə təhlilə cəlb edilib. Demək, şeirlər mövzusuna görə belə sıralanıb:

1. Müstəqillik uğrunda mübarizəni əks etdirən şeirlər;

2. Birinci Qarabağ müharibəsini, qaçqın-köçkün həyatını və İkinci Qarabağ müharibəsini – Böyük Zəfəri  əks etdirən şeirlər;

3. Bütövlükdə poemalar;

4. Fəlsəfi şeirlər;

5. Dost və qardaş ölkələrin poetik tərənnümü;

6. Məhəbbət və təbiət şeirləri.

Qeyd edək ki, tədqiqat işi 1988 - 2022 ci illəri əhatə edir. Yəni Müstəqillik uğrunda mübarizə, meydan hərəkatı, Müstəqilliyin bərpası, Qarabağın işğaldan azad edilməsi və s. Lakin müəlliflərin  sovet dönəmi  poetik yaradıcılığından da geniş istifadə edilmişdir.

Həmçinin, əlavə edək ki, mövzumuz "Müstəqillik dövrü Azərbaycan şeirində gerçəkliyin əksi" adlanır. Lakin, göründüyü kimi, tədqiqat işində poema mətinlərindən də istifadə edilmişdir. Müzakirələr zamanı dissertasiyanın adının dəyişdirlərək "Müstəqillik dövrü Azərbaycan poeziyasında gerçəkliyin əksi" adlandırılmasını təklif edənlər də oldu. Bu fikirin əleyhinə gedənlərsə bildirdilər ki, Türk ədəbiyyatında yalnız şeir sözü işlənir. Poemalar da uzun şeir adlanır. Yəni elə böyük fərq yoxdur. Odur ki, bu ad olduğu kimi saxlanıldi.

Müstəqillik dövrü  Azərbaycan ədəbiyyatı ilə bağlı bir neçə elmi kitablar artıq işıq üzü görüb. Bu kitablardan həcminə, əhatə dairəsinə, məzmun və formasına görə ən sanballısı iki cildlik "Müstəqillik dövrü Azərbaycan Ədəbiyyatı" ( 162; 163) kitabıdır. Kitab akademik İsa Həbibbəylinin "Müstəqilliyin şərəfli yolu və müstəqillik ədəbiyyatı" adlı ön sözü  ilə açılır. Məqalədə akademik Müstəqillik dövrünün tarixini, bu tarixə qədər gələn yolu, ədəbiyyatşunasların qarşısında duran problemləri qabardaraq bir çox məsələlərə aydınlıq gətirir. Həmçinin, müəllif Respublika prezidentləri – Heydər Əliyevin və İlham Əliyevin ədəbiyyata, elmə verdiyi dəyərləri, qiymət və məsləhətləri də önə çəkərək diqqətə çatdırır. Kitabda

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşlarının hazırladığı elmi tədqiqatlar geniş yer alıb. Bu tədqiqatlar Müstəqillik illərində yaşayıb yaradan yazarların həyat və yaradıcılığından bəhs edir. Burada həm dövrlə bağlı ümumiləşdirilmiş məqalələr, həm də portret oçerklər var. Xalq şairlərindən Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Məmməd Araz, Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub, Xalq yazıçılarından Anar, Elçin haqqında yazılan portret oçerklər xüsusilə diqqəti cəkir. Həmçinin 70 – 80-ci və 90-cı illər ədəbi nəslin bir çox nümayəndələri haqqında da ətraflı məqalələr yazılmışdır.

Akademik İsa Həbibbəyli "Azərbaycan Ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri" [69] kitabında Müstəqillik dövründə Azərbaycan Ədəbiyyatı tarixinin yenidən dövrləşməsi zərurətindən bəhs edir, azərbaycançılıq konsepsiyasını göstərir və Azərbaycan ədəbiyyatı tarixinin inkişaf mərhələlərini yenidən işləyib əks etdirir. Akademikin fikrinə görə bu təsnifat: "Azərbaycan ədəbiyyatı tarixinin təqdim olunan dövrləşdirilmə modeli ümumdünya ədəbi proseslərinin gedişatı müstəvisində Azərbaycan xalqının çoxəsrlik tarixi ərzində milli ədəbiyyatın keçdiyi təkamül prosseslərinin daxili inkişaf qanunauyğunluğundan, təbii məntiqindən doğan elmi təsnifatdır" [69, s.114]. Bununla müəllif öz tədqiqat əsərində Azərbaycan ədəbiyyatı tarixinin on inkişaf mərhələsini göstərir və qeyd edir ki: "Təqdim olunan Azərbaycan ədəbiyyatı tarixinin dövrləşməsi modeli çoxəsrlik Azərbaycan ədəbiyyatının milli maraqlara və dünyəvi dəyərlərə uyğun səviyyədə, sistemli tədqiq edilib öyrənilməsinə imkan yaradır" [69, s. 117]. "Ədəbi-tarixi yaddaş və müasirlik" [63], "Ədəbi şəxsiyyət və zaman" [64] kitabları da qiymətli məxəzdir.

"Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala" monoqrafiyası da Müstəqillik dövrünün əhəmiyyətli tədqiqat əsərlərindəndir [ 36 ]. Kitabda görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan ədəbiyyatının inkişaf etdirilməsində rolu, əməyi, Azərbaycan yazarlarına göstərdiyi qayğı yetərincə əks olunub. "Əslində tədqiq olunan monoqrafiya Azərbaycan yazıçı və şairlərinin qüdrətli dövlət xadimi və parlaq şəxsiyyət olan Heydər Əliyevin xalqımız və müstəqil dövlətimiz qarşısındakı xidmətlərinin ədəbiyyatda bədii əks-sədası istiqamətindəki yaradıcılıq axtarışlarının elmi-nəzəri dərkinə həsr olunmuşdur" [36, s. 5].

Filologiya elmləri doktoru Himalay Ənvəroğlunun (Qasımovun ) “Azərbaycan ədəbiyyatının yaradıcılıq problemləri” [45], filologiya elmləri doktoru Elçin Mehrəliyevin “Zaman və ədəbiyyat” [120], “Müharibə və ədəbiyyat” [121], filologiya üzrə fəlsəfə doktoru Hicran Nəsibovanın “Müasir Azərbaycan poeziyasında milli azadlıq hərəkatı 1985-1995-ci illər” [173], “Azərbaycan lirikasında insan konsepsiyası” [174], filologiya elmləri doktoru Vaqif Yusiflinin “Poeziyanın yolları və illəri (1960- 2000 -ci illər)” [228], “Poeziya və zaman”[229 ], filologiya elmləri doktoru Rafiq Yusifoğlunun “Azərbaycan poeması: Axtarışlar və prespektivlər” [235], filologiya elmləri doktoru Əlizadə Əsgərlinin “Xəlilrza Ulutürkün poetikası” [49], “XX əsr Azərbaycan şeirinin poetikası” [48], Anar Vəziroğlunun “Çağdaş Azərbaycan poeziyasında milli vətənpərvərlik mövqeyi” [220], Müstəqillik dövrü əməkdaşlarının birgə hazırladığı “Xalq şairi Sabir Rüstəmxanlı” [74] kimi kitablarda Müstəqillik dövrünün ədəbi-bədii problemləri bu və ya digər dərəcədə öz həllini tapmışdır. Əlizadə Əsgərlinin “Xəlilrza Ulutürkün poetikası” kitabı Xalq şairinin poeziyasını, onun mənbələrini, qaynaqlarını əhatəli şəkildə tədqiq etdiyinə görə xüsusi önəm daşıyır. Eyni zamanda alim öz tədqiqat əsərində “Xəlilrza və klassik poeziya”, “Xəlilrza Ulutürk və türk qövmlərinin ədəbi təcrübəsi”, “Xəlilrza və Məqsud Şeyxzadə”, “Xəlilrza və Türk ədəbiyyatı”, “Xəlilrza Ulutürk və slavyan xalqları ədəbiyyatı”, “Xəlilrza və Vladimir Mayakoviski” kimi yarımbaşlıqlar aitında Xalq şairinin dünya ədəbiyyatını necə mənimsədiyini, yaradıcılığında necə əks etdirdiyini hərtərəfli araşdırmışdır.

Tənqidçi Nərgiz Cabbarlının “Yeni nəsil ədəbiyyatı-1” [30] və “Yeni nəsil ədəbiyyatı -2” [31] kitabları dövrün ədəbi prossesini əks etdirmək baxımından gərəklidir. Həmçinin, filologiya elmləri doktoru Esmira Fuadın “Güney Azərbaycanda çağdaş ədəbi proses” [53], Güney Azərbaycan epik şeiri [51] kitabları Cəniubi Azərbaycan poeziyasından xəbər verir.

Bu dönəmin poeziyası ilə bağlı dissertasiyalar da yazılıb müdafiyə olunmuşdur. Filologiya üzrə fəlsəfə doktoru Sevinc Məmmədovanın “Azərbaycan ədəbiyyatında yeni yaradıcılıq meyillərinin təşəkkülü” [151 ], filologiya üzrə fəlsəfə doktoru Nərgiz Cabbarlının “Çağdaş Azərbaycan şerinin inkişaf meyilləri (1993-2005)” [32] ,

Elnarə Akimovanın "Müstəqillik dövrü Azərbaycan poeziyası müasir ədəbi təmaüllər kontekstində" [4] və s. tədqiqatları da bu sıraya aid etmək olar.

Tədqiq etdiyimiz müəlliflərin – Qabilin, Sabir Rüstəmxanlının, Nurəngiz Günün, Əbülfət Mədətoğlunun və Elçin İsgəndərzadənin yaradıcılığı haqqında da ayrı-ayrı kitablar, elmi məqalə və resenziyalar yazılıb.

Keçən əsrin 50-ci illərində ədəbiyyata gələn **Qabil** haqqında, onun yaradıcılığı, çap olunan kitabları və dərc edilən ayrı – ayrı şeirləri barəsində sovet dönəmində həm tənqidçilər, həm də yazıçı-şairlər müəyyən qədər məqalə, resenziyalar yazıblar. Bu müəlliflərdən Əkbər Ağayev, Süleyman Rüstəm, Qulu Xəlilov, İlyas Əfəndiyev, Anar, Elçin, Bəxtiyar Vahabzadə, Bəkir Nəbiyev, Tofiq Hacıyev, İsmayıl Şıxlı, Balaş Azəroğlu, Nəriman Həsənzadə, Əlağa Kürçaylı və b. Lakin istər sovet dönəmində, istərsə də Müstəqillik illərində şairin yaradıcılığı ardıcıllıqla, sistemli şəkildə geniş tədqiq olunmayıb. Müstəqillik illərində şairin həyat və yaradıcılığının müəyyən hissələrini əks etdirən elmi məqalələr yazılıb. Onun haqqında ilk əsər akademik Bəkir Nəbiyevə məxsusdur. "Mən onu belə tanıyıram" adlı ədəbi portretində [170] akademik şairin həm yaradıcılığından - onun məşhur poema və şeirlərindən bəhs edir, həm də özü ilə bağlı şəxsi münasibətlərindən söz açır. Daha sonra akademik diqqəti şairin digər janrda yazdığı əsərə yönəldir və qeyd edir ki: " "Azərbaycan SSR prezidentinə şair Qabilin sualları" [103] onun publisist fəaliyyətinin ən qiymətli nümunələrindən biridir. Açıq məktub janrında işlənmiş bu məqalə təkcə məzmunu ilə deyil, forması etibarı ilə də tamamilə yeni idi. İlk dəfə idi ki, Azərbaycan şairi Respublikanın dövlət başçısına kütləvi mətbuat səhifələrində müraciət edir, onu açıq dioloqa çağırırdı [170, s. 345]. Bu suallar o zamankı prezident Ayaz Mütəllibova ünvanlanmışdı və xalqın düşdüyü ağır vəziyyəti, durumu, problemləri qabardaraq ittiham kimi səsləndirilmişdi.

Qabilin yaradıcılığı haqqında digər bir əsəri şair, M. Füzuli adına Əlyazmaları institutunun əməkdaşı, şair Sona Xəyal yazıb. Əsər "Qabil" adı ilə 2006 - cı ildə çap olunub və Xalq şairinin 80 - illik yubleyinə həsr edilib [76].

Bahar Bərdəlinin "Müstəqillik dövrü Azərbaycan poeziyası" kitabının birinci bölümü Qabilin yaradıcılığına həsr olunub və "Qabil poeziyası müstəqillik illərində"

adlanır. O  tədqiqat işinin də bir hissəsidir [20, s.11-72]. Burada əsas diqqət onun Müstəqillik uğrunda gedən mübarizəyə və Qarabağ müharibəsinə həsr etdiyi şeirlərinə yönəlib. Şairin məşhur "Mərsiyyə"sini, "Bayrağımız", "Müstəqillik", "Türkün qəbri", "Təndir", "Otuz yeddidə", "Özgədən çək gözünü", "Şahi-şahidan" kimi müstəqilliyimizlə bağlı əsərləri, "Mən göz yaşlarına dözə bilmirəm," "Şəhid anası", "Gün o gün olmayacaq",  "Yanıq Kərəmi", "Azərbaycan əsgəri" kimi Qarabağ müharibəsinə həsr olunmuş əsərləri, həmçinin, şairin bir çox fəlsəfi və təbiət şeirləri də təhlilə cəlb edilib.

Xalq şairi Cabir Novruz Qabilin  "Səhv düşəndə yerimiz" şeiri haqqında "Səhv düşməsin yerimiz" [177]  adlı məqalə yazıb və göstərib ki: "... O, 69-cu ildə - tamam ayrı bir dövrdə yazılsa belə elə bil ki, səksəninci illərin sonu – doxsanıncı illərin əvvəllərində məmləkətimizdə bir-birinin ardınca cövlan edən hadisələr milli fəlakətimizdən qabaqcadan xəbər verən həyəcan təbili, hay-haray idi. Səhv düşəndə yerimiz... Bu oldu bizim başımıza gələn fəlakətlərin mənbəyi, əsas səbəbi". Daha sonra müəllif yazır ki: "İktidarım, ixtiyarım olsa idi, bu şeiri bənd-bənd, misra-misra iri həriflərlə çap etdirib, yerində olmayan böyüklü - kiçikli bütün vəzifə sahiblərinin başı üzərindən bir xəbərdarlıq kimi asardım"  [ 177, s. 420-421].

Şair Əlağa Kürçaylı "İnsan qüdrətinin tərənnümü" [93] adlı məqaləsində Qabilin "Nəsimi"si haqqında yazıb.

Xalq yazıçısı Elçin Əfəndiyev "Əfsanə davam edir" [40] məqaləsində  Qabilin "Nəsimi"sini  təhlil edib. Həmçinin, "3-cü. "Axmısan hissimdə, duyğumda şeirim" məqaləsində Elçin  Qabilin şəxsiyyəti və yaradıcılığından söhbət  açıb [41].

Xalq şairi Nəriman Həsənzadə  "Hünərin tərənnümü" [70] məqaləsində "Nəsimi"dən bəhs edib.

Qabilin məhşur şeirlərindən biri də "Yaxşı adamların həsrətindəyik" [94, s. 103] adlanır. Eyni adla çap olunan  kitabı haqqında şair Nüsrət Kəsəmənli də eyni adlı bir resensiya yazıb. Kitabda dərc edilən şeirlərdən danışan müəllif bütün fikir-düşüncələrini yaxşı adamların ətrafında cəmləyir: "Qabil müəllim, elə biz hamımız yaxşı adamların həsrətindəyik. İnsanlıq haqqında "Qırmızı kitab" tərtib olunsaydı indi yaxşı adamları adbaad o kitaba daxil etmək olardı"  [ 91, s. 410].

Bahar Bərdəli "Yaxşı insanların həsrətindəyik" adlı məqaləsində şairin bir çox şeirlərindən bəhs edərək öz düşüncələrini oxucularla bölüşüb [ 21, s. 402 – 409].

Şair İsa İsmayılzadə "Yollar, sizə minnətdaram" [88] adlı məqaləsində həm şairin əsərləri haqqında, həm də onunla olan yol yoldaşlığı, dostluğu barəsində maraqlı bir məqalə yazıb [ 88, s. 376 – 401].

Yazıçı Əmir Mustafayev "Yox özgə şərhə ehtiyac" məqaləsində Qabilin əsərləri üzərində necə işləməsindən söz açır [ 164, s. 454 – 457].

Tənqidçi Vaqif Yusifli "Qabil şeiri" [226], "Xırdaca gəmiyəm, öz bayrağım var" [227] məqalələrində Qabilin şeirlərindən, onun mövzusundan bəhs edir.

**Nurəngiz Günün** yaradıcılığı haqqında da müəyyən qədər məqalə, resenziya yazılıb. İlk məqalə Xalq yazıçısı, akademik Mirzə İbrahimova məxsusdur. 1984-cü ildə "Gənclik" nəşriyyatında Nurəngiz Günün "Tanrı bəşər övladıdır" [57a] adlı povest və hekayələr kitabı çap olunub. Bu kitabla bağlı öz fikir və düşüncələrini oxucularla bölüşən Mirzə İbrahimov yazır: "Nurəngiz xanımın əsərində yazıçı üçün çox vacib olan keyfiyyətlərdən birinə - səmimiyyətə söz ola bilməz. Bu gözəl və zəruri keyfiyyətin sayəsindədir ki, povesti oxuyanda çox zaman adama elə gəlir ki, müəlliflə üz-üzə oturub söhbət edir. Sanki o, həyatda, insanlar arasında gördüklərini, eşitdiklərini, şəxsən yaşadıqlarını sənə nəql edir, hətta ürəyini boşaldır...

Yaz, qızım Nurəngiz, yeni uğurlar sənə" [ 80].

Akademik İsa Həbibbəylinin "Ədəbi şəxsiyyət və zaman" [64], "Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri" [69] adlı kitablarında Nurəngiz Günün poeziyası, xüsusiylə "Xocalı simfoniyası" əsəri haqqında qiymətli fikirləri var.

Nurəngiz Günün "Yol gedirəm" [57] şeirlər kitabına Sabir Rüstəmxanlının yazdığı ön sözdə - "Ürəyimdən keçən yol" məqaləsində şairənin bir çox şeirləri haqqında, xüsusilə "Yol gedirəm" şeiri ilə bağlı ürək sözləri yer alıb [ 193, s. 3-6].

Şair Elçin İsgəndərzadə "Cənnətin bütün sevgiləri sənin olsun" məqaləsində Nurəngiz Günün Türk dünyasında necə tanınmasından, Türkiyədə aldığı ödüllərdən bəhs edir [ 84].

Elçin İsgəndərzadənin Nurəngiz Gün haqqında yazdığı daha bir əsəri "Günəşin elçisi" [85]adlanır. Müəllif bu əsərini "Esse-monoqrafiya" adlandırıb. O qeyd edir ki: "Nurəngiz xanım çağdaş ədəbiyyatımızın elə nümayəndələrindəndir ki, şeirləri öz poetikliyi və intonasiyası ilə seçilməkdədir. Oxuyanda bilirsən ki, bu şeir Nurəngiz xanımındır, yəni dəsti-xəttini qoruyub saxlamış, şeirə öz nəfəsini gətirmiş bir şairdir" [85, s. 185].

Akademik Teymur Kərimli "Nurəngiz Günün poeziyası" məqaləsində şairin şeirlərini təhlil edir [ 89].

Filologiya elmləri doktoru Vaqif Yusifli "Nurəngiz Günün ağ çiçəkləri" məqaləsini [231] yazıb: "Müasir Azərbaycan poeziyasının mənzərəsində onun özünəməxsus Səsi, Yeri, Məkanı, Zamanı var. Səsi şeirlərində, Şeirləri səsində olan Nurəngiz xanım poeziyamızın AĞ ÇİÇƏYİdir" [231, s. 7 ].

Vaqif Yusiflinin daha bir yazısı "Xocalı simfoniyası" adlanır [234, s.182 -185]. Bu məqalədə müəllif Nurəngiz Günün məşhur "Xocalı simfoniyası" poemasında müharibəni necə əks etdirməsindən bəhs edir.

Türk yazarı İrfan Ünver Hasrattinoğlu "Azərbaycanda bir sənət Günəşi: Nurəngiz Gün" [246] adlı məqaləsində yazır: " Nurəngiz Gün, sadəcə gözel şeirlər yazmır, şeirlərini duyaraq fövqalədə gözel ve etgiləyici bir biçimdə oxuyur" [246, s. 11-14].

Daha bir türk yazarı Zefer Özcan "Türkiye sevgisini Sovetlər də yox edə bilmədi" adlı məqaləsini Nurəngiz Günə həsr edib [245, s. 18-23].

Türkiyədə yaşayıb, işləyən həmyerlimiz dok. professor Tamella Abbasbəyli Nurəngiz Gün haqqında "Ürəyimi Türkiyəyə ərmağan götürün" məqaləsini yazıb və "24 saat" qəzetində çap etdirib [ 243, s. 9-14].

Böyük Türk oğlu Cavad Heyyət də "Azərbaycanda elm ve ədəbiyyat səmasında parlaq ulduz: Nurəngiz Gün" məqaləsiylə "Varlıq" jurnalında çıxış edib [247, s. 133-143].

Səlim Babullaoğlu "Şəklin və yolun şeri" məqaləsində şairənin şeirlərini başqa bir üslubda, özünəməxsus şəkildə təhlil edir [18].

Firuzə Nadir "Tanrının söz adamı" məqaləsində şairin həyat və yaradıcılığından

bəhs edir [165]. Nurəngiz Günün dünyadan köçdüyünü eşidərkən yazdığı bu məqalə həm də şairəyə bir vida nəğməsidir.

Filologiya elmləri doktoru, professor Jalə Əliyevanın Nurəngiz Günün ölümünə məktub - elegiyası, daha dəqiq desək, bir essesi var: “Sən mənim bitməyən düşüncəm...” adlanır. Essedə Nurəngiz Gün təkcə bir şairə kimi deyil, həm də bir ana kimi, eyni zamanda onun anası kimi xarakterizə olunur: “Ana, bilirsənmi bu məktubu sənə yazmağa başlayanda dekabr ayının 31-i idi. Sənsiz gələn ilk bayram. Bütün dünya Yeni ili qarşılayırdı. 2015-ci ili. Mənim üçünsə həyat 2014-cü ilin 20 dekabrında gecə saat 3-də durduğu yerdəydi. Mən təqvimin dəyişməsini istəmirdim. Elə bilirdim təqvimin qopan səhifəsi ilə o gecə məndən birdəfəlik qopub gedəcəksən...” [43].

Sona Çərkəzin “Nurəngiz Gün işığı...” da şairənin ölümünə elegiyadır [34].

2016-cı ildə çap olunan “Müstəqillik dövrü Azərbaycan Ədəbiyyatı” kitabında bu tədqiqat işinin bir hissəsi olan “Nurəngiz Gün” məqaləsi yer alıb [ 23, s. 600-622].

Nurəngiz Günün 2019-cu ildə Seçilmiş Əsərlərinin I cildi çapdan çıxıb. Kitaba Filologiya elmləri doktoru Esmira Şükürova ön söz yazıb. O da giriş məqaləsində şairin həyatı, yaradıcılığı, fəaliyyəti haqqında öz fikirlərini oxucularla bölüşüb [60].

Xalq yazıçısı Elmira Axundova Nurəngiz Günün 80 illik yubileyində “Nurəngiz Günün ağ qanadları” adlı oçerk yazıb. Yazar bu oçerkində şairin həyatına, yaradıcılığına ümumi nəzər salır, onun fəaliyyətinə isə xüsusi önəm verərək yazır : ”Türkiyədə Nurəngiz Günün yaradıcılığı populyar və sayqın olmuşdur... Bunun nəticəsidir ki, 2014-cü ildə N. Gün “Türk ədəbiyyatına xidmətlərinə görə” mükafatına layiq görülmüşdür” [ 1].

Demək, Nurəngiz Günün də həyat və yaradıcılığının müəyyən hissələri ayrı-ayrılıqda bu və ya digər dərəcədə yazılıb, işıqlandırılıb, lakin sistemli şəkildə, elmi yöndə araşdırılmayıb.

**Sabir Rüstəmxanlının** fəaliyyəti və yaradıcılığı haqqında hələ gənc ikən Xalq yazıçılarından Süleyman Rəhimov, İsmayıl Şıxlı, Xalq şairi Söhrab Tahir, filologiya elmləri doktorlarından Əkrəm Cəfər, Elməddin Əlibəyzadə nikbin, qürurverici məktub-məqalələr yazıblar [223].

Şair haqqında iri həcmli əsərlər Müstəqillik illərində qələmə alınıb. Akademik İsa Həbibbəyli "Xalq şairi Sabir Rüstəmxanlı: millilik, vətəndaşlıq və müasirlik" əsərində şairin ömür və sənət yolundan danışır. Müəllif şairin yarım əsrlik ömür yoluna nəzər salmaqla onun ayrı-ayrı əsərləri, kitabları barədə fikirlərini və Sabirin siyasi fəaliyyətini öz oxucuları ilə bölüşür. Şairin həm poeziyası, həm də nəsr kitablarından bəhs edir [68]

Xalq şairi Xəlil Rza Ulutürkün "Sabir Rüstəmxanlı haqqında" kitabında onun yaradıcılığı, həyatı, fəaliyyəti ilə bağlı müxtəlif vaxtlarda qələmə aldığı məqalələri, məktubları və ona həsr etdiyi şeirləri toplanıb. Kitabı Xəlil Rzanın ölümündən sonra Firəngiz Ulutürk tərtib edərək çap etdirib [211].

Dilçi-tədqiqatçı Qənirə Bəyzadə iki kitabdan ibarət olan "Sabir Rüstəmxanlı yaradıcılığının linqvopetik tədqiqatı"ında şairin yaradıcılığına ardıcıllıqla nəzər salır. Birinci kitab "Rüstəmxanlı şəlaləsi" adlanır. Bu adı Xəlil Rza Yardımlı dağlarından axan bir adsız şəlaləyə verib və eyni adla da Sabirə şeir həsr edib. Adı kitaba gətirməklə Qənirə Bəyzadə həm təbiətdə, həm də ədəbiyyatda Sabir Rüstəmxanlı yaradıcılığının aşıb-daşdığını göstərmək və müqayisə etmək istəyib. Müəllif birinci fəsildə şairin təbiət, vətənlə bağlı ilk əsərlərini publisist, xalq danışığı, lətifələr, əhvalatlar fonunda təhlil etməyə çalışır. Sonrakı iki fəsildə isə mətnlərin dili, onların sintaksit həllindən, semantik növlərindən bəhs edir. Kitaba ön sözü akademik Nizami Cəfərov yazıb [25].

İkinci kitab "Zamanı məhvərindən qopartmaqdırsa..." adlanır. Kitab giriş və üç fəsildən ibarətdir. Birinci fəsil "Frazafövqi vahidin semantik – sintaktik evolventi və onun abstrakt dəyərləndirilməsi", ikinci fəsil isə "Dil modellərinin məntiqi əlaqələnmə indikatoru" adı altında Sabir yaradıcılığının dilinin yenə sintaksit təhlilidir. Üçüncü fəsildə isə "Bu mənim xalqımdır" başlığı altında Sabirin özünün yazdığı ittihaf şeirləri və məqalələri, həmçinin Sabir haqqında yazılmış şeir və məqalələr toplanıb. Yaxşı olardı bu üçüncü fəsil ayrıca kitab şəklində çap olunaydı. Çünki bu mətnlərin Qənirə Bəyzadənin kitabına aidiyyatı yoxdur. Həm də oxucuda bir çaşqınlıq yaradır [26].

Filologiya elmləri doktoru C. Yusifli "Sabir Rüstəmxanlı: yaddaşın poetikası"

kitabında Sabir Rüstəmxanlının həm portretini çəkib, həm də onun ən çox Vətənlə bağlı əsərlərini təhlilə cəlb edib [225]. Şairin "Ömür kitabı", "Vətən", "Ana dili", "Xətai yurdu", "Göy tanrı", "Cavad xan" kimi Vətənin tarixini, yadellilərə qarşı mübarizəsini, xalqın dilini, adət-ənənələrini təsvir edən əsərlərini tədqiq obyekti kimi götürüb və kifayət qədər təhlilini verməyə çalışıb.

Fəlsəfə elmləri doktoru Rahid Ulusel "Sabir Rüstəmxanlı: Sözün dağ paytaxtı" kitabında şairin həyat və yaradıcılığından bəhz edir. "... dövrümüzün qaynar hadisələri fonunda Azərbaycan bədii, ictimai və siyasi mədəniyyətinin görkəmli nümayəndəsi Sabir Rüstəmxanlının həyatı, ədəbi fəaliyyəti və çevrəsindən, milli tarix qarşısında vətəndaş məsuliyyətindən söz açılır" [ 207]. Tədqiqatçı "Tarix kimi həyat", "Həyat kimi poeziya", "Poeziya kimi mübarizə" başlıqları altında şairin həyatını və zəngin yaradıcılığını tədqiq edərək ümumiləşdirir.

Fəlsəfə üzrə fəlsəfə doktoru Sabir Bəşirov "Sabir Rüstəmxanlı: Sərhədsiz ruhumuzun yolçusu" kitabında da Sabir Rüstəmxanlının həyat və yaradıcılığnı izləyərək bir çox əsərlərini təhlil etməyə çalışıb. Müəllif Sabir Rüstəmxanlının ən çox siyasi fəaliyyətinə və Vətənlə bağlı əsərlərinə önəm verib [27]. Deməк, "Ata əllərinin istisi", "Vətən... Vətən", "Sağ ol, Ana dilim", "Zirvə yalqızlığı", "Tənqid hədəfləri", "Nasir və dramaturq", "Siyasətçi" başlıqları altında Sabir Bəşirov, adlarından da göründüyü kimi, şairin yaradıcılığını bütövlükdə, ardıcıllıqla yox, həyatından ayrı-ayrı fraqmentləri, yaradaıcılığından isə bəzi şeirlərini və kitablarını götürərək öz fikir və düşüncələrini oxucularla bölüşüb.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Müstəqillik dövrü Azərbaycan Ədəbiyyatı şöbəsində "Xalq şairi Sabir Rüstəmxanlı" adlı kitab hazırlanıb [74]. Kollektiv əməyin məhsulu olan bu kitabda şairin həyatı, yaradıcılığı, ictimai-siyasi fəaliyyəti elmi yöndə araşdırılıb. Kitabda, həmçinin, "Sabir Rüstəmxanlının poeziyası müstəqillik illərində" adlı bu tədqiqatın bir hissəsi də çap olunub [24, s.176-225]. Filologiya üzrə fəlsəfə doktoru T. Rüstəmxanlı "Sabir Rüstəmxanlı yaradıcılığında Cənub mövzusu" [195] elmi məqaləsində şairin bu səpkidə yazılmış şeirlərini təhlil etməyə çalışıb. Filologiya elmləri doktoru Salidə Şərifova şairin yaradıcılığının janr müxtəlifliyindən bəhs edir : [202], [203].

**Əbülfət Mədətoğlunun yaradıcılığı** haqqında da elmi, publisist məqalələr yazılıb. Filologiya elmləri doktoru, Xalq yazıçısı Elçin, filologiya elmləri doktoru Vaqif Yusifli, filologiya elmləri doktoru  Rüstəm Kamal, Akif Əli və b. onun çap olunan kitabları haqqında və kitablarına yazılmış  ön sözdə şairin poeziyasından söz açıblar. Lakin şairin yaradıcılığı mövzular üzrə tədqiq olunmayıb.

**Elçin İsgəndərzadənin** yaradıcılığı  haqqında da məqalə və kitablar işıq üzü görüb. Dilçi alim Buludxan Xəlilovun "Bəyaz doğulan şeirlər" kitabında Elçinin poeziyası araşdırılmış, onun şeirləri məzmun-ideya, üslub-estetik kontekstdə qiymətləndirilmişdir. Şairin "Bəyaz mələyin gecə duası", "Pəncərə möcüzəsi", "Yalan", "Təzad", "Qırmızı ümid" "Xəbərdarlıq" kimi şeirlərində həyatın inikası, həyəcan və düşüncələr aləmi, həqiqət axtarışları önə çəkilərək diqqətə çatdırılır. Həmçinin şairin poemaları haqqında da maraqlı fikirlər söyləyir [78].

Yazıçı Qərib Mehdi şairin 50-illik yubileyinə "Elçin-el üçün" kitabını həsr edib. Kitab portiret cizgilərdən ibarətdir. Eyni zamanda şairin bir neçə şeirini də təhlil etməyə çalışıb [119].

Filologiya elmləri doktoru, tənqidçi Vaqif Yusifli  "Bu Elçin İsgəndərzadədir" kitabında Elçinin poetik yaradıcılığından, yaradıcılıq yolundan, çağdaş poeziyamızdakı yerindən, mövqeyindən bəhs edir [233].

Oktay Hacımusalı türk oxucuları üçün nəzərdə tutduğu "Turan savaşçısı" kitabında şairin həyat və fəaliyyəti, həmçinin bir çox poema-şeirləri haqqında öz düşüncələrini qələmə alıb [61].

Şair Murad Köhnəqala "Ağ poeziyanın işığı" kitabında Elçin İsgəndərzadənin bir çox şeir və poemalarını incələyib. Şair haqqında, onun Azərbaycan poeziyasına yeni nəfəs gətirdiyini, həmçinin, şairin çoxcəhətli poetik yaradıcılığı barəsində  öz fikir və düşündüklərini oxucuları ilə bölüşüb [92].

Bahar Bərdəli "Elçin İsgəndərzadə: həyatı, yaradıcılığı" kitabında şairin həyatı və poetik yaradıcılığından bəhs edilir.  Dissertasiyamın bir hissəsi olan  bu kitabda Elçinin şeir və poemaları mövzular üzrə qurublaşdırılmış və təhlilə cəlb edilmişdir. Onun yaradıcılığından yazan müəlliflərin fikir və düşüncələrinə də burada yer verilmişdir  [22].

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Azərbaycan ədəbiyyatında qədim tarixi ənənələri olan, öz novatorluğu ilə də həmişə seçilib, fərqlənən poeziyamızın Müstəqillik illərindəki inkişafını izləmək, onu araşdırmaq, ümumiləşdirərək təhlil, tədqiq etməkdir. Müstəqillik illərinin poeziyası mövzu baxımından özündən əvvəlki poeziyadan xeyli fərqlənir. Bu da təsadüfi deyil. Cəmiyyətdə ictimai-siyasi quruluşun dəyişməsi, sosial problemlərin qabarması, Müstəqillik uğrunda mübarizənin başlanması, gedişi, 20 Yanvar qırğını, Qarabağın işğalı və s. kimi hadisələr şeirin mövzusunu, axarını, yönünü, istiqamətini dəyişdi. Vətəni tərənnüm edən, vətənpərvərliyi əks etdirən, düşmənin iç üzünü, əsl niyyətini, məqsədini açıb xalqına göstərən poetik nümunələr kifayət qədər yarandı. Həmin nümunələri təhlil edərək ədəbiyyatşünaslığa gətirmək üçün bu dissertasiya qarşısına qoyduğu bir sıra elmi vəzifələri də müəyyən etdi:

- 1988- ci il meydan hərəkatından başlayaraq önə çıxan, xalqın istək, arzu, tələblərini əks etdirən şeir mətnlərinin və müəlliflərin ümumi mənzərəsini yaratmaq;

- Müstəqillik uğrunda mübarizə və onu qazandıqdan sonra yaranan şeir mətnlərini araşdıraraq təhlil etmək və onun əvvəlki illərin poeziyası ilə müqayisəsini vermək;

- Müstəqillik illəri poeziyasının mövzu dairəsini, ideya istiqamətlərini göstərmək;

- Müstəqillik illəri şeirində həyat gerçəkliyinin necə əks olunduğunu araşdırmaq;

- Poemaların mövzu dairəsi və işlənmə istiqamətlərini əks etdirmək;

- Müstəqillik illərində qələmə alınmış poemaların Sovet dönəmində yazılmış poemalarla oxşar və fərqli cəhətlərini açmaq;

- Müharibə mövzusunda olan poemalarda insan faktorunun necə əks olunduğunu önə çıxartmaq;

- Fəlsəfi yüklü şeirləri təhlil etmək; poeziyada həyatın fəlsəfi anlamını, onun çalarlarının necə işlənməsini, başqa sözlə, şeirlərdəki fəlsəfi yükü izləmək, aşkara çıxartmaq;

-Məhəbbət – mənəvi azadlığın aspektlərini araşdırmaq;

- Təbiət şeirlərində Vətənin bütöv obrazının necə yaranmasını, Vətən təbiətinin necə təsvir, tərənnüm edildiyini, onun necə insanilәşdiyini tədqiq etmək;

**Tədqiqatın predmeti və obyekti.** Tədqiqatın əsas predmeti Müstəqillik uğrunda gedən mübarizə illərində və Müstəqillik, Azadlıq qazanıldıqdan sonra yaranmış şeir, poema mətnləridir. Yəni Qabilin, Sabir Rüstəmxanlının, Nurəngiz Günün, Əbülfət Mədətoğlunun, Elçin İsgəndərzadənin şeir və poemalarından, Gülxani Pənahın isə Qarabağ mövzusunda yazdığı şeirlərdən istifadə edilmişdir. Bu mətnlərdə mövzuların necə əks olunması izlənmiş, araşdırılmışdır. Həmçinin, 90-cı illərdə və sonrakı dönəmlərdə ədəbiyyatın qarşısına qoyulmuş problemlərin necə işlənməsi, yazılması da tədqiqatın obyekti kimi təhlilə cəlb edilir.

Tədqiqat zamanı mövzu ilə bağlı elmi araşdırmalardan, elmi mənbələrdən: monoqrafiya, məqalə, resenziya, müsahibə və digər bədii mətnlərdən, yəni təhlil üçün seçdiyimiz mətnlərə həsr olunmuş şeirlərdən də istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar**

- Müstəqillik dövrü şeirinin ədəbiyyatımızda yeri, mövqeyi və əhəmiyyəti;
- Müstəqillik dövrü şerinin spesifik xüsusiyyətləri;
- Sosial-siyasi hadisələrin müstəqillik dövrü şeirində əks etdirilməsi;
- Qarabağ mövzusunda yazılmış poetik nümunələrin vətənpərvərlik duyğularının yüksək olması baxımından əhəmiyyəti;
- Sovet dönəmi şeiri ilə Müstəqillik dövrü şeirinin oxşar və fərqli cəhətləri;
- Fəlsəfi şeirlərin mahiyyəti;
- Lirik şeirlərdə mənəvi azadlığın tərənnümü;
- Təbiət şeirlərində Vətən obrazının önə çıxarılması gerçəkliyi.

**Tədqiqatın elmi yeniliyi.** Müstəqillik dövrü Azərbaycan şeirində gerçəkliyin əks etdirilməsi ilk dəfədir tədqiq olunur. Dissertasiyada müxtəlif ədəbi nəsillərə mənsub olan şairlərin poeziyasının bir arada müqayisəli təhlili də ilk dəfədir.Yəni 40-50-ci illər ədəbi nəslindən Qabil, 70-ci illər ədəbi nəslindən Sabir Rüstəmxanlı, 80-cilərdən Nurəngiz Gün, Əbülfət Mədətoğlu, 90-cılardan Elçin İsgəndərzadə yaradıcılığı bir arada götürülüb və müqayisəli təhlilə cəlb edilib.

Dissertasiya işinin elmi yeniliyini belə xarakterizə etmək olar:

- Dövrün özünün yeniliyi və bu yeni dövrün yeni poetik tutumla əsərlərinin ədəbiyyatşünaslığa gətirilməsi;

- Sabir Rüstəmxanlının bu dönəmdə yazdığı “Orxanla görüş”, “Atəş böcəyi” və “Qarabağa dönüş” poemalarının ilk dəfə olaraq elmi şəkildə işıqlandırılması; Həmçinin şairin sovet dönəmində yazdığı poemalara bu günün gözü ilə yenidən baxılması və ardıcılıqla izlənməsi, təhlili, müqayisəsi.

- Nurəngiz Günün yeddi poemasının ilk dəfə elmi-sistemli şəkildə təhlili və onların bir-biri ilə mövzu baxımından, dövr baxımından müqayisəsi;

- Qabilin şeir - poemalarının mövzular və dövrlər üzrə ardıcıllıqla araşdırılması, təhlili və elmə gətirilməsi;

- Tədqiq etdiyimiz mətnlərdə insan konsepsiyası;

- Həyat gerçəkliyini əks etdirmək baxımından bu müəlliflərin poeziyasının müqayisəli təhlili və həlli;

- Bu müəlliflərin poeziyasında dost, qardaş və bizə yaxın ölkələrin tarixi və xalqlarının təsvir, tərənnümünün də təhlili baxımdan yeniliyi və araşdırılması.

- Məhəbbət və təbiət şeirlərindəki özəllikləri aşkara çıxartmaq.

**Tədqiqat metodları.** Dissertasiya işində mövzu ilə bağlı ədəbi, bədii və tarixi materialların araşdırılması və təhlili zamanı tarixi-müqayisəli, analtik tipoloji, ideya-bədii təhlil üsulu əsas götürülmüş, tarixilik və müasirlik, zaman və məkan prinsiplərinə əməl edilmişdir. Eyni zamanda, dissertasiyada mövzuya uyğun olaraq mövcud filoloji fikrin nəzəri-elmi nailiyyət və prinsiplərinə, bu sahədə ədəbiyyatşünaslığın əldə etdiyi zəngin təcrübəyə istinad edilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya nəzəri baxımdan Müstəqillik dövrü poeziyasını öyrənmək üçün zəngin məxəz kimi dəyərləndirilə bilər. Bu mövzuda yazılacaq gələcək tədqiqatlarda ilk elmi mənbə kimi müraciət oluna bilər. Azərbaycan ədəbiyyatı fənninin tədris proqramları, metodik vəsaitlərin hazırlanması zamanı istifadə edilə bilər.

Praktik baxımından ali, orta ixtisas məktəblərində müasir poeziyanın tədrisi zamanı əlavə vəsait kimi, həmçinin mövzunun dərinləşdirilməsi cəhətdən də istifadəsi mümkündür. Magistirlər, dissertantlar, doktorantlar da istifadə edə bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Müstəqillik dövrü Azərbaycan Ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir.Tədqiqat işinin ayrı-ayrı fəsilləri müxtəlif vaxtlarda və bütövlükdə bu şöbədə müzakirə olunmuşdur.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas nəticələri müəllifin iki monoqrafiyasında, beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan dövri elmi nəşrlərdə, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi dərgilərdə, jurnal - məcmuələrdə, ölkə daxilində və xaricdə keçirilən beynəlxalq elmi konfranslardakı məruzə və çıxışlarında öz əksini tapmışdır.

**İşin strukturu və həcmi.** Dissertasiya giriş, dörd fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatdan ibarətdir. Dissertasiyanın hər bir fəsli müvafiq paraqraflara bölünmüşdür. Giriş - 31119 işarə, I Fəsil -103562 işarə, II Fəsil -100376 işarə,

III Fəsil -83548 işarə, IV Fəsil – 81412 işarə, Nəticə - 11007 işarədən ibarətdir.

Dissertasiya işinin ümumi həcmi – 411024 işarədən ibarətdir.

# I FƏSİL
# MÜSTƏQİLLİK UĞRUNDA MÜBARİZƏNİN POETİK TƏCƏSSÜMÜ

## 1. 1. Milli azadlıq hərəkatı və şeirimiz

Azərbaycan Respublikasında 1988-ci ildən başlayan Müstəqillik uğrunda mübarizə genişlənməkdə idi. Artıq SSRİ imperiyasının da süqutuna, çökməsinə az qalırdı. Odur ki, ölkə daxilində meydan hərəkatına daha çox önəm verilirdi. Bu növ hərəkatda iştirak edənlər SSRİ-nin dağılması fonunda yeni, Müstəqil Respublika qurmaq məsələlərini müzakirə edirdilər. Bu ictimai-siyasi hərəkatda bütün ədəbi nəsillərdən olan yazarlar da fəal iştirak edirdi. Onlar həm publisist yazıları, həm də poetik sözləri ilə öndə idilər. Xalq söz adamlarına daha çox inanır, onlara etibar edirdi və öz yazarlarının – şairlərinin yanında idi. İctimai-siyasi hadisələrin gedişini, baş verən olayların ciddiliyini və yeni tarixi dövrün başlandığını yalnız söz adamları xalqın öz dilində, sadə formada yazıb onlara çatdıra bilirdi. Hadisələrin çox surətlə və bir-birinin ardınca baş verməsi, SSRİ-nin də surətlə dağılması, ayrı-ayrı müstəqil dövlətlərin yaranması, sərhəd məsələləri, bunların fonunda münaqişə ocaqlarının yaranması, və s. təbii ki, böyük əsərlərin yaranması üçün zəmin yaratmırdı, çünki bu dövrü əks etdirəcək əsərlərin tez, vaxtında yazılıb xalqa çatdırılması üçün zaman özü yetmirdi. Demək, indi həm publisistikanın, həm də şeirin təsir qüvvəsindən yetərincə istifadə etmək gərək idi. Odur ki, bu zaman kəsiyində, yəni 1988-ci il – 1995-ci illər arası və sonrakı bir neçə ildə ədəbiyyatda aparıcı qüvvə şeir və bədii publisistikanın üzərinə düşürdü.

Ümumiyyətlə, bütün tarixi dönəmlərdə, yəni müharibələr, inqilablar, üsyanlar, münaqişələr zamanında kiçik ölçülü əsərlərə ehtiyac daha böyük olub. Dərhal yazılsın və xalqa tez çatdırılsın. Akademik Bəkir Nəbiyev özünün "Poeziya və zaman" əsərində yazır ki: "Xalq hərəkatının təlatümlü çağlarında, ictimai-siyasi

təbəddülatlar və keçid məqamlarında bədii yaradıcılığın ayrı-ayrı sahələrinin fəallıq göstəricisi eyni olmur. 40-cı illərin Böyük Vətən Müharibəsinin təcrübəsi göstərdi ki, belə hallarda, məsələn, povestlər, romanlar, epopeyalar yox, publisistika, lirika daha fəal olur və təkcə baş verən hadisələri əks etdirməklə qalmayıb onlara təsir göstərmək imkanlarını da gerçəkləşdirə bilir" [168, s.109]. Daha sonra akademik göstərir ki, "Əsrimizin sonlarına doğru 80-cı illərin axırlarında və 90-cı illərin birinci yarısında da vəziyyət təxminən belə olmuşdur... xüsusən poeziya azadlıq, milli müstəqillik uğrunda çarpışma illərində ən çevik, ən fəal janr kimi ön cərgəyə çıxmışdı" [168, s. 109].

Çox zəngin və tarixi ənənələrə malik olan, həyat həqiqətlərini, gerçəkliyi özündə əks etdirən Azərbaycan şeiri bu dönəmdə də həm ideya, məzmun cəhətdən, həm vətənpərvərlik, insanpərvərlik, yurdsevərlik baxımından öz bədii siqlətini qoruyub saxlamaqla mükəmməl bir janr kimi xeyli püxtələşmişdir. Onun qarşısında duran əsas məqsədlərdən biri - yəni həyat gerçəkliyinin əksi problemi layiqincə həll edilməkdə idi. Demək, bu dönəmdə müstəqil ölkənin müstəqil insanı, onun mübarizəsi, bəşəri duyğuları, məhəbbəti və s. müasir şeirin əsas ana xəttini təşkil edirdi. Təsadüfi deyil ki, akademik Bəkir Nəbiyev poeziyadan bəhs edərkən daha sonra yazırdı: "Azərbaycan şeiri yaxşı gündə də, yaman gündə də həmişə xalqın könül sirdaşı olmuş, onun fikir və duyğularının, arzu və istəklərinin tərcümanı kimi tanınmışdı" [167, s. 33].

Müstəqillik uğrunda mübarizə illərində bütün həyat gerçəkliklərini - yəni, xalqın həyatını, onun ağrı-acılarını, verdiyi qurbanlarını, eyni zamanda, qəhrəmanlıq duyğularını, zamanın diktə etdiyi xüsusi mövzuları işləmək, əks etdirmək nöqteyi - nəzərindən Azərbaycan şeiri böyük, danılmaz xidmətlər göstərmişdir. Bu şeirləri yaradan şairlər də kifayət qədər formalaşmış və bir "orduya" çevrilmişdilər. Bütün ədəbi nəsillərdən olan yazarlar sözün həm həqiqi, həm də məcazi mənasında basılmaz, əzilməz, sınmaz bir ordu idi! Onlar bir yerdə, bir arada qələm çalırdılar. Xalq şairlərindən Bəxtiyar Vahabzadə, Qabil, Xəlil Rza Ulutürk, Məmməd Araz, Nəriman Həsənzadə, Mirvarid Dilbazi, Fikrət Qoca, Zəlimxan Yaqub, Nəbi Xəzri, Sabir Rüstəmxanlı, Balaş Azəroğlu, Söhrab Tahir, Hökumə Billuri və şairlərdən

Nurəngiz Gün, Famil Mehdi, Hüseyin Kürdoğlu və onlarca gənc şairlər - yəni 80 - 90 -cı illərdə ədəbiyyata gələnlər Ələmdar Quluzadə, Əbülfət Mədətoğlu, Elçin İsgəndərzadə və b. Vətənin müstəqilliyi üçün gedən mübarizəni əks etdirmək baxımından yetərincə ədəbi nümunələr yaratmışlar.

Ədəbi mənzərəyə nəzər salsaq "ordu"nun önündə gedənlərin bu dövrdə yazdığı onlarca məşhur əsərlərini incələmiş olarıq. Bəxtiyar Vahabzadənin "Şəhidlər", Ələmdar Quluzadənin "Şəhid şəhər", Zəlimxan Yaqubun "O qızın göz yaşları", Nəbi Xəzrinin "Salatın", Mirvarid Dilbazinin "Qanlı yanvar", "Qızıl ordu-Ana fəryadı", Hüseyn Arifin "Ülvi", Nurəngiz Günün "Xocalı simfoniyası", Adil Cəmilin "Qan borcu", Əbülfət İslamın "Şəhid sevgilər", Abdulla Qurbaninin "Koroğlunun Ağdərə səfəri", Fikrət Qocanın "Şəhidlər xiyabanı" poemaları, Məmməd Arazın "Ayağa dur, Azərbaycan", Xəlil Rza Ulutürkün "Azadlıq", "Davam edir 37", Məmməd Aslanın "Ağla, qərənfil, ağla", Qabilin "Mərsiyyə", "Bayrağım", "Vətən", Məmməd İsmayılın "Bu qan yerdə qalan deyil" şeirləri hadisələrin içindən boy verən, dərhal yazılan, ədəbi ictimaətin, xalqın diqqətini çəkən nümunələrdir. Tədqiqatlar göstərir ki, ilk günlərdə ən real, həyat həqiqətlərini, gerçəkliyi olduğu kimi özündə əks etdirən əsərlərin müəllifləri hadisələri öz gözləri ilə görən, həmin ərazidə doğulan və ya yaşayan şairlər olub. Məsələn, Xocalı faciəsindən bəhs edən "Şəhid şəhər"[112] poemasının müəllifi Ələmdar Quluzadə Xocalıda doğulub, böyüyüb. Qarabağ hadisələri başlayanda Xankəndində işləyirdi. Xocalıda yaşayan atası isə bu faciədə güllələnib qətlə yetirilmişdir. Əsər haqqında Xalq şairi Nəriman Həsənzadə yazır: "Şəhid şəhər" poeması ədəbi hadisədir. Şəhid olmuş şəhərin bu şahid fəryadı yurd-yuvaya, el-obaya sonsuz sədaqət hissi ilə dolu övlad məhəbbəti, əsrimizin bütöv bir mərhələsidir". [112, s. 3] Əsər qəzəblə, haqlı olaraq, ittihamla yazılıb:

Oyan, Vətən, oyan, başçı!
Sellər, sular bəndi aşır!
Bir qara yel addım-addım
Xocalıya yaxınlaşır! [112, s. 14]

"Od içində qovrulan bir şair ürəyinin qanıyla naxışlanan… bu əsər başdan-başa özünü, müasirlərini ittihamıdır, gələcəyə müraciətidir" [112, s. 3]. Bununla belə poema nikbin sonluqla bitir:

Tanrı sınağıdır, Tanrı gecəsi,

Doğulan hər kəsin bir yas günü var!

Torpağın başında yurd faciəsi,

Vətənin, Millətin qisas günü var!!! [112, s. 67]

Öz xalqını, millətini yaxşı tanıyan şairin əvvəlcədən dediyi o qisas günü otuz ildən sonra yetişdi.

Bəxtiyar Vahabzadənin "Şəhidlər", Məmməd Aslanın "Ağla, qərənfil, ağla" kimi əsərləri 20 Yanvar faciəsi günlərini əks etdirir. Deməк, Müstəqilliyə gedən yolda baş verən hadisə - faciələrdə hər şair öz gördüyünü poetikləşdirib və xalqına çatdırıb. Başqa cür olsaydı real həyat gerşəkliyinin şeirdə əksi bu qədər təbii, həyati ola bilməzdi. 20 Yanvar faciəsinin şahidi Bəxtiyar Vahabzadə "Şəhidlər" poemasında yazır: "Üç rəngli bayrağı öz qanlarıyla // Vətən torpağına çəkdi Şəhidlər!" Məmməd Aslan isə "Ağla, qərənfil, ağla" şeirində yazırdı:

Cavanlara qıydılar,

Tanklar altda qoydular,

Qanın içib doydular,

Ağla, qərənfil ağla!

Xeyrə şər üstün gəldi,

İniltili ün gəldi….

Ağlamalı gün gəldi…

Ağla, qərənfil, ağla! [5, s. 4]

20 Yanvar faciəsində şəhidlərə, onların qəhrəmanlığına həsr olunmuş şeir-poemalarda bir Qərənfil obrazı da yaradılmışdır. Həmişə sevgililərin gülü olmuş qərənfil indi şəhid məzarlarını bəzəyirdi. Bu da yazarların diqqətindən yayınmamışdır və yetərincə ona şeirlər-ağılar yazılmışdır.

Xocalı soyqırımından sonra xalqın, millətin içində bir ruh düşgünlüyü yaranmışdı. Öz xalqını qoruya bilməyən, bu müharibədə, silahlı düşmənin qarşısında ordusunu saxlaya bilməyən dövlətə qarşı inamsızlıq, itaətsizlik vardı. Hər kəs işğal edilmiş Vətən dərdini, yurd acısını, ağrısını ürəyində çəkirdi. Nisbi sakitlik idi. Bütün sahələrdə bir susqunluq, sükut hökm sürürdü. Sanki hər kəs bu işğalla, erməni vəhşiliyi ilə barışmışdı. Belə bir dönəmdə Məmməd Arazın məşhur "Ayağa dur, Azərbaycan!" şeiri yarandı. Bu, şeirdən çox bir vətəndaş şairin haykırtısı, harayı idi. Şeir dərhal mətbuatda, xalq içində geniş yayıldı, teleradiolarda səslənməyə başladı:

Nə yatmısan, qoca vulkan, səninləyəm!

Ayağa dur, Azərbaycan, səninləyəm!

Gözünü sil, Vətən oğlu, ayağa qalx!

Dur, içindən qorxunu boğ,

Dur içindən qorxağı qov,

Dur özünü Bozqurd elə! [ 289]

Şeir, doğurdan da, Bozqurdları silkələyib, ayıltmışdı. Çünki hər kəs bu şeiri əzbər bilirdi və hansı millətin övladı olduqlarını unutmağa qoymurdu.

Xəlil Rza Ulutürkün "Vur", "Azərbaycan", "Türkəm", "Azadlıq". "Davam edir 37" kimi şeirləri də bu dönəmin məhsuludur, əks-sədasıdır,-desək, səhv etmərik. Müstəqillik uğrunda gedən mübarizədə Azadlıq, Müstəqillik şüarları Xəlil Rzanın məşhur "Azadlıq" şeiri ilə həmahəng səslənirdi. Dövrün ab-havasına köklənmiş hər poetik söz, hər misra böyük ruh yüksəkliyi, Vətənpərvərlik hissinin güclənməsi demək idi:

Azadlıq istəmirəm

Zərrə-zərrə, qram-qram,

Qolumdakı zəncirləri

Qram gərək, qram, qram!!!

Çəkil-çəkil, ey qəsbkar,

Mən bu yurdun gur səsiyəm!

Gərək deyil sızqa bulaq,

Mən ümmanlar təşnəsiyəm! [289]

Müstəqillik uğrunda mübarizə illərinin ilk günlərindən başlayaraq bu günlərə qədər şeir-poemaların baş mövzusu, başlıca mövzusu Vətənpərvərliyi əks etdirən 20 Yanvar faciəsi, Qarabağ hadisələridir. Birinci, İkinci Qarabağ müharibəsi, ictimai-siyasi hadisələr fonunda Azad Vətənin tərənnümü poetik yaradıcılıqda əsas yer tuturdu.

Beləliklə, biz bu tədqiqat işində böyük ədəbi ordu içərisindən seçib götürdüyümüz şairlərdən Qabil, Nurəngiz Gün, Sabir Rüstəmxanlı, Əbülfət Mədətoğlu və Elçin İsgəndərzadənin poeziyası əsasında həyat gerçəkliyinin necə əks olunması problemini təhlil, tədqiq etməyə çalışmışıq. Həmçinin müqayisə üçün 80-ci illər ədəbi nəslinin nümayəndəsi Gülxani Pənahın yalnız Qarabağ mözusunda yazdığı poetik nümunələri də şərh etmişik.

Keçən əsrin 40 - cı illərinin ikinci yarısı və 50-ci illərin ədəbi nəslinə mənsub Xalq şairi, Əməkdar İncəsənət xadimi, Şöhrət ordenli, Respublika Dövlət mükafatı lauratı **Qabil İmamverdiyevin** poeziyasında Müstəqillik, Milli azadlıq uğrunda mübarizənin əksi xüsusi önəm daşıyır. O, yaradıcılığı boyu vətənpərvərlik duyğularını əks etdirən bənzərsiz sənət əsərləri yaratmışdır. Ömrünün və yaradıcılığının son iyirmi ili Müstəqillik uğrunda mübarizə dövrünə və Müstəqillik illərinə düşən şairin bu mövzuda yazdığı yetərincə poetik nümunələri əbədi yaşarlıq qazanmışdır. SSRİ-nin çökdüyünü, dağıldığını və dağılarkən törətdiyi qırğınların

şahidi olan şair gördüklərini öz poetik təfəkkürünün süzgəcindən keçirərək böyük ədəbiyyata vaxtında və layiqincə gətirə bilmişdir. Xalq dəyərlərini yüksək tutan, onu qiymətləndirməyi bacaran Qabil kimi ziyalılara, bu zaman kəsiyində çox böyük ehtiyac vardı. Ədəbiyyatımızda da öz yeri, öz mövqeyi, özünəməxsus ifadə tərzi olan Qabilin Milli azadlıq uğrunda mübarizəni əks etdirən poetik nümunələri vətənpərvərlik duyğularının məcmusudur, - desək, yanılmarıq.

Qabilin ilk şeiri 1944- cü ildə dərc olunub, "Gəl baharım" adlanır. "Səhər açılır" adlı ilk kitabı isə 1950 ci ildə çap edilib. Hər iki addan göründüyü kimi şairin ilk qələm təcrübələri təbiətin tərənnümünə həsr olunub. Lakin sonrakı kitabında, yəni 1955-ci ildə "Azərnəşr"də çap olunan "Sahil işıqları" kitabının "Stalinqrad şeirləri" adlı birinci bölümü bütövlükdə müharibə və sülh, məğlubiyyət və qələbəyə həsr edilib. Kitabda gənc şairin vətənpərvərlik duyğularını əks etdirən orjinal misraları var:

Əyilməsin deyə Vətənim yada,
Tutdum zəhmətimlə onun əlindən!

İlk əsərlərindən Vətənini, onun təbiətini, zəhmətkeş insanlarını sevən, səmimi, həssas bir şairin yetişdiyini görürük.

XX əsrin 80-ci illərinin sonundan başlayaraq xalqımızın Azadlıq, Müstəqillik uğrunda mübarizəsində şair həm poetik əsərləri ilə, həm də xalq qarşısında fəal çıxışları ilə iştirak etmişdir.

"... Xalqımız Qabil müəllimi ilk növbədə, özünün şair oğlu kimi uca tutur, qiymətləndirir. Onun şairliyi isə taleyin bəxşeyişidir və belə bəxşeyiş hər qələm sahibinə qismət olmur" [177, s. 420]. Xalq şairi Cabir Novruz Qabil haqqında daha sonra deyir ki, "...onun yaradıcılığı haqqında dəyərli fikirlər söyləyiblər. Mən də deyilənlərə qoşuluram".

Qabilin Müstəqillik illərində qələmə aldığı əsərlərini mövzusuna görə iki yerə bölmək olar:

1. Sırf Müstəqilliyi təsvir, tərənnüm edən əsərləri. Yəni "Müstəqillik", "Bayrağımız", "Vətən", "Mərsiyyə", "Qərənfillərdən uzaq" kimi şeirlər.

2. Bir də sovet dönəmində yazılması mümkün olmayan fakt və hadisələrin

Müstəqillik dövründə ədəbiyyata gətirib təsvir edən şeirləri. Məsələn, "Sümüklər", "Təndir", "Otuz yeddidə", "Türkün qəbri" və s.

Qabilin "Vətən" adlı bir neçə şeiri var. Bu şeirlərin hər birində əsl vətəndaş ürəyi döyünür. Şair göstərir ki, hər kəs bir - birindən küsüb, inciyə bilər. Lakin Vətəndən küsəni, bezəni görmədim. Dünyada qiyamət ölkələr çoxdur. Lakin müqəddəs vətəndən yoxdur:

Torpaqdan, atəşdən, sudan,
Bir də ki, çörəkdən bezəni göstər!
Bir də ki, anadan, ana dilindən,
Vətəndən aralı gəzəni göstər! [ 96, s. 75]

Başqa bir "Vətən" şerində isə şair belə yazır: "Bu yerdədir rişələrim, köklərim,// Ulu babam bu torpaqda uyuyur,// Vətən mənim al şəfəqli səhərim,// Onsuz günəş gözlərimdə soyuyur,// Vətənsizin nə günəşi, nə ayı? // Vətən yoxsa – hər şey hədər, havayı..." [96, s. 27]

Nəzərə alsaq ki, bu zaman kəsiyində, yəni Vətənin Azadlığına, Birliyinə, Bütövlüyünə qəsd olunduğu bir dönəmdə xalqımızın vətənpərvərlik duyğuları, hissləri ən yüksək nöqtəsinə çatmışdı, bu cür şeirlərin dərhal yazılması və xalq qarşısında oxunmasının necə böyük əhəmiyyəti olduğu aydın olar.

Şairin poeziyasında belə vətənpərvərlik duyğularının əks etdirilməsi, sənətkar xarakterinin bütövlüyü, şəxsiyyətin kamilliyi, zövq və dünyagörüşünün yetkinliyi özünü, göründüyü kimi, daha çox büruzə verirdi. Bu mənada onun "Bayrağımız", "Müstəqillik", kimi şeirləri şair qəlbinin səmimi duyğuları, arzularıdır:

Bir gün haqdan yanan çıraq,
Nahaqdan da sönə bilər.
Bir dəfə yüksələn bayraq,
Nahaqdan da enə bilər... [96, s. 308 ]

Şair dünyanın ədalətsizliklərlə, haqsızlıqlarla dolu olduğunu bildiyi, gördüyü üçün Müstəqil dövlətimizin banilərindən biri M. Ə. Rəsulzadənin məşhur "Bir dəfə yüksələn bayraq, bir daha enməz!" şüarına burda səmimi şəkildə cavab verir. Haqdan yanan çırağı nahaqdan söndürənlər də var. Eləcə də xalqın öz gücünə, qanı bahasına

qaldırdığı bayrağı da endirmək istəyənlər az deyil. Odur ki, şair bir daha üzünü xalqına tutaraq vurğulayır:

Bayrağımız qoy qalmasın,
Boş – boş şüar ümidinə.
Enən deyil, əgər qalsa,
Qeyrət, vüqar ümidinə! [96, s. 308]

“Qabil yaradıcılığı günümüzün mənəvi əzabları, könül çırpıntıları, ürək döyüntüləri ilə bağlıdır. Şairin bənzərsiz dünyası var. Çətinliklərdən sarsılmayan, ədalətsizliklərlə barışmayan Qabil dünyası...” [153, s. 440].

Müstəqillik dövründə baş verən bütün hadisələr Qabil yaradıcılığında öz bədii ifadəsini, bədii həllini, inikasını tapmışdır. Aydın və qətiyyətlə yazılmış bu əsərlərdə şairin şəxsi inamı güclü, dönməz və sarsılmazdır. “Şair var ki, sənətkar xarekterinin bütövlüyü, şəxsiyyətin kamilliyi, zövq və dünyagörüşünün yetkinliyi yaradıcılığında, vətəndaş ləyaqətinin müəyyənləşməsində həmişə həlledici amillərdən biri olur. Qabilin yaradıcılığında olduğu kimi ” [153, s. 440].

Qabil mübariz şairdir. Milli varlıqla xalq həyatına bağlılıq onu mübariz şeirlər yazmağa vadar etmişdir. “Qabil poeziyası xalqın ruhundan, varlığından, zəngin tarixindən qopub gələn mövzuların canlı, dolğun poetik ifadəsidir... Qabildə Nəsimidən, Füzulidən, Vahiddən, müasiri olduğu böyük ədəbiyyatımızın neçə-neçə ölümsüz yaradıcılarından nəsə bir məziyyət duymaq mümkündür.” [221, s. 482] Şairin “Müstəqillik” şerində real tarixi faktlar yer alıb. Məlumdur ki, 1988-1990-cı illərdə meydan hərəkatında xalq hər yerdən Leninin heykəlin götürürdü. Daha sonra Bakının Dağüstü parkında ucalan S. M. Kirovun heykəli də götürüldü, ulu Gəncəyə verilmiş Kirov adı da ləğv edildi. Bu hadisələrin şahidi olan şair öz şeirində həmin anları belə təsvir edir:

Sən toxuna bilərdin
Leninin heykəlinə?
Moskva dağ basardı
Xalqımızın əlinə!

Deyən şair daha sonra vəziyyəti belə izah edir:

Qırmızı zəncirləri
Qırmızı özü qırdı.
Müstəqilliyi bizə
Tarixin özü verdi!      [ 96, s. 309]

Təbii ki, burada şair yetişmiş tarixi şəraiti nəzərdə tutur. Bu andan istifadə edən xalq, millət də öz sözünü vaxtında və yerində deyə bildi. Nəticədə Müstəqilliyimiz bərpa olundu.

1990-cı ilin 20 yanvarında Qızıl Ordunun Bakını güllləbaran etməsi görünməmiş bir hadisə idi. Şair bu Qanlı Şənbə gecəsini əks etdirən ilk "Mərsiyyə"sini yazdı. Əsər tək Qabil yaradıcılığında deyil, həm də müasir poeziyamızda yeni idi. Bakıda doğulan ( 12 avqust 1926 cı il ) şair bu şeir formasını hələ ilk gəncliyində Bakı kəndlərində keçirilən mərsiyyə gecələrindən öyrənmişdi. Əruzu yaxşı mənimsəmişdi. Odur ki, bu dönəmdə formaca ənənəvi, lakin məzmunca yeni bir əsəri araya - ərsəyə gətirə bilmişdir. Sələflərinin mərsiyyələri ilə səsləşən bu əsər, həm də Qabilin öz fikir tutumu ilə zənginləşmiş, püxtələşmiş, cilalanmışdır:

Gecəni ataş ilə qırmızı dan eylədilər,
Xalqımı, millətimi güllləbaran eylədilər... [96, s. 93 ]

Əruz vəznində yazılmış bu poetik parçada şair öz sözünü çox cəsarətlə və birbaşa söyləmişdir:

Ey vətən oğlu, vətən övladı, sil göz yaşını!
Qan haçan yerdə qalıb, təzələ öz yaddaşını!
Çox görüb, Qabil, Azərbaycanım işğal qoşunu,
Görməyib ancaq hələ böylə cinayət işini...
Yazmışıq təqvimə qan ilə bu yanvar qışını... [96, s. 94]

Tarixən Bakının küçə, meydanlarında öz qanına qəltan olan yadellilər çox olub. Düzdür, bir dövlətin təəbəliyində olan öz vətəndaşlarına qarşı bu cür görünməmiş cinayət, xəyanət olmayıb. Lakin bu da keçər, çünki Azadlıq, Müstəqillik qurbansız olmur...

Ulu Öndər Heydər Əliyev şairin 1996-cı il yanvarın 7-də keçirilmiş 70 illik

yubleyində onu təbrik edərkən bu şeirə də toxunaraq demişdir: "Yubiley gecəsində çıxış edənlərdən biri dedi ki, Qabil siyasətlə məşğul olmayıbdır. Bu fikir doğru deyil, Qabilin həmin yanvar faciəsinə həsr etdiyi şeirin özü siyasətdir... Ona görə də Qabilin həm fəaliyyəti, həm də yaradıcılığı, şeiri böyük mənəviyyat kəsb edir, yenə də deyirəm, onun vətəndaşlıq mövqeyini əks etdirir və siyasi xarakter daşıyır" [38, s. 437].

Şair "Mərsiyyə"nin hər misrasında, hər bəndində real həyat həqiqətini bir rəssam fırçasıtək canlı, obrazlı, təbii boyalarla əks etdirib. "Ədəbiyyatımızın çox zəngin janrlarından olan mərsiyyənin tarixində bəlkə də ilk dəfə idi ki, cəlladımızın öz padşahmız (yəni Qarbaçov ) olması dilə gətirilir, günahsız həmvətənlərimizin kütləvi qırğınını təşkil edib, bu faciəni imperiyada yaşayan başqa millətlərə "nümunə" göstərənlərə sonsuz "ümumxalq nifrəti" elan olunurdu" [170, s. 343].

Qabilin hər bir əsəri tarixi fakta, real həyat həqiqətinə söykənir, həyat gerçəkliyini əks etdirir. Bu da, heç şübhəsiz, onun müşahidə qabiliyyətinin dəqiq və güclü olduğundan, mənəviyyatının zənginliyindən xəbər verir. Hər bir şeirin öz tərcümeyi-halı var. Şair gördüyü, duyduğu hadisələri, poetik şəkildə, ideal formada, layiqincə öz oxucusuna çatdıra bilir. "O gün qərənfil rəngli, ana ağısı ahəngli, göz yaşları ilə sulanmış, qanla boyanmış Bakı misralandı, neçə - neçə şeir, poema yarandı, amma Qabilin bu mərsiyyəsini ötən olmadı" [76, s. 130].

Hadisələr dövründə Bakıda dərsdən gələn məktəbli qız da gülləbaranın qurbanı olmuşdu. Onun kitab - dəftərini, çantasını, kuklasını da qəbri üstünə yığmışdılar. Yenicə toyları olmuş gənc ailə - İlham və Fərizə də bu faciənin qurbanı idi. Onların toy şəkilləri qəbir üstündə baş daşını əvəz edirdi. Şair Şəhidlər Xiyabanında sıralanmış bu qəbirləri belə təsvir edir:

Qəbrin üstündə heç çanta olar kukla ilə?
Ağ gəlinlik fatası... Qırmızı – ağ lenta ilə ?
Bəs Kremilin fərqi nədir Xunta ilə ?..          [96, s. 93 ]

Qabil vətəndaş şair idi. O, şeirlərini yazdığı mürəkkəb, keşməkeşli, ağır zamanın ruhuna uyğun olaraq qələmə alırdı. Şairi "Şöhrət" ordeni ilə təltif edərkən Heydər Əliyev belə demişdi: "Qabilin yubiley gecəsinin məhz yanvar ayında olması bir də

ona görə yerinə düşdü ki, burada yubilyarın 20 yanvar faciəsinə həsr olunmuş şeiri dəfələrlə səsləndi, xalqımızın başına gətirilən faciələr, bəlalar yad edildi və Qabilin vətəndaşlıq şücaəti bir daha nəzərə çarpdı" [36, s. 56].

Qabilin məşhur şeirlərindən biri də Qanlı Şənbə gecəsində öz qanlarında boğulan şəhidlərin üstünü xalqın əllərilə bəzəyib örtən qərənfillər haqqındadır. Bu şeir "Qərənfillərdən uzaq" adlanır. Qərənfillər həmişə görüşə gedən, sevən gənclərin sevgi rəmzi olmuşdu. Lakin 20 Yanvar müsibətindən sonra bu güllər məzar çiçəklərinə çevrilmişdi. Bütün bunlardan sonra şair həmvətənlərinə məsləhət verir ki, "Ay toy-nişan edənlər, // ay görüşə gedənlər, // qərənfillərdən uzaq! // Şəhid qəbirlərinin bəzəyidir o ancaq!" [96, s. 116]

Ümumi sözçülükdən qaçan, real təsvirə, təbiiliyə xüsusi önəm verən şair həmişə həyat həqiqətini, gerçəkliyi təbii boyalarla əks etdirməyə çalışıb. Çünki o həm də realist şair idi. Güclü müşahidə qabiliyyəti, yaradıcılıq stixiyası, axtarışları, daima xalqının yanında olması və onların dərdinə şərik çıxması, həmçinin daxili zərurəti imkan verirdi ki, Qabil bu səpkili şeirlərdən yetərincə yaza bilsin.

Qanlı yanvar gecəsi,
O qırğınlar gecəsi,
O ahu-zar gecəsi...
Qanlı yağışa dönüb,
Göydən yağdı qərənfil...
Şəhid qanıyla birgə,
Şəhid qanına dönüb,
Axdı...getdi....qərənfil... [96, s. 116]

Qeyd edək ki, şəhid məzarlarını, Şəhidlər xiyabanını bəzəyən qərənfillər haqqında kifayət qədər poetik əsərlər yazılıb. Qərənfilsiz şəhidlər olmadığı kimi, artıq şəhidsiz də qərəfil çiçəyi yoxdur. Əvvəlcə qeyd etdiyimiz kimi, Vətən, Şəhid, Qəhrəman obrazları ilə yanaşı bu dönəmdə bir Qərənfil obrazı da yaranıb formalaşmışdır.

Qabilin "Sümüklər", "Şahi-şahidan", "Təndir", "Çalsın Azərbaycan haray zəngini" şeirləri də Müstəqillik illərində yazılıb və hər biri real gerçəkliyi əks etdirir.

Bu şeirlərin yazılma tarixi və öz tərcümeyi- halı var.

"Sümüklər" şeirində şair haqlı olaraq göstərir ki, Vətənin hansı hissəsində, bölgəsində torpağı qazsan, ordan mütləq insan sümükləri çıxacaq. "Kəfənsiz, dəfnsiz, adsız sümüklər,// Ünvansız, ocaqsız, odsuz sümüklər,// Səpilib dünyanın hər bucağına..." Vətən uğrunda ölən insanların cəsədləri torpağın altına tökülüb. Onlar dəfn edilməyib, yanlarında məşəl yandırılmayıb. Çoxları "Qumlara, sulara səpilib gedib,// Əlli cür diyara səpilib gedib..."

Qabil bu şeirini Hüseyn Cavidin nəşinin uzaq Sibirdən gətirilib Naxçıvanda dəfn edildiyi dönəmdə yazıb. Şair pərən - pərən düşmüş Vətən övladlarından heç olmasa birinin tapılmasına sevinir. Lakin hələ nə qədər belə övladlar adsız - sansız torpaq altındadır. Dəqiq yeri, ünvanı da bilinmir.

Tayqadan, Sibirdən, Narginə qədər,
Dinlə gör nə deyir adsız sümüklər...
... Uraldan, Pamirdən Murova qədər,
Kəfənsiz, dəfnsiz Məchul sümüklər... [96, s. 160]

"Şahi-Şahidan" şeiri isə Kərbəla müsibətinə, şəhid İmam Hüseynə həsr olunub:

Şəhidlərin şahı İmam Hüseyndir,
Şahi - Şəhidan deyilir adına... [99, s.159]

Şair Kərbəla müsibətini Azərbaycanın 20 Yanvar faciəsi ilə müqayisə edir:

Haqq yolunda kəfən geyib bir ölkə,
Azərbaycan deyilir adına! [99, s.159]

Azərbaycanın İstiqlal uğrunda mübarizə illərində ağır itkiləri, müsibətli günləri çox olub. Yaddaşımızı təzələsək onların bir neçəsinin adını çəkə bilərik. Son yüz ildə baş verənlər: 1918-ci ilin mart soyqırımı, 37-nin vətəndaş qırğını, 1990-cı ilin 20 yanvar qırğını, 1992-ci ilin fevralı Xocalı soyqırımı... Şair bu günlərin hər biri haqqında öz poetik sözünü deyib. Çünki Qabil həm də Vətənini sevən müdrik şair idi.

Şairin Müstəqillik illərində qələmə aldığı şeirlər içərisində "Təndir" xüsusi yer tutur. Akademik Ziya Bünyadova həsr etdiyi bu şeirində Qabil divarlarında tikanlar, kollar bitmiş, üzü - çölü yaşlı adamların üzü - sifəti kimi qırış - qırış olmuş

bir təndirdən danışır. Bu təndir 37-dən qalıb. 1937-1938 - ci illərdə baş verən hadisələrin şahidi, həm də şəhidi olub. Şairin gözündə və təsvirində bu təndir sanki qəbir daşlarından hörülüb. Təndir cəza evindən çıxmış müqəssirə də bənzəyir. Beli bükülüb, rəngi qaralıb. Kül olub gedənləri, şil olub qalanları da xatırladır. Çünki bu təndir 37-dən çıxıb:

Otuz yeddidə təndir
Odunla qalanmadı...
... Əqlin, fikrin, zəkanın
Barıyla yandı təndir... [96, s. 83]

Sovet dövləti ərəb əlifbası ilə yazılan bütün kitabları "Qurandır!"- deyib təndirlərdə yandırır, sahibinisə tutub sürgünə göndərirdi. Bunu görən xalqın özü çox vaxt Qurani - Kərimi də, neçə - neçə dühanın, dahinin mənəvi sərvətini, xəzinəsini də bu təndirdə yandırıb məhv eləmişdi:

Quranı yandıranda
Allahın qəzəbindən
Qorxmadı qoca qarı...
Xəyalına gətirdi
Qanlı istintaqları... [96, s. 84]

Şair düşünür ki, günahsız qurbanlardək bu gün qaralan təndir, o vaxt yandırdığı nadir kitabların acı tüstüsünü hələ də özündə saxlayır. Hələ də o yanıq qoxusu, acı tüstü qalmaqdadır. "Üzümüzü qarsıdır istisi indi belə...// Gözümüzü yaşardır tüstüsü indi belə...". Cünki o nadir, gərəkli, tarixi əsərlərin çoxunu biz sonralar da bərpa edib, xalqa qaytara bilmədik.

Tarixdən məlumdur ki, 1937 - 1938- ci illərdə günahsız qurban gedənlər 1953-cü ildə, Stalinin ölümündən sonra bəraət aldılar. "60-cı illərin əvvəlində, Stalin kabusunun dünyanın üstündən götürüldüyü illərdə elə bil əsl söz dərindən nəfəs aldı, elə bil ayağa qalxıb qəddini düzəltdi, elə bil boya - boy, necə var, elə görünməyə başladı" [88, s. 379]. Lakin bu qurbanlar haqqında nədənsə o dönəmdə çox da geniş yazmaq, danışmaq mümkün olmadı. Yalnız Müstəqilliyin ilk illərində Qabil ürəyində yığılıb qalmış o tarixi hadisələri, faciələri poetikləşdirib xalqın ixtiyarına verə bildi.

“Otuz yeddidə” şeirində şair yenə 37 - ci il hadisələrindən bəhs edir. O, göstərir ki, bu illərdə nə qədər ömür yarımçıq qaldı. Çünki üzə duranlar, kəmfürsətlər, satqınlar, naxələflər cəlladlardan çox idi. Şair düşünür ki, görəsən “Otuz yeddidə kəmfürsətim nə qədər, cəlladım nə qədərdi?” Eyni zamanda bu illər insanlığın, mənəviyyatın, kişiliyin, comərdliyin sınaq ili də olub. Hüseyn Cavidlər, Əhməd Cavadlar, Müşfiqlər, Seyid Hüseynlər satqın olmadıqları, kiminsə üzünə durmadıqları üçün məhv ediliblər. Bütün bunlar, təəssüf ki, tarixi faktlardır.

Şair adını həmişə yüksəklərə qaldıran, layiqincə doğruldan Qabil bu illərdə yenə ədəbi prosesin önündə gedirdi. Bu dövrdə yazdığı “Çalsın Azərbaycan haray zəngini” şeiri Qabil yaradıcılığında önəmli yer tutur. Müstəqilliyin ilk illərinin çətinliyi, 20 yanvar faciəsi, Qarabağ müharibəsinin başlanması, təkcə milli deyil, sinfi mübarizənin də önə çıxması, tez - tez baş verən dövlət çevrilişləri xalqın inamını, ümidini qırmışdı, itirmişdi. Millət üzünü həmişə xalqın yanında olan şairlərə, alimlərə tuturdu. Həqiqi, düzgün cavabı onlardan gözləyirdi. Çünki hakimiyyətə gəlib gedənlər, tez-tez yerini, üzünü, sözünü dəyişən siyasətçilər xalqdan uzaq düşmüşdülər. Yalnız hakimiyyət üçün döyüşən, vuruşan “başçılar” başçı, rəhbər ola bilmədilər.

Kəsib qarşımı camaat mənim,
Vəziyyət necədir? - xəbər alırlar...
İsti yay günündə bu saat mənim ,
Elə bil başıma qar ələnir, qar! [96, s. 80]

Şair xalqın inamını qazandığı üçün fəxr eləsə də, əslində nə edəcəyini, nə deyəcəyini də bilmir. Axı o siyasətçi deyildi. Elə bir ixtiyarı, hökmü də yox idi ki, qırğınların, faciələrin qarşısını ala bilsin. Xalqının istəyini yerinə yetirə bilsin. Gücü yalnız sözə çatırdı: “Xalq yaxa axtarır bərk yapışsın, bərk...// Coşur ehtiraslar, vulkana dönür...” Şair bilir ki, xalq hər halı ilə haqlıdır. Odur ki, özü də hayqırır:

Çalsın Azərbaycan haray zəngini,
Harayla hay - küyü qarışdırmayaq!
Boğulmuş görməyək onun rəngini,
Onu itaətlə barışdırmayaq! [96, s. 82]

Şairin verdiyi məsləhət bu idi ki, kimsədən kömək gözləmək olmaz. Xalq öz - özünə arxalanmalı, əzmini - iradəsini toplamalı, əi - əiə verib bir olmalıdır. Çünki "Sarsılmaz qaladır xalqın birliyi, // Birliyimiz olsun rəhbərimiz qoy" !

Qabilin poeziyasında bir saflıq, təmizlik, müqəddəslik də yer alıb. Və o səmimiyyəti, sadəliyi ilə seçilib, fərqlənib. Bu yüksək keyfiyyətlər bir tərəfdən şairin öz xarakterik xüsusiyyətlərindən irəli gəlirsə, digər tərəfdən də özündən əvvəlki ədəbi nəsildən qalan bir müqəddəs irsdir. Çox yaxşı haldır ki, şair bu irsi qoruyaraq özündən sonrakı nəslə yüksək səviyyədə ötürə bilib.

Qabilin Müstəqillik illərində qələmə aldığı məşhur şeirlərindən biri də "Türkün qəbri" adlanır. 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyətini bir dövlət kimi ilk tanıyan Türkiyə olmuşdur. "1918-ci ilin iyunun 4-də Türkiyə ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında Sülh və dostluq haqqında müqavilə imzalandı. Müqavilənin 4-cü bəndinə görə Türkiyə lazım gələrsə gənc dövlətə hərbi yardım göstərəcəyinə də söz vermişdi. Tarixdən məlumdur ki, Sovet - bolşevik dövləti bir az möhkəmlənən kimi keçmiş Çar Rusiyasının ərazilərini bərpa etməyə başladı. O cümlədən Azərbaycan ərazisinə də ordu yeridildi. Bu vaxt Nuru paşanın rəhbərlik etdiyi "İslam ordusu" Gəncədə yerləşən Azərbaycan Xalq Cümhuriyyətinin köməyinə, müdafiəsinə gəldi. Ordu Bakını erməni - bolşevik quruplaşmasından azad etmək üçün 1918-ci il iyunun 20-də Şamaxı – Bakı yolu ilə Bakı üzərinə hücuma keçdi. Bakı azad edildi. Bu döyüşlərdə Türk ordusu 1100 əsgər, 30 zabit qurban vermişdir" [10, s. 20].

Bu qurban əsgərlərdən biri Bakı - Şamaxı yolunun üstündə, Boz dağın ətəyində dəfn edilmişdir. Bu gün həmin yolu keçənlər bu naməlum türk əsgərinin qəbrini mütləq ziyarət edir. Lakin sovet dönəmində, yəni 70 ildə bu qəbir diqqətdən kənarda qalmışdır. Müstəqilliyin ilk illərində bu qəbri xatırladan şair onun yerini də göstərir:

Türkün qəbri
Qədim Şirvan yollarının
Üstündədir.
Azərbaycan torpağının
Altında yox,

Sinəsində,

Köksündədir,

Qollarının üstündədir!  [96,s. 86]

Daha sonra şair yazır: "Mən bu qəbrin dövrəsində yetmiş bir il lal olmuşam, kar olmuşam..// Yetmiş bir il... Bu adicə müddət deyil...// bu əsgərin, bu yavərin şəhid ruhu, şanlı ruhu hüzurunda xəcalətdən xar olmuşam..." Ancaq zaman keçir və münasibətlər dəyişir. Öz kökünə, soyuna, milliliyinə qayıdan xalq bir vaxtlar müqəddəs olan yerləri ziyarətgaha çevirir.

Baxıram riqqətlə türkün qəbrinə,

Dərələr yamyaşıl, göylər bəmbəyaz...

Dövrün gərdişinə, vaxtın səbrinə,

Əyyub peyğəmbərin səbri də çatmaz. [96,s.86]

Şairin sevgi ilə tərənnüm etdiyi səbr nəhayətin böyük sevinci, bir ölkə olaraq Müstəqilliyimizin bərpası demək imiş! Dözüm, səbr məhəngi olan Əyyub peyğəmbərin də səbri çatmayan bu yetmiş illik zamana biz bir xalq olaraq dözüb, dayana bildik və nəhayətdə istədiyimiz, arzuladığımız Müstəqilliyə qovuşduq.

Qabil realist şairdir. Tanınmış dilçi alim Tofiq Hacıyev "Nəsimi" poemasından danışarkən şairin bu xarakterik xüsusiyyətini önə çəkərək göstərir ki, "İstedadlı Qabil bədii yaradıcılığında içdən gələn duyğuları ilə dərk edirdi ki, siyasi satqınlığın, içtimai yaltaqlığın baş alıb getdiyi zaman cəmiyyətə bir Nəsimi iradəsi, bir Nəsimi faktoru gərəkdir" [62, s. 428].

Demək, Qabil bir Nəsimi faktorunu, yəni bir şair obrazını, dərisi soyulan, lakin əqidəsindən, məsləkindən, mübarizəsindən, haqq sözündən dönməyən bir insanı cəmiyyətə vaxtında gətirə bildi. Ümumiyyətlə, Qabil xalqına lazım olan sözü vaxtında, məqamında, yerində deməyi bacarıb. Və yeri gəldikcə poetik sözün qüdrətindən, gücündən, kəsərindən istifadə edərək xalqın dilindən, adından da danışaraq çox mətləblərə aydınlıq gətirib. Unudulmaz Heydər Əliyev yazıçıların X qurultayında hərbiçilərin, əsgərlərin vətənpərvər yetişməsində şair - yazıçıların əvəzsiz rolunu qeyd edərək demişdir: "Gənclərimizin düzgün tərbiyə olunması və Azərbaycana, Müstəqilliyimizə sədaqəti, hesab edirəm ki, sizin yaradıcılığınızın əsas

mövzusu olmalıdır. Bu mövzu heç vaxt köhnəlmir. Bu elə bir mövzudur ki, heç vaxt tükənmir. Çünki biz nə qədər yaşayırıq o qədər də gərək Müstəqilliyimizi möhkəmləndirək" [37, s. 101].

Xalqımızın milli sərvətinə çevrilən ədəbiyyatımız hər gələn nəslin mənəvi dünyasının formalaşmasında doğrudan da çox böyük rol oynayıb və yəqin ki bundan sonra da öz rolunu yüksək səviyyədə yerinə yetirəcək . Məhz elə buna görə Heydər Əliyev yazıçıların X qurultayında dönə - dönə vurğulayırdı: "Mən bir daha deyirəm, iyirminci əsrin sonunda Azərbaycan xalqının dövlət Müstəqilliyini əldə etməsi tarixi nailiyyətdir, əvəzsiz bir töhfədir. Bizim borcumuz bunu möhkəmləndirmək, əbədiləşdirmək, dəyişməz etməkdir. Biz Müstəqilliyimizi yenidən əldən verə bilmərik!" [37, s. 101].

Xalq yazıçısı Anar "Qabili çox istəyirəm" yazısında onun bir çox keyfiyyətlərinə işıq salaraq deyir: "Qabili çox istəyirəm. Təpədən dırnağa şair olduğuna görə. Dilimizin doğru - düzgün işlənməsinin sayıq keşikçisi olduğuna görə. Fəal vətəndaşlıq mövqeyinə görə..." [2, s. 418]

Qabil fəal vətəndaşlıq duyğusu, yanğısı ilə yaşamış və yaratmışdır. Onun bu illərdə yazdığı "Özgədən çək gözünü" şeiri də bunu deməyə əsas verir. Müəllif göstərir ki:

Şimşəklərə dönüb çax!
Ya cilovu möhkəm çək,
Ya da biryolluq burax!
Ya məhv elə,
Ya məhv ol!
Özgədən çək gözünü,
Silkələ öz – özünü! [96, s. 108]

Müşahidə qabiliyyəti iti olan, qəlbinin səsini dinləyən şair bildirir ki, başqa ölkələrdə dayaq nöqtəsi axtaran millətin qələbəsi çətin ki baş tutsun. Əksinə, özünə arxalanan, özünə güvənən, özünü silkələyib ayağa duran xalq, çalışan, vuruşan, döyüşən millət qəhrəmanlığının nəticəsini daha aydın görəcək, daha tez qələbə çalacaq, Vətəni yadların əlindən, tapdağından daha tez xilas edəcək.

Beləcə, Müstəqillik uğrunda gedən mübarizənin hər halı, hər anı Qabil yaradıcılığında əbədiləşib. Qabil tək deyildi. Dediyimiz kimi, onun arxasında, yanında bir yazar ordu vardı. Bu ordu bir - birinə bənzəməyən, lakin eyni vətənpərvərliklə, insanpərvərliklə tərənnüm olunan bədii nümunələr yaratmışdır.

Yazıçıların X qurultayında Heydər Əliyev ədəbiyyatın xalq qarşısındakı bu xidmətlərinə toxunaraq demişdir: "Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyatları oyatmağa çalışmışlar. Milli özünü dərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir. Bəzi əsərlər var ki, onlar açıq-açığına xalqımıza milli dirçəliş, oyanış hissiyatları çatdırıblar" [37, s. 95]. Daha sonra Ulu Öndər Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın adını çəkir və göstərir ki, "... digər əsərlərsə dolayısı ilə, ayrı - ayrı fikirlərlə millətimizdə Vətəni sevmək, Vətənə sahib olmaq, Azərbaycanı sevmək, azərbaycanlı olmaq hissiyatını yaradıblar" [37, s. 95].

Beləliklə, Qabilin Müstəqillik illəri poeziyası sövet dönəmindəki sosialist realizmini tərənnümündən köklü surətdə fərqlənir. Əvvala, Müstəqillik uğrunda mübarizə sovet hakimiyyətinə qarşı idi. Onun, xüsusilə, əsrin sonuna doğru ölkəni xalqlar həbsxanasına çevirməsi, ordusunun Bakıya hücumu, Qarabağın işğalında iştirakı və s. məsələlər şairin yaradıcılığının, ədəbi fəaliyyətinin yönünü, istiqamətini bütövlükdə dəyişdirdi. Daha çox milliləşdirdi. Milli oyanışın, Milli təssübkeşliyin, Milli Azadlığın, Milli birliyin tərənnümü, həmçinin Milli faciələrin təsviri ön plana çıxdı. Şairin bu illərdəki yaradıcılığı, bu mənada, çox böyük əhəmiyyətə malikdir.

İkincisi, Sovetlərin vaxtında yaza bilmədiyi mövzuları da ədəbiyyata gətirdi. Onun "37-də", "Təndir", "Sümüklər", "Türkün qəbri" və s. şeirləri bu qəbildəndir.

XX əsrin 70- ci illər ədəbi nəslinə mənsub olan Xalq şairi **Sabir Rüstəmxanlı** poeziyası da Müstəqillik illərində xüsusilə qabarıq şəkildə özünü biruzə verir və əvvəlki illərdən xeyli fərqlənir, seçilir. Təbii ki, bu da dövrlə, zamanla bağlı bir məsələ idi. Lakin bu dövrə qədər, yəni Müstəqillik uğrunda mübarizə başlayana qədər Sabir Rüstəmxanlı onlarca şeir kitabının müəllifi olmaqla özünü bir şair kimi tanıtmış, təsdiq etmişdi. Odur ki, Meydan hərəkatında onun deməyə sözü çox idi.

Əvvəlcə Sabir Rüstəmxanlı "Ömür kitabı" adlı əsəri ilə hərəkata qoşuldu. Publisist dildə yazılmış bu əsər böyük oxucu kütləsi tərəfindən rəğbətlə qarşılandı və geniş yayıldı. İlin ən yaxşı əsəri kimi M. F. Axundov mükafatına layiq görüldü. Lakin şairin bu zaman kəsiyində yazılmış şeir, poemaları daha çox diqqəti çəkirdi. Çünki mübarizənin təsvir və tərənnümü bu şeirlərin əsas mayası, məzmunu, qayəsi, məramı, məqsədi idi. Poetik söz xalqın ruhuna, qəlbinə daha yaxın olduğundan şair əsas önəmi şeirlərinə verirdi. Deməк, həm ədəbi söz meydanında və həm də, sözün həqiqi mənasında, Bakının küçə, meydanlarında səsləndirilən poeziya öncül yerdə gedirdi.

Poeziyanın baş qəhrəmanı olan şairin lirik "mən"i vətənpərvər, yurdsevər xalqsevər azad bir insandır. Çünki xalq hərəkatında Azadlıq, Müstəqillik, İstiqlal, Bərabərlik uğrunda mübarizə aparan, hadisələrin mərkəzində dayanan əsas qüvvə insan faktoru idi. Bu insan istiqlala çağırır, milli müstəqillik dəyərlərini yüksək qiymətləndirir, Azərbaycan idealını tərənnüm edir və ideal uğrunda mübarizəni təşkil edirdi. Demək, digər şairlər kimi Sabir Rüstəmxanlının da şeirlərinin baş qəhrəmanı mübariz insanlar idi. Şair onları baş qəhrəman kimi ədəbiyyata gətirir və yetərincə təsvir, tərənnüm edirdi.

Akademik İsa Həbibbəyli "Müstəqilliyin şərəfli yolu və müstəqillik ədəbiyyatı" adlı tədqiqat işində göstərir ki, "1990-cı illər poeziyası daha çox cəmiyyətdəki dekadans ovqatını, mənəvi aşınmanı və etiraz ruhunu ortaya çıxartmışdır" [162, s. 21]. Bu da təbiidir. Yəni, həm milli oyanış, Vətənin bütövlüyü, həm də sosial, iqtisadi, ideoloji mübarizənin getdiyi 90-cı illərdə heç də hər şey aydın görünmür, eyni cür qəbul edilmirdi. Milli, sinfi çarpışmalar, qarşıdurmalar, etirazlar, bütün sahələrdə böhran obyektiv və subyektiv səbəblərdən kuliminasiya nöqtəsinə çatmışdı. Məhz bu zaman kəsiyində ədəbiyyat, xüsusilə poeziya xalqın yeni dünyagörüşünün formalaşmasında, cəmiyyətin yeni ideyalarla zənginləşməsində, insanların bu ağrılı, ziddiyyətli, keşməkeşli hadisələrin fövqünə qalxmasında xüsusi rol oynamışdır. Həmçinin, dövlətin, dövlətçiliyin formalaşmasında da ədəbiyyat, poeziya öz sözünü demişdi. Təsadüfi deyil ki, bu illərdə yaranan, formalaşan Milli Məclisin, dövlətin tərkibində yazarlar, şairlər ön sıralarda çoxluq təşkil edirdi. O

cümlədən, Sabir Rüstəmxanlı da Milli Məclisin fəal üzvlərindən biri kimi bu təşkilatda çalışmış və çalışmaqdadır. Xarici ölkələrə tez-tez səfər etmə imkanı, konfranslarda çıxışlar, bu çıxışlar zamanı Vətəni təsvir, təbliğ etmək şairə nə qədər mövzular vermişdi.

Sabir Rüstəmxanlının bu dövrdə yazdığı və ən çox diqqəti çəkən şeirləri: "Yol ver yurdun bayrağına", "Bayrağım", "Ölən qorxumuz", "Azərbaycan" qəzetinə göz aydınlığı", "Ölümün görüşünə gedən qız", "20 yanvar xatirəsi", "Qorxum qalmadı", "Zireh", "Milli azadlıq hərəkatının cəfakeşlərinə", "Marş" və s. idi.

Ümid pöhrələri
göyərdi bu yaz,
Dirçəlib hirsindən
boğulan torpaq.
Heç qurdla quzu da
daha yad deyil..
Qəfəsə salınmaz, gülləyə
gəlməz,
Bu insan ruhudu,
zarafat deyil! [188, s. 33-34]

"İnsanın, xalqın və millətin həyatında Müstəqilliyin nə qədər zəruri, yüksək bir mərhələ olduğunu bildirmək üçün Sabir poetik boyalarını tam gücü ilə işə salır, ən dürüst, ən gərəkli bənzətmələr və istiarələr seçir" [212, s. 6].

Fəlsəfə elmləri doktoru Rahid Ulusel "Sözün dağ paytaxtı" əsərində yazır ki, "Azərbaycan Xalq Cümhuriyyətinin bərpası, kommunist imperiyasının devrilməsi, rus əsarətinin dağılması, köhnə hakimlərin hakimiyyətdən uzaqlaşdırılması, respublikada yeni demokratik qüvvələrin xalqın taleyinin həllində yaxından, ən fəal şəkildə iştirakı uğrunda mübarizə Sabirin həyat amalına çevrildi..." [207, s. 40].

Bu dövrdə Sabirin yazdığı hər bir şeir düşmənə atılan sərrast atəşə və söz gülləsinin yağışına çevrilmişdir:

Yerlə göy arasında qalxandı milyon yumruq,
Qayıdır bir millətin cavanlığı özünə!
Silaha yadırğamış əllərin gizli gücü,
Damla-damla yığışır car çəkdiyi sözünə! [188, s. 35]

Bu, Sabirin poetik yaradıcılığında yumruğunu düyünləyib meydanlarda Haqqını, Azadlığını, Müstəqilliyini tələb edən milyonlarla insanın təsviridir.

"Sabirin səsi öz Vətəninin keçmişini və bu gününü dərk etməyə çalışan səmimi, mərd və ayıq gözlü gənclərin səsi idi" [212, s. 11].

Vətən haqqında şeir yazanlar iki qismə bölünürdü. Birinci qisim şairlər Vətəni sevir, onu xoşbəxt, firavan, gözəl, qüdrətli, müstəqil görmək istəyirdilər. Və bu istək, arzularını şeirə çevirərək, Vətəni yalnız tərifləyib, vəsf edirdilər. İkinci qisim şairlər isə Vətəni təkcə təsvir, tərənnüm etmirdilər, həm də ağrı-acısını, problemlərini çiyinlərinə yükləyərək, onu həll etməyə çalışırdılar. Vətənin qüdrətli, müstəqil olması üçün mübarizə aparırdılar. Və hər cəfaya, əzaba, əziyyətə dözüb, qatlanırdılar. Sabir Rüstəmxanlı öz mübariz çıxışları, fəaliyyətləri ilə ikinci qisim şairlərə aiddir:

Açmısan öz sinəni
　　Yurdun azadlığına,
Süngünün öpüşünə,
　　Güllənin dodağına!
Bu gündən bu yaraya
　　Bütün dünya baxası,
Bu gündən qanlı yaxan
　　Mələklərin yaxası... [188, s. 42]

Ən böyük eşq, ülvi sevgi Vətənə olan sevgidir. Yurda, el - obaya bağlılıqdır. Doğulduğun, böyüdüyün torpağa sədaqətdir. Bu həqiqi sevgidən doğulan şeirlər də Vətənin bir parçasıdır, onun mənəviyyatıdır və əbədidir, ölməzdir! Yeri gələndə, düşmən qarşısında basılmaz bir ordudur!

Tanınmış ədəbiyyatşünas Yaşar Qarayev özünün "Tarix: salnamə, yoxsa yaddaş?" əsərində yazır ki: "Böyük ədəbiyyat həmişə və hər yerdə insanın və xalqın

taleyi vahid bir problem kimi dərk ediləndə və irəli sürüləndə yaranır. Bu tarixi və estetik qanunauyğunluq Azərbaycan xalqının bədii təfəkkürünün inkişaf məntiqi ilə təsdiq edilir" [106, s. 619] . Maraqlı fikirlərini, elmi düşüncələrini davam edərək alim göstərir ki, "...bizim klassik şeirin... məzmununda məhz insana, xalqa məhəbbətdən və onun tarixi taleyində ən yaxından iştirak etmək ehtirasından yüksək heç nə yoxdur. Çünki milli bədii fikrimiz dünyanı da, zamanı da, hər şeydən əvvəl, bu konkret məqsəd və amal mövqeyindən dərkə can atır" [106, s.619]

Alim bir neçə bədii əsərin adını da çəkir. Bu əsərlər millətin tarixi talehinin həll olunduğu anlarda, dövrlərdə yazılıb. Belə dövrlərsə bizim xalqın həyatında çox olub. Onlardan biri, sonuncusu 20 Yanvar, Qanlı Şənbə gecəsidir. Müstəqilliyə gedən yolu kəsmək istəyən mənfur qüvvələrin vəhşiliyi, törətdiyi qırğınlar, əzdiyi insanlar ədəbiyyatda da, həyatda olduğu kimi, realistcəsinə öz bədii həllini tapıb. Qanlı Şənbə gecəsinin şahidi olan Sabir Rüstəmxanlı yazır:

Qayıtdı, qayıtdı
torpağın bərəkəti.
Yollar boyu qaynaya-qaynaya
axan qanımızla!
Güllələrin dəlik-deşik
elədiyi köksümüzdən
qabaran tufanımızla!
Güllələri maqnit kimi
soran gözümüzlə!
Tankların yuxaya
döndərdiyi üzümüzlə! [188, s. 45]

Akademik İsa Həbibbəyli şairin Müstəqillik uğrunda gedən mübarizədəki fəaliyyətini belə qiymətləndirir: "Sabir Rüstəmxanlı xalq hərəkatına ədəbiyyatdan, özü də xalq ədəbiyyatından və milli demokratik bədii fikirdən gəlmişdir... Həyata, millilik amilinə, sadəlik və Vətəndaşlıq mövqeyinə ürəkdən köklənməsinə görə Sabir Rüstəmxanlı özü də yetmişinci illər nəslinin şair Nəsrəddinidir" [162, s. 220].

Təbiidir ki, o dövrdə Meydan hərəkatı hər kəsi, hər bir Vətəndaşı, milli ruhu,

qanı olan azərbaycanlını ağuşuna almışdı. Lakin bu Meydanda hər kəsin bir missiyası vardı: İdarəedənlər və idarəolunanlar. Akademik İsa Həbibbəyli yazır: "Hərəkatın müvəqqəti qabarmalarının keçici şəfəqlərində azmayan və çəkilmələrində büdrəməyən, ümidsizləşməyən cavan siyasətçi ümumxalq mənafeyinin ağla, məntiqi təfəkkürə, müqayisə və təhlilə əsaslanan ziyalı təmsilçisi olmağa üstünlük vermişdir. O, Azərbaycan xalq cəbhəsinin İdarə Heyətində də daha çox maarifçi-demokratik baxışların daşıyıcısı və aparıcısı olmaq vəzifəsini yerinə yetirmişdir" [162, s .220].

Demək, Sabir Rüstəmxanlının poetik açıqlamalarını dövr, zaman özü vermişdir. Bəlkə də diktə etmişdir:

Şəhər göz dənizidir,
Qara tufandı şəhər.
Balaca dalğasında
Dünyalar silkələnir!

Qaldırın bu çiçəyi,
Təpiklərin altından!
Çıxarın ürəyimi
Tətiklərin altından! [188, s. 44]

Meydan hərəkatında Xəlil Rza, Bəxtiyar Vahabzadə, Qabil... kimi şairlərlə bir sırada dayanan Sabirin poetik yaradıcılığı da elə bu meydanda yeni ideyalarla formalaşır və zənginləşirdi. Onlar meydana, dalğalanan xalq hərəkatına, Meydansa onların poeziyasına müsbət təsir göstərirdi. Vətənin bu dar günündə xalqın inandığı insanların – şairlərin sözünə, xüsusilə poetik sözünə, dediyimiz kimi, böyük ehtiyacı vardı. Bu ehtiyacı hər şair öz fitri istedadı, ağlı, təfəkkürü ilə, fiziki, mənəvi gücü ilə ödəməyə çalışırdı. Bu güc eyni zamanda, xalqdan da gəlirdi. Xalq onlara, onlar da xalqa arxalanmışdı.

Şairin hər şeirində ucalan səs xalqın səsi idi. Cəsarət, hünər, qüvvə də elə xalqdan gəlirdi. Bu da onun tale payı, tale yolu idi. Vətəndaş şair kimi formalaşmaq

və xalqın sözünü poetik çağırışa çevirmək, ədəbiyyata gətirib əbədiyyət qazandırmaq onun da missiyasına çevrilmişdir:

Lənət olsun bu vəzifə minnətinə!
Qırmaq olmur - həmin kilid, həmin açar...
Mən demədim, mən açmadım.
Zaman açar...

Zaman da çox gözlətmədi. Müstəqilliyin yolunu açdı, hər kəs öz yerini tapdı və tutdu... "Mən Azadlığın qapısını döyən zaman, gördüm o da şeytanların əlindədir!" Şeytana qulluq edənlər xalqdan uzaqlaşdı. Yaxşı ki, azadlığın qapısını döyənlər çoxluq təşkil edirdi! Yoxsa Vətən yenə müstəmləkə girdabına sürüklənərdi. "Vətən eşqi, bir əsim yel, ötən duman, // Onumuzun ürəyində, minimizin dilindədir!" Bu "onlar" da "minlərə" çevrildi və minlərin dilindən səslənən Vətən azad edildi.

Akademik İsa Həbibbəyli göstərir ki, "Doxsanıncı illərin astanasından etibarən Sabir Rüstəmxanlının yaradıcılığında keyfiyyətcə yeni mərhələ başlamışdı. İctimai hərəkatdakı sərt dönüşlər, milli azadlıq hərəkatı, demokratik islahatlar bu hərəkatın içində olan şairin əvvəllər "ehtiyatlı pıçıltı" ilə söyləyə bildiyi mətləbləri daha açıq və cəsarətlə deməsinə zəmin yaratmışdı. Bir müddət onun şeirlərini qaranlıqları parçalayan "tonqal iyi" bürümüşdü... onun fikrincə təkcə ayrı-ayrı şairlər deyil, bütövlükdə şairlər "döyüş himni" kimi doğulmalıdı" [162, s. 221]

Rahid Uluselin Sabir Rüstəmxanlı haqqında yazdığı "Sözün dağ qartalı" əsərində oxuyuruq: "Vətənini sonsuz məhəbbətlə sevən və sevdirən bir şairin sözü, əlbəttə, dünyanın üfüqlərinə, kainatın dərinliklərinə sancıldıqca, həmin məhəbbət də böyüyür, sonsuzlaşır, amma doğulduğu yurdun doğmalığını, mehrini, istiliyini itirmir" [207, s. 53]. Mənim düşüncəmə, gördüklərimə, duyduqlarıma görə isə şairlər doğulduğu yurdun, torpağın palıd ağaclarıdır. Onun kökləri, rişələri torpağın dərin qatlarına işləyib, çıxardıb başqa yerdə "əkmək" qeyri-mümkündür. Dərhal "quruyar". Necə ki, şair özü yazırdı:

Məndən ağac əkən, daş yonan olar,
Ancaq qürbətlərə mühacir olmaz.
Olsa da gedərəm çoxalanda qəm,

Bir az dağı çəkər, meşəsi çəkər,
... Di gəl ki, qəflətən dəyişər halım,
Burnuma Vətənin havası gələr,
Xəzərin bir dəli dalğası gələr...
Dolar qulağıma anamın səsi....
Qəm çökər qürbətin güzəlliyinə... [188, s. 67]

Vətənə bağlı şairlər onun qəmini, dərdini də qismət, qədər bilib, sevinclə qəbul edirlər:

Vətəndə qismətim – Vətənin dərdi,
Çiynimə yüklənsin, daşımaq gözəl!
Hər yan rahatlıqdı, nə olsun, burda
Vuruşa-vuruşa yaşamaq gözəl! [188, s. 67]

Sabir Rüstəmxanlının "Bu, adi millət deyil" şeirində söhbət məhz bu başımızın tacına çevrilmiş igidliklərdən, basılmaqda olan, talan edilən Vətəni qorumaqdan, düşmən hiyləsini vaxtında, yerində duymaqdan, onu dəf etməkdən gedir: "O qədər ki, talandım, içim boş qalmalıydı, // O qədər axdı qanım, dünya yaş olmalıydı, // . Amma yox, "Tacların parıltısı gözündə qiymət deyil, // hər addımı, heyrətdir, bu adi millət deyil!" Düzdür, bu millətin sadəlövhü, xəyalpərəsti, düşməni saymazı var. Lakin bir gün onlar da ayılıb düşmənin necə hiyləgər olduğunu görəcəklər.

Düşmənlə bacarmayıb, qardaşı yenən bizik,
Çöldə quzuya dönüb evdə deyinən bizik,
Həm tülkünün cücəsi, həm cücəyə dən bizik,
Bu mənim harayımdı, özümə nifrət deyil...
Bəlkə bir gün ayıldıq, bu adi millət deyil! [186 s. 208]

Xalqın birliyi, qurduğu dövlətin möhkəmliyi onu millətə çevirir. Sərhədləri, sınırları daxilində Vətəndaşların ayıq - sayıqlığı bu millətin, dövlətin bölünməz, toxunulmaz, ölməz qarantıdır. Heydər Əliyev "Kitabi-Dədə Qorqud"un 1300 illik

yubileyində çıxış edərkən demişdir: “Dövlət müstəqilliyi yolu ilə gedən ölkədə, hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu aparan Azərbaycanda milli birlik, milli həmrəylik hər şeydən vacibdir!” [37, s. 60-61]

Şairin daxilən bütöv olan lirik qəhrəmanı hər şəraitdə öz mənəvi gücünü qoruyub saxlamaqla yanaşı Vətənin də Bütövlüyünü, Azadlığını, Müstəqilliyini qorumaq üçün öz mətin, iradəli, sağlam, döyüşkən ruhu ilə haray çəkir:

Min ev yanar bir ocağın qoruna,
Yüz mərd düşər bir namərdin toruna,
Ordu gərək satqınından qoruna,
Çoxumuzu azımızdan qorusun! [186, s. 276]

Həm özünə, həm də məsləkdaşlarına müraciətlə yazılan “Qorusun” şeiri sapı bizdən olan baltaların və onların əlaltılarının törətdiyi faciələrin böyüklüyünü, əhatə dairəsinin genişliyini, düşmənin amansız və çox hiyləgər olduğunu bir daha təsdiq edir. Akademik Bəkir Nəbiyev xalq şairi Xəlil Rza haqqında yazdığı tədqiqat əsərində qeyd edir ki, “Poeziyanın yanğılı olması, əlbəttə, şair səmimiyyətindən irəli gəlir. Şair bu səmimiyyəti nəyin sayəsində qazanır? Əlbəttə, təlqin etdiyi, aşılamaq istədiyi fikirləri, duyğuları öz qanında, canında bəsləməklə. Bu halda şair sözü sadəcə olaraq söz deyil, can şirəsidir, qan cərəyanıdır” [168, s.145].

Alimin fikirlərini Sabir Rüstəmxanlı poeziyasına da şamil etmək olar. “Vaxtı deyil” şeiri bu mənada ibrətamizdir:

Qılınc səslənirsə dinən olmasın,
Döyüş köhlənindən enən olmasın,
Geri çağırsalar dönən olmasın,
Meydan ki qızışdı “dur” vaxtı deyil! [186, s. 284]

Keçən əsrin 80-cı illərinin sonu 90-cı illərin əvvəllərində sağlam düşüncəli, məsuliyyət hissini itirməyən hər bir Azərbaycan vətəndaşının qəlbində bir qorxu da vardı. Yeni yaranmaqda olan Müstəqilliyin itirilməsi qorxusu! Bu qarışıq, dolaşıq dövrdə, sözün bitdiyi, güllərin solduğu, güllələrin açıldığı yerdə Vətənin parçalanması, dövlətin dağılması onun Azadlığına son qoya bilərdi! Odur ki, şair

xalqın ruhuna yaxın poetik dildə yurddaşlarına üzünü tutaraq onlara gah yalvarır, gah da qəzəblə, ərklə onlardan tələb edirdi:

Hayana baxırsan ələm, göz yaşı,
Qırğınlar, matəmlər... dərd başdan aşır,
Ölənlə bərabər ölmə, qardaşım,
Tarix sınağıdır, gor vaxtı deyil! [186, s. 284]

Ədəbiyyatşünas Cavanşir Yusifli Sabir haqqında yazdığı "Yaddaşın poetikası" əsərində qeyd edir ki: "Cəmiyyət ağzına qədər yalanla dolandan sonra şikayətlər başlanır: gəlin, hər şeyi təzədən başlayaq. Ancaq cəmiyyətdə ayrı-ayrı fərdlər səviyyəsində bu total saxtakarlığa qarşı mübarizə dayanmır, cüzi şəkildə olsa da, davam edir. Sabir Rüstəmxanlının fəaliyyəti və yaradıcılığı bu missiyanın həyata keçirilməsində böyük əhəmiyyət kəsb edən hadisələrdəndir" [225, s. 68].

Çəkib silahını getdi ordular,
Ancaq pozulmazdır şeirin söz səfi!
Dünya yaranandan iki hədəf var -
Güllənin hədəfi, sözün hədəfi! [186, s. 296]

"Sabir Rüstəmxanlının bütün bu məsələlərə münasibəti aydın və birmənalı olduğu üçün bu kontekstdə ictimai fikrə təsiri də davamlıdır, məqsədyönlüdür və belə olduğu üçün də həmişə hədəfi düşünür" [224, s. 68].

Ənənələrə sadiq qalan şair özünəməxsus cəsarətli poetik çağırışları ilə yadda qalan zəngin, bədii hadisəyə çevrilmiş əsərlər yaradıb. Bu zənginlik, rəngarənglik içindən qopan haray, çağırış öz bədii həllini tapmaqla yanaşı, həm də Vətən o dar anından, düşmən tələsindən sıyrılıb çıxa bildi! Azadlığı, Müstəqilliyi əbədi qazandı.

Postsovet məkanında baş verən ictimai-siyasi hadisələr, təbəddülatlar, hədə-hərbələr, ərazi iddiaları, torpaq davaları daha çox vətənpərvərlik duyğularının tərənnümünü tələb edirdi. Sabir Rüstəmxanlının şeirlərində isə həmişə Vətən sevgisi, Vətənə bağlılıq mühüm yer tutub. Hələ ilk şeirlərinin birində şair yazırdı:

Bir əlçim buluddu,
Bir ömür umuddu,
Bir içim sudu,..

21 Azərin qanıdı,
Cavad xanın qətl yeridi,
Sabirin "Fəxriyyə" şeiridi,
Dağları dumanında itən, -
Vətən... Vətən... [188, s. 8]

Bir parça şeirdə həm Vətənin təbiəti, həm də onun vətənpərvər övladlarının bu Vətən üçün gördüyü unudulmaz, yaddançıxmaz işləri, sələfi Sabirin əvəzsiz əsəri birbaşa tərənnüm olunur.

Bu şeir haqqında akademik İsa Həbibbəylinin maraqlı fikirləri var:

"Ali məktəb dövrünün uğurlu poetik bəhrəsi olan "Vətən" şeiri Rüstəmxanlının ilkin parolu və tutumlu bir səviyyədə proqramı kimi səslənir" [162, s. 212].

"Bir qarış Vətən torpağı", "Yardımlı yollarında", "Qan yaddaşı", "Sənə ucqar söylədilər" kimi şeirləri də şairin ilk Vətən duyğularının əks-sədasıdır. Elə bu ilk şeirlərdən bir vətəndaş şairin doğulduğu aydın görünür.

Sabir Rüstəmxanlının seçilmiş əsərlərinə ön söz yazan Xalq şairi X. R. Ulutürk onu belə xarakterizə edir: "Şeir ürəyin, beynin kardioqramıdır. Xoşbəxt o şairdir ki, xalqını təmsil edə bilir. Bu halda onun ilham vergiləri yalnız özünün deyil, bütün ulusun, yurdun mənəvi-kardioqramına çevrilir" [212, s.10]. Bu bir həqiqətdir və təbiidir ki, yalnız Vətənini, Xalqını düşünüb yazanlar əsl xoşbəxt şair səviyyəsinə yüksəlir. Çünki Xalqın sözünü deyənləri Xalq özü zaman-zaman yaddaşında, tarixində, ədəbiyyatında yaşadır. Ulutürk fikirlərini davam edərək daha sonra qeyd edir ki, "Sabir Rüstəmxanlı poeziyası öz oxucusunu yalnız yeni duyğular, yeni arzular, yeni fikirlər ilə deyil, həm də ən başlıcası qeyrətlə silahlandırır"[212, s. 10].

Hələ keçən əsrin 70- 80-ci illərində Sabir Rüstəmxanlı bir gənclik enerjisi ilə yazıb yaratmışdır. "Gəncə qapısı", "Sağ ol, ana dilim", "Qan yaddaşı" kimi kitabları nəşr olunmuş və ona bir şair kimi böyük uğur gətirmişdir. Əlbəttə ki, sovet dönəmində - 70-ci illər və 80-ci illərin ortalarına qədər şairin qələmə aldığı əsərlərlə Müstəqillik ilərinin şeirləri arasında böyük fərq də var. Çünki sovet hakimiyyətinin, onun sosialist ideologiyasının təsiri Sabirin də yaradıcılığına təsirsiz ötüşməmişdir.

Lakin Sabir sətiraltı, üstüörtülü də olsa öz sözünü deyə bilmişdir. Bəzən isə elə açıq-saçıq, birbaşa da yazmışdır. Onun 1983- cü ildə çap olunan "Sağ ol, ana dilim" şeirlər kitabına baxmaq yetərlidir:

Qapılar dalında qoydular səni,
Haq dedin, dabandan soydular səni,
Ancaq məhv olmadın, anam, can dilim,
Ordular sarsıdan Qəhrəman dilim! [185, s. 17]

Bir faktı da nəzərə almaq lazımdır ki, 70-80-ci illər sovet cəmiyyətinin ən humanist, inkişaf etmiş dövrü idi. Yəni ədəbiyyata, sənətə, sözə o qədər də müdaxilə olunmurdu.

Lakin 90-cı illərin hadisələri – xalqımızın həyatında baş verən böyük qlobal, tarixi hadisələr Sabir Rüstəmxanlının yaradıcılığının başqa yöndə, istiqamətdə formalaşmasına, zənginləşməsinə güclü təsiri etmişdir. O, həm qələmi ilə, həm də bir şəxsiyyət-vətəndaş kimi xalqının yanında idi. Milli Müstəqilliyə gedən yol onun içindən keçib şeirlərində əks olunurdu:

Xəncərim dəstəksiz, qılıncım qansız,
Sinəm qalxan kimi, çapıq-çapıqdır,
Tikanlı məftillər didib könlümü,
Ən uzun mahnım var, o - Ayrılıqdır! [188, s.182]

İsa Həbibbəyli: "Sözün həqiqi mənasında Sabir Rüstəmxanlının yaradıcılığı mənsub olduğu xalqın milli taleyinin keşməkeşlərinin, qan yaddaşının poetik daşıyıcısıdır" [68, s. 21].

Şairin bu illərdə qələmə aldığı "Öləndə bayrağa bükülmürəmsə...", "Şairlərə borcunuz", "Yazılmamış şeirlərim", "Ölən qorxumuz", "Acı xatirə", "Ölümün görüşünə gedən qız", "20 yanvar xatirəsi", "Qorxum qalmadı", "Zireh", "Mən demədim", "Siz nə umursunuz bu gedişatdan", "Bir gün mən də gedəcəyəm" kimi poetik nümunələr göstərir ki, o ictimai-siyasi hadisələrin gerçəkliyi içindən böyük ümid, sabaha olan inam, vətəndaş qeyrəti axtarır. Əks halda Müstəqilliyi, Azadlığı qazanmaq, onu əldə saxlamaq çətin olardı.

"S. Rüstəmxanlı yaradıcılığında ağ rəng təkcə şeirin romantik örpəyi deyildir, həm də şair ideyalarının, arzularının rəngidir. Nəticə etibarı ilə bəyaz rəng mübariz ruhlu vətəndaş şairin ictimai həyatda və sənətdə apardığı çətin və inadlı mübarizənin nikbin finalının ifadəsidir" [162, s. 230]

Milli müstəqillik dövrü ədəbiyyatının yaranmasında, formalaşmasında Sabir Rüstəmxanlının özünəməxsus yeri, rolu, dəsti-xətti var. Bir-birini təkrarlamayan, hər birisi Vətənin Azadlığına, Müstəqilliyinə köklənmiş şeirlər neçə qəlbə yol açaraq əks-səda doğurmuşdur. Vətənin dar günündə xalqı bir araya gətirən bu poeziya haqqa, ədalətə, məntiqə, mənəviyyata arxalanmışdır və şair də məhz buna görə öz istəyinə, məramına, məqsədinə çatmışdır. "Bu, adi millət deyil!" – deyən şair düşünür ki, "... O Səməndər quşutək külündən doğulandı, /Başqasına son olan ona fəlakət deyil!/ Qoy tarix bir də görsün, bu adi millət deyil!" Qərinələrin, tarixi fəlakətlərin sınağından həmişə son anda xilas olan, bir millət, xalq olaraq yaşayanlar, demək, heç də adi, sıradan biri deyil. Necə ki, bu gün müstəqildir, azaddır!

"Sözün həqiqi mənasında Sabir Rüstəmxanlının yaradıcılığı mənsub olduğu milli taleyinin, keşməkeşlərinin, qan yaddaşının poetik daşıyıcısıdır" [212, s. 9].

Ziyalıların, ədiblərin inandığı, etibar etdiyi şairlərin sırasında dayanan, meydan hərəkatında həm publisistik çıxışları, həm də poetik nümunələri ilə örnək olan Sabir Rütəmxanlı bir - birinin ardınca yazdığı neçə-neçə kitabların müəllifidir.

Qeyd etdiyimiz kimi, 90-cı illər poeziyası özündən əvvəlki şeirlərdən cox fərqlənir. İctimai-siyasi, sosial hadisələrin birdən - birə dəyişməsi, SSRİ-nin çökməsi, Qarabağ münaqişəsinin başlanması və onun müharibəyə çevrilməsi poeziyanın yönünü, mövzusunu da dəyişib öz ardınca apardı. Bu mənada Sabir Rüstəmxanlı poeziyası da bu dövr gerçəkliklərini olduğu kimi, lakin poetik şəkildə, səmimi duyğularla əks etdirdi:

Yol ver yurdun bayrağına!
Qanımı hopduraraq
tutmuşam başım üstə!
Gül kimi pardaxlanıb,

Düşmənim baxa-baxa
gözlərindən dağlanıb! [188, s. 185]

Şairin bu şeiri vaxtı ilə Əhməd Cavadın yazdığı "Yol ver türkün bayrağına!" şeirini xatırladır. Çünki zaman özü elə o dövrü təkrarlayır. Türkün bayrağını endirib bolşevik bayrağını qaldıran 20-ci illərin səhvini 90-cı illərin hadisələri-döyüşləri, alovları düzəltdi! "Bir dəfə yüksələn bayraq bir daha enməz!" – fikrini əməldə bərpa edib bir daha təsdiqlədi:

Yol ver yurdun bayrağına!
Hardan qopubsa ora dönsün!
Özgə yerində gözü yox,
Öz elində görünsün!
Yelpikləsin məzarını şəhidlərin,
Torpaq da bayraq işığını duyur,
Kişilər yalnız yurdun
bayraq nəğməsində uyuyur. [188, s. 185]

Bu şeir, eyni zamanda, Qabilin "Bayrağımız" adlı şeirinin ideya davamıdır. Bəlkə də eyni anlarda, günlərdə yazılıb. Hər iki şeirdə bərpa ediləcək və qorunacaq 1918- ci il mayın 28-də dalğalanan bayraqdan bəhs edilir. Hər iki şair ilk müstəqil bayrağımıza öz baxış bucağından, öz pirizmasından, düşüncə tərzindən yanaşsa da məqsəd eynidir, ilk müstəqil bayraq necə bərpa edilməli, necə qorunmalı və əbədiləşməlidir!?

Ümumilikdə, Qabilin və Sabir Rüstəmxanlının Müstəqillik dövrü şeirlərini müqayisə etsək, mövzu, ideya, məqsəd, məram baxımından eyni və ya çox oxşar olduqlarını görərik. Aralarında iyirmi il yaş fərqi olmasına baxmayaraq onlar Meydan hərəkatında qoşa, bərabər addımlamışlar. Hər iki sənətkarın qarşılıqlı ədəbi əlaqəsi, ictimai-siyasi hadisələri birlikdə müzakirə etməsi, hadisə-pedmetlərə eyni baxış nəticəsində hətta eyni adda şeirlər yazmışlar: "Vətən", "Barağımız" və s. Lakin şeirlər məzmunca, fikir yükünə, işlənmə dərəcəsinə körə çox fərqlənir. Demək, bu əsərlərin təkrarsız, bənzərsiz olması hər iki şairin özünəməxsusluğunu, öz dəst-xətlərinin olmasını göstərir. Eyni sözləri Meydan hərəkatına fəal iştirak edən

Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk və b. haqqında da demək olar. Bu şairlərin birliyi eyniliyin birliyi deyil, müxtəlifliyin birliyidir. Onları bir-birindən ayıran fərdi və sənətkarlıq xüsusiyyətləridir.

Akademik İsa Həbibbəylinin gəldiyi qənaət belədir: "Xalq şairi Sabir Rüstəmxanlının yaradıclığı Azərbaycanın müstəqilliyinin sənət aktıdır. O, yeni dövrün ən mükəmməl Azərbaycannaməsini yaratmışdır" [162, s. 235]

Sabir Rüstəmxanlı yaradıcılığının, poeziyasının ana xəttini Vətən mövzusu tutur. İstər sovet dönəmində, istərsə də Müstəqillik illərində yazılmış şeirlərin əksəriyyəti Vətən, onun mübarizəsi, tarixi, keçdiyi yolla bağlıdır. Şair Məstan Günər yazır: "Şairin köklü mövzulara müraciəti, böyük dərdlərə şərikliyi yaxşı keyfiyyətdir, belədə sənətkar özünü güclü bilir, mübarizənin yanarlıq şəraitində onun sənəti qəribə xassə qazanır, misralara "fışqıran qəzəb" daxil olur" [26, s. 268].

Professor Rahid Ulusel Sabir Rüstəmxanlı haqqında yazdığı əsərində göstərir ki, "S. Rüstəmxanlı içərisində olduğu ədəbiyyat və sənət mühitini daim qabarıqlığı ilə canlandırmağa, yaradıcı insanlarımızın şəxsiyyətinə ümumxalq məhəbbətini yaratmaq və dərinləşdirməyə xüsusi can atan, önəm verən bir ziyalıdır" [207, s. 59]. Müəllif onun tanınmış sənət adamlarına həsr etdiyi şeirlərindən bir neçəsinin adını da qeyd edir. Bu adlar sırasında ən çox diqqəti çəkən "Xəlil Rzaya mərsiyə"dir. Şeir Xalq şairi Xəlil Rza Ulutürkün ölümünə həsr olunub və bu misralar sanki ölməz şairin portretini yaradıb:

Qırx il öz kəfənini boğazında daşıdın,
Sinəni səngər etdin, səngərlərdə yaşadın...
Qələmiylə buz qıran, daş yaran Xəlil Rza,
Təbrizdən, Qarabağdan nigaran Xəlil Rza. [188, s. 218]

Və ya "Aydın Məmmədovun dəfn günündə", "Nəbi Xəzriyə", "Məmməd Aslana", "Sabir Əhmədlini anarkən", Musa Yaquba həsr etdiyi "Bir iclasın ovqatı", "Mikayıl Azaflıya", "Şəhriyarın xatirəsinə", Məmməd Araza müraciətən yazdığı "Bakı" kimi şeirləri də bu qəbildən ayrı - ayrı yazarların portreti və daxili dünyalarının əks-sədasıdır. Bir növ elə bu Vətənin əsl vətəndaşlarının təsvir, tərənnümüdür.

Demək, Sabir Rüstəmxanlının öz qələm yoldaşlarına, ustadlarına, silahdaşlarına həsr etdiyi portiret əsərləri də kifayət qədərdir və yaradıcılığında önəmli yer tutur. Hesab edirəm ki, bu şəxsiyyətlər Vətənin bölünməz, ayrılmaz parçaları, hissələridir. Hər birisinin yaradıcılığı ayrıca tədqiqat əsərinə layiq sənətkarlardır.

Beləliklə, biz Sabir Rüstəmxanlının Müstəqillik dövrünün poetik nümunələrinə nəzər saldıq, aydın oldu ki, bu dövr onun yaradıcılığında önəmli yer tutur. Eyni zamanda, dövrün, zamanın tərənnümü baxımından onun poeziyası da ədəbiyyatımızda özünəməxsus yer tutur və böyük əhəmiyyət daşıyır. Bu poeziya məhz Müstəqilliyi və Müstəqilliyə gedən yolu, bu yolu açan qəhrəmanları təsvir, tərənnüm etdiyi üçün zaman-zaman yaşayacaq və müəllifini də yaşadacaq. Onun bu səpkidə yazdığı "Yol ver türkün bayrağına", "Öləndə bayrağa bükülmürəmsə", "Bu adi millət deyil..." "Ölən qorxumuz" və onlarca belə şeirləri tarixləşmiş ədəbiyyatımız, əbədiləşmiş, poetikləşmiş tariximizdir. Düşünürəm ki, Qanlı 20 Yanvar hadisəsi tarixi əsərlərdən çox bu şeirlərdə yaşayacaq və hər gələn nəslin yaddaşına köçərək duyğularına köklənəcək.

### 1. 2. Qarabağ mövzusunun – Birinci Qarabağ müharibəsinin şeirdə əksi

Müstəqillik dövrünün baş mövzularından biri də Qarabağ mövzusudur. XX əsrin 80-ci illərinin sonunda SSRİ-nin dağılması ilə öz müstəqilliyini bərpa etməyə çalışan keçmiş Müttəfiq Respublikalar arasında sərhəd məsələsi də gündəmə gəldi. Əvvəllər buna əhəmiyyət verməyən respublikalar indi öz tarixi sərhədləri çərçivəsində milli respublikalarını qurmağa çalışırdılar. Bu da öz növbəsində bəzi millətlər arasında münaqişələrin yaranmasına, qarşıdurmalara gətirib çıxarırdı. Belə tarixi anlardan həmişə istifadə etməyə çalışan ermənilər də ən çox məskunlaşdıqları Qarabağı – Azərbaycanın bir vaxtlar tarixi mərkəzi olmuş Qarabağ xanlığının coğrafi ərazisini tələb etməyə başladılar. Qarabağ xanlığı dövründə ermənilər bu ərazidə beş kiçik məliklikdə məskulaşmışdılar. İranla Rusiya arasında bağlanan 1828-ci il Türkmənçay müqaviləsinin 15-ci bəndinə əsasən İran ərazisində yaşayan erməni

ailələri Qarabağa köçürülmüşdü ki, bu da ərazidə yaşayan ermənilərin sayını bir neçə dəfə artırmışdı [9, s. 10]. Sovetlər dönəmində "Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 1923-cü il 7 iyul tarixli qərarı ilə yaranan Dağlıq Qarabağ Muxtar Vilayəti ermənilərin sosial, siyasi, iqtisadi, mədəni inkişafına və əhalinin daha sürətlə çoxalmasına, artmasına münbit şərait yaratdı" [10, s. 136].

XX əsrin 80 - ci illərinin sonlarından başlayaraq erməni lobbisi Dağlıq Qarabağ Muxtar Vilayətinin ( DQMV ) ya ikinci erməni dövləti olaraq müstəqil Respublika kimi yaradılması, ya da Ermənistanın ərazisinə birləşdirilməsi üçün əvvəlcə dinc nümayişlə, daha sonra silahlı münaqişə, qarşıdurmalarla mübarizəyə başladı. Münaqişə ocağı getdikcə böyüyərək müharibəyə çevrildi. Atəşkəslə müharibə dayandırılsa da, münaqişə otuz ilə yaxın davam etmişdi.

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi, müqəddəs Vətənin bir parçası olan Qarabağ problemi bütün ədəbi nəsildən olan yazarların daima diqqət mərkəzində olmuşdur. Müxtəlif janrlarda, ən çox da şeirlərdə bu mövzu, demək olar ki, bu və ya digər dərəcədə öz bədii həllini tapmışdır. Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Mirvarid Dilbazi, Nurəngiz Gün, Nəbi Xəzri, Qabil, Sabir Rüstəmxanlı, Əbülfət Mədətoğlu, Elçin İsgəndərzadə, Gülxani Pənah və s. kimi şairlərin şeirlərinin ana xəttini məhz Qarabağ mövzusu təşkil edir. Yüzlərcə bədii nümunələr ədəbiyyatımızda əbədi yaşarlıq qazanmışdır.

Bütün bunları yüksək qiymətləndirən Ulu Öndər Heydər Əliyev demişdi: "Mənim bugün sizə müraciətim ondan ibarətdir ki, sağ olun ki, indiyədək xalqımızı vətənpərvər etmisiniz, millətini sevən etmisiniz, millətinin qayğısına qalan etmisiniz. Bilirsiniz, Ermənistan tərəfindən torpaqlarımızın 20 faizinin işğal edilməsinə dözə bilmirəm. Dözə bilmirəm ki, Azərbaycan əsgəri erməni əsgərindən gücsüz olubdur, geri çəkilibdir. Bu, daima mənə əzab verir. Nə üçün, nəyə görə? Bizim xalqımız ermənilərdən zəifmi xalqdır? Və yaxud Respuplikamız Ermənistan Respublikasından kiçikdirmi?" [37, s. 100]

Qarabağa həsr olunmuş məşhur əsərlərdən bir çoxu - Nəbi Xəzrinin ermənilərin xüsusi amansızlıqla güllələyib qətlə yetirdiyi jurnalist Salatın Əsgərova həsr etdiyi "Salatın" poeması, Məmməd Arazın "Ayağa dur, Azərbaycan", Famil Mehdinin

“Qarabağdan əlini çək”, “Silahlan, silahlan, silahlan, əsgər”, Nəriman Həsənzadənin “Qaçqın” əsəri, eyni zamanda, Hüseyn Kürdoğlunun, Vaqif Bəhmənlinin, Vahid Əzizin bir çox şeirləri dillər əzbəri idi. Çünki hadisələrin içindən yazılmışdı, həm də munaqişənin getdikcə böyüdüyü, müharibəyə çevrildiyi anları, günləri əks etdirərək elə o zamanın içindən boy verirdi. Qarabağ müharibəsini yaxından, uzaqdan seyr edən, heç nəyə gücü çatmayan xalq bu şeirlərlə təskinlik tapırdı, onları yeni informasiya mənbəyi kimi qəbul edirdi. Millət bir toplum olaraq siyasətçilərdən çox bu əsərlərə inanırdı, şairlərə, yazarlara güvənirdi.

Xalqın inandığı, güvəndiyi şairlərdən biri olan **Qabilin** yaradıcılığında Qarabağ mövzusu xüsusi önəm daşıyır. Onun bu səpkidə yazdığı onlarca əsəri var: “Azərbaycan əsgəri”, “Yanıq Kərəmi”, “Hava necə olacaq”, “Yaddaşım”, “Mən göz yaşlarına dözə bilmirəm”, “Şəhid sayılmır”, “Şəhid anası”, “Qorxuram”, “Gün o gün olmayacaq” kimi şeirlər şair qəlbinin, düşüncələrinin, gördüklərinin əks-sədasıdır, həmçinin dövrünün poetik güzgüsüdür.

Qarabağdan - döyüş meydanlarından az qala hər gün Bakıya dəfn etmək üçün şəhidlər gətirilirdi. Bu şəhidləri qaboy, saz, kaman, tar musiqi – ağılarla müşayət edirdi və bu musiqiləri tele - radiolar bütün respublikaya yayırdı. Müharibə vaxtı xalqın dinlədiyi bu hüzünlü musiqini, ah - naləni bu anlar, günlər üçün məqbul hesab etməyən şair “Yanıq Kərəmi” şeirində onları qınayır, tənbeh edirdi:

Alıb qucağına
Qara baxtını,
Sazla səsləyirsən
Qarabağını... [96, s. 131]

“Yanıq Kərəmi” saz havasının hər gün saatlarca tele-radioda səsləndirilməsinə şairin münasibəti, məsləhəti belə idi:

Sazı köynəyə sal,
Apar küncə qoy.
Qılınca əl apar,
Sazı dincə qoy,
Yanıq Kərəmi ! [96, s.131]

Sözün bitdiyi yerdə qılınclar işə düşüb. Odur ki, şair deyir: “Döyüş səhnəsindən meydana atıl, // Səhnə meydanından hələlik çəkil !” Daha sonra o göstərirdi ki, geyindiyin Qara Keşişin tilsimli köynəyinin açılmayan qızılı düymələrini qırıb, cırıb, çıxarıb at, yoxsa həsrət qalarsan sən Qarabağa, “Yanıq Kərəmi”!

“Yanıq Kərəmi” saz havasına xitabən yazdığı bu şeir Qabilin öz xalqına məsləhəti, bir ağsaqqal öyüdü olmaqla yanaşı, həm də özünün vətəndaş mövqeyi idi. “... Poeziya o zaman öz yüksək borcunu ödəmiş olur ki, qarşısına qoyduğu məqsədi, təlqin etmək istədiyi fikri eyni zamanda bədii boyalarla, yüksək səviyyədə, bir sözlə, sənətkarlıqla ifadə etmiş olsun... Qabilin rəvan şeiriyyətlə təsvir və tərənnüm etdiyi hadisələr, fikirlər ona görə oxucunu fövrən öz təsiri altına sala bilir ki, hər misra, hər bənd şair qəlbinin odu, atəşi ilə yanmış, cilalanmışdır” [93, s. 488-489].

Ulu Öndər Heydər Əliyev şairlərin Qarabağ müharibəsində necə iştirak etməsinə münasibət bildirərkən deyib: “Burada kimsə sizi ittiham etdi ki, cəbhəyə getmisiniz, şəhid olmusunuz, ya yox? Şairin şəhid olması lazım deyil. Amma şairin daimi ordunun içində olması, əsgərlərlə görüşüb söhbət aparması, onlara vətənin nə demək olduğunu, torpağın nə demək olduğunu, Müstəqilliyin nə demək olduğunu anlatması çox vacibdir”. Daha sonra dövlət başçısı deyir: “Bir var ki, bunu əsgərə komandir desin və yaxud məndən eşidə, bir də var ki, hörmətli şair, yazıçı gedib öz ədəbi-bədii fikri - sözü ilə onu anlatsın ki, sən müstəqil Azərbaycanın keşiyindəsən!” [37, s. 101] Göründüyü kimi, Ulu öndər yazıçı, şairlərə necə böyük qiymət verib. Hətta onların sözünün dövlət başçısının sözündən də yüksək, qiymətli olduğunu vurğulayıb. Əlbəttə, bunlar həqiqət idi.

Qabilin Qarabağ mövzusunda yazdığı başqa bir şeiri “Azərbaycan Əsgəri” adlanır. Müharibə dövründə Vətən üçün əsas qüvvə əsgərdir, ordudur, onun gücüdür. Odur ki, şair indiki durumda, mövcud vəziyyətdə yəni Qarabağın əsir olduğu dönəmdə onu azad etmək üçün hərbi hücumdan başqa yol görmür:

Uzanır danışıqlar,
İmzalanır sənədlər.
Xəritədə aləmə
Göstərilir sərhədlər...

Səsimizə səs verir,
Dünya başbilənləri...
Ümid sənədir ancaq,
Azərbaycan əsgəri! [96, s. 149]

Şair tez - tez gəlib - gedən xarici nümayəndələri, onların yalançı nəzakətlərini, bəyanatlarını, bütün danışıqları, qətnamələri, sazişləri boş, mənasız, cəfəngiyat hesab edərək üstünlüyü döyüşən orduya, Azərbaycan əsgərinə verir:

Qov alışa bilərmi,
Od saçmasa çaxmağın?
İldırımlardan belə,
Ümma bu zərrələri!
Ümid sənədir ancaq,
Azərbaycan əsgəri! [96, s. 150-151]

Çox ideal, təbii, real və məntiqli bənzətmədir. Bir adicə qovu-samanı alışdırmaq üçün çaxacaq ildırımlara, şimşəklərə ümid bəsləmə. Öz əlindəki çaxmağını çək və yandır! Bu yetərlidir ki, Vətən azad olsun!

Şair dönə - dönə, gah sakit, gah da çılğınlıqla bildirir ki, hər kəs öz Vətənini, yurdunu, torpağını, sərhədlərini özü qorumalıdır. Kimdənsə kömək gözləmək sadəlövhlükdür.

Şairin hər bir əsəri təbii, canlı, inandırıcı poetik faktdır, - desək yanılmarıq. Onun “Azərbaycan əsgəri” şeiri belə həyati faktın təsvir, tərənnümüdür. Eyni zamanda, öz xalqı üçün vaxtında və yerində deyilmiş, yazılmış poetik çağırışdır, poetik məsləhətdir.

Qabildən müsahibə götürən jurnalist Nüşabə Hüseynli şairə belə bir sual verir: “Bu gün sizi ən çox nə narahat edir?” Şairin çox maraqlı cavabları var. O, Qarabağ mövzusunda yazdığı şeirlərin tarixindən, yaranma şəraitindən, onları doğuran səbəblərdən danışır: “Mənim vətəndaş mövqeyində yazılmış şeirlərim var. “Əslində”, “Küçədə”, “Çadırlara alışmayın”, “Çalma qaboy” və s. Televiziyalar gündə proqnoz verir ki, Laçında, Şuşada hava necə olacaq. Şeirlərimdən birində yazıram ki, özünü niyə aldadırsan? Orda havanın necə olmasının bu gün sənə dəxli

yoxdur. İnanırsız, mənim artıq "Gün o gün olsun" sözündən də acığım gəlir. Kimi dindirirsən deyir ki, gün o gün olsun ki, Şuşada belə edək, elə edək..." [ 72, s. 444]

"Gün o gün olmayacaq ..." şeirində şair qələbəyə gedən yolda kifayət qədər nöqsanların, çatışmazlıqların olmasından danışır. Nə qədər ki, boş danışıqlar, boş arzular, vədlər, deyinmələr var, yalançı hiddət, yalançı əsib - coşmaq var, gün o gün olmayacaq. Deməк, əslində danışmaq yox, döyüşmək gərəkdir:

Əmr etməsə komandan,
Qalxmasa Azərbaycan,
Gün o gün olmayacaq !

Müsahibəsində daha sonra şair deyir: "M. F. Axundov adına kitabxanada qaçqınlarla görüş var idi. Orada bu məzmunda bir şeir oxudum. Bəziləri az qalırdı məni öldürsün ki, sən niyə belə şeir yazmısan? Dedim ki, mən qaçqınların taleyini yazmışam. Niyə gizlədim, torpaqların azad edilməsini danışıqlarda görmürəm. İşğal olunmuş torpaqlarımızı biz ancaq qüdrətli ordunun köməyi ilə geri qaytara bilərik" [72, s. 444].

Qabilin "Mən göz yaşlarına dözə bilmirəm", "Yaddaşım" şeirləri də Qarabağ mövzusu və Müstəqillik uğrunda mübarizə üçün xarakterik olan, orijinal əsərlərdir. Şair şəhidlər xiyabanını ziyarət edərkən buradakı mənzərədən çox sarsılır. Qəbir üstündə ağı deyən analar, saçını yolan bacılar, gəlinlər, ata deyib haray çəkən uşaqlar bu şeirin yaranmasına səbəb olub:

Mən göz yaşlarına dözə bilmirəm,
Analar saç yola məzar başında...
Yox, daha mərsiyyə yaza bilmirəm,
Cavanlar qırılsa nakam yaşında.... [96, s. 264]-

deyən şair düşünür ki, daha mərsiyyəni xalq məzar başında özü deyir. Demək, "...Qabil ağrı məfhumunu öz şeirlərində təkcə fərdi planda götürmür. Elə ağrılar, elə kədər hissi var ki, onlar Xalq, Vətən, Millət səviyyəsindədir" [226, s. 366].

Başqa bir şeirində şair sanki üsyan qaldırır. Ermənilərin tarixən törətdikləri faciələri bir - bir yada salır. "Yaddaşım" adlı bu şeirində müəllif göstərir ki,

“Unutmayaq 1905-ci ili... // 1918-ci ilin yanğısına su səpməyək... // Barışığa qol açmayaq...Sülh ayrıdı...Təslim ayrı...”

Hər tarixi döngələrdə Türklərin başına bəlalar gətirən ermənilərin cinayətlərini unutmaq olarmı? Ağıla, məntiqə, insanlığa sığmaz vəhşilikləri yaddan çıxartmaq olarmı? Şair dua edir ki:

... Düşmənə
Nifrət yaddaşım
Korşalmasın!
Qisas – hiddət
Yaddaşım
Korşalmasın!
Hünər – qeyrət
Yaddaşım
Korşalmasın! [96, s.137]

“Qabil şeirlərindəki sərt həyat həqiqəti, sözü kişiyanə demək bacarığı, millətin, xalqın ən ağrılı məqamlarına toxunmaq son şeirlərində də əvvəlki şeirlərində olduğu kimidir, bəlkə də bir az sərtdir. Bu sərtlik, həqiqəti üzə demək, bəzən ironik çalarla müşayət edilsə də həqiqət həqiqətdir” [226, s. 367]. Vaqif Yusifli bu sözləri Qabilin “Nəsimi bazarında” şeiri haqqında yazır.

Şairin “Nəsimi bazarında” şeiri xalqın unutqanlığına, Vətənin dar günündə bir qurup insanın xırda hisslərlə yaşamasına qarşı bir üsyandır. Şair Çeçen xalqının mübarizəsilə bizim müharibəni müqayisə edir və üstünlüyü onlara verir:

Nəsimi bazarına
Niyə Çeçenistandan
Əsmir odlu küləklər?!
Atəşkəslə nə sayaq
Sakit olsun ürəklər?! [ 96, s. 140]

Atəşkəs olsa da hər gün cəbhə bölgəsindən şəhidlər gəlməkdə idi. Yeni şəhidlər xiyabanı salınmaqda idi. Deməkk, müharibə hələ davam edirdi. Onda bu müharibəni Çeçenlər kimi aparmaq, yəni düşmənə rahatlıq verməmək gərək idi. Axı atəşkəslə nəfəs dərən düşmən yenidən güc toplayaraq hücum edirdi!

"Qabilin şeirləri ona görə sevilib, dillər əzbəri olur ki, o, həqiqətin gözünə düz baxmağı bacarır. Ürəyi də, beyni də bu istiqamətə üz tutur. Bu səbəbdən də sinəsindən gələni heç kimdən, heç nədən çəkinmədən kağıza köçürür. Həqiqətin hökmündən, həqiqətin kəskinliyindən, hədlərin, sədlərin təzyiqindən çəkinməyərək, üsyana, etiraza qalxır" [75, s. 415].

Qabilin bu mövzuda yazdığı başqa bir şeiri "Lazım gəlsə..." adlanır və bu şeir də şairin növbəti etirazı, üsyanıdır,- desək, yerinə düşər. Xalq içində, tele - məkanlarda, mətbuatda tez-tez bir söz işlənir: Lazım gəlsə döyüşə hazırıq! Lazım gəlsə özümüzü tankın da altına atarıq! Şair bu sözlərin səmimiliyinə inanmır. Çünki çadır şəhərciklərində yayın istisindən, qışın boranından, tufanından insanlar məhv olmaqdadı. Bəs döyüşmək, vuruşmaq hansı zamanda olacaq?

Deyirsən ki lazım gəlsə hazıram,
Qəsb edilmiş bu torpağı almağa?
Vallah – billah eşitməkdən bezaram,
Hapla-gopla Qarabağı almağa! [96, s. 167]

Bu şeir yalnız özünü, cibini düşünən yalançı vətənpərvərlərin əsl simasını açıb göstərən poetik parçadır.

Qabilin muharibə dönəmində döyüşlərin nəticəsində öz ev-eşiyindən didərgin düşüb çadırlara sığınan insanlara müraciətlə yazdığı bir şeiri də var: "Çadırlara alışmayın!" Gördüklərinə qarşı alışmazlığı, barışmazlığı ifadə edən, ictimai-mənəvi yükün ağırlığını göstərən on bəndlik şeir öz dövrü üçün çox aktual idi:

Cərgə - cərgə, düzüm – düzüm,
Görüb qan ağlayır gözüm,
Millətimə budur sözüm,
Çadırlara alışmayın! [96, s. 128]

İmarətlərə, saraylara layiq olan bu xalq çadırlara necə sığınıb? Şair tələb və əmr də edir: "İmarətə tən olsa da, // Pəncərəsi gen olsa da, // Dövrəsi gülşən olsa da, // Çadırlara alışmayın!"

Tayfa deyil, millətik biz,
Bir evik, bir külfətik biz,
Saraylara şöhrətik biz,
Çadırlara alışmayın! [96, s.129]

Min illərin arxasından keçib gələn bu xalq, özünü, yurdunu, torpağını qoruyub bu günə qədər saxlayan bu millət indi bir ovuc düşmənə təslimmi olacaq?

Barışqanlıq cinayətdir,
Lap bir anlıq, – cinayətdir,
Alışqanlıq – cinayətdir,
Çadırlara alışmayın!

Düşməni məhv eləyin, torpağınıza dönün! Heç nəylə, heç kimlə barışmayın, razılaşmayın! - deyir şair. " " Çadırlara alışmayın" – xəbərdarlıqdır. Şair bilir ki, biz unutqanıq, bağışlayanıq. Bizi ayıldır ki, bəsdir. Vətən bütöv olmayınca, bizə dinclik yoxdur. Çünki Vətən parça-parçadır, vətəndaşları didərgin!" [200, s. 459]

Şairin "Çadırlar..." şeiri isə şaxtalı - boranlı qışda çadırların və orada yaşayanların vəziyyətinin təsviri, rəsmidir, - desək yanılmarıq. Şeirdə göstərilir ki, qışın şaxtalı, dəli küləkləri daş evlərdə yaşayanları belə üşüdür. Bəs, görəsən parça çadırlarda yaşayanlar necə dözür bu soyuğa, küləyə? Ən çox nənələr və körpə nəvələr, görəsən donmayıb ki? Daşı - divarı çatladan şaxta, ağacları kökündən qoparan külək çadırların özlərini necə, uçurub aparmayıb ki? İndi Vətənin bir parçası, xalqın bir hissəsi çadırlara bürünüb, çadırlarla qorunur. Qorunurmu?

Biz hoydu deyirik, birləşin daha,
Külək cövlan edir çadır içində.
Millətin ümidi qalıb allaha,
Ümid də it - batdır çamır içində... [96, s. 125]

Şeirin səmimiliyi, təbiiliyi və qaldırılan problem hər bir oxucuya siyarət eləyir.

Qarabağın, qarabağlıların çadırlara sığınması tezliklə ləğv olunmalıdır! "Çadır mühitinə vərdiş etmə, dur!"- deyir şair. "O üzgün qaçqınlar, süzgün çadırlar, // Tariximə yaddaş, Gözümdə yaşdır..."- deyə düşünür və düşündürür şair.

Akademik Bəkir Nəbiyev yazır: "Qabil bu gün yaraları qan verən Azərbaycanımızın sabahına nikbin nəzərlərlə baxır... Şair belə hesab edir ki, torpaqlarımıza erməni təcavüzü ilə bağlı qarşımıza daha böyük çətinliklər çıxa bilər, geriyə yol yoxdur. Bu günün mərhumiyyətləri, faciələri arasından azad, müstəqil Azərbaycanın şəfəqli üfiqləri, aydın, müzəffər sabahı görünür" [ 170, s. 357]. Çünki Vətənin bir parçası işğal olsa da, qalan hissəsi azad və müstəqildir! Müstəqil Azərbaycan sabah bu birliyi, bütövlüyi bərpa etmək gücündədir.

Beləliklə, Qabilin işğal olunmuş Qarabağ haqqında yazdığı şeirlər bir poetik üsyandır, haraydır, çağrışdır. Xalqına müraciətdir, ağsaqqal nəsihətidir, öyüdüdür. Və bütün bu deyilənlərin həqiqət olduğu İkinci Qarabağ müharibəsində bir daha sübut olundu.

**Sabir Rüstəmxanlının** yaradıcılığında, xüsusilə, poeziyasında Qarabağ müharibəsinin təsviri, ümumiyyətlə, Qarabağ mövzusu xüsusi yer tutur. Xalq şairinin Müstəqillik uğrunda gedən mübarizəyə, milli-azadlıq hərəkatına və Qarabağ savaşına həsr olunmuş əsərləri yetərincədir. Bu zaman kəsiyində müəllif həm meydan hərəkatında nitq, çıxışları ilə, həm də poetik, publisistik yaradıcılığı ilə öz sözünü yüksək səviyyədə deyə bilmişdir.

Onun bu səpkidə yazdığı "Qorxum qalmadı", "Siz nə umursunuz bu gedişatdan", "Bəxtiyar, Əli", "Xocalıdan sonra", "Xocalıya mərsiyə", "O torpaq bizləri götürməyəcək", "Bu mənim xalqım deyil", "Bunlar nə istəyir millətdən görən" kimi şeirləri göstərir ki, şair ictimai-siyasi hadisələrin gerçəkliyi içindən böyük ümid, sabaha olan inam, vətəndaş qeyrəti axtarır. Qarabağ müharibəsindəki ilk məğlubiyyətlər xalqı birliyə, möhkəmliyə, əzmkarlığa çağırdığı kimi, şair də bu fikirlərə yardımçı olur, ilk şəhidlərə ağı deyir:

Kim deyir yolları qırıldı, qısa,
Onlar əbədidir, batmayın yasa,
Bu sayaq ölməyi bacarırıqsa,

Hələ yaşayırıq, varıq deməli,
Həyat vəsiqəmiz Bəxtiyar, Əli!  [186, s. 188]

Şair müharibənin ilk qurbanlarından olan Bəxtiyarla Əlinin əbədi olduğunu, əbədi yaşarlıq qazandığını söyləyir və düşünür ki: "Bu sayaq ölməyi bacarırıqsa, hələ yaşayırıq, varıq, deməli".

"Sabir Rüstəmxanlı poeziyası milli şüur poeziyasıdır, xalqın, millətin öz mənliyini, böyük və əzəmətli keçmişini dərk etmək uğrunda mübarizəsinin, bütün rəsmi və qeyri-rəsmi yalanları, saxtakarlıqları darmadağın etmək uğrunda səfərbər edilmiş iradə gücünün, mətanət və mərdanəliyin, qarşısıalınmaz ruh qüvvəsinin poeziyasıdır" [212, s. 9].

Vətənin Bütövlüyü, Azadlıq ideyaları, Müstəqilliyə çağırış dövrün təmayüllərindən idi. Qarabağ münaqişəsinin başlanması və onun müharibəyə çevrilməsi poeziyada Qarabağ mövzusunu xüsusi olaraq formalaşdırmışdır. Bu mənada Sabir Rüstəmxanlı poeziyası ümumqarabağ mövzusunun poetikləşməsində önəmli rol oynayıb.

Asılıb qalmışam vaxt boşluğunda,
Daha bu sabahım, o keçmişim yox!
Mənim Xocalıdan başqa tarixim,
Mənim Xocalıdan başqa işim yox!    [188, s. 78]

Xocalıdan sonra qısılıb səsim....
Səsim o dağlara ilişib qalır...
Xocalı ləkəsi daşıyan millət,
Vuruşdan savayı nə işin qalır?!      [ 188, s.79]

Xocalı faciəsi Qarabağ müharibəsinin kuliminasiya nöqtəsi olduğu kimi, bu faciyəyə həsr olunmuş əsərlər də Qarabağ mövzusunda yazılmış əsərlərin içərisində əsas, qırmızı xətt kimi keçir. Və bu şeirlər bir başa şəhid şəhər, şəhid insan, şəhid Vətən adları altında qruplaşdırılaraq təsvir olunur.

"Xocalıya mərsiyə" şeiri şairin düşmən tapdağında inləyən yurda elegiyasıdır. Hər misrası bir ağıya, bayatıya, lay-laya çevrilən bu elegiyanın Sabir ruhuna, Sabir

qeyrətinə xas olduğu da aydın olur. Şair göstərir ki, düşmən güclü olduğu üçün yox, məhz hiyləgərliyi ilə, xəyanət yolunu tutduğu üçün indi qalibdir:

Yenə köhnə xəyanət...
Kişinin bir dili var,
Düşmən dili haçalı,
Min üzlü siyasətə
Qurban gedən Xocalı!.. [188, s. 81-82]

"Sabir Rüstəmxanlı haqqında" əsərində Xəlil Rza qeyd edir ki, "Bağrındakı, ciyərlərində və nəfəsindəki qəhrəmanlıq yanğısının tüstüsüz alovuna, atəşinə baxmayaraq bu poeziya nə qədər təvazökardır, iddiasızdır, babalar, atalar, ulular yanında sıxılan, kəmlər, gədalar yanında məğrur, başı uca və meydan oxuyandır! Təvazö və igidlik bu poeziyanın boyuna biçilib" [211, s. 69].

Ən böyük sevgi, ulu eşq Vətənə olan bağlılıqdır, doğulduğun, böyüdüyün torpağa olan sədaqətdir. Bu həqiqi sevgidən doğulan şeirlər də əbədidir, ölməzdir. Eyni zamanda basılmaz, əyilməz, əzilməz bir ordudur:

Qayıt, mənim gur nəfəsim,
Kür nəfəsim, sel nəfəsim.
Qayıt, yurdu xilas eylə,
Üstünə düşmən gülməsin! [186, s. 216]

"Qayıt" şeiri düşmənin hücumundan, Xocalı soyqırımından sonra geri çəkilən orduya və burda yaşayan bir elə, obaya, şairin çağırışıdır. Bu, Ulu, doğma, müqəddəs torpaqda düşmənin meydan sulamasına dözməyən şair xalqına üz tutub:

Yağmaladı mərə kafir,
Düşmən əlin qıran, qayıt!
Bakıda çadırlar qurma,
Şuşanı qaldıran, Qayıt!

Qayıt, ana südü içən,
Dünya bizə gülər, qayıt!
Ruhumuzu diriltməsək,

Azərbaycan ölər, qayıt!

Şeir ölkəboyu qaçqına, köçkünə çevrilən bir millətə müraciətdir. Eyni zamanda, bu misraların hər biri min topun, tankın görəcəyi işin gücündədir və ya aforizmdir, bir eli-obanı silkələmək qüdrətindədir:

Çəkənməssən bu ləkəni,
Olum, ölüm savaşıdır!
Qayıt, düşmən qabağında
Təklənən öz qardaşındır! [186, s. 216]

"Sabir Rüstəmxanlı içərisində olduğu ədəbiyyat və sənət mühitini daima qabarıqlığı ilə canlandırmağa, yaradıcı insanlarımızın şəxsiyyətinə ümumxalq məhəbbətini yaratmaq və dərinləşdirməyə xüsusi can atan, önəm verən bir ziyalıdır" [207, s. 59].

Yuxarıda qeyd etdiyim kimi, şairin ayrı-ayrı elm, ədəbiyyat xadimlərinə, onların göstərdiyi şücaətə, hünərə həsr etdiyi onlarca şeiri də var. Ağır dönəmlərdə bu xadimlər bir ordu qədər iş görmüş, xalqının, millətinin yanında olmuşlar. Lakin xalq - ziyalı birliyinə kölgə salan qüvvələr hər vaxt onu parçalamağa, dağıtmağa çalışmışdı. Şair öz poetik sözü ilə onların da cavabını verir:

Bu ulu millətin qanı müqəddəs,
Qılıncı müqəddəs, qını müqəddəs,
Bəs niyə dəyişdi, hanı müqəddəs?!
Heyif, Məmməd Araz, çağlarımıza! [188, s. 89]

"Azərbaycanın problemlərini yazıçı və şairlər kimi heç kəs dərindən bilməz, çünki onlar əlinə qələm alandan bu problemləri göstəriblər, həllinə diqqəti çəkiblər və imkan verdiyi dərəcədə özləri də çalışıblar..." [27, s.188].

Beləliklə, Sabir Rüstəmxanlının Qarabağ müharibəsinə həsr etdiyi şeirləri onun Müstəqillik, Bərabərlik, Azadlıq, Bütövlük uğrunda gedən mübarizəyə həsr etdiyi poetik nümunələrin bir hissəsidir. Bütövlükdə, şairin poeziyası milli vətənpərvərlik ruhuna köklənib və bir xalqın, millətin tale yükünün daşıyıcısıdır. Onun dilinin, ədəbiyyatının təmizlik simvoludur, problemlərinin həlli yollarının göstəricisidir.

**Nurəngiz Günün** poetik yaradıcılığında Qarabağ mövzusu önəmli yer tutur. Keçən əsrin 70-ci illərinin ikinci yarısında ədəbiyyata gələn, 80-ci illərdə özünü bir şair kimi təsdiq edən Nurəngiz Gün ən çox ictimai-siyasi, müharibə mövzusunda yazdığı əsərləri ilə ədəbiyyatda öz yerini tutub. Bu əsərlərdə insan faktoru önə çəkilərək yüksək dəyərləndirilir, qiymətləndirilir. Dağıdıcı, yıxıcı, hər şeyi məhv edən müharibələrə nifrət onun şeir-poemalarının əsas qayəsini təşkil edir.

Şairin Qarabağ mövzusunda yazdığı "Qarabağ silsiləsi" şeirlərindən "Kərəm ol sən, o gözəlin allahı", "Vətən", "Ox, Xudəvəndin divanə məxluqu", "Bir yırğalı nənniylə gedəcəyik dünyadan..." və s. şeirləri bu qəbildəndir. Sakit bir ahənglə, sərbəst vəzinlə qələmə aldığı bu nümunələr şairin poetik təfəkküründən süzülüb gələn həyat gerçəkliklərinin əks-sədasıdır.

"Kərəm il sən, o gözəlin Allahı" şeiri erməni güllələsiylə qətlə yetirilən on səggiz yaşlı gəlinin, ana olmağa hazırlaşan bir qadının ölüm anında onun bətnində qəlpələrdən param-parça olan körpəyə müraciətən yazılıb:

Kim öldürdü, körpə səni,
Doğulmayan əllərini?
Kim öldürdü gözlərini?
... Param-parçaydı qolların,
Şəhid etdilər səni.... [60, s. 53 ]

Erməni vəhşiliyinin əyani subutu, günahsız bir hamilə qadının güllələnməsi, hələ doğulmayan körpə ilə birlikdə məhv edilməsi Nurəngiz Günün şeirində əbədiləşib. Şair obrazlı, poetik şəkildə hadisəni elə təsvir edir ki, bir daha düşmənin iç üzünü, onun qaniçənliyini, özgə torpaqlarını tutmaq üçün qəddarcasına hər işə əl atmağını oxucu nəinki hiss edir, həm də onu əyani şəkildə görür, onun ağrı – acısını duyur:

... Dikilib göylərə o qara gözlər,
Qüssəli baxırlar göydən ulduzlar...
Qan aparır Fatimənin
Qara şəvə, cilvəli tellərini...
Kərəm ol sən, o gözəlin allahı,

Fatimənin sinəsi üstə qoydular ,

Körpənin param-parça əllərini.... [ 60, s. 53]

"Ox, Xudavəndin divanə məxluqu" şeiri erməni zülmündən pərən-pərən düşmüş didərginlərə, qaçqınlara həsr olunub. Qarabağın uca dağlarında yuva salmış Qartala müraciətən yazılıb:

Qayıtma, qoca qartal, qayıtma,
O qaya daha səninki deyil!
Artıq orda - sənin çətirli yuvanda,
Çil-çil ala qarğalar
Yumurtalar qoydular... [60, s. 107]

Qartal yuvasına qarğaların yumurta qoyması – qədim-qayım Azərbaycan torpağında ermənilərin məsgən salması şairin şeirində təbiətdə və cəmiyyətdə baş verən təzəadların göstəricisidir.

"Bir yırğalı nənniylə gedəcəyik dünyadan" şeiri bir-birini məhv etməyə çalışan insanlara müraciətən yazılıb. Şair eyni sakit, poetik bir ahənglə həyat gerçəkliyini, hər gün görsək də, heç də dərindəh dərk etmədiyimiz olumu və ölümü əks elətdirir:

Bu dünyaya gəlişi
bir yırğalı nənni ilə
başlanan insan!
Bir yırğalı nənni ilə də
gedəcəyik dünyadan...
Kiçik nənnimizdə insan gəlişi,
Böyük nənnimizdə insan gedişi... [60, s. 106]

Lakin bu adi həyat həqiqətini dərk etmək istəməyənlər dünya müharibələri törətməklə dünyaya yiyələnməyə çalışırlar. Şairin onlara sözü çox sadə və qətidir:

Qoruyaq dünyamızı
qıl körpülü ömürlərdən!
Qoruyaq, insanlar, qoruyaq!
Əsla yamanlıq deyil
yaxşılıq arayaq.... [60, s. 106]

Nurəngiz Günün “Vətən” şeiri də, bu mənada səmimidir, ibratamizdir. Vətənə üzünü tutan, onu qədimliyindən, qədəmlərindən, suyundan, havasından, uca göylərindən tanıyan şairin ürək sözləridir, duyğularıdır.

Ömür yolun nə göynəməli...
İtib getmiş bir qarışına da göynəməli... [60, s.105]

Bu torpağı qoruyan, düşmənə od qoyan dədə - babaların təsviri, döyüşü də şeirin oxunaqlı, səmimi olduğunun subutu, karantıdır.

Qarabağ mövzusunda təbii, səmimi, real şeirləri ilə tanınan, yadda qalan şairlərdən biri də qaçqın, köçgün, uzun illər Çadır şəhərciyində yaşayan, bu şəraitdə belə qələmini yerə qoymayan **Əbülfət Mədətoğludur**. Hər bir insan, xüsusilə şair üçün ən ağır, ağrılı, çəkiləsi çətin olan yük, qurduğun yuvanın, bütövlükdə bir obanın, elin itirilməsi və uzun müddət qaçqın, köçgün həyatı yaşamasıdır. Mədətoğlu o günlər haqqında özü belə yazır:

Yandı evim, eşiyim,
Yandı divarım daşım...
İsit, qoyma üşüyüm,
İsit məni, göz yaşım... [154, s. 4]

Mədətoğlunun mövzu dairəsi genişdir. Onun yazdıqlarını qruplaşdıranda məlum oldu ki, ən çox yurd yanğısı, el - oba dərdi, həsrəti üstünlük təşkil edir.

Əbülfətin ilk şeirləri təbiət, ana, ata, dostlar haqqındadır. Bu da təbiidir. Gözünü dağların qoynunda açan şairin ilk müraciət etdiyi yer də elə təbiətin özü olmalı idi. Şeirlərinin, kitablarının adları da təbiətdən bəhs edir. “Nilufər çiçəyi” kitabında toplanan şeirlər kimi: “Ana”, “Nilufər çiçəyi”,”Azıx”, “Ana vətən”, “Qavaldaş” və s. Daha sonra şairin məhəbbət şeirləri gəlir: “Bu qızın”, “Qalıb”, “Ondan sonra”, “Doymamışıq məhəbbətdən” və s. Bütün bunlar Əbülfət Mədətoğlunun 80-ci illər yaradıcılığındandır. Çünki şair 80-ci illər ədəbi nəslinə mənsubdur. Bu illərin də öz mövzu dairəsi vardır, təbiət, vətən, onun inkişafı, təsvir və tərənnümü.

90-cı illər ədəbiyyatının isə özündən əvvəlki ədəbiyyatdan cox fərqləndiyini yazmışdıq. Yəni, əvvəlki həyat, cəmiyyət, sosial durum, sosial quruluş birdən - birə, qısa zaman kəsiyində dağılmış, necə deyərlər, yox olmuşdur. Və bu da ədəbiyyatın,

poeziyanın yönünü, istiqamətini dəyişmişdi. Bu dövrün də öz mövzusu, ideya istiqaməti yaranmışdır. Əbülfət Mədətoğlu realist şair olduğundan yeni zamana köklənmiş, ən ağrılı mövzularda qələmini sınamışdır. Bu mənada şairin "Dərdini danışan adam" kitabında toplanan poetik nümunələr bunu deməyə əsas verir ki, onun lirik qəhrəmanı məhz elə özüdür. Şairin yazdıqları "Üşüyür", "Nişanə", "Dağlar", "Ümid yeri", "Çadırda keçən ömür", "Ağırdı", "Mənim dərdim", "Nağıl", "Qəbir daşı", "Müqəddəs dava" kimi onlarla poetik parçaları çadır şəhərciyində yaşadıqlarının əksi - sədasıdır.

Qaranlığa süzülən –
Bir barmaq işıq üçün,
Ümid yerimsən, ümid…
Günəş od püsgürəndə -
Görünən topa bulud,
Ümid yerimsən, ümid… [154, s. 9]

Şairin lirik qəhrəmanı həm ata ocağının, ana yurdunun itgisinə dözməli, həm də çadırın isti, soyuğunda yaşayıb yazmalı idi:

Mən bu qaçqın millətin,
Bir sıra nəfəriyəm…
İçimdə dərd, qəm yatır.
Çiynimdə gəzdirdiyim
Yurdsuz övladlarımın
Kəndiyəm, şəhəriyəm –
Başımı onlar qatır… [154, s. 12]

Şair gördüklərini, yaşadıqlarını, qəlbinə hopan yanğını, ağrını, nisgili sakit – sakit dilə gətirir və qələmə alır. Müharibənin yaratdığı sərt, ağır, fərəhsiz günlərin çoxluğunda o özünü nağılla ovundurur: "Ətəyimdə daş, ovcumda qum, ağzımda su daşıyıram,// İynə boyu divar hörüb, ev olacaq deyirəm bu…// Bu ümidlə yaşayıram…" [154, s. 17]. Şeirləri oxuduqca çadırda keçən insan ömrü sanki bir - bir vərəqlənir.

Çadır, vaqon evlər haqqında ədəbiyyatımızda müxtəlif janrlarda çox əsərlər yazılıb. Fərq orasındadır ki, bir var bu çadır evlərə kənardan, uzaqdan baxıb, müşahidə edib yazasan, bir də var onun içərisində yayın istisində, qışın tufanında yaşayıb gördüklərini, duyduqlarını, yaşadıqlarını yazasan. Bu yerdə Qabilin məşhur "Çadırlar…" şeirini xatırlamamaq mümkün deyil. Bu şeiri Əbülfət Mədətoğlunun "Üşüyür…" şeiri ilə müqayisə etmək yerinə düşərdi. Bakıda yaşayan, qarlı, tufanlı dekabr gecəsində Qabil tüğyan edən küləyin səsini dinləyə - dinləyə düşünür ki, bu qar - boran isti, daş evlərdə yaşayanları belə üşütdüyü, titrətdiyi halda, görəsən o nazik parçaya - çadıra sığınmış insanlar necə yaşayır, necə dözürlər bu şaxtaya?

Səksənib oyandım gecə tən yarı,
Dağıdıb tökürdü aləmi külək.
Şaxta çatdadırdı daşı, divarı,
Ağaclar əsirdi nalə çəkərək!!! [96, s.125]

Şair düşünür ki, axı bu çadırlara bürünənlər Vətənin ayrılmaz parçalarıdır. Onlar necə qorunurlar? Ümumiyyətlə, qoruna bilirlərmi?

Biz hoydu deyirik birləşin daha,
Külək cövlan edir çadır içində!
Millətin ümidi qalıb allaha,
Ümid də it – batdır çamır içində!

Ən yaxın keçmişimizi əks etdirən bu şeir mətbuatda çap olunan zaman mən ona cavab olaraq yazmışdım: "Şeirdə qoyulan problem, qaldırılan məsələ hamını düşündürən, həyəcana gətirən məsələdir. Hər kəsin qəlbində şırımlar açan bu bəla-Qarabağın, Qarabağlıların çadırlara sığınması tezliklə ləğv olunmalıdır" [19, s. 51].

Demək, o boranlı - qarlı çadırı təkcə kənardan görən, seyr edən yox, həm də onun içərisində yaşayan Əbülfət Mədətoğlu isə belə yazırdı:

Hər çadırda bir ürəyin işığı,
Hər ürəkdə qaralan qor üşüyür.
Gözümüzü ovub tökür tüstüsü,
Xiffət çəkib çatlayan qor üşüyür...

Yağış yağır, od - ocaqsız nəm çadır...
Medalyondur sinəmdəki qəm-andır...
Tanrım, özün bircə çınqı tap, yandır,
Deməsinlər qaçqın nə zor üşüyür ! [154, s. 6]

İstisini külək aparan, tüstüsü göz dağlayan çadır sobalarının qoru da üşüyür. Müəllif yazır: "Çadır şəhərlərində süpürgəyə ehtiyac duyulmur. Zaman özü süpürür, aparır nə varsa…"

Müharibənin törətdiyi bu faciələr müasir Azərbaycan poeziyasının əksər mətnlərində vardır. İstər Bakıda - mərkəzdə yaşayan, hadisələri uzaqdan izləyən şairlər olsun, istərsə də hadisələrin mərkəzində, cəbhə bölgəsində yaşayanlar, yazdıqları poetik əsərlərin tutumu, faktların təsvir, tərənnümü baxımından o qədər də fərqlənmir, əslində oxşardılar. Yəni hər iki tərəfdən ədəbiyyata gətirilən şeirlər səmimiliyi, reallığı, təbiiliyi ilə eynilik təşkil edir. Qarabağ müharibəsi, şəhidlik, itkilər, ictimai – siyasi hadisələr, qaçqınlıq, köçkünlük Vətənini sevən, xalqının dərdinə yanan hər bir şairin dərd ağacına çevrilir. Lakin fərqli çəhətləri də yox deyil. Baş verən hadisələrə hər şairin öz xüsusi baxışı, özünəməxsus yanaşma tərzi, xüsusi dəst-xətti də vardır:

Torpaq nəm, çadır nəm
Ocaqsa soyuq –
Sazaq qılınc kimi kəsir adamı... [154, s.10]

Əbülfət Mədətoğlunun "Saman çöpü", "Nağıl", "Qəbir daşı", "Üşüdüm", "Müqəddəs dava", "Olur", "Kəndim", "Dəyirmanın dəni yoxdur", "Bundan sonra" kimi şeirləri şair qəlbinin Vətəninə, özünə və soydaşlarına elegiyasıdır. Əbülfətin Qarabağ mövzusunda yazdığı şeirlərini oxuduqca onun çağdaş şairlərdən bir fərqini də aşkar etdim. Şairin bütün şeirləri daxili monoloq kimi səslənir. Birbaşa öz "mən"indən çıxış edir. Günahkar, səbəbkar, düşmən axtarmır, sanki öz - özünə pıçıldayır:

Şaxta kiçik nəfəslikdə buz bağlayır,
Soyuqdan ilik donur...
Çadır divarlar içindəki -

Boşluq soyuqla dolur...
Həsrət çəkən gözlərin
kirpiklərindən asılır qrov...
Eh, bir də ki nə fərqi,
Şaxta olsun, ya isti,
Orda ruhlar girov,
Burda ümidlər... [154, s.18]

Göründüyü kimi, şair burada hayqırmır, qışqırmır, düşmənin haqsız, ədalətsiz, vəhşi olduğunu subut etməyə çalışmır. Bəlkə də bu Mədətoğlunun bir insan kimi xarakterindən, xasiyyətindən, zahiri sakitliyindən irəli gəlir. Daxilində isə tufanlar qopsa da çox təmkinlə, adi söz söyləyirmiş kimi hadisələri təsvir edir. Nəticəni, qəzəbi, nifrəti oxucunun öhdəsinə buraxır:

Çadır nazik, bayır şaxta,
Üşüyürəm boş otaqda,
Bu taleylə, bu cür baxtla,
Yaşayıram düz on ildir.... [154, s. 8]

Hadisələri, olmuşları, olanları hardasa qədərə, taleyə bağlasa da, nədən Mən, - deyə şair düşünsə də, oxucu üçün hər xırda detal olduğu kimi aydındır. Şairin realist qəhrəmanı tək deyil. Onlar tam bir milyon nəfərdir. Evindən, yurdundan zorla, təhdidlə, hiylə, şər, böhtanla, silahla çıxarılıb qovulan qaçqın, köçgün ailəsi olaraq tam bir milyon nəfərdir. Dərd çoxalanda adiləşir, deyiblər. Bəlkə də ağrı, acının çoxluğundan, sonsuzluğundandır, əhatə dairəsinin böyüklüyündəndir ki, şair "Bizə dərdimiz bəsdir,// Qalan hər şey əbəsdir!" – deyə sakitcə pıçıldayır.

**Nurəngiz Gün** Qarabağ hadisələriylə bağlı "Xocalı simfoniyası" poemasını yazıb. Əsər ayrıca "Poemaların əks etdirdiyi tarixi gerçəklik" fəslində təhlil olunacaq. Lakin burada onun mövqeyini, hadisələrə poetik etirazının formasını digər şairlərin şeirləri ilə müqayisə etmək istəyirəm. Bakıdan Xocalı faciəsini izləyən Nurəngiz Gün müharibə törədənlərə hayqırır:

Əl çəkin! Qırın hərbin belini!

...Doğrayın müharibə sözünü,
Siliniz lüğətdən!
İnsanı düşünün! Ürəksiz Məliklər!
Dünya kələkbazları!
Dü...şü...nün!!!
Dünya yalnız sizin deyil !

Düşünün !!!
Düşünməyə çox dəyər !!! [ 59, s. 46]

Demək, Qabilin nəsihətlə təsvir etdiyi, Sabir Rüstəmxanlının təsvir və tərənnüm etdiyi, Əbülfət Mədətoğlunun isə pıçıltı ilə göstərdiyi hadisələri Nurəngiz Gün hayqıraraq bəyan edir, - desək, yanılmarıq. Ədəbiyyat da elə bu fərqliliklərin məcmusudur və onların birliyindən yaranır, formalaşır, bütövləşir, əbədiləşir. Çünki hər şair, yazar həyata, dünyaya, cəmiyyətə, insanlara öz baxış bucağından yanaşır və öz gördüyünü, görə bildiyini, düşündüklərini özünəməxsus şəkildə, öz dəst - xəttiylə yazır.

Mədətoğlunun poetik dərdi, yanar ocaq kimi həmişə közərməkdədir. İçdən alovlanıb, içdən yanmaqdadır. Yurdunu qoyub gəldiyi üçün özünü tez - tez qınayır: "Qaldım havada,// Qoruya bilmədiyim, //Doğulduğum kənd, bağışla, //Bağışla ki hələ şəhid deyiləm, // Uğrundakı müqəddəs davada!" Şair "Vətən, səni sevirəm! – deyə hay - küy də salmır. Lakin yazdığı hər bənddə onun adını çəkir, itgisinin necə ağır olduğunu, necə göynətdiyini, yandırdığını sadəcə təsvir edir.

Akademik Bəkir Nəbiyev İkinci Dünya müharibəsi mövzusunun ədəbiyyatda işlənməsindən bəhs edərkən yazırdı: "Müharibə insanların mənəvi həyatını gərginləşdirmişdi. Onların böyük əksəriyyəti məsafəcə bir - birindən ayrılmışdı. Fərəh, səadət hislərinin yerini bir sıra hallarda hüzn, kədər, hicran və maddi çətinlik fikri tutmuşdu" [170, s. 67]. Beləcə, müharibənin öz qanunları, qaydaları, diktələri var. Poeziyanın lirik qəhrəmanı bu ağır həyat tərzinə hazır olmalı və mübarizədən də geri çəkilməməlidir. Çünki söhbət Vətənin həyatından, taleyindən, onun Birliyindən, Bütövlüyündən, Azadlığından gedir.

Məlumdur ki, Müstəqillik dövrü Azərbaycan Ədəbiyyatının yaranmasında, formalaşmasında 80-ci illər ədəbi nəslinin müəyyən, özünəməxsuz rolu, dəsti - xətti, geniş fəaliyyəti vardır. Lakin araşdırmalardan görünür ki, 80-ci illərdə ədəbi materialların az çap olunması baxımından bu ədəbi nəsil özündən əvvəlki ədəbi nəsllərin təsir dairəsindən çıxa bilməmişdir. 90-cı və sonrakı dönəmlərdə isə onların ədəbiyyatda yeri, mövqeyi aydın görünməyə başladı. Onlar bir çox janrda qələmini sınadılar. Müqayisə üçün bu nəslin fəal üzvülərindən biri olan şair, nasir, ədəbiyyatşunas **Gülxani Pənahı** vurğulamaq istəyirəm. Bu dönəmlərdə nəşr etdirdiyi kitabların adından da göründüyü kimi - şair dövrün bütün mövzularına toxunub: "Yurd yanğısı", "Dədə Şəmşir harayı", "Bura vətəndir", "Qarabağ dərdi", "Oğuz şəhidləri, itkilər", "Torpaq sənin, vətən sənin" və s. Xalq şairi Söhrab Tahir Gülxaninin yaradıcılığından bəhs edərkən yazır: "Gülxani Pənahın vətəninə sonsuz məhəbbətlə, qayğılarla yanaşan qaynar, alovlu bir ürəyi var. Onun ürəyinin odu, közü yaratdığı sənət əsərlərindədir". Daha sonra Xalq şairi qeyd eləyir ki, "G. Pənah əsərlərində zaman-zaman təcavüzə məruz qalan, işğalçıların yeritdiyi siyasətlərin qurbanına çevrilən, onun acı faciələrini yaşayan xalqının xoşbəxt gələcəyinə böyük ümidlərlə yanaşır" [206, s. 3- 4].

Gülxani Pənah öz fikirlərini ifadə edərkən xalq yaradıcılığından yetərincə bəhrələnir və yeri gəldikcə də istifadə edir. Onun bayatıları bu mənada günümüzün güzgüsüdür. Bu dörd misralıq, yeddi hecalıq şeir bəndləri bitmiş bir poetik fikri, düşüncəni əks etdirmək baxımından çox güclüdür, oxunaqlıdır, yadda qalandır:

Qara yellər əsdi, gəl,
Düşmən yolu kəsdi, gəl...
Qırdı hicran belimi,
Qayıt oğul, bəsdi, gəl! [182, s. 130]

Gülxaninin yaradıcılığında yer alan bu səpkili bayatılar ən çox müharibə mövzusundadır. Ananın dilindən səslənən, çağrılan bayatılar elə ana qəlbinin harayı, ah-naləsidir. Sevə-sevə böyütdüyü oğlunu Vətənə qurban verən Ananın gücü yalnız bayatı ilə onu oxşamağa çatır.

Gənc tədqiqatçı Aygün Sultanlı G. Pənahın bayatıları haqqında yazır: "Müəllifin qələmə aldığı bayatıların əsas mövzusunu Vətən dərdi, Vətən həsrəti təşkil edir" [201, s. 150]. Ən çox da əsir düşən Qarabağ bu bayatıların baş mövzusudur, - desək, yanılmarıq.

Bulud kəsib yolunu,
Tökür, leysan, dolunu...
Sənə qıyan düşmənin,
Allah qırsın qolunu! [182, s.134]

"Əgər sənətkar öz poetik duyğularında mənsub olduğu millətin, xalqın, istək və arzularını, fikir və ideyalarını bütün incəliklərlə əks etdirməyi bacarırsa, demək o xalqın qəlbinə yol tapan əsl sənətkardır" [ 206, s. 5]. Bu sətirlərin müəllifi Söhrab Tahir daha sonra göstərir ki: "İrəliyə böyük ümidlərlə baxan şair bəzən ədalətsizlikdən üşənib dünyadan şikayətlənsə də, onun ümid və inamında Azərbaycanın şərəfli və xoşbəxt gələcəyinə inam böyükdür. O inanır ki, onun Vətəni azadlığını, müstəqilliyini, bütövlüyünü tezliklə bərpa edəcək. Çünki xalqının gücünə, qüdrətinə inanır, əqlinə, zəkasına bələddir" [206, s. 5].

Vətənpərvər, insanpərvər, yurdsevər şairin dağlar haqqında da şeirləri çoxdur. Tez-tez qonağı olduğu Kəlbəcər dağlarının bu gün düşmən əlində qalmasını heç cür qəbul edə bilmir. Şair düşünür və düşündürür ki, həmişə türk tayfalarının məskəni, qalası, səngəri olmuş bu axarlı-baxarlı dağlar, ilk yurd yerlərimiz indi yağıların tapdağına necə dözür? Bir vaxtlar Aşıq Ələsgərin, Səməd Vurğunun, Dədə Şəmşirin vəsf etdiyi "Qüdrətdən səngərli, qalalı dağlar", gülündən, çiçəyindən, böcəyindən bəhs etdiyi Kəlbəcər dağları indi əsirlikdədir.

Dədə Şəmşir haqqında Gülxani Pənah həm elmi əsər yazıb, onun həyat və yaradıcılığını tədqiq edib, həm də ona poema həsr edib. Hər iki əsər haqqında şair Fikrət Sadığın fikirl - düşüncələri "Dədə Şəmşir harayı" kitabının ön sözündə yer alıb: "Bu kitabda iki haray var:

Aşıq Şəmşir harayı bir haray – nəsr,
Dədə Şəmşir harayı bir haray – nəzm.
Bir haray üstünə gəl bir haray,

İki haray olmaz, fəryad olar! Burdakı haraylar bir-birini tamamlayır, bir-birinə çırpılır, bütöv olur, bu bütövlük də elə bütöv fəryaddır" [178, s. 3].

Düşmən tapdağında qalan Dədə Şəmşir ocağı indi yelin sovurduğu külə bənzəyir. Şairin fəryadı da elə bunun üçündür. Axı külə dönən cənnət məkanlarımız hələ də yanmaqdadır və çoxdur.

Tanınmış şair, filologiya üzrə fəlsəfə doktoru Firuzə Məmmədli Gülxani Pənahın yaradıcılığı haqqında yazır: "Onun mövzuları çoxşaxəlidir - şaxlı - budaqlı tut ağacını xatırladır. Məhsuldardır... Həyalıdır... Gülxaninin poetik axtarışları çox vaxt qadın taleyinin zaman, məkan, qayğı, dözüm, ağır zəhmət prizmalarında arıtlanır" [182, s. 3]. Firuzə Məmmədlinin fikrincə bütün bunlara səbəb onun şeirlərinin hər birinin öz taleyi, öz həyatı, öz xarakteri olmasıdır, bu da şair üçün çox vacib amildir.

Əsirlikdə qalan dağları uzaqdan seyr edib vəsf edən şairin hər misrasının dərd yükü ağırdır, böyükdür:

Gözlərində həsrət, qubar kölgəsi,
Ana yurdum, ğözəlliyin göz kəsib,
Doğma yurdu məngirləyib özgəsi,
Dağ çəkibdir bu ayrılıq köksümə! [180, s.111]

Xalq şairi Fikrət Qoca Gülxaninin şeirləri haqqında yazır: "Gülxaninin şeirlərində Vətənə, torpağa ehtiram, onun igidinə, şəhidinə olan hörmət və məhəbbət deyim tərzinə görə oxucunu cəlb edir. Bəzi şeirlərində balası düşmənlə üzbəüz dayanmış ananın çəkdiyi ağrı-acılar, yuxusuz gecələrin verdiyi əzablar qəlbimizi parçalayır, bəzi şeirlərində isə əlində silah düşmənlə vuruşan hazır bir cəngavərin səsini duyuruq, qəlbimiz riqqətə gəlir!" [180, s. 5]

Demək, Gülxanin poeziyasında da Vətənin bütöv obrazı var. Şair Vətəni bütün halı ilə təsvir və tərənnüm edir. Yaradıcılığında isə Qarabağ hadisələrinə daha çox yer və önəm verib.

**Elçin İsgəndərzadənin** Qarabağ hadisələrinə həsr etdiyi şeirləri kifayət qədərdir. Şair, tərcüməçi, texnika elmləri doktoru, professor Elçin İsgəndərzadə 90-cı illər ədəbi nəslinə mənsubdur. Onun ilk kitabı –"Yaşamaq dərsi" 1996-cı ildə çap

olunub. Şairin təbii, səmimi, real həyatı əks etdirən poetik yaradıcılığı çox zəngindir. O müxtəlif mövzularda qələmini sınayıb. Lakin onun da baş mövzusu Vətən, müstəqillik uğrunda aparılan mübarizə, Qarabağ, qaçqın, köçgün problemi olub.

Şuşada doğulan, Ağdamda böyüyən Elçinin poeziyasından Qarabağ həsrəti, ağrısı, yanğısı qırmızı xətt kimi keçir. Şairin bu mənada "Qanlı şeir", "Sevdalı gilənar yarpağı", "Qalırmı", "Qızılgül ləçəyinə yazılmış duyğular" və onlarca şeirləri diqqəti çəkir.

Oğul odu qarabağlı ola,
Özü də qərib şair,
Sinəsi dağlı ola...
Və günlərin bir günü...
Gedib çıxa Dördyola...
Öndə Ağdam...qənşər Şuşa.. [ 81, s. 21]

Sözün həm həqiqi, həm də məcazi mənasında dörd yolun ayrıcında qalan şairin lirik qəhrəmanı böyüdüyü ata-baba yurduna gedə bilmir. Çünki yağı düşmən yolları da, hər bəndi, bərəni də kəsib. Şairin lirik qəhrəmanı bu yolların ayrıcından pıçıldayır: "Ürək qanlı bir çiçək, // Könül sınıq bir şüşə..."// Ümidin qolları bağlı,// Bütün yolları bağlı..."

Xalq şairi Məmməd Araz Elçinin poeziyasını, xüsusilə, Vətən mövzulu əsərlərini yüksək qiymətləndirərək yazır: "Bədii, poetik sözün ilahi dəyəri hamıya bəllidir. Bədii sözün dəyərini, qiymətini bilənləri SÖZ həmişə müqəddəs ucalığa yüksəldib... Şübhəsiz ki, həmin yüksəlişin poetik məkanı müəyyənləşdirən Allah vergisidir". Daha sonra Xalq şairi Elçinin Vətən şeirlərinə də toxunur: "Elçinin şeirlərində Vətənə, torpağa doğma, mərhəm münasibət bütün tarixi çalarlarla, yəni onun dünəninə baxış, bu gününə qayğı, sabahına narahatçılıq hissləri, vətəndaşlıq yanğısı ilə poetik şəkildə əks olunur" [6, s. 5-6]

Düşmən əsirliyində qalan dağlar hər gecə şairin yuxusunda qonaq olur. O laciverd dağlar ki, gecələr onun hər otunun, çiçəyinin həmərsin qoxusuna Ay da yer üzünə yenərdi: "O qərib dağların ruhu girər şair yuxusuna,// Gecə Ay da uçub gələr bir həmərsin qoxusuna..." Qarabağlı şairlərə üzünü tutan şair sanki bütün dərdini,

ağrı-acısını onlarla bölüşür, onlarla dərdləşir və düşünür ki, Qarabağ qaranlığa qərq olub, insanlıqdan, dünyadan uzaq düşüb.

"Elçinin həyat və yaradıcılıq marşurutu belədir: Şuşa - Gəncə - Bakı - Dünya. Elmdə professor səviyyəsinə çatıb. Şairliyi ondan geri qalan deyil. Onlarla kitabın müəllifidir. Xeyli sayda əsərləri xarici dillərə tərcümə olunub. Haqqında kitablar yazılıb" [119, s. 59]. Bu sözlərin müəllifi yazıçı Qərib Mehdidir. Yazıçı qeyd edir ki, şair nə qədər Qarabağ dərdi ilə yüklənsə də heç vaxt ümidini, inamını da itirməyib. Çünki inanıb ki, biz Qarabağa qayıdacağıq.

Elçin İsgəndərzadə bir çox dünya ölkələrinə səyahət edib. Qərb ölkələri, Şərq dünyası, Amerika həyatı onun bir çox əsərlərində öz bədii həllini də tapıb. "Qırx qapılı dünyanın otuz doqquzundan keçdim...// Qırxıncı qapıdayam,- yenə bu taleyi seçdim.."- deyən şair hardan, nədən yazır yazsın ordan mütləq Vətən, onun Qarabağ dərdi, doğma yurdun ağrı-açısı boy verir.

### 1. 3. İkinci Qarabağ müharibəsi – Vətən müharibəsi poeziyamızda

Azərbaycan Respublikası öz ərazi bütövlüyünü, suverenliyini bərpa etmək üçün otuz il Qarabağı zəbt edərək əsirlikdə saxlayan erməni ordusuna qarşı İkinci Qarabağ müharibəsinə başlamağa məcbur oldu. 27 sentyabr – 10 noyabr 2020- ci il zaman kəsiyində, yəni 44 günlük Vətən müharibəsində Azərbaycan ordusu Şuşa da daxil olmaqla Dağlıq Qarabağ ətrafında olan 7 rayonu azad etdi. Dağlıq Qarabağa nəzarəti ələ keçirdi. Yəni döyüşçülərimiz 6 şəhəri, 4 qəsəbəni, 286 kəndi və Azərbaycan - İran sərhəddini düşməndən geri aldı. Qalan ərazilər danışıqlar yolu ilə bərpa edilməyə başladı. Bu döyüşlərdə Azərbaycan Ordusu 2902 nəfər şəhid verdi, 7 nəfər itgin düşdü, 12 hərbici erməni ordusu tərəfindən əsir götürüldü. İndi azad edilən ərazilərdə quruculuq işlərinə başlanılıb.[ 290 ].

İkinci Qarabağ müharibəsinin – Vətən müharibəsinin başladığı andan ədəbiyyat, söz adamları – bütün ədəbi nəsillərdən olan şair, yazarlar öz yaradıcılıqları ilə, şeir, bədii publisist yazıları ilə Ordunun – onun igid oğullarının yanında idi. Bütün tarixi

faktlar, tarixi döyüş günləri, ümumiyyətlə, İkinci Qarabağ müharibəsinin gedişi, onun hər anı, günü ədəbiyyatımızda səmimiyyətlə, yüksək dərəcədə vəsf olunub. Əlbəttə, ilk nümunələr ədəbi hadisə olmasa da poetik tərənnümlər çoxdur və diqqəti çəkir. Bu dönəmdə ədəbiyyat camiyəsində kifayət qədər şeirlər və poemalar yazılıb. Həmişə olduğu kimi bu 44 günlük müharibə və Böyük Zəfər günlərində də yenə vətənpərvərlik duyğularının zəngin olduğu şeir – poeziya ədəbiyyatın önündə gedirdi. Xalq şairlərindən Nəriman Həsənzadə, Vahid Əziz, Sabir Rüstəmxanlı, həmçinin şairlərdən Abuzər Bağırov, Elçin İsgəndərzadə, Əbülfət Mədətoğlu, Ramiz Duyğun, Vaqif Aslan, Vaqif Bəhmənli, Məmməd İsmayıl, Dəyanət osmanlı, Avdı Qoşqar, Əkbər Qoşalı və b. ( bu siyahının özü də bir orduya bərabərdir) yazdıqları ilk tərənnüm şeirlərini dövrü mətbuatda dərc etdiriblər.

Nəriman Həsənzadənin "Zəfər yolu" lirik poeması həm yeni çəkilən Şuşa yolu - Zəfər yolundan, həm ordumuzun şücaətindən, Böyük Qələbəsindən, Zəfərindən, həm də Şuşanın tərənnümündən bəhs edir. Şair Ali Baş Komandanın məşhur cümləsini epiqraf kimi götürüb: "Burada səhvə yol verilə bilməzdi. Çünki bu, tarixi məsuliyyətdi..."

Şuşa yolu – Zəfər yolu,
Otuz illik səfər yolu! –

Şuşaya – Qarabağın mərkəzi şəhərinə getmək üçün biz otuz il hazırlaşmışıq. Otuz il zaman qət etmişik. "Şuşa yolu, Zəfər yolu, // Sevinc yolu, məhşər yolu..." Bu yolla Şuşaya doğru irəlilədikcə şair gördüyü hər şeyi - dağılan evləri, yandırılan körpüləri, məhv olan, silinən kəndləri öz poetik sözü ilə ədəbiyyata gətirir: "Uçan körpü, yanan meşə,// Ərşə çəkir məni, ərşə!"

Zəfər yolunun sonunda məğrur, müqəddəs Şuşanın tərənnümü poemanın əsas hissəsidir:

Salam Şuşa, Cıdır düzü!
Yer üzünün cənnət üzü!
... Sən mənim könül aləmim,
Muğamım, sazımsan, Şuşa!
Zirvədə qarlı qışımsan,

Dərədə yazımsan, Şuşa!  [29,  s. 233]

Şuşanın rəmizləri olan Xarıbülbülün, İsa bulağının, Cıdır düzünün tərənnümü də poemanın oxunaqlı yerləridi. Şəhərin bünövrəsini qoyan Pənah xanın  ruhunun indi şad olmasını şair sevinclə xəbər verir və poemanın sonunda göstərir ki, "Bu torpağın hər qarışı Şəhidlərdən əmanətdir, // Əmanətdir, əmanətdir!"

Moskvada yaşayan alim-şair Abuzər Bağırovun "Zəfər nəğməsi" də Azərbaycan oğullarının qəhrəmanlığından fraqmentlərdir [17]. Dörd bölmədən ibarət olan poema şairin daxili duyğuları, Böyük Qələbəyə həsr etdiyi Zəfər nəğməsidir. Əsəri Dostluq nəğməsi də adlandırmaq olar. Əsərdə Vətən müharibəsi zamanı xalqımıza maddi, mənəvi dəstək olan Pakistan və Türkiyə  dövlət başçılarının, bu ölkələrin  xalqlarının tərənnümü bunu deməyə əsas verir. Dastanın "Zəfərin özü səndə, Ali Baş Komandanım" hissəsi prezident İlham Əliyevə, "Sayın Cumhur Başqanım" hissəsi Türkiyə Respublikasının Prezidenti R. T. Ərdoğana, "Əziz Vəziri - Əzəm!" hissəsi isə Pakistan İslam Respublikasının Baş naziri İmran xan  Əhmədə həsr olunan poetik müraciətdən ibarətdir. "Müqəddəs Qalib Üçlük!" adlı dördüncü hissə  Azərbaycan, Türkiyə və Pakistanın dostluğundan, birgə mübarizəsindən bəhs edir.

Poema haqqında akademik İsa Həbibbəyli "Böyük Zəfərin poetik dastanı" adlı əhatəli bir məqalə yazıb və göstərib ki: "...Zəfər nəğməsi" poeması Azərbaycan ədəbiyyatında Vətən müharibəsində qazanılmış tarixi Zəfərə həsr olunmuş poetik dastandır... Azərbaycanın Böyük Zəfərinin qalibiyyət nəğməsidir... yeni Zəfərlərə çağırışın poetik mesajıdır" [ 66 ].

Vahid Əzizin "Azərbaycandır Qarabağ", "Ləngimə, tez yetiş böyük qələbə", "Bu gün bir aydır ki yurd savaşdadır", "Əsgərin", "Tanrı qoru Azərbaycan ordusunu" kimi şeirlərində döyüş anları, qələbəmiz səmimiliklə vəsf olunub:

Dünya dünya olan gündən,
Varlığımız ona vətən,
Biri ürək, biri bədən,
Hər ikisi ulu torpaq –
Azərbaycandır Qarabağ!  [222, s. 512]

Xalq yazıçısı Anar da publisistik yazıları ilə bərabər Şuşanın azad edilməsinə həsr etdiyi "Yaşa, Şuşa" şeiri ilə gündəmə çəlib. Şeir səmimiliyi, sadəliyi ilə seçilir:

Otuz illik həsrətimiz
Qırx dörd gündə çatdı başa!
Azad edildi Qarabağ,
Azad oldu gözəl Şuşa!
Doğma Vətənin qoynunda,
Şuşa, sonsuzatək yaşa! [ 222, s. 48]

Ümumən Qarabağa həsr olunan şeirlərin əksəriyyətini Şuşa, və Şuşaya çəkilən Zəfər yolunun tərənnümü təşkil edir. Qələbədən sonra Şuşada Musiqi festifalının təşkili və görkəmli şair Vaqifin məqbərəsinin yenidən qurulması, burada Poeziya Bayramının keçirilməsi də təntənəli ədəbi - siyasi hadisə idi. Ali Baş Komandan – Respublika Prezidenti başda olmaqla böyük ziyalılar, şairlər, yazarlar ordusunun iştirak etdiyi bu tədbir - bayram ədəbiyyatımızda əbədi yaşarlıq qazandı və Müstəqillik dövrünün ən böyük şeir, poeziya bayramı kimi Vaqif Poeziya Günləri tarixin də, ədəbiyyatın da yaddaşına qızıl hərflərlə yazıldı. Tədbirdə çıxış edən İlham Əliyevin həyəcanlı, vüqarlı qalib səsi hər kəsi qürurlandırdı və kövrəltdi: "...bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Biz böyük Azərbaycan şairi, dövlət xadimi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin məqbərəsi önündə Vaqif Poeziya Günlərinin açılışını qeyd edirik. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını təbrik edirəm" [222, s. 538]. Daha sonra prezident Vaqifin məqbərəsinin bünövrəsinin 1982-ci ildə Heydər Əliyev tərəfindən qoyulmasından, Şuşanın tarixindən, onun işğal dövründə necə dağıdılmasından bəhs edib.

Akademik İsa Həbibbəyli "Böyük qayıdışın ədəbi və əbədi təntənəsi" məqaləsində qeyd edir ki, "Vaqif Poeziya Günləri – Azərbaycan ədəbiyyatı və mədəniyyətinin böyük hesabat və təntənəsidir... Böyük qayıdış ilinin Vaqif poeziya günləri yalnız mühüm ədəbiyyat tədbiri olmayıb, həm də mühüm ictimai-siyasi hadisədir" [222, s. 297]. "Qarabağ ədəbi mühiti: ənənə və müasirlik" məqaləsində isə Akademik qeyd edir ki, "Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, Qarabağın işğaldan azad olunması və regionda yeni həyatın başlanması yazıçı və

şairlər üçün yeni mövzulara yol açacaqdır" [67, s.15]. Əlbəttə, dünən həsrət nəğmələri yazan şairlərimiz bu gün o böyük Qələbədən, Zəfərdən mütləq dastan qoşacaq, Qarabağda gedən quruculuq işlərindən bəhs edən böyük, poetik sənət əsərləri yaradacaqlar.

İsa Həbibbəylinin başqa bir məqaləsi "Böyük qayıdışın şah əsəri – Şuşa" adlanır. Məqalədə alim Şuşa haqqında xatirələrini, Şuşanın tarixini, onun sənətkarlarını, tarixi şəxsiyyətlərini bir daha geniş şəkildə şərh edir. Qarabağ xanının vəziri olmuş görkəmli lirik şair Vaqifin şeirlərindən seçmələri oxuculara təqdim edir. Həmçinin, akademik Şuşada keçirilən "Xarıbülbül" musiqi festivalından, Vaqif Poeziya bayramından ətraflı söhbət açır. [ 29, s. 57-67]

Xalq şairi Qabil və Nurəngiz Gün sağ olsaydı yəqin ki, bu Böyük Qələbənin böyük dastanını yaradardılar.

Xalq şairi Sabir Rüstəmxanlı isə yenə meydanda idi və "Qələbə tivitləri"ni yazırdı:

Murovun, Dəlidağın üstündən çəkilir çən,
Qəddini yavaş-yavaş dikəldir yorğun Vətən… -

Şeir 44 gün çəkən döyüş anlarında yazılıb. Bu anların, günlərin hər axşamında teleməkanlardan Ali Baş Komandanın Qələbə soraqlı gur səsi eşidilirdi və neçə - neçə kəndin, qəsəbənin, şəhərin azad olunduğunu, ordumuzun yenilmədən irəlilədiyini bəyan edirdi. Addım-addım, qarış-qarış torpaqlarımız düşməndən təmizləndikcə Vətən də qəddini yavaş-yavaş dikəldirdi:

Otuz il ümid verib bizi susturan susur,
Ümidini qırdıqca Azərbaycan ordusu.
Bayram havası gəzir şəhərləri, kəndləri,
Paylandıqca hər axşam qələbə tivindləri! [29, s. 25]

Qələbə sevinclərini, tivindlərini vəsv eləyən şair bir daha bəyan edir ki, "Qovur öz yuvasına quduzlaşan itləri,// Ali Baş Komandanın Qələbə tivindləri!"

Şeirin hər misrası Vətənin bir bucağını tərənnüm edir. Ordunun qalibiyyətlə keçdiyi yerlər - azadlığa qovuşan yurd yerlərimiz tək-tək poetik vəsv olunur: "Qartal kimi açılır Şuşanın qanadları,// Yorur Çıdır düzünü Qarabağın atları…// Haqq tutur öz yerini, kökü kəsilir şərin, // Dağıdır matəmini səsimiz Kəlbəcərin…// Açır öz qollarını

Kirs yolu, Laçın yolu!..” – Şeirin poetik tutumu vətənpərvərlik hisslərinin məcmudur. Bu tarixi Azərbaycan torpaqlarının yenidən Vətənə qovuşduğunu göstərən poetik təntənədir.

Elçin İsgəndərzadə də bu qələbəyə öz töhvəsini verib. Onun “Vətən”, “Şükranlıq türküsü”, “Ağdam camiyəsində yazılan şeir”, “Bir şəhərlik sükut”, “İstambulda Şuşa yuxuma girmişdi”, “Şuşam”, “Evimizə gedirəm”, “Cıdır düzündən etüd”, “Ağdamda ilk şeir” və s. şeirlərində özünə, həmkarlarına, Vətəninə, xalqına bu böyük Qələbə münasibətilə gözaydınlığı verirdi:

Cıdır Düzünə düşən axşamların
Aydınlığında qeyb oluram...
Bütün tərk edilmiş evlərin sevincini
yaşamaq istəyi var canımda...
Bütün qaranlıq yolları işıqla doldurmaq
həvəsim var!
Bütün qırıq yolları bir-birinə
bağlamağım gəlir! [36]

Əbülfət Mədətoğlunun İkinci Qarabağ müharibəsinə həsr etdiyi şeirlərində bir sevinc, fərəh, ruh yüksəkliyi əks olunur. Azad olunan ata ocağına qayıdışı tərənnüm edən bu poetik parçaların hər biri vətənpərvərlik hissi ilə zəngindir. Onun “Dörd divar, allah... o və mən” şeirlər kitabında [161] bu səpkili şeirlər kifayət qədərdir: “Vətən səsləyir”, “Mübarəkdir Qələbən”, “Bu günü”, “Şəhid anası”, “Torpaq”, “Komandan”, “Əsgərə məktub”, “Qalib torpaq”, “Ürəyimin Kəbəsi” kimi poetik parçaları bu qəbildəndir.

Yumruğu sıxdın,
Həsrəti yıxdın,
Qalib sən çıxdın –
VƏTƏN!!! [ 161, s. 161]

Qarabağlı şair bu gün öz xarakterik xüsusiyyətinə, ənənəsinə sadiq qalaraq özünəməxsus şəkildə Qələbəni, Böyük Zəfəri pafosdan uzaq bir həzinliklə vəsv etməkdədir.

Şair Gülxani Pənah Böyük Zəfərin bir illiyinə iki kitab - “Vətən adlı dinim var” [184] və “Bütöv bir canıq, Azərbaycanıq” [183] - həsr edib. Hər iki kitabda şəhidlər, şəhid anaları, ölməz igidlər, doğma Qarabağ tərənnüm olunur. Onun “Qələbə marşı”, “Azərbaycan əsgəri”, “Biz türk oğlu türkük”, “Sən igid oğlusan...”, “Cəbrayıl”, “Şəhidim”, “Gözün aydın”, “Qarabağ Azərbaycandır” kimi onlarca şeirinin, silsilə bayatılarının və iki poemasının baş qəhrəmanı Vətən, onun yolunda həlak olan oğullardır.

... Mənimkidi...
Bu ellər mənimkidi.
Viranədi, talanıb...
Dərdi çox, mənim kimi... [184, s.402]

Şuşaya həsr olunan şeir – poemaların bəlkə də yarısı Şuşaya çəkilmiş yeni yolun – Zəfər yolunun tərənnümüdü. Həm şeirlə, həm də publisis sözlə bu yol haqqında hər kəs, bütün yazarlar öz sözünü deyib, münasibətini bildirib. Şuşaya ilk gedənlər, onu düşməndən təmizləyənlər, Şuşanı azad edənlər Şanlı Ordumuz, onun müsəlləh əsgərləri olub. Onlar keçilməz, sərt qayalardan, dağlardan aşaraq Şuşaya giriblər və burada qurublaşan düşmən ordusunu məhv ediblər. Bundan sonra həmin ərazidən Şuşaya böyük, geniş Zəfər yolu çəkilib. Bu yol haqqında ilk poemanı da, yuxarıda qeyd etdiyimiz kimi, Xalq şairi Nəriman Həsənzadə yazıb. Şair həm rəmzi, həm də sözün həqiqi mənasında olan Zəfər yolundan poetik söhbət açır. [29, s. 230]

Ramiz Duyğunun “Zəfər yolu” poetik dastanında həm Birinci Qarabağ müharibəsindən, həm də İkinci Qarabağ – Vətən müharibəsindən bəhs edilir. Şair öz dastanında bu yolu belə təsvir edir:

Şəhidlərin qanı ilə,
Qazilərin canı ilə,
Suvarılıb, yoğrulub,
Yolun hər qarışının
Qara daşı, torpağı!!
... Bu yol şərəf, şan yoludur,

Bu yol kəhkəşan yoludur!!! [29, s. 253]

Vaqif Poeziya Günlərinin iştirakçısı olan Xalq yazıçısı Anarın tədbirdə çıxışı: "Biz buraya Zəfər yolu ilə gəldik. Bu yolun əvvəli var, sonu yoxdu... Bu Zəfər yolu Azərbaycanın hərbi gücünün yoludur, siyasi gücünün yoludur, iqtisadi gücünün yoludur və möhdəşəm Azərbaycan mədəniyyətinin, Azərbaycan ədəbiyyatının Zəfər yoludur!" [29, s. 18]

Xalq şairi Sabir Rüstəmxanlı: " Azərbaycan Ordusu... aşılmaz dağları aşdı, keçilməz dərələri keçdi və çıxılmaz sərt qayalardan dırmaşıb girdi Şuşaya. Şuşanın yeni Zəfər yolunu açdı. Bu gün həmin yol Azərbaycanın ən rahat və ən mənzərəli yollarından biridir" [29, s. 79].

Filologiya elmləri doktoru, professor, Millət vəkili Jalə Əliyeva: " Biz Şuşaya bizi zəfərə aparan Zəfər yolu ilə getdik... Bu yolla irəlilədikcə Zəfərin möhtəşəmliyini sanki bir daha hiss etdik. Şuşa lövhəsinin vurulduğu dağın ətəyinə çatdığımız zaman duyğularımız ən zirvə nöqtəsində idi" [29, s. 109].

AMEA - nın müxbir üzvü Tehran Əlişanoğlu Zəfər yolunun həm də Ədəbiyyat yolu olduğunu düşünərək yazır: "Qəhrəman Azərbaycan əsgərinin böyük şücaətlə açdığı tarixi Zəfər yolunu ləyaqətlə başa vurmaq həm də... ədəbiyyatın da öhdəsinə düşür. Düşünürəm ki, gələn il qırx illiyinə yığışacağımız Vaqif poeziya günlərində Ədəbiyyatımız həmin hesabata daha da müntəzir olacaqdır" [29, s. 114].

Beləcə, İkinci Qarabağ müharibəsinə, onun Zəfərinə, Qələbəsinə qısa müddətdə yazılmış əsərlərə - şeirlərə nəzər saldıq. Yəqin ki, bu mövzuda zaman-zaman, nəsil-nəsil saysız-hesabsız poetik əsərlər yazılacaq.

I FƏSLƏ aid məqalələr və konfranslar:

1. Məmmədova, B. H. Qabil poeziyasında vətəndaş mövqeyi// – Naxçıvan: AMEA Naxşıvan bölməsi. İncəsənət, Dil və Ədəbiyyat İnstitutu, Axtarışlar, – 2013. № 2, – s. 72-74 [ 122].

2. Məmmədova, B. H. Qabil poeziyasında Qarabağ mövzusu// – Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Ədəbiyyat Məcmuəsi, – 2015. XXVI c, – s. 229-235 [123].

3. Məmmədova, B. H. Sabir Rüstəmxanlının poeziyasında vətənpərvərlik duyğuları// – Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Ədəbiyyat məcmuəsi, – 2017. XXXI c, – s. 121-126 [ 127].

4. Məmmədova, B. H. Qabil poeziyasında milli müstəqillik uğrunda mübarizənin inikası// Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, Hümanitar elmlər seriyası, – 2018. №1, – s. 78-81 [130].

5. Məmmədova, B. H. Əbülfət Mədətoğlunun yaradıcılığında Vətənin poetik təcəssümü// – Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Filologiya və sənətşunaslıq, – 2018. № 1, – s. 71-75 [144].

6. Məmmədova B. H. Gülxani Pənahın poeziyası müstəqillik illərində// – Bakı: AMEA Məhəmməd Fizuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2019. № 9, – s. 234 - 238 [143].

7. Məmmədova, B. H. Elçin İsgəndərzadənin poeziyasında Vətənin obrazı// – Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Filologiya və sənətşunaslıq, – 2021. № 1, – s. 39-44 [146].

8. Məmmədova, B. H. Qarabağ mövzusu Sabir Rüstəmxanlının poeziyasında// Humanitar elmlərin aktual problemləri. Beynəlxalq konfransın materialları. Azərbaycan Unversiteti, – Bakı: – 14-15 may, – 2018, – s. 295-297 [133].

9. Məmmədova, B.H. Əbülfət Mədətoğlunun poeziyasında müstəqillik illərinin əksi// Azərbaycanşunaslığın aktual problemləri. X Beynəlxalq Elmi konfransın materialları, Slavyan Unversiteti, – Bakı: – 7 may, – 2019, – s. 335-338 [142].

10. Məmmədova, B. H. Elçin İsgəndərzadənin poeziyasında Birinci Qarabağ müharibəsinin əksi// Ədəbiyyatda Qarabağ mövzusu. Respublika elmi konfransının materialları, Qərbi Kaspi Unversiteti, – Bakı: – 24 aprel, – 2021, – s. 184-188 [148].

11. Mammadova (Bardali), B. (2022). Karabakh in azerbaijani poetry during the period of independence the problem of reflecting the war. *Universidad Y Sociedad*, 14(S5), 561-569. Recuperado a partir de https://rus.ucf.edu.cu/index.php/rus/article/view/3324 [118].

# II FƏSİL
# POEMALARIN ƏKS ETDİRDİYİ TARİXİ GERÇƏKLİK

## 2. 1. Sabir Rüstəmxanlının poemalarında azərbaycançılıq

Akademik Isa Həbibbəyli "Müstəqilliyin şərəfli yolu və müstəqillik ədəbiyyatı" adlı məqaləsində yazır: "Müstəqillik dövrünün Azərbaycan ədəbiyyatı müstəqil dövlət quran xalqın ədəbiyyatıdır və bütün dəyərləri, keşməkeşli həyat yolu, mübarizə və uğurları ilə bu həqiqəti əks etdirir. Müstəqillik illəri ədəbiyyatının formalaşmısında bir sıra ictimai-siyasi və tarixi-mədəni faktorların mühüm rolu qeyd olunmalıdır" [162, s. 4]. Bu mənada Müstəqillik illərinin ilk poemaları 90-cı illərin ortalarına doğru yazılmağa başlamışdı. Bu poemaların başlıca mövzusu 20 yanvar - Bakı qırğını və Qarabağ müharibəsi idi. Bəxtiyar Vahabzadənin "Şəhidlər"i, İsa İsmayılzadənin "Haran ağrıyır, Vətən", Ələmdar Quluzadənin "Şəhid şəhər", İlyas Tapdığın "Şuşa gözləyir bizi" və onlarca poemalar bu qəbildəndir.

Milli müstəqillik uğrunda gedən mübarizə illərində şair və yazıçılarımız bu günün mövzularında əsər yazmaqla yanaşı, həm də tarixə, tarixi dönəmlərə, ilkinliyə qayıdışı özlərinə borc bilmişdilər.Yaxın Şərq, Uzaq Şərq – Sibir çöllərindən Orta Asiyaya, Qafqaz dağlarından Xəzər dənizinə, Kür – Araz ovalığınadək geniş ərazidə məskunlaşmış türk tayfaları ilk dövlətlərini necə qurmuşlar? Özlərini kimlərdən və necə qorumuşlar? Yadellilərin basqınlarını necə dəf etmişlər? Bütün bu suallara cavab tapmaq üçün tarixə qayıdış mütləq idi. Böyük Türk dünyasının soyunu, kökünü daş kitabələrdən axtarıb tapmaq, üzə çıxardıb vəsf etmək dövrün ədəbi problemlərindən birinə çevrilmişdi. İstər nəzmlə, istərsə də nəsrlə bu zaman kəsiyində bir çox tarixi əsərlər yazılmışdır. Bu əsərlər üçün ilk məxəzlər, qaynaqlar, təbii ki, qədim türk yazılı abidələri, daş kitabələr, həmçinin, nağıllar, əfsanələr, dastanlar, rəvayətlər, bayatılar və xalq nəğmələri mühüm rol oynamışdır. At belində qılınc, qalxanla silahlanan qədim türklər öz məskənlərini - ulu obalarını həmişə

qəhrəmanlıqla döyüşərək müdafiyə etmişlər. Bu dönəmdə yazılmış tarixi əsərlər- Nəriman Həsənzadənin "Seyid Nigari türbəsi", "Cavid", Zəlimxan Yaqubun "Peyğəmbər"i, "Yunis Əmrə dastanı", "Çanaqqala dastanı", Qulamrza Səbri Təbrizin "Ruhun tüğyanı", Yüsif Nəğməkarın "Çanaqqala", Sevinc Nuruqızının "Çanaqqala keçilməz" və s. əsərlər tarixi dönəmlərin bu və ya digər sahələrinə işıq tutaraq hadisələrə bu günün gözü ilə yanaşmış və onun bədii həllini verə bilmişdir.

Bu dönəmdə Türklərin tarixi qəhrəmanlığını, həyat gerçəkliyini bədii şəkildə nəzmə çəkən **Sabir Rüstəmxanlı** öz siqləti ilə seçilən **"Orxanla görüş"** poemasını yazmışdır. Əsər şairin müstəqilliyə gedən yolda yazıb üzə çıxardığı tarixi həqiqətlərdir. Müəllifin tədqiqatçılarından biri olan filologiya üzrə fəlsəfə doktoru Sabir Bəşirov onun yaradıcılığında başlıca istiqamətləri belə xarekterizə edir: "... Siyasətçi kimi Rüstəmxanlı əxlaqa, mənəvi dəyərlərə, intelektə söykənir. Əxlaq sözü burada daha geniş tutumda işlənir. Sabir Rüstəmxanlı mənəviyyat adamı olduğuna görədir ki, mənəvi dəyərlər onun üçün əsasdır, birincidir" [27, s.182]. Onu da qeyd edək ki, tarixi dönəmlərə qayıdış həmişə olub [ 251], [254].

Türklərin yaşadığı ilk məskənlərə səfər edən şair türk Bilgə xaqanın döyüşdüyü əraziləri gəzir, onun qəhrəmanlıqlarından bəhs edən daş kitabəni tapır, monqol alaçığında qonaq olur, Orxan çayının buz sularından içir və sonda poemanı yazır:

Orxana gedirəm... doğma bir haray,
Çağırır əlyetməz bir məsafədən,
Orxana gedirəm, bələdçim kimi
Ruhumdu, qanımdı qabaqda gedən! [188, s. 519]

Şair düşünür ki, bu yolda, səfərdə ona bələdçilik edən, yol göstərən, istiqamət verən əcdadlarının ruhudur və ona ötürülən gen yaddaşıdır:

Gedirəm Orxana bir salam deyim,
Qucum, yaddaşımı qucduğum kimi,
Bir çay görüşünə uçur ürəyim,
Ana görüşünə uçduğum kimi! [188, s. 521]

İllər, əsrlər və bir də araya girən yadlar, yabançılar, yağılar türkləri bir- birindən çox aralı, uzaq salıb. Amma qan yaddaşı, gen yaddaşı, ruh yaddaşı itməyib. İndi budur, ilk yurda dönmək sevgisi, istəyi şairi tərk etmir:

Mənim millətimin beşiyi, qardaş,
Yellənib Doğudan Günbatanacan... [188, s. 52]

Min illər boyu tarixi yaddaşını qoruyub saxlayan xalqlar yenə birlikdə döyüşlərə atılar və bir - birlərini qorumaqla qalib gələ bilərlər.

Monqol yaylaqları ağappaq duman,
Üzümə açılan sonsuzluq sirdir.
Burda öz gücünü itirib zaman,
Hansı minillikdir, hansı əsrdir?! [188, s. 521]

Şair daş kitabənin önündə diz çökür. Döyüşlərdən, qələbələrdən bəhs edən bu kitabın son cümləsi belədir: “Türk – oğuz bəyləri, milləti eşidin: üstən göy çəkilməsə, altdan yer dəlinməsə türk millətinin elini, törənini kim poza biləcəkdir?! Türk milləti, titrə və kəndinə dön!” [188, s. 532] Bu kiçik daş parçasındakı bir cümlə, tarixi məxəz, böyük, ulu mənada şairə kömək edir ki, o, poemanı istədiyi kimi, istədiyi aspektdə, istədiyi yöndə yaza bilsin.

Böyük türk millətinin formalaşmasında, möhkəmlənməsində, qorunub saxlanmasında Bilgə kimi xaqanların xidmətləri ilə yanaşı, daş kitabələrin də böyük rolu, danılmaz əhəmiyyəti olmuşdur. Türkləri birliyə çağıran xaqanlar zaman – zaman bu birliyi yaratmış və qoruyub saxlamışdılar. Daş kitabələr də bunu bir daha subut və təsdiq edir:

Diz çökdüm önündə daş kitabənin,
Diz çökdüm gurlayan Orxan önündə!
Əlini çiynimə dayaq eyləyən,
Bu yeri yaşadan ruhun önündə! [188, s. 532]

Şair daş kitabədə yazılanları da poemaya əlavə edib. Yəqin düşünüb ki, əsərin yazılmasında igidlərin, xaqanların, xalqın ruhu qədər bu daş kitabə də ona kömək olmuş, ilham vermiş, yol göstərmişdir:

“Üstə mavi göy, altda yaqız yer kalındıqda, ikisi arasında insan oğlu yaratılmış. İnsan oğlunun üzərinə əcdadım Bumin Kağan, İstəmi Kağan hökmdar olmuş. Hökmdar olaraq türk millətinin elini, törəsini tutu vermiş, düzənləyi vermiş...” [188, s. 532]

Səyahət boyu gördükləri, eşitdikləri şairə imkan vermişdir ki, o poemanı istədiyi kimi, yəni təbii axarı ilə, axıcı bir dillə yazıb başa çatdıra bilsin. Poema boydan – boya at belində olan, qılınc - qalxanı ilə silahlanmış türklərin yürüşlərini, döyüşlərini vəsf eləyir. Lakin bununla belə şair təəssüf də edir. Çünki bu savaşlar, çarpışmalar bəzən qardaşlar arasında da baş verir. Bundan öz xeyrinə istifadə edən düşmən isə xalqı parçalaya, təkləyə, bir - birindən ayrı sala bilir:

Baxıram bu daşdan süzülür qanlar,
Min hicran boylanır, min ah da baxır.
Baxır uzaqlarda qalan zamanlar...
Ancaq üzügülər sabah da baxır! [188, s. 535]

Demək, bu üzgün, qəmli daşlardan süzülən qanlar təkcə düşmən qanı deyil, həm də qardaş qanıdır, hələ də axır... Çünkü araya xəyanət girib. Lakin şair yenə də nikbindir. Ümid edir ki, türklər bu tarixi keçmişdən ibrət götürəcək, üz - üzə deyil, yan - yana döyüşəcəklər.

“Sabir Rüstəmxanlı, qəribədir, milli poeziyada hər şeyi - bütün mövzuları bir məcraya yönəldən, onların hamısından böyük bir nəhr – Vətən eşqi yaradan şairlərdən biridir” [225, s . 35].

Yaddaşıyam vuruşlarda ölən nəslin,
Ölə - ölə ölümünə gələn nəslin,

Şükür, sabah yer üzünə gələn nəslin,
Hər sözümdən qeyrət odu əmməyi var! [188, s. 538]

“Azərbaycan xalqının milli şüurunun, milli ləyaqət hissinin ilkin təzahürü türk

xalqlarının qədim mədəniyyəti və tarixin səhnəsinə gəlişi ilə başlayır.Türklər, türk xalqları dünya dövlətçiliyi tarixində dərin iz qoymuşlar. Hun imperyası, Göytürk xaqanlığı, Səlucuqlar, Səfəvilər dövləti və s. bəşər tarixinin mühüm mərhələləri olmuşdur" [198, s.11]. Demək, keçmişlə gələcək arasında əlaqələndirici yaddaşa çevrilən lirik qəhrəman hər sözünün qeyrət doğuracağına tam əmindir. Şair də bu tarixi dövlətlərin ilkinliyini tərənnüm etməklə düşünür ki, "Karvanların bir də geri dönməyi var..."

"**Atəş böcəyi**" poeması müstəqillik, azadlıq uğrunda mübarizənin tərənnümüdür. Sabir Rüstəmxanlı bu poemanı Cənublu soydaşımız Mahmudəli Çöhrəqaniyə həsr edib. Əsər, demək olar ki, "Orxanla görüş"ün poetik - ideya davamıdır. Çünki azadlıq uğrunda mübarizənin bir qolu da Arazın-Cənubun azadlığından keçir. Sərhəd dirəklərini sökənlər Cənublu-Şimallı Bütöv Azərbaycanın azad olunacağını düşünürdülər və gözləyirdilər. Lakin tarixi şərait yetişsə də bu arzunu həyata keçirmək mümkün olmadı. 1946-cı ildə olduğu kimi, yenə də xalqın birliyini həm daxildən, həm də xaricdən parçalayanlar yetərincə çox oldu. Avropanın mərkəzində Almaniya bu tarixi andan – SSRİ-nin dağılmasından istifadə edərək öz bütövlüyünü, birliyini bərpa etdi və vahid dövlətini yaratdı. Sualları çox, cavabları az olan bu dönəmləri şair poetikləşdirib təhlil edir, göstərir ki, əslində hamı danışır, arzulayır, istəyir, sözdə üsyan edir, lakin döyüşən, vuruşan yoxdur, əməldə qalibiyyət yoxdur. Mahmudəli kimi "atəş böcək"ləri tək - təkdir. Böyük qaranlıqlara, zülmətlərə bu kiçik "Atəş böcək"ləri işıq sala bilməz, qalib gələ bilməz. Qınından sivrilib çıxan qılınca dönsə belə, topa, mərmiyə qalib gəlmək qeyri mümkündür:

Yol ki, başsız qaldı çatıya dönər,
Hara dartsalar ora sürünər!

Ancaq arxalansa Qız qalasına, Ərkə,
Dünyanın hər yerindən görünər! [ 188, s. 540]

Demək, başsız qalan xalq kütləyə dönər, millətə yox. Qalalara söykənib döyüşənlər, böyük sərkərdəsi, öndəri olanlar qalibdir. Şair xatırladır ki, "Bu yolla

getmək istəyən kişilərin,// Yarım əsr öncə kəsildi başları,// Dünya siyasətinə qurban getdi ər savaşları...”(Burada şair 1946-ci il 21 Azər hərəkatına işarə edir.- B.B.) İndi - 90-cı illərdə o tarix təkrar olunur. Köhnə siyasət yeni xəyanətlə üzləşib və birlik, birik deyənlər göz dustağına, söz dustağına, ev düstağına çevrilib. ”Beləcə balığı ayırdılar dənizdən!”

Vətən pay veriləndə
Hərə düşündü öz payını!
Gurultulu sözlərlə
Unutdurdular
Millətin namus harayını! [ 188, s. 550]

Bu tarixi dönəmdə də Vətən bütövləşmək əvəzinə yenə bölündü. Bu bölgüdən pay götürənlərin xəyanəti hələ də davam edir. Belə bir vaxtda Bakıya qonaq gələn M. Çöhrəqanini şair də salamlayır və ona ümidlə baxır:

Xoş gəldin qardaş,
Bu dəllal bazarından,
Mənəmlik azarından,
Vətəni qurtaracaq yola!
Bəlkə sənin ayağın yüngül ola! [ 188, s. 553]

Poema bir nəfəsə, eyni sujet xətti üzrə yazılıb. Lirik qəhrəman şairin özüdür, onun çağırışları, müraciətləri şair qəlbinin harayıdır, səsidir, poetik sözüdür, nəfəsidir. Həm tarixin izidir, həm bu günün özüdür, həm də sabaha bir mesajdır. Çünkü hələ o böyük istəklərimiz, arzularımız həyata keçməyib, döyüş bayrağımız qanlıdır, hələ yarı yoldayıq, yolumuz başa çatmayıb, birliyimiz, bütövlüyümüz bərpa olunmayıb. Odur ki, şair yenə üzünü Çöhrəqaniyə tutur:

Xoş gördük!
Qınından sıyrılan qılıncım!
Zülmətilə vuruşan
Xırda Atəş böcəyim!
Ya öləcək Vətənimiz

Ayrılıq mərəzindən,

Ya ikimiz də

Bir səngərdə öləcəyik! [188, s. 561]

Tədqiqatçı Rahid Ulusel yazır: "Sabir Rüstəmxanlının poemalarından biri ("Orxanla görüş") antik türklüyün, digəri ("Atəş böcəyi") çağdaş türklüyün ucalığına və mübarizəsinə həsr olunub. Birində ilk türk dövlətçiliyini və əski türk əlifbası ilə ilk yazılı abidələrini yaradan Göytürklərdən – Bilgə xaqan və onun məsləkdaşlarından, digərində Güney Azərbaycan Milli Oyanış Hərəkatının (GAMOH) rəhbəri M. Çöhrəqani və onun məsləkdaşlarının Güney Azərbaycanda türksoylu Azərbaycan dövlətçiliyini bərpa çarpışmalarından bəhs edir: bax, bu şəkildə şair Ulusal tariximizin başlanğıcı ilə sonun vəhdətini yaradır" [207, s. 56-57].

Vətənin böyük birliyi, bütövlüyü, müstəqilliyi, azadlığı Sabir Rüstəmxanlı yaradıcılığının, xüsusilə poeziyasının leytmotivini təşkil edir. Müstəqilliyin ilk illərində yazdığı hər iki poeması xalqın ruhundan, qanından, mübarizəsindən, azadlıq ideyalarından, milli suverenliyindən, ləyaqət duyğularından doğan poetik çağırışıdır. Şair yenə ənənəsinə, vətəndaş qayəsinə, məsləkinə, milli ruhuna sadiq qalaraq xalqını, yurddaşlarını birliyə, mübarizəyə, dönməzliyə, sadiqliyə səsləyir. Bu yolda "öldü var, döndü yox" fikrini bir daha vurğulayaraq qabardır.

Müstəqillik illərində Sabir Rüstəmxanlının yazdığı hələlik son böyük əsəri "**Qarabağa dönüş**" poemasıdır [194]. Poema İkinci Qarabağ müharibəsinə həsr olunub. 27 sentyabrda başlayan 10 noyabrda Qələbə, Zəfərlə başa çatan 44 günlük İkinci Qarabağ müharibəsinin hər anını, gününü izləyən şair bu münasibətlə bir Zəfər Dastanı yaradıb, o günləri əbədiləşdirib, - desək səhv etmərik. "Yaramızdan axan qan qan deyil, qorxumuzdur..."- deyən şair 30 il Qarabağı əsirlikdə saxlayan düşmənin üzərinə hücum edən el igidlərinin axan qanı düşmən xofundan yaranan qorxunu məhv elədi. Bu axan qan düşmənin mühasirəsini də yardı, ordusunu da, qorxusunu da, özünü də yuyub apardı.

Əsər haqqında ilk məqaləni akademik İsa Həbibbəyli yazıb və onun ilk təhlilini də incəliklə, ardıcıllıqla verib: "Vətən savaşının ilk poemasını yazmış Xalq şairi Sabir Rüstəmxanlı Azərbaycan ədəbiyyatında milli ruhun və vətəndaşlıq mövqeyinin

böyük ədəbiyyatını yaratmış görkəmli sənətkarlardan biri kimi qəbul olunur. O, qan yaddaşının poeziyasını yaratmaqla soykökə və qəhrəmanlıq tariximizə işıq salmaqla yeni tarixi epoxanın vətənpərvərlik-vətəndaşlıq ideallarına dəstək vermək missiyasını şərəflə və məsuliyyətlə yerinə yetirən... şair-vətəndaşdır" [ 287].

"Sabir Rüstəmxanlının "Qarabağa dönüş"u niyə önəmlidir?" adlı məqaləsində akademik daha sonra yazır ki: "Qarabağa dönüş" poeması Sabir Rüstəmxanlının yaradıcılığındakı milli-vətəndaşlıq ənənəsinin uğurlu və yaradıcı davamından ibarət olan qiymətli bədii əsərdir".

Poema sadə, axıcı bir dildə yazılıb. Döyüşən orduya, onun sıravi əsgərinə üzünü tutan şair deyir:

Vur, qəhrəman əsgərim, "Xocalı" bağırıb vur,
Yad əllərdə inləyən torpağın xətrinə, vur!
Min-min evim dağılmış, kəndlər qalmış viranə,
Daşları buz bağlamış ocağın yerinə vur!
... Bu işğalı bitirib, zülmün məhvərinə vur! [194]

"Poemanın əvvəlində "Vur" əmri, nidası ilə ifadə olunan misralar "Kitabı-Dədə Qorqud" dastanlarındakı "Çal qılıncını..." arzusunu yeni tarixi şəraitdəki orjinal bədii ifadəsi təsiri bağışlayır" [287].

On beş hissədən ibarət olan "Qarabağa dönüş" lirik poemasında şair əvvəlcə Qarabağın yaxın keçmişinə - 90-cı illərə nəzər salır. Sovet ordusu ilə birləşib gələn Hayların Qarabağı necə viran qoymasını, talan etməsini, Xocalı harayının kimsənin eşitmədiyini poetik dillə nəzmə çəkir: " İşğal ordusu durdu, işğalçının yanında,// Boğdu öz şərəfini Xocalının qanında..." Bünövrəsini Pənah xanın qoyduğu Şuşada bir erməni belə yaşamayıb. Amma işğaldan sonra bu şəhərə sahiblənən erməni hakimiyyəti xalqın heysiyyatı, mənəviyyatı ilə oynayıb. Bununla belə hər kəsdə bir ümid, inam vardı ki, bir gün bu vəhşi, qaniçən erməni işğalçıları layiqli cəzasını alacaqlar.

Şuşada şırmandıqca sanırdın yenilməzsən,
Hələ yallı da getdin qutsal Cıdır düzündə.

Ayaq qoyduğun torpaq bilmədin sənin deyil,
O şənliklər, o rəqslər gələcəkdir gözündən! [194]

Poemada cəsarətlə döyüşüb həlak olan milli qəhrəmanları - Polad Həşimov, Mübariz İbrahimov kimi ölməz igidləri yad edən şair sevinir ki, onların intiqamı düşməndən alındı, düşmən ordusu basıldı, parçalandı, məhv edildi.

Tədqiqatçı Tural Adışirin "Sabir Rüstəmxanlının "Qarabağa dönüş"ü" yazısında qeyd edir ki: "Poemada Sabir Rüstəmxanlı yaradıcılığı üçün xas olan türkçülük, azərbaycançılıq məfkurəsinin qabarıq şəkildə ifadə olunduğunu hiss etməmək mümkün deyil... Şair türk sərgərdələrinin ...adını çəkməklə bizlərə tarixi keçmişimizi, türklüyümüzü, türkün heç vaxt torpaq itgisiylə barışmayacağını, qisası qiyamətə qoymayacağını xatırladır" [275].

Böyük Zəfərin çalınmasında başda Ali Baş Komandan – İlham Əliyev olmaqla üç min şəhidin və yüzlərlə qazinin rolu danılmazdır. Bu şəhid, qaziləri şair poemada adsız qəhrəman kimi təqdim edir:

Adına qurban olum, ey adsız qəhrəmanım,
Ruhundakı Tilsimə heyran olub durmuşam! [194]

"Şair adsız qəhrəman adlandırdığı Azərbaycan əsgərinin simasında xalqımızın bütün tarix boyu yetişdirdiyi qəhrəmanların ən səciyyəvi xüsusiyyətlərini özündə birləşdirən yeni vətənpərvər nəslin igid, basılmaz nümayəndəsinin ümumiləşdirilmiş bədii obrazını yaratmışdır" [287].

Sabir Rüstəmxanlının "Qarabağa dönüş"ü böyük arzunun, ümidin, inamın reallaşdığını təsdiq etdi:

Qayıtsın Qarabağa yenə xoşbəxt çağımız,
Başımızın üstündə üç rəngli bayrağımız! [194]

Sabir Rüstəmxanlının təkcə Müstəqillik dövründə yazdığı poemaları deyil, sovet dönəmində qələmə aldığı ilk poemasından tutmuş sonrakı əsərlərinədək hər birində real həyat həqiqətləri, tarixi gerçəkliklər öz bədii əksini yüksək səviyyədə tapmışdır. Ən çox tarixi mövzuda yazan Sabir müxtəlif ölkə və xalqların müəyyən dönəmlərinə də işıq salıb. Əvvəlcədən onu deyək ki, Sabir Rüstəmxanlının sovet dönəmdə yazdığı tarixi, ünvanlı poemaları bir-iki fərqlə Müstəqillik dövründə

yazdığı eyni məramlı, məqsədli əsərlərindən heç də geri qalmır. Təbii ki, Böyük vətənin - SSRİ-nin təsir dairəsini çıxmaq şərti ilə. Məsələn, onun ilk poemalarından biri "**Bütövlük**" adlanır. 1979-cu ildə çap olunan "Xəbər gözləyirəm" adlı üçüncü kitabında dərc edilmişdir. Əsər Vyetnamın birliyinə, vahid dövlət kimi yaranmasına həsr olunub. Sonralar, yəni 1988-ci ildə Xəlil Rza "Yaddaşa inam" adlı məqaləsində poema haqqında belə yazmışdır: "Şimali və Cənubi Vyetnamın birləşib bütövləşməsinə, imperializm və daxili irtica üzərində tarixi qələbəsinə həsr olunmuş bu poema, əslində, həm də Azərbaycan birliyi ideyasını əks etdirir" [215, s. 184].

Demək, Vyetnam xalqının tarixi qələbəsini tərənnüm edən şair, həm də Azərbaycan xalqının tarixi yaddaşını təzələmək, onları oyatmağa, ayıltmağa çalışıb. Onlara gözaydınlığı verməklə bu gündən bizim üçün də keçərli olacağını düşünüb və düşündürüb:

Vyetnam xalqı,
Mübarəkdir bu birliyin!
Bütövlüyün, vahidliyin, iriliyin!
Mübarəkdir bu hünərin, bu niyyətin,
Millətlərə örnək olan qətiyyətin! [191, s. 72]

Ədəbiyyatşunas Rəhim Əliyev bu poema haqqında yazır: "Bütövlük" poemasında yaddaş motivi mövzuya və qəhrəmana çevrilir, Şimali və Cənubi Vyetnamın birləşməsinə həsr olunmuş əsərin daha dərin qatlarına səpələnir. Vyetnam xalqının taleyi və tarixi oxucu yaddaşını oyadan, düşündürən və məyus edən bir vasitəyə çevrilir. Vyetnamın azadlıq bayrağına nəğmə qoşan şair milli dirçəliş uğrunda mübarizə edən Şərq xalqlarının da ideyalarını tərənnüm edir" [42,s.6]. Göründüyü kimi, şairin elə ilk poemasından milli azadlıq, Müstəqillik uğrunda mübarizə ideyası boylanır və sonrakı poemalarına da bu ideyadan işıq düşür.

"**Didərginlər**" poeması da bu mənada çox xarakterikdir. Əsər şairin 1981-ci ildə işıq üzü görən "Gəncə qapısı" adlı sayca dördüncü kitabında dərc edilib. Burda da şairin vətənpərvərlik, vətənsevərlik, mübarizlik ideyaları önə çıxır. Müəllif özü əsəri "Poema - monoloq" adlandırır. Çünki şair birbaşa öz fikir – düşüncələrini ifadə edir. Poemada söhbət üsyanlar, inqlablar, müharibələr dönəmində Vətəndən

getməyə məcbur olan didərgin, mühacir şairlərdən, söz adamlarından və məğlub olan inqilab rəhbərlərinin yad ölkələrdəki həyatından, taleyindən gedir.

"Yeni şeirlərini oxudum, Mahmud Dərvişin..." – deyə poemaya adi sözlə başlayan şair Fələstinli qaçqın şairin şeirlərini özünəməxsuz şəkildə təhlil edir. Bu şeirlər yalnız sözdən ibarət deyildi, onun hər kəlməsində fəryad var, qəzəb, nifrət var, qan - yaş tökülür, Vətən həsrəti, ağrısı ələnir, qəmlə qafiyələnir bu "Hicran hədəfli şeir, Qəzəb rədifli şeir!" Çünki bu şeirlərin hər biri "Kökü ürəyin əzab qatında, / Ömrü vətənsizlərin köçəri həyatında, / Qibləsi - döyüş meydanı, / Andı – şəhidlərin qanı, /...Dərinlikdə Fələstin göyləri . / Dözümdə Fələstin torpağı.../ Ananı əvəz edən, / Atanı əvəz edən,/ Öləni, itəni,Vətəni əldən çıxanda, / Vətəni əvəz edən... " şeirlərdir [ 192, s.142- 143].

Daha sonra şair sözsüz başlıqlarla başqa mühacir şairlərdən söz açır:

Altı əsrin dalında
Nəsimi də mühacir...
Səkkiz əsrin dalında
Xaqani də mühacir...
On üç ildir La Quma
Sözüylə bir ayrılıb
Cənubi Afrikadan...
...Nazim Hikmət...
O idi Türkiyəni ürəyində gəzdirən... [192, s.150-51]

Göründüyü kimi, Sabir Rüstəmxanlı didərgin, mühacir şairlərdən bəhs edərkən onların millətini, hansı dinə, dilə qulluq etməsini nəzərə almır. Çünki onlar bəşəri şairlərdir. Hər birisi ayrı-ayrılıqda öz ölkəsi, xalqı üçün döyüşən, vuruşan və didərgin düşən insanlardır.

İnqilabın məğlubiyyətindən sonra Cənubi Azərbaycandan Şimala gələn mühacirlərdən də bəhs edən Sabir Rüstəmxanlı Pişəvəri, Balaş Azəroğlu, Söhrab Tahirdən də danışaraq onlara xitab edir. Fikir yükü özündən də ağır olan, ağrıdan yoğrulub bişmiş misralar Sabir qələminə məxsusdur:

Amandır Söhrab Əmi,
Belə vaxtsız tələsmə
Saçları ağartmağa...
Ömürdən möhlət gərək
Arzumuza çatmağa!

Və ya Balaş Azəroğluna müraciətən yazdığı misralar:

Amandı, Azəroğlu,
Ot basmış körpüləri
Karvanlar ağartmamış
Saçı ağartmaq nədir!?... [192, s. 155]

Əsərdə, təbii ki, dövrlə, zamanla bağlı olduğu üçün, yəni Sovet dönəmi olduğu üçün Sovetlərin yaradıcısı, qurucusi Leninin mühacir həyatına da şair isti münasibətlə yadda qalan misralar həsr edib.

Akademik Bəkir Nəbiyev "Gəncə Qapısı" kitabına yazdığı "Həyatın təravətli əksi" adlı ön sözdə "Didərginlər" poeması haqqında belə yazıb: "Didərginlər poeması" tərəqqipərvər dünya ictimaiyyətinin irticaya qarşı kəskin etiraz səsini əks etdirən qüvvətli, poetik aktdır" [172, s. 8]. Burada alimin fikirlərində bir pafos da var. Yəqin ki, bu da dövrün ab-havasından irəli gəlir.

Şairin sovet dönəmində, yəni 1983-cü ildə yazdığı daha bir poeması "**Hər kəs Günəşi sevsə**..." adlanır. Əsər Cənubi Azərbaycanın tanınmış üsyankar, mübariz qızı, "Çerik Hərəkatı"nın fəal üzvü, Üskü məktəbinin ana dili müəllimi, vətənpərvər şeirləri ilə tanınan, soydaşları, məsləkdaşları tərəfindən sevilən Mərziyə Üsküyə həsr olunub. Çox da böyük olmayan poema M. Üsküyə xitabən yazılıb. Əsərin adı da Mərziyənin bir şerindən götürülüb: "Hər kəs günəşi sevsə, atar başqa sevgini..." – deyən gənc şairə Vətən sevgisi üçün, onun azadlığı üçün bütün sevgilərinin üstündən xətt çəkir. İyirmi yeddi yaşlı qız Vətəni xoşbəxt deyildir deyə sevgi yaşında öz xoşbəxtliyini də unudur. Əsər Mərziyə üçün həm də bir elegiyadır, ağıdır,- deyərdik:

Yurdun kişiləri ölum qorxusundan
çəkinirkən,
Sən ölümə gəl – gəl dedin...

Zindan çarmıxında inləmədin... [185, s. 156-157]

Xalq şairi Bəxtiyar Vahabzadə şairin “Sağ ol, ana dilim” kitabına yazdığı “Vətəndaşlıq qüruru ilə” məqaləsində yazır: “... Sabir Rüstəmxanlı daha çox ictimai mövzulara meyl göstərən və bu mövzuları özləşdirib əsasən bədii puplisistika ilə birbaşa oxucunun özü ilə danışmağa çalışan, məhəbbətinin gülləsi ilə nifrətini hədəfə alan çox aydın bir şairdir”. Bəxtiyar Vahabzadənin söylədikləri çox qısa və qəti fikrin ifadəsidir, - deyərdik. Sabir Rüstəmxanlının Cənub mövzusunda yazdığı əsərlərə münasibətdə Bəxtiyar Vahabzadə daha sonra yazır: “Şairin yaradıcılığında Vətənin bir parçası olan Cənubi Azərbaycan, bilavasitə bu mövzuya həsr etdiyi şeirlərindən başqa irili –xırdalı bütün əsərlərinin ruhuna hopmuşdur. Əgər ana dilinin gözəlliyindən danışırsa hər iki tərəfi birləşdirən vahid bir dilin bölünməzliyindən təsəlli tapır.” [218, s. 8]

Qeyd eləmək yerinə düşər ki, Bəxtiyar Vahabzadə də “Mərziyə” adlı poemasını məhz Mərziyə Üsküyə, onun mübarizəsinə həsr edib. Poemada Mərziyənin bütün həyatı, mübarizəsi, yaradıcılığı əks olunub. Ana dilindən dərs deyən, bu dilə hörmətlə yanaşılması üçün çarpışan və əqidəsi üçün də öldürülən Mərziyənin yerinə şair bir daha vurğulayır ki:

Ən adicə haqqıdır azadlıq hər millətin,
Birinci övladıdır ləyaqət hürriyyətin.
Əsir xalqın dünyada nə yeri var, nə səsi,
Əsir xalqın yerinə qanan da özgəsidir,
Görən də özgəsidir, danışan da özgəsi! [216, s. 210]

Danılmaz faktdır ki, Bəxtiyar Vahabzadənin yaradıcılığında Cənubi Azərbaycanın xüsusi yeri və çəkisi var. Təkcə “Gülüstan” poemasının adını çəkmək kifayət edər. Filologiya elmləri doktoru Esmira Şükürova “Turanın əbədiyaşar şairi: Bəxtiyar Vahabzadə” adlı tədqiqat əsərində yazır: “Təkcə “Gülüstan”, “Mərziyə” poemalarında deyil, şairin “Şəhriyara”, “Ustad Şəhriyardan Süleyman Rüstəmə”, “Eyni yaşdayıq”, “Nə ondansan, nə bundan”, “Bakıyla Təbrizin arasındayam”, “Azəroğluna” kimi bir sıra şeirlərində də Güney Azərbaycanın problemləri qabardılır” [52, s. 166].

Sabir Rüstəmxanlının Sovet dönəmində - 1985 - ci idə yazdığı daha bir poeması ”**Vətənsiz**” adlanır. Bu əsər də Cənub mövzusundadır. Lakin tamam başqa səpkidə yazılıb. Şair Almaniya səfəri zamanı təyyarə meydanında səfil kökündə olan, Azərbaycan dilində qırıq – qırıq danışan bir ailəyələ qarşılaşır. Onlar tanış olurlar. Ata - Məhəmməd, ana - Mədinə, uşaq - Gita adlanır. Şair uşağı danışdırmaq istəyir, lakin uşaq türkcə bilmir. Ana onu fars dilində başa salır. Demək, ailə Almaniyaya kömək, yardım almaq üçün gəlib. Onlar Qırmızı Aypara Cəmiyyətinin yerini axtarırlar.

Poemanı, bir - iki yerində olan dialoqları çıxmaq şərti ilə, şairin daxili monoloqu da adlandırmaq olar. Çünki əsər boyu şair daxili düşüncələrini sərgiləyir. Bu ailə siyasi mühacir deyil.Vətəni düşünmür. Hətta onun dilini də unudub. Məqsədi nəsə qazanmaqdır, xarici ölkədə yaxşı yaşamaqdır. Şair bu ailəni və bu ailənin timsalında Vətəninin atıb yad ölkəyə qaçanları tənqid, qınaq atəşinə tutur. Ona görə yox ki, onlar yad ölkədən kömək, çörək gözləyir. Ona görə ki, belələri artıq Vətəni də, onun dilini də unudub, onu minnətli çörəyə, köməyə dəyişirlər, bilərəkdən, ya cahillikdən...bəlkə də fərqinə varmadan...

Həmçinin, Sabir Rüstəmxanlının bu dönəmdə - 1973-cü ildə yazdığı “**İşıq ömrü**” poeması Azərbaycanın görkəmli aktyoru Hüseyn Ərəbliniskinin həyat və yaradıcılığına həsr olunub. Əsər “Proloq”la açılır və “Tufan”, “Sərkərdəlik”, “Papaziyanın tək deyimi”, “Mustafa bəy Əlibəyovun böhdanı”, “İlk tatar aktirisası Boljiskayanın məktubu”, “Xəstəlik” bölümləri ilə davam edir və son olaraq “Epiloq”la bitir. Ayrı-ayrı bölüm-epizodlarda sənətkarın ömrü - günü, həyatı vərəqlənir, bir insan olaraq bütöv obrazı canlandırılır, həm də sənətdəki fədakarlıqları təsvir, tərənnüm olunur. Poema haqqında Bəxtiyar Vahabzadə belə yazır: ”Azərbaycan teatrının əsasını qoyan böyük akttyor Hüseyn Ərəbliniskinin həyat və səhnə fəaliyyətindən bəhs edən “İşıq ömrü” poeması şairin ən uğurlu əsərlərindəndir... Şair əsərdə Ərəbliniskinin faciyanə qətl səhnəsindən imtina etməklə asan yoldan qaçmış, o zamankı Bakı mühitini və onun bu cəhalət mühütündəki mübarizəsini göstərməklə fədəkar bir səhnə xadiminin faciəsini əks etdirməyə müvəffəq olmuşdur” [185, s. 9]. Əsər həqiqətən çox uğurlu alınmışdır. Çünki poema

tarixi faktlara söykənməklə yanaşı, həm də həyat gerçəkliyini poetik şəkildə düzgün, olduğu kimi əks etdirə bilmişdir.

1985-ci ildə Sabir Rüstəmxanlı daha bir poemasını – "**Cavad xan**"ı qələmə alıb [186]. Əsər Gəncə xanlığının hökmdarı Cavad xanın rus ordusuna qarşı döyüşünə həsr olunub. Poemanın epiqrafı üstüörtülü, çox düşündürücü yazılıb:

Zaman üzgüçü kimi çəkibmiş nəfəsini,
Yüz ili yüzlük kimi xırdalamaq istəmir...
Əfsanəyə bənzəyən həqiqətdir keçmişim,
Mütilər bu keçmişi qurdalamaq istəmir... [186, s. 160]

Şair öz ənənəsinə sadiq qalaraq poemaya daxili monoloqu ilə başlayır.Tarixi, ictimai-siyasi hadisələri bir-bir vərəqləyib olanları çözməyə çalışır. Düşmən ordusu qarşısında Gəncə xanı niyə təkbətək qalıb? Digər xanlıqlar niyə köməyə gəlmir? Sabah bu döyüşkən, hərtərəfli hazırlıqlı düşmən ordusu onların da qapısını döyməyəcəkmi? Böyük Vətəni kiçik xanlıqlara bölən xanlar, bəylər birləşmək əvəzinə niyə xarici ölkələrdə özlərinə havadar, köməkçi axtarışına çıxıblar? "Məzarına od düşüb yəqin Şah İsmayılın, / Yəqin Uzun Həsənin rahatlığı pozulmuş..." – deyə şair bu mənzərəyə - tarixi dönəmdə Vətənin öndə gedən oğullarının bir-birinə arxa cevirməsinə, düşmənin asanlıqla onları məğlub edib Vətəni neçə yüz il əsarətdə saxlamasına çox təəssüflənir.

Tarixdən məlumdur ki, gürcü əsilli P. D. Sisianov 1802-ci ildə Qafqaza vali təyin edilmişdi. Bu, car Rusiyasının gələcəkdə Qafqazı, Zaqafqaziyanı, o cümlədən, Azərbaycanı tutmaq üçün hazırlanmış böyük planın başlanğıcı, ilki, əvvəli idi. Sisianov ərazini, bu yerin coğrafiyasını, əhalisini, xanlarını, xanlıqları, xanlıqların bir-birinə olan münasibətlərini çox yaxşı bilirdi. O birinci olaraq İşğala Gəncədən başlamaq istəyirdi. Çünki ziddiyətli xarakterə malik Cavad xanı digər xanlar o qədər də sevmir, qəbul etmirdilər. Deməkk, ona kömək edən olmayacaqdı. Ümumiyyətlə, xanlıqlar arasında iqtisadi-siyasi, normal münasibətlər yox dərəcəsində idi.

Filologiya üzrə fəlsəfə doktoru Sabir Bəşirovun Sabir Rüstəmxanlının həyat və yaradıcılığından bəhs edən "Sərhədsiz ruhumuzun yolçusu" adlı tədqiqat əsərində "Cavad xan" poeması haqqında geniş yazıb [27]. O, poemadan çox tarixi faktlara

söykənərək o dönəmdə baş verən hadisələri, onların səbəblərini əhatəli izah edib. Bu münasibətlə də müəllif Abbasqulu Bakıxanovun "Gülüstani-İrəm" əsərindən, "Qarabağnamələr"dən, Əhməd İsayevin "Cavad xan cəngisi", "Gəncə və gəncəlilər", S. Şükürovun "Gəncəli Cavad xanın hekayəti", A. Babayevin "Rusiyaya qovuşmaq ərəfəsində" və A. Əfəndiyevin "İnam və şübhə" kimi məqalə və kitablardan yetərincə istifadə etmişdir.

"Cavad xan" əsəri bir xətt boyunca şairin daxili düşüncələri əsasında yazılıb, formalaşır. Eləcə də Baş qəhrəmanın öz oğlu, düşmənin elçiləri ilə danışıqları da onun öz daxili monoloqu ilə verilir. Bir məsələ də burada yetərli deyil ki, əsərdə heç bir ad çəkilmir, təbii ki, baş qəhrəmandan başqa. Bu da yəqin ki, dövrlə, zamanla bağlı idi. 1985-ci ildə müəyyən hakimiyyət dəyişiklikləri baş versə də, ab-hava bir qədər əvvəki illərə nisbətən yumşalsa da hələ covet hakimiyyəti güclü idi. Məhz bu səbəbdən müəllif hec bir tarixi şəxslərin adını çəkmədən öz poetik fikir-düşüncələrini qələmə alır və oxucuları ilə bölüşür. Bəlkə də bu zaman kəsiyində unudulmuş, yeni nəsillər üçün artıq o qədər də tanınmayan Cavad xanın xatırlanması, bədii obraz kimi meydana çıxmasının özü belə kifayət idi ki, sonrakı dönəmlərdə Gəncə adının bərpasına və digər tarixi hadisələrə, tarixi şəxsiyyətlərə işıq düşsün. [186, s. 160 – 177]

Beləliklə, Sabir Rüstəmxanlının poemaları həm yaxın, uzaq tarixi gerçəkliyi, həm də bu günümüzün həyat gerçəkliyini olduğu kimi düzgün, aydın, geniş, səmimi əks etdirmək baxımından çox güclüdür, əhəmiyyətlidir, yaşarıdır. Sovet dönəmində yazılmış poemaları ilə Müstəqillik dövründə qələmə alınmış poemalarını müqayisə etsək, köklü fərqi görərik. Sovet dövrü poemalarının başlıca ideya istiqamətləri, mövzu dairəsi, şairin məqsədi, məramı Vətənin Azadlıq, Müstəqillik, Bərabərlik uğrunda mübarizəsini əks etdirməkdir. Başqa ölkələrin mübarizəsindən, azadlığından bəhs edərkən belə əsərin sətiraltı duyumlarında biz öz Vətənimizi, onun azadlıq arzularını görürük. Bu da, heç şübhəsiz, yazarın xarekterinin bütövlüyündən, mənəviyyatının milliliyindən, vətənsevərliyindən və daxili azadlığından irəli gəlir.

Müstəqillik illərində yazılmış əsərlərlərdə isə artıq Vətənin Azadlıq ideyaları, şairin arzu-istəyi əyaniləşib. Azad Vətən, azad bayraq, azad İnsan. Lakin bütün

bunlar 20 Yanvar faciəsindən, Xocalı soyqırımından, Qarabağın işğalından keçib. Odur ki şairin bu dönəmdə yazdığı əsərlər faciələri əks etdirməklə yanaşı, Böyük SSRİ-yə, onun dağıdıcı, qırıcı ordusuna qarşı bir üsyandır, müharibədir. Sabir Rüstəmxanlının hələlik son poeması "Qarabağa dönüş"dür. Elə bilirik, onun digər poemaları "Qarabağa dönüş"ə qədər özünün yolüstü xəyalları, arzu-düşüncələri olub.

### 2. 2. Qabilin poemalarında şəxsiyyət amili

Qabilin çap olunmuş yeddi poeması var. Şairin poemalarından bəhs edərkən, birinci növbədə onun "**Nəsimi**"sindən danışmaq lazımdır. Akademik Bəkir Nəbiyevin təbirincə desək: "Qabil haqqında lap müxtəsər də olsa bir söz deyib onun "Nəsimi" əsərini yada salmamaq qətiyyən ola bilməz" [170, s. 351]. Poema on dördüncü əsrdə yaşamış filosof - şair İmadəddim Nəsiminin həyat və yaradıcılığından, fəaliyyətindən bəhs edir. Əsər hissə-hissə üç cilddə yazılmışdır. Birinci cild 1970-ci ildə, ikinci cild 1972-ci ildə, üçüncü cild 1974-cü ildə çap olunmuşdu. Poema bütövlükdə 1980-cı ildə "Yaziçi" nəşriyyatında çap olunaraq ədəbi içtimaiətə təqdim edilmişdi. 1976-cı ildə Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüşdür. 2002 ci ildə Şirvannəşrdə təkrar çap olunmuşdur. 2018-ci ildə isə şairin çap olunan yeddi cilidliyinin birinci cildində yer almışdır.

Nəsimi haqqında bir çox bədii əsərlər yazılmışdır. Nəsrdə ən böyük əsər İsa Hüseyinovun "Məhşər" romanıdır. Nəzmdə isə Əli Kərimin 1969-cu ildə yazdığı "Şəhidliyin zirvəsi" kiçik poeması, 1972-1973-cü ildə Xalq şairi Rəsul Rzanın yazdığı "Son gecə" poeması, Nəbi Xəzrinin "Mənim babam baxan dağlar" poeması, Xalq şairi Bəxtiyar Vahabzadənin "Fəryad" mənzum pyesi, Əliağa Kürçaylının "Nəsimi", İslam Səfərlinin "Nəsimi", Cabir Novruzun "Nəsimi", Məmməd İsmayılın "Nəsimi", Əli Tudənin "Nəsimi", Fikrət Sadığın "Böyük Nəsimiyə" və onlarca belə şeirlər ədəbiyyatımızda özünəməxsus yer tutmuşdur. O dövrdə Azərbaycan Respublikasının Birinci Katibi olmuş Heydər Əliyevin də bu məsələdə böyük və

danılmaz xidmətləri vardır. 1970-ci ildə Suriyada səfərdə olarkən Nəsiminin qəbrini ziyarət edən Heydər Əliyev məzarlığın abadlaşdırılması üçün göstəriş vermişdir. "Məhz Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin 600 illik yubleyi YUNESKO-nun tədbirləri siyahısına daxil edilmiş və 1973-cü ildə beynəlxalq miqyasda qeyd edilmişdir" [176 ]. Bütün bunlardan sonra həm ölkə daxilində, həm də beynəlxaq aləmdə Nəsimiyə, onun yaradıcılığına maraq xeyli artmışdı. Haqqında tədqiqat xarekterli məqalələr, elmi əsərlər yazılmışdı. Bu əsərlərdən Akademik Həmid Araslının "İmadəddin Nəsimi: həyat və yaradıcılığı", Əbülfət Həsənoğlu "İmaddəddin Nəsiminin "İraq divanı"na şərhlər" və s. onlarca yazılmış elmi məqaləni göstərmək olar. Bu gün də belə əsərlər yazılmaqdadır.

Nəsimiyə həsr olunmuş poemalar içərisində Qabilin "Nəsimi"si həm həcminə (on iki min misradı), həm obrazlar qaleriyasına, həm də təsvir, tərənnüm olunan ərazi - ölkələr, şəhərlər baxımından çox fərqlənir. Akademik Bəkir Nəbiyev göstərir: "Əvvəlcə poema kimi düşünülmüş "Nəsimi" bu janrın hüdud və imkanlarını aşıb keçmiş, orjinal mənzum roman kimi ədəbiyyatımızın qiymətli nümunələri sırasına daxil olmuşdur". Daha sonra akademik qeyd eləyir ki, "Qabilin əsəri xalq tarixinin ideoloji, siyasi və hərbi keşməkeşlərnən dolu olan çox mürəkkəb bir dövrün son dərəcə vacib mənəvi - əxlaqi problemlərini, rəngarəng insan xarekterlərini zəngin epik lövhələrdə, axarlı - baxarlı poetik bir dildə, bədii ümumiləşdirmələr yolu ilə canlandırdığı üçün mən onu mənzum roman hesab edirəm" [ 170, s. 351]

Poema üç hissədən və altmış səkkiz başlıqdan ibarətdir. Əsər "Heyrət" adı ilə başlayır. Bu, on dördüncü əsr şairinin iyirminci əsr şairinə müraciətidir. Nəsimi heyrətlə, eyni zamanda minnətdarlıqla soruşur:

Tarixin tilsimli yollarıynan sən,
De görüm yanıma necə gəlmisən?
Həmişə irəli gedirsə bəşər,
Geri qayıtmağın deyilmi hədər? [97, s. 9]

On dördüncü əsrin şairi öz əqidəsini də qısa şəkildə burada açıqlayır:

Mən özümdə tapdım öz allahımı,

“Ənəlhəq” söylədim gizlin, aşikar!

Qabilin “Nəsimi”si doğurdan da, Nəsiminin əbədi yaşmasına bir işıq tutub və Nəsimi bu işıq- əsərlə yeni, əbədi bir ömür qazanıb.

İkinci başlıq “Qiymət” adlanır və bu Qabilin – iyirminci əsr şairinin Nəsiminin heyrətinə heyrətlə, səmimi cavab verməsidir:

Mənim şair babam, sənə qiyməti,
Bir nəfər verməyir, bir millət verir!

Sonrakı “Şahi Xəndan”, “Hüseyini”, “Mən tək qaldım” və s. birinci hissədə cəmi on iki başlıq altında Nəsimi öz uşaqlıq və mədrəsə illərindən danışır. Poema bəzi istisnalarla Nəsiminin öz dilindən söylənilir. Əsər eyni sujet xətti üzrə gedir. O, ata-anasını tez itirməsindən, uşaqlığından ona qardaşı Şahi Xəndanın baxmasından, lakin onun da tez ölümündən, tək qalmasından bəhs edir.

Xalq şairi Nəriman Həsənzadə “Hünərin tərənnümü” adlı məqaləsində yazır: “Şair Qabil İmamverdiyev belə bir çətin mövzunun poetik tədqiqinə girişdi, xalqımıza qiymətli hədiyyə verdi. On il bu əsər üzərində işlədi” [ 70, s. 469]. Deməkk, Qabil bu əsəri yazmaq üçün tarixi məxəzlərnən yanaşı, Şamaxıdan başlamış Nəsiminin keçdiyi bütün yolları, əraziləri – şəhərləri, ölkələri, qalaları, qəsrləri qarış-qarış gəzmiş və bu yerlərə Nəsiminin gözüylə baxmış, onun diliylə təsvir-tərənnüm etmişdir.

Nəriman Həsənzadə daha sonra yazır: “Ədəbi-tarixi əsərlər, adətən, müasirlik baxımından yaradılır, bu baxımdan da qiymətləndirilir. Yazıçının tarixi eyni ilə köçürə bilmək, ya əksinə, onun üstündən xətt çəkmək haqqı yoxdur...Tarixçi yalnız keçmiş hadisələri danışırsa, şair olmuşlardan və ola biləcəklərdən də danışa bilər, həm də danışmalıdır. Odur ki, ədəbiyyat tarixə nisbətən daha geniş, daha fəlsəfi məna kəsb edir” [70, s. 470].

Əsərin ikinci hissəsi “Şair sariban” adı ilə başlayır:

Yolların tozuna bürünür karivan,
Dərədə çən kimi sürünür karivan... [ 97, s. 91]

Bu karvanın Sarvanı şair Nəsimidir. O müəllimi Fəzlullahın məktubu ilə Bakıya Əbdülsəlimin görüşünə gəlir, onun maddi, mənəvi dəstəyi ilə Bakıda Xanəgah - hürufi mərkəzini açır. Onun üzvülüyünə Bakının əksər sənətkarları – xəttadlar, misgərlər, zərgərlər, nəqqaşlar qəbul olunurlar. Hürufilik təriqətinin Bakıda yayılmasında Nəsimi böyük iş görür. Lakin çox çəkmir ki, o, Naxçıvandan Fəzlin qətli haqqında xəbəri eşidir və Bakını tərk edir.

Gilana, sonra Təbrizə gələn şairin ilk ziyarət etdiyi yer "Məqbərətüş - şüəra" məzarlığında Şirvanlı şairlərin qəbrləri olur. Təqiblərdən, zülüm - haqsızlıqlardan, özbaşınalıqlardan, hərc-mərclikdən bezib Vətəni tərk edən Əfzələddin Xaqani Şirvani, Fələki Şirvani, Ənvəri indi Təbrizin qucağında əbədi uyuyurlar. Nəsiminin xələfi Ə. Xəqaniylə xəyali söhbəti tarixin acı həqiqətləridir:

Xaqanlar qəlbini qırdı, incidin,
Xalqdan incimədin, Xəlqani oldun.
Şirvanda zindanlar yordu, incidin,
Cahanda ən böyük Şirvani oldun! [97, s.164]

Nəsimi təssüflənir ki, ustad, şərəfin, şan-şöhrətin artdıqca möhnətin, zillətin də artdı. Sən öz doğma Vətənində - Şamaxıda rahat yaşayıb yarada bilmədin.

İkinci hissənin sonu "Səməndər quşu" adlanır. Bu başlıq altında yüksək şeriyyətlə təsvir olunmuş hadisələr əsərin ən çox oxunaqlı, qürurverici və heyrət ediləcək hssəsidir.

Akademik Bəkir Nəbiyev əsərin oxunaqlı olmasını belə izah edir: "Əsərin əsas müfəvəqiyyəti, heç şübhəsiz, orta əsrlərdə yaşamış böyük Azərbaycan humanisti, mübariz şair, cəfakeş insan İmadəddin Nəsiminin bədii surəti ilə bağlıdır. Qabilin Nəsimisi xalqın həyatı, ənənəsi, arzuları ilə qırılmaz tellərlə bağlı olan mütəffəkkir, ana dilli şerimizi yüksək mərhələyə qaldıran bənzərsiz sənətkardır" [170, s. 351]. Əlbəttə, əsərdə söhbət böyük Nəsimidən, onun bənzərsiz şeirlərindən, bütün qüvvəsilə xalqı, Vətəni üçün bacardığını etməsindən, bununçün həyatını da təhlükəyə atmasından gedir. Lakin Qabilin də burda istedadı, bacarığı, əzmkarlığı, şeriyyəti danılmazdır. "Allah Qabili, elə bil, məxsusi bir missiya ilə insanlar arasındakı nəcib, xeyirxah münasibətlərin generatoru, təşkilatçısı xəlq etmişdir" [170, s. 353].

Şair Əlağa Kürçaylı isə əsərin oxunaqlı olmasını belə izah edir: "Qabilin rəvan şeriyyətlə təsvir və tərənnüm etdiyi hadisələr, fikirlər ona görə oxucunu fövrən öz təsiri altına sala bilir ki, hər misra, hər bənd, hər fəsil şair qəlbinin odu, atəşi ilə isinmiş, cilalanmışdır" [ 93, s. 489]. Eyni zamanda Ə. Kürçaylı haqlı olaraq həm də göstərir ki, "Məzmuna görə forma seçmək, formaya görə ifadə vasitələri tapmaq bacarığı "Nəsimi" poemasında Qabilin sənətkarlıq imkanlarını açıq-aydın nümayiş etdirir. Görünür, şair bütün məsuliyyəti ilə dərk etmişdir ki, onun əsərində söhbət ikinci dərəcəli məsələlərdən deyil, Nəsimidən, bugünkü ədəbi dilimizin banisindən, mütəfəkkir filosofdan, qəhrəmandan, ideya mücahidindən gedir". [ 93, s. 489]

Əsər haqqında, istər onun dili, quruluşu, ideyası, təsvir-tərənnümü, istərsə də obrazların işlənməsi baxımından müsbət fikirli məqalələr çoxdur. "Qabilin "Nəsimi" poeması yüksək qayə və ideyallar tərənnüm edən bir sənət əsəridir. Doğurdan da, poeziya o zaman öz yüksək borcunu ödəmiş olur ki, qarşısına qoymuş olduğu məqsədi, təlqin etmək istədiyi fikri eyni zamanda bədii boyalarla, yüksək şeiriyyətlə ifadə etmiş olsun" [93, s. 489].

"Nəsimi" poeması Qabilin yaradıcılığında olduğu kimi, ümumiyyətlə, son dövr poeziyamızda da ədəbi nailiyyət kimi qiymətləndirilir. Poema tarixi mənbələrə əsaslanır. Bunun üçün şair bir sıra məxəzləri araşdırmış, orta əsr Azərbaycan Ədəbiyyatı tarixi mütəxəsislərinə müraciət etmiş və nəhayət, yaradıcılıq təxəyyülünə arxalanmışdır" [70, s. 470].

Əsərin üçüncü hissəsi Nəsiminin Konya səfəri ilə başlayır. Burada şəhərin təsviri xüsusilə diqqəti çəkir. Şair Konyanı Təbrizlə, Bakı ilə müqayisə edir.

Əlağa Kürçaylı Qabilin "Nəsimi"sini Səməd Vurğunun "Vaqif"i ilə müqayisə edir: "...Azərbaycan ədəbiyyatında şair həyatına həsr edilmiş "Vaqif" kimi bir nümunə vardır. Böyük Səməd Vurğun öz qüdrəti ilə şeirdən Vaqifə yeni bir abidə qoymuşdur və bu abidə o qədər əzəmətli, o qədər parlaqdır ki, bu mövzuda yazılan başqa əsərlərin üzərinə kölgə də sala bilərdi. Bizi – Qabil poeziyasının pərəstişkarlarını sevindirən də budur ki, şair çətinlikdən qorxmamış, ilhamın bütün imkanlarını səfərbər etmiş, çətin sınaqlardan uğurla çıxmış, böyük Nəsimiyə sənət abidəsi qoymuşdur". [ 93, s. 489]

Poemanın “Qalada bir quyu var”, “Məhkəmə” başlıqları altında son fəsillərində Nəsiminin Hələbdə həbs edilməsi və məhəkəmə prosesi təsvir olunub. Həbsdən sonra qırx ərşin quyuda saxlanılan Nəsimi özü - özünə burda – quyunun dibində bir “məhkəmə də qurur” :

Necə sığdın quyuya bəs,
Ey cahana sığışmayan?
Məkan oldu sənə məhbəs,
Ey məkana sığışmayan! [97, s. 466]

Sonra da şair “ məhkəmədən qabaq bu nə məhkəmə?”- deyə gülümsəyərək, öz sualına özü cavab verir:

Cismim burda dustaq mənim,
Buxov mənim biləyimdə.
Ruhum azad, ancaq mənim
Sövdalarım ürəyimdə!!!

Baş bədəndən düşər ayrı,
Fikir başdan ayrı düşməz.
Lap olsa da gecə yarı,
Yer Günəşdən ayrı düşməz! [97, s. 467]

Bu “ ...kimi misralarda oxucu onun daxili yenilməzliyinə, mənəvi saflığına inanır və təqdir edir” [70, s. 471]

Əsərdə oxucunu heyrətə salan səhnələrdən biri də Nəsiminin məhkəmədə verilən suallara dəqiq, qəti və aydın cavablarıdır. “Sən allahın varlığını danıb, insana allah deyirsən! - Niyə?” Ruhanilərin iradına şairin cavabı:

Allaham, insana həyat verən mən,
Allaham, insana nicat verən mən.
İnsanam, insana gərək olan mən,
İnsanam, insana kömək olan mən! [ 97, s. 474]

Məlumdur ki, məhkəmədə Nəsimini edam etmək üçün tutarlı fakt tapa bilmirlər. Ruhanilərin canfəşanlığına baxmayaraq yerli hakimlər ona nə cəzası verməyi belə

müəyyən edə bilmir. Əmir Yaşbək üzünü şairə tutaraq soruşur ki, tövbəyə izin verilsəydi onun cavabı nə olardı? Şairin cavabı yenə qəti və aydındır:

Oğurluq edənlər tövbə eləyər,
Səhv yola gedənlər tövbə eləyər,
Yaxşıya pis deyənlər tövbə eləyər,
Qızıla mis deyənlər tövbə eləyər
Quru böhtançılar tövbə eləyər,
Qara yalançılar tövbə eləyər…
Bəs mənim tövbəmin nə olsun adı?
Hansı xəta çıxıb əlimdən, deyin?
Qəbul elədiyim bir etiqaddır,
Zorla hökm edirəm sizə mən, deyin? [97, 474-475]

"Nəsimi ideya fədaisi, ardıcıl təbliğatçı, yorulmaz hürufi xadimi, gözəl şairdir. O, həmsöhbətini nəinki inandırır, hətta öz ardınca çəkib aparır." [70, s. 471]

Filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlının "İyirminci əsr Azərbaycan poeziyasında Nəsiminin bədii obrazı" adlı məqaləsində bu səhnəni Rəsul Rzanın "Son gecə" əsərində təsvir olunmuş eyni səhnə ilə müqayisə edir və göstərir ki, hər iki əsərdə cavablar eynidir: "Rəsul Rza Nəsiminin daxili yaşantılarını, düşüncələrini, duyğularını təqdim etməklə həm də onun əzəmətini təqdim edirdi" [175, s. 274-278].

Rəsul Rzanın "Son gecə"sindəki Nəsimiyə eyni sualı, sözü zindan gözətçisi verir: "Tövbə et, günahlarından keçsinlər!" Nəsiminin cavabı burda bir qədər fərqlənir:

- Qoca!
Böyük həqiqətə,
    Doğru sözümə tövbə deyimmi?
Hər yanda zülmü, səfaləti
    Görən gözümə tövbə deyimmi?
… Mən deyirəm Allahın
        Canlı təbəssümü

Sənsən, mənəm.

Allahın damlası insan özüdür,

İnsan düşüncəsi, doğru sözüdür… [197, s. 36]

Göründüyü kimi, müəyyən fərqlər də yox deyil. Qabilin Nəsimisi yalnız özündən danışır. Rəsul Rzanın Nəsimisi isə cəmiyyətdə gördüklərindən bəhs edir. Burda söhbət yalnız "tövbə edərmisən, günahından keçsinlər?" sualına verilən cavabdan gedir.

Aygün Bağırlı məqaləsində başqa bir məsələni də xatırladıb, yada salır: "Biz Nəsimi haqqında yazılmış bədii əsərləri nəzərdən keçirdikcə şairin həm əfsanələşmiş, həm də gerçəkləri ifadə edən bədii obrazını görürük. Bəzi məqamlarda yalnışlıqlara da rast gəlindi ki, bu da sovet ədəbiyyatşunaslığının ictimaiyyətə təqdim etdiyi Nəsimidir… XX əsrin bədii ədəbiyyatındakı Nəsimisi elmi ədəbiyyatdakı Nəsimidən bir boy ucadır". Daha sonra Aygün haqlı olaraq göstərir ki, "Bədii ədəbiyyatdakı Nəsimi elmi ədəbiyyatdakı Nəsimidən daha realdır və daha az təhrif olunmuşdur" [175, s. 277].

Bəkir Nəbiyev də bununla bağlı yazıb: "Əsərlərindən çıxarılan güman və fərziyələri, diriykən soyulması barədə 600 ilin əfsanə tülünə bürünmüş deyimləri nəzərə almasaq, Nəsimi kimi bir dahinin müfəssəl həyat yolu haqqında elmdə heç bir sistemli məlumat yoxdur" [170, s. 352].

Təbiidir ki, Sovet dönəmində ateist sovet cəmiyyəti şairin "Allah mənəm, allah mənim içimdədir" ifadələrini öz bildiyi kimi yozub, allahın yoxluğunu təsdiq etmək üçün bundan istifadə edib. Ancaq maraqlı cəhət odur ki, Nəsiminin "ALLAH yoxdur!" fikrini yalız elm adamları subut və təsdiq edir. Onun edamını da, sağ ikən diri-diri soyulmasını da Allahı inkar etməsi ilə bağlayıblar. Lakin bu alimlərlə eyni məkanda, eyni zaman çərçivəsində yaşamış yazarlarımız isə Nəsiminin təqib edilməsini, həbsini, edamının səbəblərini başqa yerdə aramışlar.

Bəkir Nəbiyev yazır: "Əsərdə Nəsiminin həyatına, tarixlərin yaddaşına əbədilik həkk olunmuş poetik irsinə çağdaşımız olan bir sənətkarın (Qabilin) aydın fərdi baxışı hakimdir… Mənzum romanda o, insanları maddi və mənəvi buxovlardan azad

görmək uğrunda həyatını qurban verən bir əqidə adamı, dostluqda, sevgidə dəyanətlə ürəkləri riqqətə gətirən fədakar bir aşiq kimi canlanır" [170, s. 351].

Nəriman Həsənzadə: "Nəsimi idyea fədaisi, ardıcıl təbliğatçı, yorulmaz hürufi xadimi, gözəl şairdir" [70, s. 471]. Və ya: "O, insanın varlığı, insanlıq ləyaqəti uğrunda vuruşurdu. Nəsiminin hər kəlamı insanın böyüklüyü, mənəvi yüksəkliyi haqqında deyilmiş nəğmə təsiri bağışlayır" [70, s. 472].

Əlağa Kürçaylı: "Poemada Nəsimi filosof - mütəfəkkirdir. Onun fikrincə insanilik kamilliyin ali nöqtəsidir. Mənəvi və cismani azadlıq olmadıqda isə kamillik mümkün deyildir. Hər şeyə qadir olan insan qul vəziyyətində qaldıqca bütün insani keyfiyyətlərini itirir..." [93, s. 484].

Dilçi alim Tofiq Hacıyev: "Qabilin mənliyini, vətəndaşlıq xislətini özlüyümdə təhlil edərkən həmişə düşünmüşəm ki, onun məhz Nəsimi haqqında poema yazması təsadüfü deyil... Qabili cəlb edən Nəsiminin tarixi iradəsi, məslək döyüşçüsü olması idi. Ölümlə üz-üzə durarkən də Nəsimi qayəsini dəyişmədi" [62, s. 428].

Deməк, Nəsimi allahsız deyildi, ən azından o dövrün dini mədrəsəsini bitirmişdi. Şair insanı allaha bərabər tuturdu. Çünki allah yaradandı, yoxdan var edəndi. İnsan da yaradıcıdır. Fərq böyük deyil. Əlbəttə, burda söhbət kamil insandan, hərtərəfli inkişaf etmiş alimdən, şairdən, müttəfəkkirdən gedirdi. Nəsimi insanları iki qurupa bölürdü: kamil insan, cahil insan. Birincilər qurub - yaradanlardısa, ikincilər vurub dağıdanlardı. Nəsimi göstərirdi ki, cəmiyyət o vaxt inkişaf edəcək ki, kamil insanlar çox olsun. Ən böyük mübarizə kamilin cahillə mübarizəsi və qalib gəlməsidir.

Nəsiminin dinə, onun ayinlərinə qarşı çıxmasının bir mədəni vardı. Tarixən bir çox sahələrdə olduğu kimi dində də qabarmalar, çəkilmələr olub. Müəyyən dönəmlərdə, daha dəqiq desək, orta əsrlərdə din, din xadimləri dövlətin, cəmiyyətin idarəsini öz əllərinə alaraq onu allahın adı ilə, dini qanunlarla idarə ediblər. Bu qanunlar isə Allahın müqəddəs kitablarından çox uzaqlaşmışdı.Təbii ki, qanunları feodallar, ruhanilər özlərinə sərf edən formada yazmışdılar. Bu da cəmiyyətin elmi-ədəbi, mənəvi, sosial-iqtisadi inkişafında fiziki buxova çevrilmişdi. Orta əsrlərdə bütün dünya dövlətlərində dini, inkvizisiya məhkəmələrinin verdiyi cəzalar: diri-diri

tonqalda yandırmaq, dərisini soymaq, şaqqalayıb şəhər darvazası önündən, böyük meydanlardan asmaq, daş-qalaq etmək, kəndirlə millətin, xaiqın gözü qarşısında dirəkdən asmaq və s. Böyük şair, mütəfəkkir, kamil insan olan Nəsimi təbii ki, bu qanunlara qarşı çıxacaqdı. Allahın adından verilən bu qanunlara qarşı çıxan Nəsimi deyir: "Allah mənəm, həqq məndədir!" Həqiqət mənəm – insandır! Qanunları da insan yaratmalıdır. Yəqin ki, bu həqiqət, iş başında olan ruhanilərin öz "həqiqətlərinə" zərbə vurduğundan, onları bərk qıcıqlandırıb qəzəbləndirəcəkdi, dini məhkəmələr də öz sözünü dini qanunlarla, vəhşi cəzalarla yerinə yetirəcəkdi və yetirdi də. Diri soyulan tək Nəsimi deyildi. Bu cəzalar Nəsimiyə qədər də çoxlarına verilmişdi. Tonqalda yandırılan alimlər, həkimlər, müəllimlər azmı olub? Nəsiminin həyatını astronom, filosof, şair, yazıçı Cordano Brunonun həyatı ilə müqayisə etmək olar. Günəşin Yer ətrafında yox, Yerin Günəş ətrafında fırlanmasını kəşf edən alimin cəzası tonqalda diri-diri, kitabları ilə birgə yandırılmaq olmadımı? Nəsimidən bir əsr sonra İtalyanın Neapol şəhərində dünyaya gələn (1548-1600) C. Bruno da on beş yaşında dini təhsil almaq üçün monastra qoyulmudur. Lakin burda rahib həyatı yaşayan yeniyetmə oğlan qanunların ağırlığına, mənasızlığına dözməyib ordan qaçmışdı. Bir müddət Romada yaşamış, lakin təqib edildiyindən ordan da Fransaya, daha sonra Almaniya, İngiltərə və Cexiyada yaşayıb elmi-bədii yaradıcılığını davam etdirmişdi. O, Çexiyada Kopernikin kitabları ilə tanış olur. Onun Günəş sistemi haqqında nəzəriyyəsini öyrənir və onu bir az da təkmilləşdirərək təbliğinə başlayır. Demək, C. Brunodan əvvəl bu nəzəriyyəni polyak alimi Kopernik kəşv etmişdi. Lakin Kopernik dini qanunlardan xəbərdar idi. Onu nə kimi cəza gözlədiyini də yaxşı bilirdi. Odur ki, alim ölümünə az qalmış, insulit keçirdiyi dönəmdə kitabını çap etdirir və dini məhkəmənin ağır cəzasından qurtarır. C. Brunodan sonra isə bu nəzəriyyəni Qaliley genişləndirib təsdiqləyir. Lakin o da dini məhkəmənin vəhşi cəzasından yaxa qurtarmaq üçün geri çəkilir və ömürlük ev düstaqlığı ilə canını qurtarır. C. Bruno isə Nəsimi kimi geri çəkilməyərək, nəzəriyyəsini hər yerdə təbliğ edir. Nəticədə on altı ildən sonra vətəninə dönən Bruno həbs edilir və diri-diri yandırılmaq cəzasını alır.

Bax, tarixçi alimlər bu həqiqətləri ortaya çıxarmaqda, o dövrə tarixi faktların

gözü ilə baxmaqda, Nəsiminin də kimlərə, nələrə qarşı çıxdığına görə diri-diri soyulduğunu izah etməkdə gecikiblər. Bu missiyanı ədəbiyyat, yazarlar yerinə yetirib.

İndi dərc edilən bir çox məqalələrdə qeyd edilir ki, guya Nəsiminin diri-diri soyulması həqiqəti əks etdirmir. Xeyr, bu həqiqətdir. Çünki bu dövrün cəza qanunları yuxarıda sadaladıqlarımızdır, onun da birini - diri-diri soyulmağı Nəsimiyə tədbiq ediblər.

Bir də bəzi məqalələrdə göstərilir ki, guya Nəsimi edam edilərkən kəlmeyi-şəadətini söyləyib. Bu fikir də məntiqli deyil. Dini qanunlara, ruhanilərin özbaşınalığına qaşı çıxan, insanı qul adı ilə alıb-satan, onu istədiyi kimi işlədən, alçaldan, məhv edən, insanlığı öldürən qaydaları yüksək səslə kənd-kənd, şəhər-şəhər, ölkə-ölkə gəzib tənqid edən mütəffəkkir şair bunu etməzdi. Əgər edə bilsəydi elə əvvəldən, ona təklif olunanda ki, tövbə et, səni bağışlasınlar, onda bunu edərdi. Tövbə nə deməkdir? Yəni səhv eləyib dini qanunlara qarşı çıxıb, indi onları olduğu kimi qəbul edir. Bu isə Nəsimiyə xas çəhət, xarakter deyildi.

Daha bir məsələ, tədqiqatçıların bir çoxu qeyd edir ki, şairin məşhur "Zahidin bir barmağını kəssən, dönüb həqdən qaçar" adlı şeiri ona məxsus deyil. Çünki şeiri soyulduğu an, edam vaxtı söyləyb. Onun da, təbii ki, yazılması mümkün deyildir. Amma şerin dəsti-xəttindən, üslubundan Nəsimiyə aid olduğunu bizdən əvvəl mütəxəssislər subut eləyiblər. Onda bu necə ola bilər? Gəlin məsələyə başqa yöndən yanaşaq. Axı Nəsimiyə qədər də yüzlərlə insan bu cəzanı almışdı, yəni dərisi soyulmuşdu. Şair bu qəzəlini özünə yox, məhz o insanlara həsr eləmişdi. Taleyi elə gətirdi ki, eyni cəzanı ona da verdilər. Bəlkə də, şairə məhz bu cəzanın verilməsində şerin də müyyən qədər rolu, təsiri olmuşdu?! Hər halda, şeir əvvəlcədən yazılmışdı və edam vaxtı bu qəzəl yerinə düşdüyü üçün səslənmişdi. Barmağını kəsmək ifadəsi xalq sözüdür, indi də işlənir. Məsələn, filankəsin barmağını kəssən dünyanı dağıdar. Amma həlak olan şəhidləri heç düşünmür. Və ya, necə gülürdüsə barmağını kəssən belə xəbəri olmazdı. Az qala hər gün deyilən sözlərdi, ifadələrdir.

"Nəsimi" poemasının sonu "Eheyy" adlanır və bu Hələbdə Qabilin Nəsimi ilə xəyali görüşündən bəhs edir:

Sənin dastanını qoyub yarıda,
Sənin görüşünə gəlmişəm, ustad!
Qəbrini hifz edən bu diyarı da,
Yurdum tək müqəddəs bilmişəm, ustad! -

deyə şair dünənki Hələblə bugünkü Hələbi müqayisə edir və arada olan böyük fərqi qürurla göstərir. Bugünkü Hələb sanki keçmişindən utanaraq onların yerinə Nəsiminin ruhundan üzr istəyir və onu qoynunda, qucağında beləcə əbədi olaraq saxlayır.

Hələb! Məkkəm mənim, mədinəm mənim!
Səndə Azərbaycan əmanəti var! [97, s. 497] -

Deyə şair bu isti, səmimi, xoş niyyətli Hələbi eyni səmimiliklə ürəkdən alqışlayır və ona öz təşəkkürünü bildirir...

İlk təhlilə "Nəsimidən" başladım. Amma Qabilin ilk poeması 1949-cu ildə yazılıb, "**Dostlar**" adlanır [94]. Poemada böyük rus şairi Puşkinlə azərbayacanlı alim, tərcüməçi, şair, Qüdsi təxəllüsü ilə şeirlər yazan Abasqulu ağa Bakıxanovun dostluğundan bəhs edilir. Qüdsi Puşkin poeziyasının çox qiymətli, dəyərli, xalqına xeyirli, mənəvi dayaq olduğunu söyləyir. Puşkin də öz növbəsində dostu Qüdsinin əsərlərinin nə qədər təbii, dolğun olduğunu etiraf edir.

Qüdsi özünün məşhur "Gülüstani-İrəm" əsərini Puşkinə, Puşkin isə yeni yazdığı şerini Qüdsiyə hədiyyə edir. Əsərdə Puşkinin ölümünə elegiya da yer alıb.

Hər bir yazar və yazdığı əsər öz dövrünün güzgüsüdür, aynasıdır, təbii, olduğu kimi əksidir, əks-sədasıdır, - deyənlər heç də səhv etməyiblər. "Dostlar" əsəri də keçən əsrin sovet dönəmində olan düşüncələrin, fikirlərin məcmusudur. Poemada Qiriboyedov, Razin, Puqaçov və onların fəaliyyətləri, ölümləri müxtəlif səpkidə tərənnüm olunur. Əsər poetik cəhətdən yaxşı işlənib. Lakin, göründüyü kimi, dövrün təsir dairəsindən çıxa bilməyib. Şair sanki o dönəmdəki SSRİ tarixi dərsliyini götürüb, orda təbliğ edilən, yeni nəslə öyrədilən adları poemaya gətirib. Amma bir tarixi fakt, həqiqət də var ki, Puşkinlə A. Bakıxanov ədəbi aləmdə və şəxsən dost, həmkar olublar.

"**Bağça**" poeması 1951-ci ildə yazılıb. Şair özü əsəri lirik poema adlandırır.

Əsər Müharibə və Qələbə mövzusundadır [94]. Bakıda hər il keçirilən 9 may - Qələbə gününün təsvir və tərənnümündən bəhs edir. Poemada böyük təntənə ilə keçirilən bayram və bu bayramda müharibə iştirakçılarının xatirələri əsas yer tutur. Müharibə səhnələri göz önündə canlanır. Müharibədən qayıtmayanlar veteran dostların xatirələrində yada salınır, xatırlanır.

Qabilin daha bir poeması "**Mehparə**" adlanır və 1954 -1957- ci illərdə yazılıb. 1958-ci ildə "Azərnəşir" onu ayrıca kitab halında çap edib. 1988-ci ildə şairin seçilmiş əsərlərində də dərc edilib [94]. Məhəbbət mövzusundadır. Əsərin əsas qəhrəmanları üç gəncdir – Mehparə, Heydər, Məharət. Oxuyan və işləyən bu gənclərin arasında bir məhəbbət üçbucağı da yaranır. Mehparə onu sevən kasıb gənci yox, imkanlı şəxsi seçir. Təbii ki, sonunda peşman olur. Lakin sevən gənc Heydər geri cəkilməyərək öz məhəbbətinə sadiq qalır.

Poema o dövrdə ədəbi ictimaiətin diqqətini cəlb etmiş, haqqında bir çox məqalələr yazılmışdır. Tanınmış tənqidçi Qulu Xəlilovun "Mehparə" məqaləsindən: "Əvvəlki əsərlərində Qabil əsasən tərənnüm yolu ilə gedirdisə, "Mehparə"də canlı insan surətləri yaratmış, onların hərəsinin özünəməxsus fikir və düşüncələrini, ədasını, davranışını realistcəsinə əks etdirmişdir" [79, s. 3].

Yazıçı Əlfi Qasımov "Məhəbbət poeması" məqaləsində "Mehparə" poemasını Qabilin yaradıcılığında sevindirici hadisə və ümumən, ədəbiyyatımızda ailə-məişət mövzusunda yazılmış müvəffəqiyyətli poemalardan biri hesab edir.

Şairin Cəfər Cabbarlının xatirəsinə yazdığı "**Birinci addım, birinci sevinc**" əsəri də 1960-cı ildə yazılıb. Burada C. Cabbarlının ilk əsəri olan "Bahar"ın qəzetdə dərc olunması və gənc şairin ilk, böyük sevincindən bəhs edilir. [94]

"**Yanardağ**" lirik poeması 1976-cı ildə yazılıb və Bakının Digah-Məhəmmədi kəndləri arasında yerləşən Yanardağdan, onun əbədi məşələ çevrilməsindən söhbət açılır [94].

> Ərənlərin ürəyidir yanardağlarım,
> Oğulların şərəfinə əbədi məşəl! [94, s. 43]

Yeraaltı qaz kütləsinin torpağın üst qatına sızması ilə yaranan daimi alovu şair poetikləşdirib onu Vətən oğullarının şərəfinə əbədi məşəl adlandırır, ərən-igidlərin

ürəyinə bənzədir. Şair göstərir ki, məhz bu əbədi məşələ görə bizim yurd Odlar yurdu hesab olunur.

Rəvayətə görə bu dağa cobanın çaxmağından bir çınqı düşmüş və dağ alovlanaraq əbədi məşələ çevrilmişdir.

...Nəsimilər inadının rəmzi Yanardağ!
Fizulilər fəryadının əksi Yanardağ [94, s. 42]

Şair Yanardağın əbədi alovunu bu Odlar yurdunun odlu ürəyi ilə, Nizami, Fizuli, Nəsimi kimi övladlarının daima yanar qəlbi ilə müqayisə edir.Yanardağ, bu ölkənin, xalqın toy şamına, bayram şamına da çevrilib. Bir tərəfi dəniz, bir tərəfi yanar dağ olan bu ölkə müqəddəs Odlar diyarıdır. Qarda, boranda da sönməyən bu od-ocağa təmiz ürəkli insanlar xoş niyyətlə ürəklərində arzu - dilək tutub gələrlər.

Gəl, açmışam qollarımı, atıl odlara,
Dönüb külə, doğur küldən Səməndər hər an.
Qorxma, odu od yandırmaz qatıl odlara...
Od içində çırpınmırmı bu odlu cahan? [94, s. 39]

Şairin lirik qəhrəmanı da dilək tutub bu dağa gəlir. Alovların içindən bir mələk ona əl eləyir: "- Mən odda od, mən suda su pərisiyəm, bil, // Meşələrdə meşələrin ilahəsiyəm...." Poemada dağ da, dəniz də, od-ocaq da, sevgi-məhəbbət də müqəddəsləşir, əbədiləşir və tərənnüm olunur.

Qabilin "**Ağ libasda**" adlı bir kiçik poeması da var. 1978-ci ildə, bir Fransız rəvayəti əsasında yazılıb [95]. Həyat dolu düşüncələri ilə diqqəti çəkir. Ölümün özünü susduracaq, ürək dağlayan bir əfsanədir. Amma əslində elə həyat gerçəkliyidir. Ölüm hökmü verilmiş oğlunu dar ağacından qurtarmaq üçün ana çox insanlara yalvarır, xahiş edir. Lakin kimsə kömək etmir. Ana zindanda qorxudan dodaqları partlamış oğlu ilə görüşür:

Mən ölümdən qorxuram,
Yox, yox səhərə qoyma,
Bu saat qurtar məni
Özünlə apar məni! [95, s.20]

Ana söz verir ki, onu ölümdən mütləq xilas edəcək. Gərək o da ölümdən qorxmasın. Əgər anası bütöv ağ libasda meydana gələrsə, demək oğlunu ölümdən son anda qurtaracaq. Heç kimə müqavimət göstərməsin, yalvarmasın, çəkinməsin. Əksinə, başını dik tutsun, lap ölümün gözünə dik baxsın. Ana dediyi kimi meydana ağ libasda gəlir, ürəyi qan ağlasa da qürurla oğluna baxıb gülümsəyir və düşünür ki:

-Saldıra bilməsəniz balanızı ölümdən,
Eyibi yox, heç olmasa xilas edin zülümdən...
Misgin, zəlil görünməkdən qoruyun,
Dizin-dizin sürünməkdən qoruyun...
Göz yaşından yanağını qoruyun...
Cəllad çəkmələrindən dodağını qoruyun...[95, s.21]

Beləliklə, Qabilin sovet dönəmində yazdığı poemaların təhlil və təsvirinə də geniş yer verdik. Bu bəndin adının "Qabilin poemalarında şəxsiyyət və zaman" adlanması da təsadüfi deyil. Yaradıcılığının ilk otuz ilini sovet dönəmində yaşayıb yaratmış şairin poemaları tarixi şəxsiyyətlərə həsr olunub. Onun poemalarının hər biri zəngin bədii təxəyüllə yanaşı, həm də zəngin həyat gerçəkliyini əks etdirir. Eyni zamanda, bu əsərlər şairin dolğun həyat təcrübəsi, insani keyfiyyəti, mərhəməti, böyük məhəbbəti ilə yoğrularaq araya - ərsəyə gəlib.

Qabilin sovet dövrünün poemalarını Müstəqillik ilərinin əsərləri ilə müqayisə etsək, fərqi aydın görərik. Sovet dönəmində şairin seçib işlədiyi mövzular tarixi həqiqətlər və faktlardır.Burda ictimai-siyasi quruluşun önəmi azdır. İstər "Nəsimi"ni, "Bağça"nı, "Dostlar"ı, istərsə də digər əsərlərini şair istədiyi formada, biçimdə qələmə ala bilib. Bu əsərlər indi də oxunaqlıdır. Amma bu əsərlərdə dövrünə görə, təbii olaraq, dalayısı ilə Böyük Vətən –SSRİ də təsvir, tərənnüm olunur. Bu ölkəyə- onun təbiətinə, isanlarına, hətta onun Qızıl ordusuna qarşı böyük inam, rəğbət, hörmət, məhəbbət vardı. Lakin Müstəqillik dövründə yazılmış əsərlər haqqında bunu deyə bilmərik. Çünki bu Qızıl Ordu Bakıda qış gecəsində insanları güllələbaran etdi. Xocalıda soyqırım törətdi. Birinci Qarabağ müharibəsində, Qarabağın işğalında xüsusi rol oynadı. Nəticədə Qabil poeziyasının da yönü, istiqaməti, mövzusu,

məqsədi, məramı dəyişdi. Təkcə “Mərsiyyə”nin adını çəkmək kifayətdir ki, fərqin mənzərəsi aydın görünsün.

Qabil Müstəqillik dövründə poema yazmasa da onun hər bir şeirini tarixi hadisələri, faktları təsvir, tərənnüm etmək baxımından, öz siqlətinə, mövzu dairəsinə, fikir yükünə görə kiçik həcmli poema da adlandırmaq olar. Qabil əqidə şairidir. O, bütün əsərlərində insan faktorunu, şəxsiyyəti bəlli bir zaman içində önə çəkərək tərənnüm edir. Hansı cəmiyyətdə, ictimai-siyasi quruluşda yaşamasından asılı olmayaraq insan azad, müstəqil, kamil, şəxsiyyəti bütöv olmalıdır. Əks halda, yarımçıq, cahil, qul xislətli, kölə niyyətli insan cəmiyyəti də, insanı, insanlığı da, gələcəyi də məhvə aparar.

### 2. 3. Nurəngiz Günün poemalarında müharibə və sülh amili

Çağdaş Azərbaycan poeziyasını **Nurəngiz Günsüz** təsəvvür etmək qeyri-mümkündür. Onun yaradıcılığı poetik təfəkkürü, özünəməxsuz dəsti-xətti, səmimiliyi və ideya aydınlığı ilə seçilir, fərqlənir. Şairin çap olunmuş yeddi poeması var: “ Salamat ol, ağca yol”; “Ağ qanadlar” ; “Əsrin son yuxusu”; “Qar romanı” ; “Quzey Kıprız rüzgarları”; “Ədəbi və əsrarəngiz”; “Xocalı simfoniyası”.

Bu “yeddiliyin” hər biri öz yüksək poetik tutumu, sərrast ifadə tərzi ilə bərabər, həyat gerçəkliyini olduğu kimi əks etdirmək baxımından da diqqəti çəkir. Müxtəlif vaxtlarda yazılsa da, real təsviri, tərənnümü ilə bu əsərlər, həm də müasirliyi ilə, bu günümüzlə səsləşdiyi üçün daha çox qiymətlidir və əhəmiyyətlidir. Şairin həyat gerçəkliyini – həqiqəti, həyat hadisələrini, insanın mənəvi dünyasını, xarici görkəmini belə poeziyanın incə dili ilə təsvir, tərənnüm etmək baxımından da ədəbiyyatımızda xüsusi yer tutmaqdadır. Ümumiyyətlə, Nurəngiz Günün poeziyasında poetik humanizmi, xüsusilə, insanpərvərlik duyğularının tərənnümü çox yüksək şəkildə ifadə olunur.

Yazarların ən çox müraciət etdiyi mövzulardan biri, bəlkə də birincisi müharibə və onun törətdiyi faciələrdir. İstər tarixi dönəmlərdə, İstərsə də müasir dövürdə, lap

sülh şəraitində belə, müharibə, münaqişələrlə bağlı yetərincə həm nəsrlə, həm də nəzmlə əsərlər yazılıb və yazılır. Bu baxımdan Nurəngiz Günün də bu mövzuya müraciət etməsi çox təbiidir. Şairin yeddi poemasının, demək olar ki, əksəriyyəti müharibə mövzusundan qaynaqlanıb. Bədii siqləti ilə yadda qalan poemaların hər birində insan amili, insan faktoru önə çəkilir. Uşaqlığı müharibə dövrünə, müharibə şəraitinə düşən şairin yəqin ki, döyüşlərə, insan qırğınlarına qarşı nifrəti də böyük, sonsuz olub. Ətrafında olan insanların – qohum, qonşuların bu dəhşətlərdən necə əziyyət çəkdiklərini öz gözləri ilə görüb. Bəlkə də elə buna görə ilk poemasını məhz bu səpkidə qələmə alıb.

1981-ci ildə yazdığı "**Salamat ol, ağca yol**" əsərində yeganə övladını cəbhəyə yola salan ananın həyatı, arzu - xəyalı, çəkdiyi əzabları canlı, real boyalarla oxucuya çatdırılır. Əsəri oxuduqca məlum olur ki, müharibədən qırx il keçib, lakin ana hələ də oğlunun yolunu gözləyir:

Gör ki, nə vaxtdır
qolları, əlləri oğul arayır,
Bir gör nə vaxtdır,
Bu ananın ağ saçını
Qərib küləklər darayır… [60, s.331]

İllərdi ki, küləklərin qırmancladığı, qar - yağışın döydüyü, günəşin yandırdığı bu yollardan ana gözlərini çəkmir. "Oğlunun yolunu gözləyir hər gün, // həsrəti çoxalır, artır günbəgün…" Demək, müharibə çoxdan, yəni qırx ildir qurtarıb. Onun dağıtdığı, xaraba qoyduğu kəndlər, şəhərlər, yollar da bərpa olunub, yenilənib. Lakin ananın oğul dərdi, oğul həsrəti hələ də bitib, tükənməyib, əksinə, günbəgün artıb, çoxalıb. Yəqin ki, anadan sonra boş qalacaq bu yurd müharibə nəticəsində kökü kəsilmiş bir nəslin faciəsindən danışacaq…

Kimsə yoxdur, nə bir nəfəs, nə bir səs!
Haraylar açılır o ananın qulaqlarında,
Damlalar quruyur yanaqlarında [60, s.333]

Müharibənin əksi ananın yanaqlarında quruyub qalan göz yaşlarıdır. Onun mənəvi dünyasında, psixologiyasında baş verən fırtınaların sönməməsidir. Bu

fırtınalar nəinki öləziyir, əksinə, oğlunu itirən ananı heç vaxt tərk etmir, onu ölümə qədər izləyir. Deməli, müharibələrdə ən çox əziyyət çəkən insandır, itirən də insandır. Onun heç vaxt bərpa edilməyəcək sarsılmış, əzilmiş mənəviyyatıdır, inamıdır.

Ölənlər öldülər.Qalanlar qaldı…

…41-dən milyon – milyon əlil qaldı…[60, s.333]

Çox maraqlıdır ki, şair, müharibənin özünü, yəni onu doğuran səbəbləri, qarşı - qarşıya duran dövlətləri, onların kin-kudurətlərini, başlanan döyüşləri, bu döyüşlərin gedişini deyil, muharibənin nəticəsini, sonunu göstərir. Haqlı olaraq oxucusuna çatdırır ki, səbəb nə olur olsun, qələbəni kim çalır çalsın müharibə heç vaxt heç kimə xeyir gətirməz. Əgər əsas insan amilidirsə, müharibəni başlayan da, qurtaran da insandırsa, deməli, zərbəni də o insan alacaq. Onsuz da qısa olan insan ömrü bir az da qısalacaq. Həm də fiziki cəhətdən şikəst, əlil olacaq. Tarixdən məlumdur ki, müharibələri başlayan fatehlərin heç biri adi insan ömrünü sona qədər yaşamayıb. Eləcə də, İkinci Dünya müharibəsini başlayan, dünya ağalığı iddiasına düşən Hitler də bu qəbildəndir. ”Sənin oğul qatilin – Hitler çoxdan zəlil qaldı!” – deyən şair məhz bu məsələyə toxunur.

Əsərdəki Ana obrazı arxa cəbhədə olan milyonlarla əsgər analaranın ümumiləşdirilmiş obrazıdır. Eyni zamanda, bu ana şairin doğma bibisidir. Yeganə övladını cəbhəyə göndərən və qırx il yolunu gözləyən ana həyatın özüdür, bəşəridir, bütün müharibələrin, döyüşlərin fövqündədir. İnsan obrazları qaleriyasında müsbət, əsas, aparıcı xəttdir, baş qəhrəmandır.

“**Ağ qanadlar**” şairin ikinci poemasıdır [55]. Bu əsər də Böyük Vətən müharibəsi dediyimiz İkinci Cahan savaşından bəhs edir. Əsərin baş qəhrəmanı Comərddir. O, 1941-ci ildən “Böyük Vətənimizin” müdafiəsində iştirak edib və geriyə, öz yurduna əlil kimi qayıdıb. Poemada Comərdin həyatı, döyüşləri, gördükləri, düşüncələri, arzu-xəyalları müxtəlif başlıqlar altında öz real əksini tapıb. Daha dəqiq desək, döyüşçünün müharibədən sonrakı həyatından ayrı-ayrı fraqmentlər öz təsvirini alıb. Əsər “Proloq”, “Lövhələr hücumu”, “Qlabal nüvə katostrofu”, “Yaşıl haray”, “Leyləklər ölmür” və “Epiloq əvəzi” hissələrindən ibarətdir.

Böyük Vətən müharibəsi, Böyük Qələbə ilə bağlı 80-ci illərin ortalarına qədər, yəni "Yenidən qurma " adlı tarixi dönəmə qədər yetərincə əsərlər yazılmışdır. Həm nəsrlə, həm də nəzmlə yazılan bu əsərlər xüsusi diqqətlə çap olunur, geniş yayılır və diqqətlə də oxunurdu. Akademik Bəkir Nəbiyev özünün "Kamalın təntənəsi" adlı əsərində yazır ki, "Böyük Vətən müharibəsi və bədii ədəbiyyat problemi müasir dövrdə xüsusi əhəmiyyət kəsb edən çox mühüm və aktual problemlərdən biridir". Çünki "... bu fəlakətlərin bir daha təkrar edilməməsi naminə yeni nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi və bu mövzunun getdikcə daha vüsətli miqyasda, daha mükəmməl sənət əsərlərində işlənməsi dövrün zəruri tələbi idi" [167, s. 13].

Müharibədən bəhs edən əsrləri mövzu baxımından iki qismə bölmək olar:

1. Müharibənin birbaşa özünü, yəni döyüş səhnələrini, insanların igidliyini, qəhrəmanlığını və qələbənin şirinliyini, möcüzəvi böyüklüyünü yüksək pafosla tərənnüm edən əsərlər;

2. Müharibədən sonra onun vurduğu maddi və mənəvi zərbənin acı nəticələrini əks etdirən, göstərən əsərlər.

Nurəngiz günün "Ağ qanadlar"ını və ümumiyyətlə, şairin müharibə mövzusunda yazdığı poemalarını ikinci qismə aid etmək olar. Cünki bu əsərlər müharibədən çox sonralar, sülh şəraitində yazılıb. Deməк, müharibənin vurduğu zərbələrin ömrünün nə qədər uzun olduğunu şair bir daha göstərib.

Əsərin əsas qəhrəmanı Comərdin həyat hekayəsini oxuduqca mənəvi zərbənin ağrı-acısı daha kəskin şəkildə aydın görünür. Əsər Comərdin qocalığının təsviri ilə başlayır:

Kimdi bu belə?
Kim ola?
Başı əlləri içində,
Əlləri dünyadan qoca,
Gözləri heyrət dolu,
Gözləri mat, alaca...
Kimdi bu qoca? [55, s. 112]

Bu, keçən əsrin 80-ci illərində müharibə iştirakçısının xarici görkəmidir. Qocanın cavanlığı, müharibənin ilk günlərində isə onun xarici görünüşü belə təsvir olunur:

Bir vaxtlar cavan idi,
Boyu dağlardan uca.
Yumruğu daşdan ağır,
Sinəsi dəmir kimi,
Qüvvədən də bolluca...
Rütbəsi? Hərbi qolaca.
Bəs indi? İndi necə? [55, s.112]

Şair yenə onun - bu müharibə iştirakçısının təsvirini verir. Müharibədən, o Böyük Qələbədən 40 il keçib:

... Bir qılçı yox, 41-də itirmiş...
Arvadını çoxdan dəfn etmiş,
Qızını, bircə qızının qulac-qulac
hörükləri,
Şəkildən sallanıb ancaq.
Ahı dağlardan ağır,
Kipriklərindən qəm yağır... [55, s. 112-113]

Şair daha sonra göstərir ki, torpaq uğrunda gedən müharibədən sonra bu qocanın elə pənahı, ümid yeri, sığınacağı da qara torpaq olub. Pirşağıda yer götürən Comərd burda gözəl bir bağ-bağat salıb. Bütün ağaclardan, güllərdən əkib. Quşların da məskən saldığı bu bağda yalnız Zümrüd quşu əksikdir. Lakin tikib-qurduğu bu cənnət-məkanda Comərd kişi tək-tənhadır. Bir iti var, bir yaxın-uzaq qonşuları, bir də acı xatirələri. Yaşıdları – müharibədən qolsuz, qılcsız, gözsüz qayıdan dostları çoxdan köçüb dünyadan. Yalnız xatirələri yaşayır onda. Ən ağır xatirə isə qızı Siyatellə bağlıdır. 45-ci ildə müharibədən qayıdanları qarşılayanlar arasında onun qızı Siyatel də vardır. Hamıdan, hətta ondan da atasını soruşurdu qız:

- Əmi, atamı görmədiniz ki?

- Dayı, siz atamı tanıyırsınız?
... Mənim atam cavandı,
Çox-çox cavandı! [55, s. 122]

Atasını, görmək istədiyi güclü, cavan, sağlam atasını tapmayan Siyatel Qələbə sevincini yaşayan insanlardan qaçıb uzaqlaşır və atasız yaşaya bilməyəcəyini görüb intihar edir. Onun cansız cismini yaxınlıqdakı göldən tapırlar. Beləcə, müharibənin faciələri, vurduğu yaralar bitməz, tükənməzdir. Neçə-neçə yeni nəsli də izləyir və mənən şikəst edir.

Şairin burada poetik nailiyyəti qəhrəmanın fikir və düşüncələrini, duyğularını daima məşğul edən həyat həqiqətlərini olduğu kimi, real təsvir, tərənnüm etməsidir. Poema təbiiliyi, axıcılığı, fəlsəfi fikir yükünün ağırlığı ilə diqqəti çəkir. Burada dərin məzmunla yanaşı bitkin ifadə tərzi də boy verməkdədir. Elə buna görə əsər bu gün də oxunaqlı, düşündürücü və təsiredicidir:

Küləyə verdiniz bu dünyanı,
Dünyanı böldünüz parabapara...
Haçan sağalacaq bu qədər yara? [55, s.125]

Qanlı-qadalı, insanları, insanlığı məhv edən müharibədən sonra başlanan "soyuq müharibə", ictimai quruluşuna, ideologiyasına görə iki yerə bölünmüş dünyanın iri dövlətləri, onların arasında gedən nüvə yarışması, şairin dediyi kimi, "qlobal nüvə katastrofu" insanları sakit, dinc, rahat yaşamağa qoymur. "Üçüncü Cahan savaşına az qalıb" fikrini təbliğ edənlər sanki insanları qorxu, vahimə altında saxlamaqdan xüsusi zövq alırdılar:

Qlobal nüvə katastrofu,
-Yəni dünya avariyası!

70-80-ci illərdə ərəb torpaqlarında, Yaxın Şərqdə "kiçik" müharibələr səngimirdi.

Siz ey biznesə fəda gedənlər,
Yediyiniz qan, icdiyiniz qan !
Hara sığar bu qədər qurban? [ 55, s. 134]

Poema bədbinliyə, ümidsizliyə, ağrı-acıya, nisgilə, həsrətə, intizara köklənsə də, əslində həyatın özü idi, həqiqət idi, gerçək idi. Daha dəqiq ifadəsi, həyat gerçəkliyinin real əksi idi. Döyüşçünün əlil olması, tək-tənha qalması, ailə faciəsi, təbii ki, şairin xəyali fantaziyası yox, müharibənin ağır nəticəsi, göstəricisi idi.

Bəkir Nəbiyev yuxarıda adını çəkdiyimiz əsərində daha sonra göstərir ki, "Müharibə gerçəkliyinin mümkün qədər dolğun təsviri üçün şairlər poeziyanın forma və növlərini inkişaf etdirməyə səy göstərirdilər. Şeirin müharibə gerçəkliyinə yaxınlığını ğöstərən əlamətlərindən biri ədəbi inkişafın ikinci mərhələsində lirikada sujetə, həyat həqiqətini real şəkildə qavrayışa meylin daha da qüvvətlənməsindən ibarət idi. Poeziya müharibəni siyasi lirik üslubda, poetik manerada əks etdirməklə kifayətlənmir, müasir varlığın mürəkkəbliyini, insanların tale və mübarizəsini göstərmək yoluna can atırdı" [167, s. 86].

Bu mənada Nurəngiz Günün "Ağ qanadlar" poeması da bir insanın, bir döyüşçünün timsalında göstərdiyi kimi, müharibə və onun dağıdıcı, qırıcı, yıxıcı nəticəsinin insanların taleyində necə amansız rol oynadığının poetik ifadəsidir, təsviridi, təsdiqidir.

Əsər maraqlı sonluqla bitir. Xəyalı həmişə qızının batdığı göldə cövlan edən Comərdin ruhu da bu gölə gəlir və bir gün o ağ Leylək şəklində göldən qalxaraq üzü Cənuba uçur. Comərd kimi insanlar əslində ölmür, beləcə başqa şəkildə əbədi yaşayırlar:

Yaxşı adamlar ölmür...
Elə, belə qanad çalıb
Aramızdan uçmuş olur!
Bilirsənmi hara uçur ?
Qovacaqdır müharibəni,
Boğacaqdır o idbar,
Çirkin küpəgirəni,
Dağıdacaq səngərləri, çəpərləri... [55, s.151]

80-ci illərdən başlayaraq Böyük Vətən Müharibəsinin iştirakçıları bir-bir həyatdan köçməyə balamışdılar. Comərd də onlardan biri idi. Bəzən şərin, qaranlığın,

mənfi qüvvələrin işığı, xeyri izləməsi və ona qalib gəlməsi baş versə də, sonrakı yeni nəslin timsalında bu xeyir, işıq, ziya qalibiyyətlə qaranlığı üstələyir. Əsərdə Hacıleyləyin göylərdə uçuşunu izləyən Yəmən obrazı kimi. Yəmən müsbət xarakterli yeni gəncliyin nümayəndəsidir. Həyatı, insanları sevən, keçmişi unutmayan, gələcəyə nikbin baxan Yəmən yeni nəslin ümumiləşdirilmiş obrazıdır. Lakin bununla belə, əsərin təlqin etdiyi nəticə göstərir ki, müharibə təkcə insanların ölümü, cismən şikəst olması, şəhər-kəndlərin dağılması demək deyil, həm də insanların ruhi-mənəvi aləminin dağılması, aşınması deməkdir.

Beləliklə, "Ağ qanadlar" poeması Nurəngiz Gün yaradıcılığında xüsusi önəm daşıyır. Müharibə və insan haqqında yazılmış real həyat həqiqətlərini, gerçəkliyi əks etdirmək və insani duyğuları tərənnüm etmək baxımından ən səmimi əsərdir. Ümumiyyətlə, insanpərvərlik, vətənpərvərlik, yurdsevərlik, humanizm, ailəyə bağlılıq Nurəngiz Gün poeziyasına xas xüsusiyyətlərdəndir və onun əsas aparıcı xəttini təşkil edir.

"**Əsrin son yuxusu**" poeması da Nurəngiz Günün müharibə, onun vurduğu yaralar, gətirdiyi əzablar, tanrı, bəşər övladları, həyat, kainat, ölüm, yaşam haqqında fəlsəfi düşüncələrinin yer aldığı təkrarsız bir əsərdir [56]. Yuxu ilə reallıq arasında qalan lirik qəhrəman hər şeydən, hər kəsdən danışır, dünyanın yaradıcısı Tanrıyla dialoqa girir. "Boz dünya", "Məchul aləm", "Gümüş köçü", "Torpaq ürəklər", "Yiyəsiz səslər", "Bəyaz qafiyə" kimi başlıqlar altında toplanmış şeir parçalarında şair dünyanın hər üzünü təsvir, tərənnüm edir. Eyni zamanda, şair ölümdən sonrakı həyatı da əks etdirir:

" – Ürəklər yatır torpaqda...
Torpaq olubdur ürəklər...
Bir hərb də olsa artıq...
Bir zor da olunca belə...
Sonra da süvarilər ...
Ürək üstən keçəcəklər...." [56, s. 123]

Bir döyüşdən sonra torpaq altda qalan nə qədər insan - ürək özü ovulub, torpağa qarışıb, torpaq olub. Lirik qəhrəman Məchul aləmi yuxu kimi dolaşır. Ölmüş

insanların fəryadını, naləsini eşidir. Göydən yiyəsiz səslər gəlir: "Mən yaz dedim ömürləri, yüz yerə kim böldü bunu? // Kim düşündü insan üçün, min bir əsarət oyununu!" - Yəqin ki, bu yaradanın səsi idi. İnsanlara səslənirdi. Onun yaratdıqları insanlar niyə bir-birini məhv edirdi?

Əsərdə qırıq-qırıq səslər, sözlər, fikirlər, yuxu ilə həyat, həyatla ölüm arasında çabalayan bir insan obrazı var. Bu insan dedikləri, eşitdikləri qeyri-insani hadisələri, pisliyi, şəri, böhtanı heç cür dərk edə, qəbul edə bilmir. Bəlkə də bu insan əsrin son yuxusunu görür. Çünki artıq iyirminci əsr başa çatmaq üzrədir. Yuxuda yeri - göyü yaradan qüvvə insanları bir-birinə tapşırır. Şər işlərə, müharibələrə qoşulmamağa, insanları, insanlığı, dünyanı, torpağı düşünməyə, onları qorumağa çağır. Əks halda dünya məhvərindən çıxacaqdı:

İncikliyəm, övladlarım,
Belimi əyib gedirəm!
Ancaq sizə mərhəmətlər,
Xeyirxahlıq diləyirəm! [56, s.149]

Lirik qəhrəman – İNSAN çox narahatdır. Yoxsa Allahın da gücü çatmayan şeytanlar, iblislər dünyanı məhvə doğru aparır?

1988 - ci ildə SSRİ-nin süqutu, çökməsi fonunda yazılmış bu poema öz dövrünü, siyasi arenanı əks etdirməklə bərabər, həm də dünyaya, insanlara meydan oxuyan, "mənəm-mənəm" deyənlərə bir layiqli mesaj- cavab idi. Ad çəkmədən, məkan göstərmədən fəlsəfi yozumları, düzümləri, həqiqətləri ilə diqqəti çəkən bu əsər Nurəngiz Günün yaradıcılığında xüsusi önəm daşıyır.

"**Qar romanı**" nı Nurəngiz Gün böyük, ölməz türk şairi Nazim Hikmətin 100 illiyinə həsr edib [ 57]. Təbii ki, əsərin baş qəhrəmanı da türk oğlu türk, lakin ömrünü vətənindən uzaqlarda, yəni soyuq Şimalda yaşayan Nazim Hikmətdir.

Nurəngiz Günün maraqlı, özünəməxsus təsvir manerası var. Şair Türkiyədə Nazim Hikmətə əziz, doğma olan yerlərə, ərazilərə səyahət edir, onun qohumları, doğmaları ilə görüşür və eşitdiklərini, gördüklərini qələmə alaraq poetikləşdirir.

Poema başdan sonacan Nazim Hikmətə müraciətlə yazılıb. Daha doğrusu, onun qar örtmüş heykəli önündə şairin düşüncələridir:

Xoş gördük, Nazim baba! Nə əziz təzahür?
Nə gözəl vizit bu... Hardan gəlirsən belə?
Qar tozu içindəsən. Əllərin nə soyuqdur? [57, s. 174]

Nazim hikmət haqqında Azərbaycan ədəbiyyatında bir çox şeirlər, nəsr əsərləri yazılıb. Elə Nurəngiz Günün özü bir neçə şeir yazıb. Ancaq, məncə, bu kiçik poema qədər türklər demiş, sıcaq yazılmayıb. O qədər səmimi, xoş ovqatla, xoş niyyətlə, xoş duyğu ilə yazılıb ki, sanki uzun illər şairlə birgə dost, yoldaş, qardaş olublar. Bu da təbiidir. Cünki Sovet dövründə Nazim Hikmətin əsərləri Azərbaycan mətbuatında gen-bol çap olunur və xalq tərəfindən xüsusi rəfbətlə oxunurdu. Onun bir səbəbi də şairin sərbəst şəkildə yazması idi. Rus ədəbiyyatında sərbəst şeir yazan şairlər, başda V. Mayakovski olmaqla, çox idi. Sovet dönəmində bu haqda tədqiqatlar, elmi məqalələr də kifayət qədər vardır: [ 249 ], [250 ], [252], [253]. Tək onun poeziyasına deyil, özünə, şəxsiyyətinə də böyük hörmət, sevgi vardı.

Nurəngiz Günün lirik qəhrəmanı Günəşi içib Cənubda böyümüş bu utancaq oğlanın soyuq Şimalda yaşamasını, buza dönməsini heç cür qəbul edə bilmir:

...Dinmirsən... Div gövdə!
Kardeşim ! Nə işin vardı axı buzlaqda?
Günəşi içib böyümüş, utancaq, şeyda oğlan?! [ 57, s.175]

Nurəngiz Günün eyni vaxtlarda, yəni 2002 - 2003-cü illərdə yazdığı "Quzey - Kıprız rüzgarları" poeması bu əsərin ideya - bədii davamıdır,- desək yanılmarıq. Türklərin tarixi keçmişinə səyahət edən Nurəngiz Günün lirik qəhrəmanı bu xalqın əkin - biçinindən, insanlarından, daha sonra bu günündən poetik söz açır. Lakin şairin burada yenə əsas sözü xalqlar arasında olan müharibələr, dövlətlərin qarşıdurmasıdır, şikəst olan, əzilən, sınan, məhv edilən insanlardır və müəllifin bu müharibələrə olan nifrəti, üsyanıdır.

"**Əbədi və əsrarəngiz**" poeması Xalq cəbhəsinin yaradıcısı, qurucusu, humanizmi sərt siyasətindən üstün olan, Vətənini azad, xoşbəxt görmək istəyən, yaddaşlarda "fağır prezident" kimi qalan Elçibəyə həsr olunub [57]. Əsər Elçibəyin

ölümündən sonra yazılıb. Şair onu prezident kimi deyil, vətənini sevən bir insan kimi təsvir, tərənnüm edir. Deməli, insan faktoru, insan amili hər şeydən üstündür,- fikri şairin əsas qayəsidir, məramıdı, məqsədidir,- desək, daha dəqiq olar. “Elçibəy, Azadlığın əsiri! // Bu sətirlər öz-özünə düzülür!” - deyə şair ilk olaraq onun tabutda əbədiyyətə yol aldığı anı poetikləşdirir.

Nurəngiz Gün həddindən ziyadə həssas, kövrək, insanlara, həmçinin bütün canlılara qarşı diqqətli, qayğıkeş, humanist Ana - şairdir. Onun hər poetik sözündə, şeirlərinin hər misrasında bu keyfiyyətlər əsaslı şəkildə özünü göstərir. Şairin lirik qəhrəmanı, daxili “mən”i də məhz bu yöndə köklənir. Sanki şair əzabkeş insan axtarışındadır. Belə insanlar da cəmiyyətdə, həyatda yetərincədir. Şairin vəsf etdiyi bütün baş qəhrəmanlar belə əzabkeş, cəfakeş, həssas, duyğulu, özündən çox ətrafını düşünən insanlardır.

Nurəngiz Günün “**Xocalı simfoniyası**” poeması Qarabağ müharibəsinin ən ağrılı kulminasiya nöqtəsi olan Xocalı faciəsinə həsr olunub [59]. Burda da müharibənin törətdiyi qanlı olayın nəticəsi göz önündədir. İnsanın insana qarşı törətdiyi bu cür vəhşilik birinci dəfə deyil. Tarixdə belə qanlı faciələr çox olub. İyirminci əsrin ortalarına doğru II Dünya müharibəsində baş verən Xirosima faciəsinin acı nəticəsi nəsildən nəslə keçərək hələ də davam etməkdə, yaşamaqdadır. Xatın harayı tarixin qanlı səhifəsi kimi yaddaşlarda yaşamaqdadır. İyirminci əsrin son on illiyində qanlı faciələr yenidən baş qaldırdı. 1992-ci ilin 26 feralında Xocalıda ermənilərin törətdiyi soyqırım insan adına yeni və böyük bir cinayət - ləkədir. Şəhərin ətrafına, meşələrə, düzlərə səpələnmiş insan cəsədləri bir daha müharibəyə, onu törədənlərə, dəstəkləyənlərə qarşı nifrəti alovlandırır. Ana ürəyi, şair qəlbi qələmə söykənib bu şəhidlərə ağı deyir. Əsər allaha müraciətən belə bir poetik ifadələrlə başlayır: “İlahi! Təskin et!.. Sən onlara səma nəğmələri göndər, təsəlli səp!” Daha sonra şair üzünü əsən küləklərə tutur: “Yox, Rüzgar! O cürə əsmə sən! // Torpağın altında dip-diri ölülər var! // Diksinə bilər onlar!” Poema başdan – başa şəhidlərə müraciətən deyilmiş ağılardan, oxşamalardan ibarətdir. Əsərin iki müsbət qəhrəmanı var: Yerin, göyün yaradıcısı İlahi qüvvə və təbiəti təmizləyən, tənzimləyən Rüzgar. Ana şair üzünü hər iki qüvvəyə tutaraq sözünü deyir:

- Hə, Rüzgar... Eşidə bilirsənmi
  Səslərin ən mükəmməli olan
  Əsrin Simfoniyasını?! – Ölülər himnini! [ 59, s.10]

Və ya:

İlahi ! Kömək ol! O təkdir! Anadır...
Tək qalıb torpağın üstündə... biçarədir...
Gəlmiş ki,
Eşitsin onu Dünya üst qatda!
Onunla bərabər hönkürsün
Bu məsum nağıla,
İnsan olan bəşər də!   [ 59, s. 38]

Əsərin mənfi qəhrəmanı isə insanı, insanlığı məhv edən Bəşər övladı İnsandır. Şairi dəhşətə gətirən bu İnsanın vəhşiliyi, rəzilliyi, riyakarlığı, heç bir vəhşi heyvanın törədə bilməyəcəyi cəhaləti, acımazlığı, güllələnmiş insanları belə təhqir etməsidir. Xalq yazıçısı Elmira Axundova "Nurəngiz Günün ağ qanadları" məqaləsində yazır: "Xocalı simfoniyası" poeması Xocalı soyqırımı mövzusunda yazılan ilk bədii əsərdir və əgər belə demək mümkünsə, şairənin ürəyinin qanı ilə yazılıb" [ 1].

Ax, mənhus düşüncə!
Necə yəni, Allah yaradanı sən,
Bir gecədə yox edəsən?!
Əhsən, ey insan, əhsən!
Sən bu antik işinlə
Xirosima dəhşəti,
Xatın faciəsini də
Çox-çox arxada qoydun!     [59, s. 14]

Ana fəryadını, uşaq iniltisini özündə əks etdirən bu əsər milli dərdi də özündə ehtiva edir, eyni zamanda, onun bəşəri olduğunu da bir daha vurğulayır.

Filologiya elmləri doktoru Vaqif Yusifli "Xocalı simfoniyası" adlı məqaləsində yazır: "Xocalı simfoniyası bir ananın Dünyaya xitabıdır. Nurəngiz Günün Məryəm

anaya xitabları da bəşəri bir mənaya köklənib. Axı xiristianların müqəddəs bildiyi, uca tutduğu bu qadın zülmün, zorakılığın, vəhşiliyin mücəssiməsi deyildi, paklığın, saflığın, ədalətin və analığın rəmzi idi. Bəs indi? Niyə müsəlmanlar zorakılığa məruz qalır?" Daha sonra məqalə müəllifi şairin misralarına müraciət edir: "Sizlərdə beləmi zorakıdı Kəlisa? //- Allahın müqəddəs evləri? // Yəqin elə onunçün də özünüz öz əlinizlə mıxladınız çarmıxa, gözəlim, İsanı!" [ 234, s. 184]

Poemada düşmənə qarşı güclü qəzəb, kin, nifrət, sarkazim var. Şair çılğın, üsyankar bir şəkildə, birbaşa hayqırır:

Cavabdehsiz, belində hərb gəzdirən
Cahanşümül Şümürlər!
Müntəzirsiz cavaba, Cahan Goreşənləri!
Dünyanı bazar bilən
Müstəsna "Alış-veriş Əmiləri"... [59, s. 42]

Nurəngiz Günün "Xocalı simfoniyası" müstəqillik dövründə bu mövzuda yazılmış əsərlər içərisində ən çox diqqəti şəkən poetik nümunədir. Vaxtında, yerində yazılmış və bir daha müharibənin törətdiyi facıənin bədii həllini verə bilən bir əsərdir. "Zorun, zorakılığın, vəhşiliyin hələ də meydan suladığı bir zamanda hər gün Xocalı, Xirosima, Xatın, Buhenvald faciələrinə bənzər qırğınlar baş verir, hər gün insanlar insanları öldürür. Bu mənada "Xocalı simfoniyası" təkcə o müdhiş faciənin baş verdiyi, törədildiyi illərə aid deyil. Xocalının qəm simfoniyası davam edir" [234, s. 185]

Xalq yazıçısı Elmira Axundova "Xocalı simfoniyası"nı xüsusi dəyərləndirərək yazır: "Nurəngiz Günün Xocalı soyqırımı qurbanlarına anım fəryadı insanı qəlbin dərinliklərinə qədər sarsıdır, oxucunu uzun müddət tərk etmir, mənəvi iztirab keçirməyə vadar edir. Əsl sənət əsərlərinin yazılmasının məqsədi də elə budur" [ 1 ].

"Xocalı simfoniyası" poeması Nurəngiz Günün sovet dönəmində müharibə mövzusunda yazdığı digər poemalarının ideya davamıdır, - desək, səhv etmərik. İstər Alman faşizminə, istərsə də erməni faşistlərinə qarşı yazdığı bu poemalar şairin bəşəriyyəti faşizm taunundan xilas etmək üçün dünyaya car çəkdiyi üsyan-çağrışıdır. Özgə torpaqlarını tutmaq iddiasında olan cahil acgözlərin insanlığı,

insanları, təbiəti, cəmiyyətləri, dövlətləri necə məhv etməsinin poetik əks-sədasıdır.

Filologiya elmləri doktoru Esmira Şükürova (Fuad) Nurəngiz Günün yaradıcılığından bəhs edərkən yazır: "Əslində "Xocalı simfoniyası" Tanrıya üz tutaraq, əl açaraq yazılıb... O, bu poemanı işğal olunmuş torpaqlarımızın, yaralanmış, parçalanıb dilim-dilim olmuş Ulu Yurdun ağrısı ilə yazıb" [60, s.7]. Daha sonra müəllif qeyd edir ki: "Xocalı simfoniyası" dünyada mövcud olan zülmlərə qarşı üsyanın gur səsi, haqlı mübarizəmizin güclü sədasıdır".

Deməк, Nurəngiz Gün bu əsəri ilə insan faciəsini əks etdirən iniltidən, hıcqırıqdan, haraydan, fəryaddan əbədi səslənəcək bir simfoniya yaratmışdır.

Beləliklə, Nurəngiz Günün həm sovet dönəmində, həm də Müstəqillik illərində qələmə aldığı poemaları incələdik. Onların oxşar, fərqli cəhətləri də aydın oldu.

Qeyd etdiyimiz kimi, Nurənciz Gün sovet dönəmində, yəni 70-ci illərin sonu, 80-ci illərdə ədəbiyyata gəlib. Əsələrinin çoxunu da bu dönəmdə yazıb. Bir neçə şeirlərində bu cəmiyyəti tənqid də edib, onu "Qəfəs Respublikası" adlandırıb. Lakin elə 80-ci illərdə yazdığı "Salamat ol, Ağca yol", "Ağ qanadlar" poemalarında Böyük Vətən müharibəsi kimi tanıdığımız İkinci Dünya müharibənin acı nəticələrini təsvir edəndə Xatın harayını, Xirosima fəciəsini eyniləşdirərək,Hitleri, Faşist hakimiyyətini qəddar, qaniçən adlandırırdı. Yəni düşündüyü, gördüyü real həyat həqiqətlərini yazırdı. Müharibədən qırx il keçmişdi, onun törətdiyi facilər isə yaddan çıxmırdı.

Müstəqilliyin ikinci ilində Xocalının məhv edilməsini qələmə alanda şair bu dəfə onu külə dönmüş Xatınla müqayisə edirdi. Günahkarlar, səbəbkarlar isə faşizm taununu bərpa edən sovet qoşunları idi. Mövzu eynidir, müharibə və onu törədənlərə qarşı nfrətin güclü təsviri. Fərqi isə böyükdür. Bu müharibəni edən öz ordumuzun olmasıdır və şairin ona qarşı yönəlmiş üsyanın təsviri, milli oyanışı, Müstəqilliyi, Azadlığı tərənnüm etməsidir.

## 2. 4. Elçin İsgəndərzadənin poemalarında Vətən oğullarının tərənnümü

Nurəngiz Gün poemalarının mövzu, ideya - bədii davamını həm də **Elçin İsgəndərzadənin poemalarında görürük.** XX əsrin 90-cı illərində ədəbiyyata gələn Elçin İsgəndərzadə Nurəngiz Gün yaradıcılığından layiqincə bəhrələnib. Yazı üslubuna, mövzu dairəsinə, ifadə vasitələrinin işlənməsinə görə Nurəngiz Günün yazı manerasını xatırladan bu poemalar Elçin poeziyasının əsasını, ana xəttini təşkil edir. Həyatda Nurəngiz Günü özünə mənəvi ana hesab edən Elçin İsgəndərzadə həm də onun poeziyasının vurğunu olub. Şairin iyirmi iki kiçik həcmli poemasının əksəriyyəti müharibədən - Birinci Qarabağ müharibəsindən bəhs edir. Həmçinin, Vətənin təbiəti, yaradıcı, qurucu insanları bu poemaların baş qəhrəmanlarıdır. "Məmməd Araz qayası", "Bu qala bizim Qala", "Qarabağ xronikası", "Turan savaşçısının nəğmələri", "Şahmar şikəstəsi", "Mavi Mərmərə", "Biganəlik iqlimi", "Qarabağ xronikası" kimi əsərləri məhz bu qəbildəndir. Şair kimdən, nədən yazır yazsın, mütləq Vətənin dərdini, onun düşmənə qarşı mübarizəsini, Birinci Qarabağ müharibəsindəki erməni hiyləsini, əsir düşən Vətənin bir parçasını, Şuşa harayını, Araz, Təbriz həsrətini önə çəkərək vəsv edir.

**"Məmməd Araz qayası"** şair Məmməd Araza həsr olunsa da, əslində burada yalnız şairin ayrı-ayrı misraları verilib. Mövzu, məqsəd, ideya isə Vətəndir və onun parçalanmış torpaqları, dağılmış əhalisi və bütövlüyüdür:

Ağlama Ana Vətən,
Sən hönkürüb ağlasan
Daş üstündə su yanacaq!
Sən ağlasan Məmməd Araz
Yuxusundan oyanacaq... [ 82, s.163 ]

Əslində burada Məmməd Araz Vətənləşmiş, ağrı-acı simvoluna çevrilmiş bir şair obrazıdır. Məmməd Araz özündə Şuşa həsrətini, Araz dərdini, Təbriz yanğısını,

Ərkin, Savalanın hiddətini tək daşıyır. Əgər müasir şairləri yerinə, mövqeyinə, dəstixəttinə, poeziyasına görə sıralasaq, Məmməd Arazı Fizulidən sonra ikinci ağır dərd yükü olan şair hesab etmək olar. Poemanı oxuduqca Elçinin də mövqeyinin eyni olduğu görünür:

Mən Şuşasız solan Xarıbülbüləm,
Mənim Şuşam cənnət kimi diyardı...
Hardan baxsan açıq, aydın görünür-
Məmməd Araz Araz üstə Çinardı!.. [ 82 s. 168]

Məmməd Arazın məşhur misraları Elçinə poemanı yazmaq üçün ideya – ilham mənbəyi olur və ona yol göstərir: "Bir qayaya söykənmişəm, deyirəm kaş, // Bax beləcə daşa dönəm yavaş-yavaş..." Demək, Məmməd Araz obrazı, şeiri, dili poemanı oxunaqlı edir, rövnəqləndirir, poema isə ədəbiyyatın yaddaşında daşlaşıb əbədiləşir:

Bir qaya Fizulidi, bir qaya Koroğludu,
Buludlara baş vurur Məmməd Araz qayası...
Nurdan yoğrulub sanki bu qayanın mayası! [ 82 s. 174 ]

Çox da böyük olmayan poema səmimi hislərin məcmusudur, şair dünyasının əks-sədasıdır, Vətənin mücəmməsidir, Vətənləşmiş, Vətənin qoynunda Çinarlaşmış şair obrazıdır. Demək, bu poema həm də şairin qəlbindən qələminə süzülən, əbədiləşən həqiqi Sözdür.

**"Şahmar şikəstəsi".** Elçinin digər poeması ölməz şairimiz Şahmar Əkbərzadəyə həsr olunub. "Şahmar şikəstəsi" adlanan bu poema düşmən tərəfindən həbs olunmuş Qarabağdan bəhs edir. Müəllif burda da Şahmarın misralarından işıq, güc, qüvvət, ideya alaraq yola çıxır. Elçin bu əsərdə sərgilədiyi düşüncə-fikirləri ilə bir daha subut edir ki, bütün şairlərin talehi eynidir, onlar Vətənin bir parçasıdır, Vətəndə daşlaşmış qayadır, əksəriyyəti də ağrı dağıdır, ağrının özüdür, simvoludur.

Şahmarın məşhur Vətən şeirlərindən misralar, bəndlər də poemada yer alıb. Bu bənd-misralar poemanın siqlətini bir az da artırır. Sanki iki şairin  fikri, düşüncələri birləşib Vətənin necə ağır durumda olduğunu bir daha bəyan edir:

Göyçən, Dəlidağın hanı?

Xanbağı tək bağın hanı?

Külli Qarabağın hanı?..

Tutub səni qan, ay Şahmar! [ 82, s. 227]

Ormanların, oylağın yox,

Yaylamağa yaylağın yox,

Daha İsa bulağın yox,

Di həsrətdən don, ay Şahmar! [ 82, s. 230]

Özünə müraciətən yazdığı bu şeir Şahmarın acı həqiqətləri, Vətənin ağır itkisidir. Bu itkiyə, ağrıya dözməyən Şahmarın ürəyi onu yarı yolda qoydu. Elçin Şahmarın ölümünü də poetikləşdirir:

Bu həsrət səni yıxdımı?

Bir gün ürəyin dözmədi,

Bir gün qan vurdu beyninə...

... Vətən torpağını geydin əyninə...[ 82, s. 230]

Bu bir həqiqətdir ki, qarabağlı şair kimi Şahmar olanlara – Vətənin əsirliyinə dözmədi. Onun Vətən ağrılı  şeirləri də ayrıca bir tədqiqat mövzusudur.

Yazıçı Qərib Mehdi yazır: “Şahmar şikəstəsi”ni muğam-rekviyem hesab etmək olar. Poema maraqlı quruluşa malikdir. Müəllif poemanın təsir gücünü daha da artırmaq üçün qəhrəmanı Şahmar Əkbərzadənin də şeirlərindən yerli-yerində istifadə

edir”. Elçin İsgəndərzadənin yaradıcılığına bir kitab həsr edən Qərib Mehdi fikirlərini subut etmək üçün daha sonra yazır: “Rekviyem-muğamın şöbələri Elçinə, təsnifləri, rəngləri isə Şahmara məxsusdu. Bu təsniflərdə, rənglərdə Şahmar xəbərdarlığından, harayından qalmır”. [ 119, s. 67-68 ]

**“Qarabağ xronikası”.** Şairin poema-rekviyem adlandırdığı “Qarabağ xronikası” poeması da Qarabağ hadisələri haqqında ayrı-ayrı etüdlərdi, - desək, daha doğru olar. Bu əsəri şair atasının və Qarabağ həsrəti ilə dünyasını dəyişən qarabağlıların xatirəsinə həsr edib. Poemada ən çox Bakıda məsgunlaşan qaçqınların gündəlik həyatı, düşüncələri, yurd nisgili, ağrı – acıları poetik ustalıqla nəql olunur. Bu qaçqınlardan biri Lenin ordenli Məcid kişidi. Oğlu şəhid olub, qızını, gəlinini əsir aparıblar, ev-eşiyi, var - dövləti də ermənilərə qalıb. İndi bu zavallı, beyni dumanlı insan Bakıda öz kölgəsinə sığınıb, yalnız yuxuda Şuşanı, o dağları gəzib, dolanır...

Bakıdakı Təzəbazar indi qaçqınların bazarına çevrilib. Yaşlı nəsil nisgil içində, dəliqanlı cavanlar içgi əlində, bıçaq belində Bakı küçələrində qan ağlayır, qan uddururur biri-birinə. Qarabağın məşhur şəhər, kənd, dağ, çay adları Bakıda çayxanalara, kafe-restoranlara verilib və bu iş yerləri bəzən döyüş meydanına da çevrilir. Nabat nənə Şuşaya getmək üçün Bakı – Şuşa avtobusunu axtarır...

Məni Şuşaya apar, oğlum,
Məni Şuşaya apar, qurbanın olum...
Ölməmişdən qabaq bir də
Şuşanı görmək istəyirəm mən,
Şuşada ölmək istəyirəm mən... [82, s. 371]

Epik şeirlərində Elşin İsgəndərzadə vətənpərvər, insanpərvər, yurdsevər duyğularını o qədər səmimi, real, aydın ifadə edir ki, onun oxucusu da bu hissləri, hadisələri və olanları olduğu kimi yaşaya bilir. Bakıda və digər şəhər, kəndlərdə Qaçqın şəhərcikləri salınsa da, bu şəhərciklər nə qədər komfortlu, bəzək-düzəkli,

güllü-çiçəkli olsa da, o yurdun - Qarabağın yerini vermir, çörəyi belə o yerin çörəyinin ətrini, dadını – duzunu əvəz eləmir. “Qan sızır məmləkətin torpağından, daşından, // Bu məmləkət bizimdi, qışı, baharı bizim...” – deyə şairin lirik qəhrəmanı olanlara qarşı üsyan edir:

Bir qartal havavalandı
    bizim əsir Qara qayadan.
Nabat qarı baş açmır
Bu müəmma dünyadan…[82, s. 372]

Ulu dağlarda dünyaya göz açan Nabat qarı ömrünün ahıl çağlarını alışa bilmədiyi şəhər küncündə keçirir. Amma gözü yollardadı. Vətənin azad olduğu günün xəbərini gözləyir.

Səhər-axşam gözləri
    Yol çəkir qəmli-qəmli…
O bir müjdə gözləyir,
    Bir müjdə xoş qədəmli…
Bir ağ atlı igidin
Yollarını gözləyir… [82, s. 372]

Əsər yaxın gələcəkdən xəbər verən, o zaman üçün xəyal, bu günümüz üçün real olan misralarla bitir:

Bir yanda sıra dağlar,
Bir yanda mavi dəniz…
Müqəddəs bir ümidlə,
Döyüşə gedirik biz!
Havalanıb Xanın səsi,

Qarabağın Şikəstəsi!!! [82, s. 378]

Şair ürəyi Qələbə, Zəfər sorağının tezliklə gələcəyinə inanırdı!

**“Lorka və siyah ay”.** Şəhid şair Nizami Aydının xatirəsinə həsr etdiyi “Lorka və siyah ay” poemasının da maraqlı sujet xətti var. Müəllif onu həm də “İspan gitarası üçün poema” adlandırıb. Əsər Ispan şairi Federiko Qarsia Lorkanın həyatından fraqmentlərdir. Azadlıq şairinin solçulara qoşulması, onun siyasi baxışları və poetik tənqidləri İspan hakimiyyətinə xoş gəlməyib. Və o güllələnib.

Elçin İsgəndərzadə öz dəsti-xəttinə sadiq qalaraq İspan şairinin də bədii obrazını uğurla yarada bilib:

Lorka, Lorka güllələdilər səni

Fiqarosda, bir ağacın dibində...

Son şeirin qana boyandı

Şair, sənin sol cibində... [82, s.113]

Vaxtsız, qəsdlə öldürülən şairi – Vətən aşiqini Elçin ağılarla, bayatılarla tərənnüm edir, onu səmimiyyətlə, ürək ağrısı, yanğısı ilə oxşayır:

Yenə ümid yollarını

Ruzigarlar bağladı...

Şairi öldürdülər,

Göy üzündə Ay ağladı... [82, s.118]

Çox təssüf ki, bu Ay kümüşü rəngdə deyil, Siyah – Qara Aydı. ölüm gətirən bir Ay, şair ömrünə son qoyan, ona qıyan nakəsləri, namərdləri qaranlıqda gizlədən, əridən bir Aydı. “Göy üzündə siyah Ay, // Laylay, Federiko, laylay...” – deyir şair ürəyi, şair qələmi. Vətən üçün döyünən şair ürəyini Vətən xainləri çox asanlıqla susdurub məhv etdi. Elçin burda da, ənənəsinə uyğun olaraq, şairin məşhur misralarından yeri gəldikcə istifadə edir: “Yazda çiçəklənmək istəsən torpaq ol, // Mən

torpaq oldum... Mən rüzgaram...” - söyləyən Lorkaya Elçinin poetik cavabı belədir:

Ölüm deyil, torpaqdı,

Torpaqdı hər şeyin sonu...

Göy üzündə dəfn olunmaq istərdi,

Göyüzü götürmür insanoğlunu... [82, s.120]

İspan şairinin həyatı da, ölümü də, qəmli, kədərli şeirləri də, Vətən ətirli poeziyası da Azərbaycan şairinə yaxşı tanışdı və doğmadı. Lorkanın şeirlərində İspaniyanın təbiəti, musiqisi, rəsmi var. Onun hər şeiri musiqi dolu bir tablodu. Elçin əvvəlcə Lorkanın öz ruhuna uyğun, qəlbinə yaxın şeirlərini ana dilimizə tərcümə edib çap etdirir, sonra isə onun haqqında bu poemanı qələmə alır.

Poemada Lorka ilə gəncəli şəhid şair Nizami Aydının müqayisə olunması da çox səmimi və təbiidir. Döyüş dostlarını xilas edərkən özü tankın içində faciəli surətdə diri-diri yanan Nizami Aydın da azadlıq şairi, azadlıq carçısı, azadlıq təşnəsi idi. Vətənin Azadlığı, Bütövlüyü, Müstəqilliyi üçün özünü qurban verən Nizami Aydın da Lorkanı azadlıq şairi kimi çox sevirdi, onun şeirlərini dilimizə tərcümə etmişdi, onun haqqında poema yazmışdı. Demək, əsl şairləri – dilindən, dinindən, milliyətindən, irqindən asılı olmayaraq birləşdirən sehirli bir qüvvə, sirli bir mənəvi bağlılıq var.

Şair Murad Köhnəqala Elçinin bu poeması haqqında danışarkən belə yazır: “Elçinin şeirlərini oxuduqca adama elə gəlir ki, o nə vaxtsa bir ömür yaşayıb, gənc yaşında güllələnib. Eynilə Lorka kimi. Elçinin yaradıcılığından zərif qırmızı xətt kimi keçən nisgilin səbəbini də tapmışıq: Qarabağ nisgili”. Əlbəttə, bir şair kimi, Vətənini sevən bir insan kimi Elçinə də bu hislər, həyacanlar yad deyil. Və onun da Lorkanın şeirlərindən dala qalmayan əsərləri var. Murad Köhnəqala məhz bunu nəzərdə tutaraq daha sonra yazır: “Onun şeirləri güllələnmiş bir şairin qoynundan tökülən vərəqlərə bənzəyir. “Siyah Ay” ifadəsi qara karandaşla çəkilmiş eskizləri xatırladır. Bunu da deməliyik ki, Elçinin şeirlərindəki təbiət təsvirləri Lorka poetikası ilə çox

oxşardı”. [ 92, s. 60]

Poema şairin qəlbindən süzülən bir arzu ilə bitir:

İlahi, elə et ki,

Göy üzündə Siyah Ay

Görünməsin bir daha...

İlahi, elə et ki,

Şairlər ümidlə baxsın sabaha... [82,s. 126]

**“Salvador Dali üçün Madriqal”.** Elçin İsgəndərzadənin “Salvador Dali üçün Madriqal” poeması məşhur ispaniyalı rəssam Salvador Daliyə həsr olunub. S. Dali rəssamlıqla yanaşı heykəltaraşlıq, fotoqraflıq da edib. Eyni zamanda o aforizimli zəngin sözləri ilə də yadda qalıb. Elçin onun sözlərindən istifadə edərək bir poetik yola çıxıb və çox maraqlı bir əsəri araya-ərsəyə gətirib.

Salvador Dalinin məşhur sözlərindən – aforizmlərindən biri belə idi: “Sürrealizm – mən özüməm”. Elçinin ona poetik münasibəti isə belə olub:

Sən sürrealizmin özü idin,

Sən fələyin gözü idin,

Sən əsrin sözü idin,

Salvodar Dali…[82, s. 85]

“Sən kimsən Salvador Dali? // Bəlkə bir dahi, bəlkə bir dəli?!” - düşünən şair onu bu günümüzlə müqayisə edir. “Mənim babam Dədə Qorqud, sənin baban Don Kixod, //Amma hər ikimizi ovsunlayır müqəddəs od!” - deyir.

Salvador Dalinin başqa bir məşhur kəlamı: “Üfiqin gizlətdiyi şey metofizikadı”. Şairin ona münasibəti başqa bir dünyadı: “Sən üfiqə qədər görünən bu dünyadan, // Könüllücə vaz keçdin.// Sən fırçanla yaratdığın tablolarına köçdün…” Əgər şair öz

şeirlərindən boylanırsa, demək, rəssam da öz çəkdiyi tablolarından, rəsimlərindən görünür.

"Elçin İsgəndərzadə poema qəhrəmanlarının öz sahələrində hansı zirvədə olduğunu dəqiq bilir. Zirvədəki sənət özəlliklərinə də həssaslıqla yanaşır… O, qəhrəmanlarını öyrənir, keçdikləri həyat yolunu, əməllərindəki uğurlarını, fəaliyyətlərindəki xeyirxahlıqlarını məhz bir insanşunas kimi tədqiq edir" [78, s. 54-55]. Çünki onun poemalarının qəhrəmanları şairin özü kimi Vətən təşnəlidir. Bu təşnə Elçinin qəlbini bir qarabağlı şair kimi elə qapsayıb ki, o yalnız özü kimi vətənpərvər insanları seçir və onları layiqincə tərənnüm edir:

Sən harda gördün, Dali,
Müharibənin sifətini?
Öz qanıyla suvardılar bir zaman
Sənin məmləkətini…

… Mənim yuxularıma
qanlı döyüşlər girir…
Hardasa bir mələk Ana
Şəhid qəbri üstündə
Ağlamadan hönkürür… [82, s. 94-95]

**"Turan savaşçısının nəğmələri".** Elçin İsgəndərzadənin böyük ustad və dost Çingiz Ağa Torekul oğlunun əziz xatirəsinə həsr olunmuş "Turan savaşçısının nəğmələri" adlı əsərini Turan ellərinin nəğmələri də adlandırmaq olar. Bu Turan ellərinin yazı erkən gələn durnaların nəğməsiylə başlayır. Bu nəğmələri hər kəs – qocalar da, cavanlar da, uşaqlar da həsrətlə gözləyir. Çünki durnaların erkən gəlişi Qışın üstündə Baharın son, böyük qələbəsidir. Məhz bundan sonra yazın çiçəklənməsi, bahar Günəşinin təbəssümü başlayır:

Erkən gələn durnalar

Uçur başımız üstdən…

Erkən gələn durnaları

Özləyirəm hər il mən… [82, s. 209]

Erkən gələn durnalarla

Bahar gəlir dağlara !

…Erkən gələn durnaları

Gözləyir sıra dağlar… [82, s. 210]

"Həyacan içində olan müəllifin yolu Turanın bir parçası olan Qırğızstana- "Manas" elinə düşür. O yerə ki, orada görüşəcəyi manasçılar var, şöhrətinin başı buludlara dəyən yazıçı Cingiz Aytmatov var" [119, s. 64-65) Təbii ki, şairin də yazıçıya deyəcəkləri var. Bir soydan, bir kökdən olan Turan elləri həmişə bir olub. Onlar durnaları, baharı da bir qarşılayıblar, bu ellərə, bu yurdlara, bu torpağa, uluslara göz dikən yağı düşmənlərin, yadellilərin də cavabını birgə veriblər.

Göy səma süstlənibdi

Durna cilvələriylə…

Buludlarla savaşır

Dağlar zirvələriylə…

… Beştelli durnam mənim

Bir namərd hədəfində…

Şəhid ruhları uçur

Durnaların səfində… [82, s.211]

Şairin lirik qəhrəmanı Bişkekdə manasçılar, sənətkarlar tərəfindən çox isti, mehriban, gülərüzlə qarşılanır. Və bu isti münasibətlər də poetik sözlərə çevrilərək əbədiləşir: “Qırmızı yaylıqlı qovaq kimidi, bu yerlərdə gənc qızlar – Göz görər, könül vurular! // Eşq dedikləri buymuş, axar sular durular…”

Bu yerlərin təbiəti də insanları kimi gözəldir. Lirik qəhrəman bu yerləri özünə əbədi məkan, məsgən seçmək istəyir: “Ağac olub çiçək açmaq keçir könlümdən, allah! // Quş olub göydə uçmaq keçir könlümdən, allah!”

Daha sonra şair bu yerləri, qədim-qayım Türk ellərini, onların birliyini, həmrəyliyini vəsv eləyir. “Tutya Türk torpaqları buxur və qan qoxuyur. // Qılıncımız düşmənə ölüm hökmü oxuyur!”

Hər il Orta Asiya respublikalarında bir ənənə olaraq “Manas” günləri – şeir, mahnı, saz-ozan deyimləri, deyişmələri, yarışları keçirilir. Bu yarışlarda qalib gələnlər ödül olaraq “Manasçı” adını - titulunu qazanır. Bu adı ilk qazananlardan biri də böyük qırğız yazıçısı, dünya şöhrətli Çingiz Aytmatovdur. Odur ki, bu tədbirdə iştirak edən Elçin İsgəndərzadə Çingiz adını da poemasında əbədiləşdirir:

Yəhərlədin ağ atını,
Tarixə yazdın adını…
Gördüm bəyaz qanadını,
Manas oğlu Çingiz ağa!

Dağlara meyl salmışıq,
Qopuz, tambur, saz çalmışıq,
Manas oğlu Çingiz ağa! [82, s. 216-217]

Şairin lirik qəhrəmanı “İssık gölün ayna tutduğu” bu torpaqlar, bu çöllər bizimdi,- deyir. Çünki, “And olsun Göy Tanrıya ki, bu qranid, boz, qısır torpaqları qanımızla suvarmışıq!”

Göy Tanrı övladıyıq,

Göylərdən gəlmişik biz.

Yolumuzu gözləyir,

Çox uzaqda son dəniz… [82, s. 222]

"Bu sətirlər adama soy kökü Göytanrıdan, Ay işıqdan, Ulduz xandan, Ergenekondan, Boz qurddan, Alp Ər Tonqadan, Hunlardan, Orhan - Yeniseydən, Kül Tığından törəyən, itirilib- batırılan, yoxa çıxarılan o möhtəşəm türk tarixinin qəlpələri kimi gəlir" [92, s.79]. Yazar Murad Köhnəqala Elçin haqqında daha bitgin ifadələrin müəllifidi: "…Elçin həm də gerçək türklüyün əsl qaynağını, mənbəyini bilən, onun fəlsəfəsini qəlbən duyan azsaylı fikir adamlarındandır". [92, s. 79]

**"Biganəlik iqlimi"** hər gün qarşılaşdığımız, gündəlik həyatımızda gördüyümüz, izlədiyimiz hadisələrin poetik təsviridir, tərənnümüdür. Bu hadisələr çoxdur. Başqa ölkələrdə yaşamağa məcbur olmuş qaçqın soydaşlarımızın vətən həsrəti, yad ölkədə ölüm-itim qorxusu... heç nədən şərlənib həbs olunmaq qorxusu... Ev-eşiyini itirib Çadır şəhərciyində qışda donmaq, yayda yanmaq qorxusu... Atəşkəs olsa da hər gün gələn şəhidlər, anaların fəryadı... Kasıbçılıq, işsizlik... Pərən-pərən düşən övladlar, başsız qalan ailələr... Yetim uşaqlar...

Elçin İsgəndərzadə bir poemada bu tip hadisələri bir yerə cəm edərək ümumi şəkildə, ayrı-ayrı fraqmentlərdə oxucusuna ötürür. Onları biganəlikdən uzaq olmağa çağırır. Düşünür ki, bəlkə bu hadisələrin kökündə elə bizim biganəliyimiz, laqeydliyimiz durur? Bəlkə birliyimizi - diriliyimizi qorusaq hər şeyin öhdəsindən asanlıqla gələ bilərik:

Bu yurdun ölüm-dirim savaşında

On doqquz yaşında şəhid olmuş oğlunun

Hələ əqrəbləri işləyən yadigar qol saatını

Son təsəlli kimi ürəyinin başında gəzdirən

Əli qabarlı, ömrü vüqarlı, qarabağlı, qarabaxtlı

Bir kişinin nadan məmurun qapısında

Çəkdiyi çiləni görmüsünüzmü?!

Görmüsünüzsə əgər... deməli hardasa gecikir

Son savaş... ulu zəfər... [82, s. 284-285]

Müəllif ürək ağrısı ilə demək istəyir ki, əgər icraçı məmurlar müharibə iştirakçısını-əlilini, qazisini eşitmirsə, görmürsə və ya görmək istəmirsə, görməzdən gəlirsə, onların problemlərini həll etmirsə bu hardasa elə vətənə xəyanət kimidir. Çünki bu münasibətlər yaxın gələcəkdə olacaq son savaşı, Ulu, Böyük Zəfəri ləngidir. Qazilərə olan ögey münasibət yeni qazilərin meydana çıxmasının qarşısını alır, vətənpərvərlik hissinin də üstünə kölgə salır. yeni gəncliyi qorxudur.

Birinci Qarabağ savaşından sonra evindən, torpağından qovulan bir milyona yaxın insanın sığındığı Çadır şəhərcikləri əslində ölüm düşərgəsini xatırladırdı. Qocalar, uşaqlar, körpələr bu şəraitsiz parça evlərdə çox yaşamırdılar. Hər kəsin gözü qarşısında bu "evlər"dən gündəlik olaraq qəbirstanlığa cənazələr daşınırdı:

Çadır şəhərciklərində

İnsanlar çərləyib, ölüb gedirlər...

Sağ qalanlar yaşamırlar, sadəcə

Yaşamaqda israr edirlər... [ 82, s. 291]

Təzadlarla dolu həyat, uyuşmayan, ağla sığmayan həyat hekayələri Elçinin qələmi ilə canlanır, dil açıb hər kəsi qəflət yuxusundan, biganəlikdən ayıldır. Murov dağında Vətənin sərhədlərini qoruyub şəhid olan oğulun anası Aranın istisində dəmir vaqonda yaşayır. Oğulun qanı, canı bahasına qoruduğu Vətəndə anasının yaşamağa bir evi-ocağı yoxdu... Və bu kimsəni maraqlandırmır... Şəhid atanın qızı təhsil almaq üçün pul ödəməlidi...

Qardaşlar, dayanın, göylərə baxın,

Qərib ruhlar uçub keçir,

Buludları bozarmış göy üzündən... [82, s. 294]

“Elçin İsgəndərzadənin poemalarında lirik-publisistik və lirik fəlsəfi düşüncələr bu əsərlərin janr-strukturunu da təyin edir. Əsasən fraqmentlər şəklində qurulan, bir-birinin məntiqi davamı olan fraqmentlərin hər birində konkret olaraq bir təəssüratını ifadə edir. Sonra başqa bir fraqment gəlir, əvvəlkinin məntiqi davamına çevrilir” [233, s.125].

Demək, Elçinin poemalarının əksəriyyəti struktur baxımından bir –birindən fərqlənmir. Sərbəs şəkildə, axıcı bir dildə yazılıb. Müxtəlif mövzular da bu və ya digər dərəcədə, Elçinə məxsus şəkildə məntiqi ardıcıllıqla poetik şəkildə əks olunur. “Bganəlik iqlimi” poeması isə cəmiyyətdə hər gün rastlaşdığımız ictimai mövzusu ilə seçilir, fərqlənir və oxucusunu da çox düşündürür.

**“Bu qala bizim qala”** poeması qarabağlı alim Xudu Məmmədovun xatirəsinə ittihaf olunub. Bu əsər də ayrı-ayrı fraqmentlərdən ibarətdir. İlk fraqment qədim insanların yaşayış məsgəni olmuş Azıx mağarası və ordan gələn ulu səslərin təsviridir. Azıx mağarasından Türk dünyasına – Orxana, Yeniseyə qədər səpələnən Göy Tanrı övladları əllərində qılınc-qalxan at belində bu torpaqları həmişə yadellilərdən qoruyub, saxlayıb; əkib, becərib; yaşadıb və yaşayıblar. Amma indi - XXI əsrdə bu mağara da, onun ətraf əraziləri də erməni vandallarının ayağı altında məhv olmaqdadır. Bu torpağın yetişdirdiyi Xudu Məmmədov kimi alimlərin narahat ruhu isə Qarabağ səmasında dolaşmaqdadır.

Göy Tanrı, qoru bizi –

Biz döyüşdə ölərik...

Qılıncıma and olsun –

Biz ölümə gülərik! [82, s. 189-190]

Sonrakı fraqmentdə Xudu Məmmədovun doğulduğu Ağdamın Mərzili kəndi, alimin arzuları, ümidləri, xəyalları tərənnüm olunur. Şairin lirik qəhrəmanı göstərir

ki, tarix Böyük Turanın bir parçası olan Mərzilidən başlayır. Xalq içində bu gün də ağızlarda dolaşan bir bayatı əsərin leytmotivinə çevrilir:

Bu qala bizim qala,

Həmişə bizim qala!

Tikmədim özüm qalam,

Tikdim ki, izim qala! [82, s.196]

Filologiya elmləri doktoru Vaqif Yusifli bu poemada iki xətt olduğunu göstərir: "Birinci xətt Xudu Məmmədovun candan əziz sevdiyi Azərbaycanla, onun tarixi keçmişi ilə bağlıdı. Burada Ay obrazı sanki tariximizi işıqlandıran bir rəmzə, simfola çevrilir". Daha sonra alim ikinci xəttin Xudu Məmmədov obrazı ilə bağlı olduğunu qeyd edir. "Elçin İsgəndərzadə epik planda deyil, lirik fonda bu obrazı yaradır. Daha doğrusu, Xudu Məmmədovun tariximiz, elmimiz qarşısında böyük xidmətlərini xatırladır" [233, s.117-118]

Sən gül ləçəyindən yumşaq,

qaranlıqdan sərt idin!

Sən yaşıl yarpaq idin,

Bir gün saralıb, soldun...

...İndi sənin qərib ruhun

Göy qübbəsi altında,

Qarabağda dolaşır... [82, s. 198]

Poemadan doğan fikir və düşüncələr budur: Qarabağın səmasında belə narahat ruhlar çoxdur. Şahmar Əkbərzadə, Famil Mehdi, Xudu Məmmədov kimi onlarca şəxsiyyətlərin və minlərcə qəhrəman, ölməz döyüşçü şəhidlərin ruhu bizi qisasa, hər an Qarabağı xilas etmətə çağırır.

**"Cavid cihadı"** poeması ölməz sənətkar Hüseyn Cavidin həyatından poetik

fraqmentlərdir. Əsərin girişi - “Epilok əvəzi” bu misralarla başlayır: “Min illərdi Əfəndim, talandı bu dünyada...// Eşqdən başqa nə varsa yalandı bu dünyada...” [82, s.142]. Daha sonra şair Hüseyn Cavidin mənəvi dünyasını, onun böyük obrazını yaradır. Düzdü, Cavidin misralarından istifadə olunmur, amma hər ifadə, misra onun əsərlərini xatırladır: “Göydən yağış tökülür, qara qarğış tökülür...// İblisin üzü gülür şeytanlar arasında...” Və ya “Şair eşqə aşiqdi, səmada barışıqdı...// Zəmanə qarışıqdı zamanlar arasında...” Bu Hüseyn Cavidin yaşadığı zaman dilimidi. Onun ailəsini pərən - pərən salan, evini dağıdan, özünü Sibirdə zindanda əsir saxlayan, elə bu əsirlikdə də məhv edən zaman dilimi.

Mən, düzünü deyim ki, Hüseyn Cavidin yazdıqlarından, yaşadıqlarından çıxış edərək, onu Əyyub peyğəmbərlə müqayisə edərdim. Dözümün simfoluna çevrilən Əyyub peyğəmbər zülmün, ağrının, acının içindən boy verib. Eləcə də, çox böyük fitri istedada malik olan, vətənini, xalqını, ailəsini sevən, həmişə əsərlərində bu yüksək duyğuları tərənnüm edən Hüseyn Cavid kimi şairlər necə olur ki, bu qədər faciyələr yaşayırlar? Maraqlıdır və dəhşətlidir ki, görəsən cahil insanlar niyə kamil insanların yaşadığı sərt, dözülməz, qarışıq, ağrılı həyatı yaşamırlar, yaşamayıblar?

Ağla gəlməyənlər başına gəldi,

İblis də şaşırdı bu xəyanətə...

... Üzünə durdular, Cavid Əfəndi,

“Burjua şairi” dedilər sənə...

Sənə yol göründü – Sibir yolları,

Şairə qıyanlar qıydı Vətənə... [82, s. 153]

Təbii ki, üzə duranlar, İblisə, Şeytana xidmət edənlər Vətənin də, Xalqın da, onun xeyirxah, sevən oğlunun –şairin də düşməni idi.

Ərtoğrul Cavid 1939-cu ildə yazırdı: “Babam Hüseyn Cavid bir Günəş idi. Yüksəldi, parladı, yarasaların gözlərini kor elədi. Lakin dumanlar onun qarşısını aldılar...” [82, s.141]. Şairin qızı Turan Cavid isə 2004-cü ildə yazırdı: “... Hər şeyə

görə - Atamı Vətən torpağına qovuşdurduğuna, Cavid ocağının çırağını yenidən yandırdığına ... və nəhayət, Cavid külliyatının mükəmməl nəşri üçün sərəncam verdiyinə görə unudulmaz Heydər Əliyevə Tanrıdan rəhmət diləyirəm...” [82, s. 141]

Daha bir fraqment “Hüseyn Cavidin abidəsi önündə” adlanır. Elçin şair xələfinin bu günkü durumundan bəhs edir, onun xalq içində yaşamasına aydınlıq gətirir:

Bakıda Cavid bağında payız,

Ağacların yarpaqları tökülməyibdi hənuz.

Yağışlı, çisginli payız günündə,

Dayanmışam Cavidin abidəsi önündə... [82, s. 156]

Bu abidə Bakının məşhur bir yerində, hər kəsin gözü önündə ucalıb... Hüseyn Cavid cismən insan ömrünü uzaq Sibirdə başa vurub. İndi isə şair ömrünü – heykəl ömrünü burda – Vətənin mərkəzi şəhərində, onun mərkəzi küçələrinin birində yaşamaqdadı. Heç şübhəsiz, Hüseyn Cavidin heykəl ömrü, söz ömrü bundan sonra öz xalqının ömrü qədər əbədi olacaq, düşünürük. Və unutmayaq ki, ilahi ədalət gec-tez qalib gəlir. Elçinin poeması da məhz bunu poetik şəkildə izah etməyə köklənib.

**“Adil Mirseyidin göyərçinləri”** şair-rəssam Adil Mirseyidə həsr olunub. Sərbəst poetik düşüncələrin mərkəsində bir rəssamın iş otağı, onun pəncərəsində uçuşan göyərçinlər və bu göyərçinlərə ürəyini yedirdən bir rəssam var:

Ürəyini göyərçinlərə yedirdən

bir şair olmalıdır ki,

Hər səhər dan üzü

ümid çiçəklərinə,

sevda ləçəklərinə

İlk şeh damlaları düşməzdən öncə

Tanrı bağışlasın bizi.... [82, s.23]

**“Rəssamın pəncərəsi” poeması** Amadeo Modilyani və Janna Ebyuterinin xatirəsinə yazılıb. Bir növ “Adil Mirseyidin göyərçinləri”nin ideya-bədii davamıdır. “Bir az dəli divanədi, bəlkə bütün rəssamlar”, // Gündüzləri demirəm, İllahda ki axşamlar,// İllah da tənhalıqda..” Əsər rəssamın həyatından fraqmentlərdən və şairin rəssam haqqında düşüncələrindən ibarətdir.

**“Səttar Bəhlulzadə nağılı”** rəssam Səttar Bəhlulzadəyə həsr olunub. Şair onun pəncərəsindən dünyaya baxır. Rəssamın həyatı, doğulduğu Abşeron torpağı, çəkdiyi rəsmlər ayrı-ayrı fraqmentlərdə təsvir olunur:

Dərviş kimi, yoq kimi

bir rəssam yaşayırdı

Abşeron torpağında.

Şeh kimi qeyb olardı

bir umud yarpağında... [82, s. 50]

Çəkdiyi rəsmlər həyatın özü idi. “Çəkdiyi dəniz, duzlu qağayılar diriydi...”

Elçin İsgəndərzadə onun məşhur əsərlərindən də fraqmentlər çəkib. “Kəpəzin göz yaşları”, “Xəzərdə səhər” və s. “Kəpəzin göz yaşları”na baxa-baxa şair Şuşa, Laçın dağlarını da düşünür. Bu dağları haçan görəcəyini xəyal edir. Sonra rəssamın əbədi yatdığı Əmircan kəndini də təsvir edir:

Bir bəyaz sevgi çiçəyi doğulacaq

Bir mübarək sevgi günü

Səttar yatan torpaqdan...

... O çiçəyin təbəssümü çilənəcək

Məmləkətin qərib axşamlarına... [82, s. 58]

Elçinin digər poemaları da ayrı-ayrı şəxslərə ittihaf olunsa da məqsəd eynidir: Vətənin talehi, onun ağır yükü və bu yükün şairlər tərəfindən daşınması, onların

dünyaya çatdırılması, etirazın yüksəlişi, ədəbiyyatda yeri, mövqeyi. “Elçin İsgəndərzadə yazdığı poemalardakı qəhrəmanları yalnız hissin təsiri ilə vəsv etmir.O, qəhrəmanlarını öyrənir, keçdikləri həyat yolunu, əməllərindəki uğurlarını, fəalliyyətlərindəki xeyrxahlıqlarını məhz bir insanşunas kimi tədqiq edir. Bəlkə də onun bu tədqiqatının uğurlu olmasında alimliyi köməyinə çatır”. [ 78, s. 53 ]

Demək, Elçinin poemalarında təsvir-tərənnüm etdiyi baş qəhrəmanların çoxu rəssamlar, şairlər, alimlərdi. Şairin öz dünyasına yaxın, doğma olan bu insanlar təkcə Elçin tərəfindən deyil, Tanrı tərəfindən də seçilmiş insanlardır.

**“Eşq”** poemasını Elçin, qeyd etdiyi kimi, ömür-gün yoldaşına həsr edib. Şair əsərini “Simfonik muğam - poema” adlandırıb. Çox səmimi, duyğulu, türklər demiş, sıcaq bir əsərdir. Tez-tez xarici ölkələrdə elmi ezamiyyətlərdə, konfranslarda, poeziya bayramlarında iştirak edən şair axşamlar gəzib dolandığı şəhərlərdə öz ailəsini, sevdiyi xanımını da düşünür və bu düşüncələr maraqlı bir poemanın araya-ərsəyə gəlməsinə səbəb olur:

Tarsus şəlaləsinin
eşq qoxulu sularını
çilədim ruhuma...
Dünən gecə Tarsusda
sən girmişdin yuxuma... [82, s. 326]

Bu poema haqqında ən yaxşı məqaləni Millət vəkili, şair, jurnalist, tədqiqatçı Qənirə xanım Paşayeva yazıb. “Eşq” işığında metofizik düşüncələr” adlı bu məqalədə Qənirə xanımın maraqlı fikirləri var: “Eşq” poeması sanki gözəl bir səyahət, bir ömür boyu sürəcək bir məcara romanıdır. Bu məcara romanının qəhrəmanı isə şairin özüdür. Amma xoşbəxtlikdən bu eşq, məcara romanının qəhrəmanı yalqız deyil. Rus şairi Aleksandr Blok, Pablo Pikasso, Amadea Modilyani, Nazim Hikmət, Adil Mirseyid də onunladır”. [83, s.166]

Şairin Romada, Varşavada, Parisdə, Təbrizdə, Daşkənddə, Bişkekdə, Moskvada,

Türkiyədə, İspaniyada, Şamda səyahətləri poemanın da ayrı-ayrı fraqmentləridir. "Şam şikəstəsi" fraqmetində Şam şəhərinin "Min bir gecə" nağıllarında olduğu kimi həzin, füsünkar gecələrindən danışan şair daha çox Gəncəli musiqiçinin udda çaldığı muğamlardan təsirləndiyini yazır. "Bir şeir yazmaq istədim, bir şeir sənə,// Şamın qara xurma kimi dadlı gecələrindən..."

Qənirə xanım öz məqaləsində bu poemanı görkəmli türk şairi Nazim Hikmətin "Saman sarısı" poeması ilə müqayisə edir. Yəqin ki, Elçin Nazim Hikmət poeziyasını dərindən oxuyub, onu mənimsəyib və ondan yetərincə öz yaradıcılığında bəhrələnib. Nazim Hikmətin kitabları sovet dönəmində Xalq şairi Rəsul Rzanın tərcüməsində, təqdimatında Azərbaycanda çox geniş yayılmışdı, bütün ədəbi nəsillər tərəfindən oxunurdu, qəbul edilirdi və çox-çox da sevilirdi. 90-cı illərdə ədəbiyyat camiyəsinə gələn Elçin İsgəndərzadə də bunu görməyə, sevməyə bilməzdi.

Məqaləsinin sonunda Qənirə xanımın oxuculara bir təklifi də var: "Elçin İsgəndərzadənin "Eşq" poemasını oxuyun və içinizdə səslənən musiqini dinləyin..." [83, s.168]

**"Üfüqdə qırmızı Günəş"** poeması rəssam Toğrul Nərimanbəyova yazılıb. Müəllif əsəri "Toğrul Nərimanbəyov üçün simfonik poema" adlandırıb. Demək, bu əsərin də baş qəhrəmanı rəssamdır. "Parisdə bir pəncərə - Toğrulun pəncərəsi. // Yenə Göyçay narı çəkir, Parisdə qoca rəssam...// Güleyşə narı çiçəkləyir ilin bu çağlarında..." Bu poema da ayrı-ayrı etüdlərdən ibarətdir.

Beləliklə, Elçinin bir qarabağlı yazar kimi bütün şairlərə, ən çox qarabağlı şairlərə üzünü tutaraq Vətənin dərdini poetik hayqırmaq gücü var. Eyni zamanda dərdini onlarla bölüşmək bacarığı, poetik üsulu var. İstər şeirlərində, istərsə də poemalarında üz tutduğu şairlər ordusu var. Onun bir zamanlar yazdığı "Daha ümid yox qismətə, / zülm etdilər bu millətə, / qan qisası qiyamətə/ qalırmı, ana, qalırmı?!" - poetik sualına indi ürəklə cavab veririk ki, xeyr, qisas qiyamata qalmır! Nə yaxşı ki, Elçinin üz tutduğu, Qarabağ dərdini, acısını danışdığı o şairlər ordusunda olanların əksəriyyəti – Aqil Abbas, Əbülfət Mədətoğlu, Qulu Ağsəs, İlham Qəhrəman, Vasif Quliyev, Rəşat Məcid, Ramiz

Rövşən... bu gün həyatdadır və azad olmuş Şuşanın, küllü Qarabağın azadlıq dastanını bir yerdə yazırlar. Demək, Elçinin dünən dərdini danışdığı şairlərlə bu gün sevincini, Vətən sevgisini  bölüşmək imkanları da var.

II FƏSLƏ  aid məqalələr və konfrans materialları:

1. Məmmədova, B. H. Sabir Rüstəmxanlının poemalarında tarixi gerçəklik// –Bakı: AMEA M. Fizuli adına Əlyazmalar İnstitutunun  Xəbərləri, – 2018. № 1 (16), – s. 38-42 [137].

2. Məmmədova, B. M. Nurəngiz Günün poemalarında müharibə və insan amili// – Bakı: AMEA M. Fizuli adına Əlyazmalar İnstitutu, Əlyazmalar yanmır, –2018.  №1, – s.19-27 [139].

3. Məmmədova, B. H. Elçin İsgəndərzadənin poemalarında Birinci Qarabağ müharibəsinin əksi// – Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Azərbaycan ədəbiyyatşunaslığı, – 2021. № 1, – s. 133-140 [ 145].

4. Мамедова Б. Г. (Бардалы). Исторические поэмы периоданезависимости Азербайджана// – Алматы: Казахский Национальный Педагогический Унверситет имени Абая. Хабаршы. Серия Филологические науки, – 2021. № 1 (175), – с. 251-257 [117].

5. Məmmədova, B.H. Nurəngiz Günün “Ağ qanadlar” poemasında gerçəkliyin əksi//  IX Beynəlxalq Elmi Konfransın materialları. Bakı Salavyan Unversiteti, – Bakı: – 3-4 may – 2018, – s. 335-337 [134].

6. Məmmədova  B. H. Qabil poeziyasının zirvəsi “Nəsimi”//  Nəsimi – 600,

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, III Beynəlxalq Elmi Konfransın materialları. – Bakı: – 23-24 iyun – 2017, – s. 304-307 [128].

7. Мамедова Б. Г. (Бардали). Габиль и Нурангиз Гюн об истори и современности. Беларусский Государственный Университет. Материалы IV Междинародной научно-практической конференции, – Мински: – 19-20 марта – 2020, – с. 406-410 [115].

# III FƏSİL
# HƏYATIN FƏLSƏFİ İNİKASI

## 3. 1 Qabilin şeirləri fəlsəfi kontekstdə

Əvvəlcə fəlsəfənin predmet və funksiyaları haqqında bir neçə kəlmə demək burada yerinə düşərdi. Fəlsəfə sözü yunan dilində olan “filosofiya” (hikməti sevirəm) sözündən götürülmüşdü. Bu termini ilk dəfə yunan filosofu Pifaqor işlətmişdir. Lakin Avropa elminə Platonun adı ilə daxil olmuşdur. Platon fəlsəfəni əbədi və mütləq həqiqətin dərk edilməsi yollarını göstərən elm adlandırmışdır. Aristotel isə fəlsəfənin vəzifəsini dünyada, varlıqda ən ümumini dərk etməkdən, predmetini isə varlığın ilkin başlanğıcları və səbəblərini öyrənməkdən ibarət olduğunu demişdir. XIX –XX əsrlərdə fəlsəfə varlıq və idrakın ən ümumi prinsipləri haqqında bir elm kimi özünə yer almışdır. Demək, fəlsəfə ictimai şüurun qədim və özünəməxsus formasıdır. Fəlsəfədə varlıq problemi – “var olmaq”, “mövcud olmaq”, “reallıq” mənalarını verir və müasir ədəbiyyatda varlıq anlayışı iki mənada işlədilir: 1. Dar mənada – şüurdan asılı olmayaraq mövcud olan obyektiv varlıq. 2. Geniş mənada materiya, şüur, ideyalar, hisslər, insanların fantaziya və xəyalları.

Beləliklə, fəlsəfə - insanın gerçəkliyə münasibətini əks etdirən ideyalar, prinsiplər və qanunauyğunluqlar haqqında, təbiətin, cəmiyyətin, təfəkkürün mövcudluğu və ən ümumi inkişaf qanunları haqqında elmdir. Bütün bunlar fəlsəfə elminin ilkin anlayışlarıdı, onun mövzusudur. Bizim işimiz isə şairlərin poeziyada bu müdrik – fəlsəfi düşüncələrdən necə istifadə etmələrini aşkara çıxartmaq və xəyalın, fantaziyanın köməyi ilə yazılmış parlaq poetik əsərləri təhlil, təqdir etməkdir.

Ədəbiyyatımızda özünəməxsus yeri, dəsti-xətti, ifadə tərzi olan Xalq şairi Qabilin müstəqillik illərində çap olunan kitabları içərisində dörd kitabı xüsusilə diqqəti çəkir: **“İlahi qisməti**”, “**Dostlarım, tanışlarım**”, “**Dənizlər mavidir, meşələr yaşıl**” və “**Ömrün gecə qatarı**”. Ardıcıllıqla çap olunan bu kitablarda sovet

dönəmində yazılmış məşhur əsərləri də yer alıb. Lakin əsas yeri Müstəqillik illərində yazılmış şeirlər təşkil edir.

1990-2007-ci illər, yəni ömrünün son on yeddi ili şairin müdrik çağlarına düşdüyündən yaradıcılığının çox hissəsini fəlsəfi yönümlü şeirlər, həyatın fəlsəfi dərkini özündə ehtiva edən poetik parçalar təşkil edir. Demək, bu dönəmdə onun yaradıcılığında lirik-fəlsəfi-əxlaqi dəyərli şeirlər xüsusi önəm daşıyır. Orjinallığı, təbiiliyi, saflığı ilə seçilən bu nümunələr oxucusunu mütləq təsir dairəsində saxlaya bilir. Qabilin bu illərdə yazdığı "Qarışdırma", "Əslində", "Yedəkdə gələn qayıq", "İstəmirəm", "Üç nöqtə", "İlahi qisməti", "Borc", "Bilmirəm", "Pərdə", "Zarafat eləmə" kimi şeirləri həyat hadisələrinə fəlsəfi yanaşmanı əks etdirən poetik nümunələrdir:

Kobudluqla cəsarəti qarışdırma!
Yaltaqlıqla nəzakəti qarışdırma!..
… Tülkülüklə fərasəti qarışdırma!
Düşmənliklə rəqabəti qarışdırma!.. [ 96, s. 246]

Oğluna müraciətən yazdığı bu nəsihətvari şerində şair göstərir ki, bir-birinə bənzəsə də, əslində, bunlar insanların çox fərqli keyfiyyətləri, xarakterik xüsusiyyətləridir. Bu fərqliliyi bilmək, duymaq üçün mütləq huşyar olmaq lazımdı, arif olmaq gərəkdir. Şair mənfi keyfiyyətlərlə müsbət xarakteri qarşılıqlı, yanaşı təsvir edir. Bir var cəsarət, nəzakət, sədaqət, ləyaqət, fərasət, rəqabət... Bütün bu hislər insanda yüksək mənəvi keyfiyyətlərdir. Bir də var bunların tam əksi – kobudluq, yaltaqlıq, lovğalıq, dəlibaşlıq, xəsislik və s. Bu keyfiyyətləri qarışdırmaq və ya bərabər tutmaq yaxşı insanlara pislik etmək deməkdir.

Küsü ilə küdurəti qarışdırma.
Zorbalıqla dəyanəti qarışdırma.
Girov ilə əmanəti qarışdırma.
Güzəşt ilə bəraəti qarışdırma. [96, s. 246]

Şair bu qənaətə gəlir ki, əgər bu şəxsi keyfiyyətlərin yerini bilsən, onları qarışdırmasan, insanlara olan münasibətlərini tənzimləyə bilərsən və hər kəsi yaxşı tanıyarsan, onda haqqı nahaqqa, yaxşını pisə qurban verməzsən.

Qabilin “Qarışdırma” əsərinin ideya davamı olaraq Yaradana müraciətən yazdığı, lakin özünə ünvanladığı bir şeiri də var: “Məni qoru”. Hər bir insanın xatası, səhvi, çatışmazlıqları ola bilər. Oğluna məsləhət gördüyü “Xata ilə cinayəti qarışdırma” fikrini özünə də, öz “Mən”inə də şamil eləyir. Lirik qəhrəman qorxur ki, o da nəsə bir cinayət edə bilər. Axı insan bəzən öz nəfsinin quluna çevrilir. Odur ki, yaradana yalvarır :

Ömürlük cəzaya dözərəm,
Ey ulu qüdrət, fəqət,
Məni sakındır bir cinayətdən!
Bu cinayət xəcalətdir,
Məni qoru ömürlük xəcalətdən! [96, s. 393]

Daha sonra şair haqlı olaraq göstərir ki:

İnsan nəzakətlə qəbahətin
Arasındadır hər an...
Ey ulu qüdrət, fəqət,
Məni qoru,
Boynu dönməyən kərgədannan,
Nəzakət qrimli nadannan... [96, s. 393]

Şairin “Əslində” şeiri də bu baxımdan çox xarakterikdir. Müəllif burada üzdə bir, əməlində başqa cür olanları sözlə ardıcıllıqla qamçılayır. Həyatda adı loğman olan nə qədər nadanlar var. Əslində, təkcə nadan deyil, həm də “şeytandır” onlar:

Zəlil haqqın kəsən zalım,
Əlil haqqın kəsən zalım,
Ziyarətgaha can atma,
Can atma, xalqı aldatma! [ 96, s. 252]

Ziyarətə gedib özünü mömin, dindar, əməlisaleh adamlar kimi təqdim edənlərin əksəriyyəti xalqına, elinə, obasına yabançı, yad olan insanlardır. Başqalarının - əlilin, zəlilin haqqını mənimsəyənlər, elin sərvətini talayanlar ziyarətgaha gedib xalqı aldatmasa yaxşıdır, - düşünür şair. Bu şeir haqqında şair Fikrət Sadıq belə yazır: “Bu “Əslində” - əslində deyil. Əslində gördüyümüz hər şey pərdələnib. Səməd Mansurun

təbirincə desək, – rənglənib. Gərək bu pərdəni açasan ki, həqiqəti biləsən. Lap illərcə həqiqət bildiyin bir də baxıb görürsən ki, yalanmış əslində… Günümüzün güzgüsüdür "Əslində". Elə özümüzük, əslində" [ 200, s. 460].

Şairin "Yedəkdə gələn qayıq" şeirinin çox maraqlı süjet xətti var. Mingəçevir dəryaçasında gəmi ilə səyahət edərkən şairin diqqətini bir qayıq cəlb edir. Bu qayıq özü üzə bilmədiyindən gəminin yedəyində gedir. Gəmi hara üzsə, qayıq da onun arxasınca dolaşır.

Sular gömgöy, səma mavi.
Ağzı köpüklü-köpüklü,
Başı havalı-havalı,
Ədalarla üzür gəmi.
Boynu yedək kəndirində
Üzür qayıq… [ 96, s.228]

Şair bu səhnəni ürək ağrısı ilə seyr edir. Yadına ömrü boyu yedəkdə gəzən, onun-bunun qoltuğuna sığınan, öz sözü, öz izi, öz üzü olmayan insanlar düşür. Müəllif düşünür ki, görəsən bu insanlar yedəkdə yaşamağa məcburdurlar, yoxsa məhkumdurlar? Şairin lirik qəhrəmanı yaşamaq naminə mübarizə aparmaq iqtidarında olmayan yedəkdəkilər üçün allahdan imdad, kömək diləyir:

Üzür yedək qayıqları
Qucağında ümmanların.
Allah çatsın imdadına
Yedəkdəki insanların… [ 96, s. 229]

"İstəmirəm", "Üç nöqtə" şeirləri də şairin fəlsəfi dünyasından ayrı-ayrı yarpaqlardır. Kimlərisə cana-boğaza yığacaq uzun ömrü, acı sözü, qaşqabaqlı üzü görmək istəməyən lirik qəhrəman düşünür ki:

Yeyib-içib gəzə-gəzə,
Söz qoşuram təzə-təzə,
İstəmirəm çatam yüzə,
Uzun ömrüm xalqı üzə.

…İstəmirəm bu dünyanı
Ölə-ölə tərk eləyim… [ 96, s. 269]

Öz ömür qismətinə şükür edən lirik qəhrəman artıq möhləti də, özgə qisməti də qəbul eləmək istəmir. Çünki "İstəmirəm bu dünyanı ölə-ölə tərk eləyim" – deyir. Axı, qocalıb taqqətdən düşən, sərbəst, rahat yeriyə bilməyən insanların nəfəs alması yaşamaq deyil ki…- düşünür şair.

"Dövrün təxirə salınmaz vəzifələri tələb edir ki, poeziya müasir varlığın vacib həyatı, mənəvi problemlərinin qoyulmasına, şərhinə, bədii həllinə daha böyük qətiyyət və cəsarətlə girişsin, müasirlərimizə yüksək fikirlər, nəcib duyğular aşılasın, neqativ halları, istehlakçı psixologiyasını, yaxanı kənara çəkmək əhval-ruhiyyəsini, meşşanlığı, əşyabazlıq xəstəliyini, karyerizmi, tarixi yaddaşın kütləşməsini prinsipial mövqelərdən yüksək sənətkarlıqla ifşa etsin" [173, s. 74].

Bu mənada Qabilin müstəqillik illərində yazdığı şeirlərində həyatın və insanların hər üzünü aydın görmək mümkündür. Onun poeziyası yaddaşı oyadan, insanı ayıldan, ayaqda saxlaya bilən poeziyadır.

Duyğulu anların məhsulu olan "Üç nöqtə" şeiri də öz dəyəri ilə seçilir. Bir real həqiqət var ki, sözün bitdiyi yerdə, istədiyini deyə bilməyəndə və ya demək istəməyəndə üç nöqtə başlayır. Şairin düşüncəsinə, qayəsinə görə: "İncə mətləb kodlarıdır üç nöqtə, // hər biri bir qıfılbənddir… Lal bir məktub açarıdır…" Üç nöqtə qoyulan yeri hər kəs açıb oxuya bilməz, bunun üçün qazdan ayıq, gözdən iti, huşyar olmaq gərəkdir. Bəzən şilləyə, gülləyə dönən üç nöqtəni vaxtından əvvəl dərk etmək, görmək gərəkdir ki, sonra üzlər qızarmasın, qulaqlar yanmasın.

"Yaxşı adamların həsrətindəyik", "Mənim ürəyimdə sirlər yatır", "Avtoportret" kimi nümunələrin hər birində bir dünyalıq fəlsəfi duyğular yaşayır. Bu dünyanın öz ayı, günəşi, ulduzları və insanları var. Bu insanlar fərqlidir, yaxşısı, pisi var, alçaqboylusu, hündürü var, kifiri, gözəli var, öküzü, tülküsü var… Şairin lirik qəhrəmanı bu dünyada minlərlə insanın içində yaxşı adamların həsrətindədir. Hər şeyin nisbi olduğu bu həyatda dəmir, mislə yanaşı xalis, təmiz, qızıl külçəsi də var. Çox vaxt biz yaxşı insanları o qızılın xası, xalisi, təmizi ilə ölçürük:

Ancaq nisbi deyil,
Nə qızıl, nə mis.
Ancaq nisbi deyil,
Cins ilə nacins.
Gəzirik xalisi,
Sözün qısası.
Biz ayrı sövdanın xiffətindəyik!
Yaxşı adamların  həsrətindəyik! [ 96, s. 292]

Yaxşı adamlar təmizdir, qatqısız xalisdir, qızıldır, – düşünür  şair və onların axtarışına çıxır. Maraqlıdır ki, bu yaxşı adamları tapır, sonra onların hərəsinə bir şeir, əsər də həsr edərək xalis poeziyanın xalis qəhrəmanına çevirir. Bu xalis insanlar onun ətrafında, yanında olan dostları, tanışları, qohumları, həmkarlarıdır.  Millətinin, xalqının qızıl övladlarıdır.  Məsələn, "Davam edir yemək-içmək" şeirini Xəlil Rzanın "Davam edir 37" şeirinə cavab olaraq yazmışdı. Əslində isə əsər Ulutürkün Lefortovo zindanından azad olduqdan sonra onun şərəfinə verilmiş ziyafətdən bəhs edir. Bu ziyafətin səbəbkarı, qəhrəmanı da xalqının şair oğlu, öz əzmi, əzəməti, döyüşkənliyi, mübarizliyi ilə seçilən, fərqlənən dostu Xəlil Rza Ulutürkdür.

1990-cı il yanvar hadisələrindən sonra, yəni xalqı ayağa qaldırıb Müstəqillik, Azadlıq hayqırdığına görə həbs edilərək Moskvaya aparılan Xəlil Rza elə zindanda olarkən də daha çox üsyankar ruhlu şeirlər yazmışdır.  Onun məşhur şeirlərindən "Davam edir 37", "Vaysınmıram", "Qorxma, mən sarsılmaz dağ qalasıyam!" kimi şeirləri sonralar dillər əzbəri olmuşdu.

Qorxma, mən sarsılmaz dağ qalasıyam,
Min-min ölüm gəlsə sağ qalasıyam,
Sabah azad olub hayqırasıyam:
- Canım, ey Azadlıq!..       [213, s. 113]

"Davam edir yemək-içmək" şeiri zarafatla, incə yumorla yazılsa da, Qabil bu yazısı ilə Xəlil Rzanın əsl xarakterini və dogma elin ona olan münasibətini –sevgisini, sevincini  açıb göstərir :

Nə qədər ki, qollarını

Ana kimi açır Salyan,
Nə qədər ki, “Xoş gəlmisən,
Balam”, - deyib uçur Salyan,
Nə qədər ki, Tofiq Rza
Mənzilinə köçür Salyan,
Nə qədər ki, Xəlil Rza
Şərəfinə içir Salyan,
Davam edir yemək-içmək… [98, s. 113]

Qabilin öz müasiri olan alim, şair dostlarına həsr etdiyi şeirləri yetərincədir. Bəxtiyar Vahabzadəyə, Balaş Azəroğluna, Gülhüseynə, Fikrət Sadığa, Anara, Sabir Rüstəmxanlıya, Vaqif Səmədoğluna və b.

Bu şeirlər içərisində çox səmimi bir parça “Çox Hörmətli Heydər müəllim” adlanır. Və Ulu Öndərə həsr olunub:

Əyilməz uca başın –
Millətin ucalığı!
Şanlı yetmiş beş yaşın –
Qüdrətin ucalığı!
Sənətə - sənətkara
Haqq-sayın var olsun!
Bənzə ulu dağlara,
Zirvələri qar olsun! [ 98, s.246]

Heydər Əliyevin yetmiş beş yaşına ittihaf etdiyi bu bədii parçanı şair çox sadə, səmimi sözlərdən biçib, lakin fikirlər çox zəngin, qüdrətli, əzəmətli səslənir: “Bənzə ulu dağlara, zirvələri qar olsun!” – deyir, çünki şairin poetik təfəkkürü də, mənəvi dünyası da, bənzərsiz Azərbaycan sözləri ilə zəngindir. Və hər kəsə öz zəngin baxış bucağından, öz prizmasından yanaşaraq tərənnüm eləyir.

Danılmaz bir faktdır ki, Heydər Əliyev sənətə, sənətkara həmişə yüksək qiymət verib. İstedadlının yanında olub. Hər cəhətdən köməyini əsirgəməyib. Odur ki, şair də bu keyfiyyətləri xüsusi vurğulayaraq alqışlayır:

Sənətə, sənətkara

Haqq-sayın var olsun!

Şairin "Dostlarım, tanışlarım" kitabının Birinci hissəsi məhz bu dostlara həsr olunmuş ittihaflardır ki, onların da sayı yüz on birdir. Bu səpkili şeirlərdən biri "Tofiq Mahmuda" adlanır və daha çox diqqəti çəkir:

Qızıl elə qızıldı,
Zamana dəxli yoxdur.
… Min ilin də yaxşısı,
Bu günün də pisi var.
Min ilin də qızılı,
Bu günün də misi var. [ 98, s. 107]

Daha sonra şair Tofiq Mahmudun xıltsız, ləkəsiz xasiyyətini, xarakterini təsvir edir və əsas fikrini bildirir:

Adam adam deyilsə,
Yazdığı da hədərdir! [ 98, s. 108]

Şairin cəmiyyətə mesajı aydın və səmimidir: "Adam adam deyilsə, yazdığı da hədərdir!" Yazarın yazdıqları kimi özü də təmiz, xalis olmalıdır.

Qabilin "İlahi qisməti", "Səhv düşəndə yerimiz", "Hörmətimiz", "Borc", "Əbəsdir", "Saat", "Bilmirəm", "Pərdə", "Birini elə, birini belə", "Zarafat eləmə" kimi şeirlərinin hər biri həyat həqiqətlərinin əks-sədasıdır, bir şair ömrünün tərcümanıdır, yaşanmışlardan süzülüb gələn təcrübədir, nəsihətdir, məsləhətdir. Bir sözlə, fəlsəfi dünyasının çalarları, çeşniləri, ilmələri, millərididir!

Toxucu olmaq istəsən,
Millə zarafat eləmə!
… Yazıçı olmaq istəsən,
Dillə zarafat eləmə! [ 96, s. 332]

Müstəqillik uğrunda gedən mübarizədə Xalq şairi Sabir Rüstəmxanlı da öz sözləri, şeirləri ilə meydanda, xalqının yanında idi. Ancaq meydana təkcə Vətənini sevənlər gəlmirdi. Onların arasında yalançılar, talançılar, düşmənin dəyirmanına su tökənlər də vardı. Qabilin bu dövr üçün xarakterik olan "Çaxmağı çək" şeiri Sabir

Rüstəmxanlıya müraciətən yazılsa da, əslində bu, qəlbi qaralar, niyyəti düz olmayanlar üçün bir məsləhət, göstəriş rolunu da oynayırdı:

Çaxmağı çək,
Yansın ürəklərin qurdu,
Qaradan-quradan
Təmizləyək ana yurdu! [ 96, s. 164]

Şair düşünürdü ki, Vətənin bu dar günündə, ağır anlarında baş qaldıran talançıları, böhtançıları, yalançıları yalnız yandırmaqla məhv etmək gərəkdir. Açılmayan düyünləri od vurmaqla açmaq olar. Odur ki, hər dəqiqə, hər an çaxmağı çək, deyirdi. Eyni zamanda, ziddiyyətlərlə, təzadlarla dolu dünyanın qaranlıq döngələrində qarşılaşan insanların yoluna, qəlbinə işıq salmaqla da pislikləri, rəzillikləri məhv etmək olar, onları düz yola qaytarmaq olar. Həmçinin, şair təlqin edir ki, pis niyyətləri yandırmaqla, yox etməklə yaxşıları qorumaq, yaxşı əməlləri çoxaltmaq olar. Demək, odla hər şeyi yaşatmaq da olar, məhv etmək də. Baxır od kimin əlindədir. Yaxşılar yaşamaq naminə, yamanlar dünyanı yandırmaq üçün oda əl atıblar. Ulu babalarımızdan qalma çaxmaq da çox qəlblərə işıq salıb, onun yolunu aydınladıb. Əgər bu gün çaxmaq şair əlindədirsə, onda qəlbi açıq, niyyəti saf və təmizdir. Yolu qaranlğa düşmüşlər isə mütləq aydınlığa çıxacaqlar!

Şairin qənaətincə insan insan kimi yaşamalıdır. Yəni mərd, mübariz, döyüşkən, çalışqan, haqqa tapınan, ədalətə sığınan biri olmalıdır. Bu insani keyfiyyətləri yaşatmağın özü, həm də bəşəriyyətin mənfi qüvvələrdən xilasına xidmət deməkdir.

Bəkir Nəbiyev şairin bu tip şeirlərindən bəhs edərkən yazır: “Onun hər bir əsərinin bir növ yaranma tarixi, tərcümeyi-halı var. Bu da müəllifin özünün canlı müşahidələri ilə, onun başına gələnlərlə, hardasa qarşılaşdığı gözlənilməz hadisələrlə, yaradıcılıq stixiyası deyilən prosesin min bir məcraya düşüb axması ilə əlaqədardır” [ 98, s. 345].

“Avtoportret” şeiri bütün insani keyfiyyətlərin bir adamda cəmləşdiyini əks etdirən poetik parçadır. Burada şair öz düşüncəsində öz xarakterini açıb göstərmək

istəyir:  "Qibləgahım  - həqiqət // Səcdəgahım – sədaqət,// Daş tərəzim - ədalət // Qətiyyətim – cəsarət, // Riyadan, xəyanətdən // /Uzağam  yeddi iqlim".

Bəkir Nəbiyev fikirlərini belə davam etdirir: "Şairi heç vaxt tərk etməyən çox zəngin, əlvan müşahidələr onun şeirlərinin ilk rüşeymidir. Daxili hərarət və zərurət, mənəvi ehtiyac, duyğuların çarpışması bu rüşeymi canlandırıb bədii mətləblərə, obrazlara, təsvir və ifadə vasitələrinə, onları da misralara – şeirə çevirir. [ 95, s. 345].

Bu bir həqiqətdir ki, Qabil təkcə müşahidə etmir, sadəcə baxıb keçmir, həm də daima poetik axtarışdadır, odur ki, şairin yazdıqları da  nəticə  olaraq çox uğurlu alınır.

"Müasir şairlər arasında Qabil müəllim, mən deyərdim ki, həyat fəlsəfəli filosof şairlərimizdəndir. Çünki onun əsərlərini oxuduqdan sonra düşündükcə düşünürsən" [ 21, s. 402].

Qabilin yalnız Müstəqillik illərində yazdığı fəlsəfi şeirlərindən bəhs etdik. Amma onun Sovetlər dönəmində yazdığı məşhur lirik-fəlsəfi, yumoristik - fəlsəfi şeirləri də kifayət qədərdir. 1969-cu ildə yazdığı "Səhv düşəndə yerimiz"  şeiri şairin mənəvi pasportuna çevrilmişdir. Təbiət hadisələri ilə insani münasibətləri müqayisəli şəkildə poetikləşdirən şair maraqlı detalları açıqlayır:

Duman dağı dolanar,
Qiyamət olar !
Duman yola sallanar,
Müsibət olar!
Müsibət oluruq biz,
Səhv düşəndə yerimiz! [99, s. 88]

Dağların başında duman gözəllikdir, göz oxşayan mənzərədir, ruhun doyulmaz qidasıdır. Xalq yaradıcılığında, aşıq şerində, eləcə də şairlərin tərənnümündə bu təbii gözəlliyə yüzlərlə əsər həsr olunub. Lakin o duman qatı şəkildə yola sallanıb onu kəsərsə müsibət olar, yollarda gediş - gəliş çətinləşər. Bu yolların o başında ac, xəstə, qoca, uşaq yol gözləyə bilər. Bax, insanın da yerinin, işinin, vəzifəsinin səhv düşməsi, öz yerində olmaması, öz işini bilməməsi, bacarmaması, kiminsə yerini tutması elə müsibətlərdən biridir.  Çünki bundan nə qədər insanlar əziyyət çəkəcək.

Növbəti bənddə şair çay gəmisi ilə okean gəmisini müqayisə edir. Çay gəmisi okeanda üzə bilməz. Onu nəhəng dalğalar məhv edər. Ümman gəmisi isə cayda yatıb qalar, üzə bilməz, gərəksiz olar. İnsanın da yeri belə səhv düşəndə gərəksiz, dözümsüz, qeyrətsiz, korşalmış olar və xaric vurar.

Bəkir Nəbiyevin bu şeir haqqında çox dəqiq fikirləri var: "…Şeirin belə geniş yayılması təkcə onunla bağlı deyil ki, xalqımızı olmazın müsibətlərə düçar etmiş səhvlərin cəmiyyəti az qala başdan-başa bürüdüyü bir dövrdə yazılmışdır… Səbəb bir də o idi ki, yerləri səhv salmaq , daha geniş götürsək, siyasətdə baş-ayaq vurmaq hadisəsi şeirdə ancaq ilk baxışda sadə görünən sərrast vasitələrlə poetik məntiqin dəmir məngənəsində sıxılıb əzilmiş, qeyrətsizlər, korşalmışlar, xaric səslənənlər, bir sözlə, "müsibət olanlar" cəmiyyətin çox çətin sağalan ağır yarası kimi qəzəblə təhşir olunmuşdur" [ 171, s. 7].

Əsər 60-cı illərin sonunda – iqtisadi-siyasi-mədəni sahədə yeni başlanğıcın qoyulduğu zamanda yazılmışdı. Heydər Əliyevin hakimiyyətə gəlişinə qədərki dönəmdə baş verənlər, siyasi ab-havadakı hərci-mərclik, özbaşınalıq əsərdə sətiraltı fikirlərlə çox aydın şəkildə özünü biruzə verir.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə Qabilin "Seçilmiş əsərləri" çap olunub. Kitabın "Sözün qısası" adlı bir fəslini biz yumoristik- fəlsəfi şeirlər qisminə aid elədik. İki misralıq və ya bir bəndlik şeirdə Qabil çox düçündürücü məsələləri poetikləşdirib:

Söz qan salar araya,
Söz məlhəmdir yaraya…
Qısa söz – kəsər,
Uzun söz hədər,
Söz şərbət, şəkər,
Söz zəqqum, zəhər…[ 99, s. 209]

Bəkir Nəbiyev şairin "Parovoz", "Vətəndaş sərnişinlər", "Sonuncu kibrit çöpü" və digər bu tip şeirlərindən bəhs edərkən yazır: "Qabil başqalarının yüz yol görüb əhəmiyyət vermədiyi detallar, təfərrüatlar əsasında insanın qayğılarından, insan

psixologiyasının  növ-növ çalarlarından bəhs etmiş, zərrədə ümman görüb göstərməyin ürəyəyatan nümunələrini yaratmışdır” [171, s.7].

Xalq şairinin yaradıcılığında rübailər də özünəməxsus yer tutur. Onun bütün yaradıcılığı boyu yazdığı hər rübaisi bir fəlsəfi əsərdir.  Uzun illər şair bu yığcam şeir növündən geniş istifadə edərək bütün mövzularda lakonik fikirlərini ustalıqla ifadə edə bilmişdir. Rübailər də bayatılar kimi dörd misralıqdır. Laklin bayatılarda birinci iki misra sonuncu iki misranın açılmasına xidmət edir. Rübailərdə isə, fərqli olaraq, hər misranın öz sərbəst fikir yükü var. Bayatılar yeddi hecalıq olduğu halda, rübailər on bir hecalıqdır.  Deməak, Qabil bu dörd misralıq şeirdə insanın mənəvi aləmini, onun naqis ya kamil olduğunu, Kainatı, onun əbədi, sonsuzluğunu, təbiəti, onun əsrarəngizliyini və s. məsələləri ustalıqla aça bilmişdir:

Dalğalar bir-birini künc-bucağa sıxmayır,
Dalğalar bir-birini badalaqla yıxmayır,
Ümmanlar buna görə əzəli, əbədidir,
Dalğalar bir-birinin axırına çıxmayır [102, s.71].

Şair əbədi ümmanları qısa ömürlü, həm də bəzi cılız insanların mənəviyyatı ilə müqayisə edir. Bəlkə də insan ömrü ona görə qısadır ki, onlar bir-birini dalğalar kimi tutmur, əksinə bir-birini sıxaraq, yıxaraq axırına çıxırlar.

Xalq şairi Balaş Azəroğlu Qabilin rübailəri haqqında belə yazır: “Qabilin rübailərinin əsas məziyyəti onların həyatiliyində, bu günümüzlə səsləşməsindədir. Bu rübailərdə zəmanəmizin bir çox problemləri haqqında şairin ürəkdən gələn və oxucularının da ürəyindən olan fikirləri vardır” [14, s. 8].

Pələng nərə çəkdi, meşələr əsdi,
Pişiyə “pişt” dedin, səsini kəsdi.
Eyni törəmədi, pələnglə pişik?!
Sözdü deyirsən də, sən Allah, bəsdi!    [102, s. 48 ]

Evdə, insanların arasında yaşayan kiçik pişiyin pələngin nəslindən olduğunu alimlər hər zaman təsdiqləməyə çalışıblar. Zahiri oxşarlıq olsa da daxili yaxınlıq heç cür ağlasığan deyil. Nərə çəkən pələng hara, “pişt” deyən kimi miyoltusunu kəsən

pişik hara! Şair bu fikirə çox şübhə ilə yanaşır. Rübai mətbuatda çap olunanda mən Qabilin şübhəsinə qarşı cavab yazmışdım: "Yox, Qabil müəllim, bu yerdə bir balaca fikirləşmək lazımdır. Xilafət dünyasına iyirmi il meydan oxuyan Babəkin, ya "Mən öləndə sərhəddə basdırın, qoy övladlarımız sərhədlərimizi qəbrim kimi qorusunlar!" - deyən Cavanşirin nəvələridir xalqı çaşqın salıb, başsız qoyub Qarabağı təslim edənlər? Ya bəlkə şiş qayaların ağuşunda Şuşa qalasını tikən Pənah xanın nəvələridir? Ya bəlkə "Siz yalnız meyidimin üstündən keçib Gəncəyə girə bilərsiniz! İndisə döyüşəcəyik!" – deyən Cavad xanın? Yoxsa Bakı qalasının açarlarını vermək əvəzinə qılıncını siyirən Hüseynqulu xanın?" [21, s. 405].

Bəlkə zaman-zaman sivilizasiya özünün əks-təsirini bütün sahələrdə, bütün canlılarda, o cümlədən insanlarda da göstərib?

"Xal" şerində şair xal sözü ilə təbiəti, insanları, onların mənəviyyatını və cəmiyyəti bir araya gətirib müqayisə edir. Adı da, özü də kiçik olan xal bir gözəlin yanağında gözəldisə, burnunda xəcalətdi. Payızda yarpaqlara düşən xal da rəngarəngdir, göz oxşayandır, qiyamətdir. Tufandan qabaq üfüqlərə düşən xal isə müsibətdir. Tufanın gələcəyini xəbər verir. Bir də var qəlbə, sevgiyə, ürəyə düşən xal. Bu, bir məhəbbətin nifrətə çevrilməsidir, bir həyatın, talehin qaralması, gizli-gizli, gorun-gorun yanmasıdır.

"Bilmirəm" şeiri bir az duzlu - məzəli, yumoristik yazılsa da sətiraltı ifadələri, cəmiyyətə mesajları çoxdur. Şeirdə təbiət də var, məhəbbət də. Amma əsas fikir yükü cəmiyyətin üzərinə düşür:

… Taleyim ağlar-güləyən,
Qışdı-bahardı, bilmirəm…
… Heç kim eşitmir haqq sözün,
Cümləsi kardı?.. Bilmirəm…
… Paytaxtımızdı Bakı,
Ya bazardı?.. Bilmirəm…
… Bir-biriylə rəftarımız
Rüsca kaşmardı?.. Bilmirəm… [ 99, s.163]

“Hind okeanı” şerinin maraqlı sujet xətti var. Vəzifəli, bir sözü iki olmayan, şöhrətpərəst, dünyanı dolaşan bir şəxs özünü öldürmək üçün Hind okeanına getmək istəyir. Ona deyəndə ki, niyə öz Xəzərimizdə boğulub ölmək istəmirsən? Cavab verir ki, qoy desinlər Hind okeanı kimi bir dəryada boğulub! Axı bu da bir şöhrətdir! Qabil qələminə məxsus incə yumor və sətiraltı ifadələr burda da öz sözünü çox qısa, lakin çox kəsgin deyir.

“Hələlik” şerinin fikir yükü çox ağırdı. “Hələlik dağların zirvəsində qar, // Elə ki yaz gəldi əriyəcəkdi…” deyən şair həyatda hər şeyin ötəri, hələik olduğunu göstərir. Böyük qitələrin, millətlərin itib batdığı bu dünyada mala, mülkə, təm-tarağa uymamağı məsləhət görür. Yalnız əbədi olan bəşər – kainatdır. O da hələlik əbədidir.

Beləliklə, Qabil hələ sovet dönəmində başladığı fəlsəfi-lirik şeirlərinin davamını Müstəqillik illərində - ömrünün müdrik çağlarında da ədəbiyyata gətirmiş, öz ədəbi - bədii irsini xeyli zənginləşdirmişdir. Düşünürük ki, şairin bu növ şeirləri hər gələn yeni nəslin dünyanı fəlsəfi - estetik dərk etməsində, anlamasında çox mühüm rol oynayacaqdır.

### 3. 2.Nurəngiz Gün poeziyasının fəlsəfi yükü

Tədqiqatlar göstərir ki, ədəbiyyat dövrünün güzgüsüdür və ya onun əks-sədasıdır. Hər sənətkar keçmişə və ya gələcəyə arabir nəzər salsa da, ən çox öz zamanını, məkanını, dövrünü vəsf edir. Real olaraq gördükləri, duyduqları həyat hadisələrini qələmə alır. Ədəbiyyatşunas - tənqidçi Yaşar Qarayev yazır: “Böyük ədəbiyyat həmişə irəliyə doğru hərəkətində həyata, gerçəkliyə güvənən və xalqa, zamana xidmət edən ədəbiyyatdır” [106, s. 7]. Daha sonra alim ədəbiyyatın mövzusundan, məqsədindən bəhs edərkən qeyd edir: “Bəşəriyyətin ahəng və gözəllik, xoşbəxt cəmiyyət və kamil insan axtarışları bütün epoxolarda mütərəqqi bədii sənətin əsas ideya-məzmununu təşkil edir” [ 105, s.7]. Bu mənada Nurəngiz Gün də öz dövrünün hadisələrini fəlsəfi - lirik şeirlərində kifayət qədər əxz edib, oxucusuna ötürə bilir. Bəzən bu yumoristik dillə qələmə alınsa da, onun alt qatında

şairin böyük fikirləri, ağrılı düşüncələri gizlənir. Arif oxucu üçün fərqi yoxdur, bu fəlsəfəni tez duyur, anlayır və görür, götürür. Şairin “Qəfəs Respublikası”, “Qəfəs bülbülü”, “Açıq söhbət”, “Məsələ”, “Qalanlara”, “Çərxi – dövran”,”İlğım”,”Hökmü qayımmış zamanın” kimi şeirləri məhz bu qəbildəndir. Bu əsərlərdə ədəbi-bədii, poetik düşüncə fəlsəfi fikirlə vəhdət təşkil edir və Nurəngiz Gün poeziyasının mahiyyətini, həyatiliyini, realist keyfiyyətini xarakterizə etməyə imkan verir.

Şair “Açıq söhbət” şeirində dünənlə bu gün arasında belə bir fəlsəfi düşüncələrin məcmusundan ibarət körpü salır. Keçmişin həkimi, alimi, rəssamı, aktyoru, şairi bu günkü eyni ad altında fəaliyyət göstərənlərlə müqayisə olunur. Və şair təəssüf hissiylə göstərir ki, niyə bu qədər zəiflik, cılızlıq yaranıb?

Həkimlər altı il oxudular.
Hələ ki, nə Hippokrat, nə də İbn-Sina var…
… Hərifsənmiş, Cordano!
Baş çatlatdın, yol açdın, anlatdın, andın,
Axırda da zəncirlənib odlarda yandın! [57, s. 75]

Təbiətin gülü, qanqalı, tikanı olduğu kimi cəmiyyətin də cahili, kamili, alimi, sənətkarı var. Təəssüf doğuran odur ki, bəzən bu tarazlıq təbiətdə tikanın, cəmiyyətdə cahilin xeyrinə dəyişib pozulur. Əslində isə təbiət gülün, cəmiyyət də kamilin xeyrinə inkişaf etməlidir.

Bəs rəssamlar neçə il öyrənib oxudular?
Rəngi – rəngə qatdılar?
Bilmirəm…
Təkcə bunu bilirəm,
Heç bir tablo önündə
ağlamıram, gülmürəm…
Bəs şairlər?
Onlar da bir cürə əhmədi-biqəm…
…Füzulidən sonra ağlayanı
    yoxdur, balam!
… Toy-bayramdı bu dünyanın işləri.

Ay ağlayan! Gəl bəri!      [57, s. 75]

Dünyanın toy-bayram olması bəlkə də yaxşı əlamət sayılardı, əgər cahil kamil üzərində qələbə çalmasaydı. Axı Cordano Brunonu yandırandan sonra məhkəmə işçilərinin “qalibiyyəti” elmin inkişafının neçə əsrlər geri atdı, ləngitdi.

“Bədii fikir azad və xoşbəxt insan, cəmiyyət, xalq taleyi elmi fikirdə axtarışlarla vəhdət təşkil edir və onun nailiyyətləri ilə həmişə bu və ya digər dərəcədə şərtlənmiş olur”. [198, s. 3]

Nurəngiz Günün “Məsələ 1983” adlı bir maraqlı şeiri var. Cəbrdən, onun rəqəmlərindən, kəsirdən danışır. Ədəbiyyat, söz adamı çətin ki, həndəsi fiqurları, cəbri, riyaziyyatı asan qavraya bilsin. Amma yox. Şairin bu riyazi rəqəmlər içində öz fəlsəfəsi, öz fəlsəfi duyumu, yozumu var:

Əlqərəz. “Cəbr”
Səbr elə, səbr!
Əvvəl böl, sonra vur, indi çıx,
İndi bir-birinin üstə gəl…
…Çox şeyləri anıram,
Yüzdə birin qanıram.
Bax bu 100, bu da 1.
Yəni rəqəm 100, başında tir.
Üstündə bir 1/100

Tapdım təsəlli,
beləymiş həlli.
Yuxarıdakı ömür,
altdakı qayğı…   [ 57, s. 63]

Demək, şairə görə 100/1-in cavabı, həlli belədir: bir ömürdə 100 qayğı gizlənib, istəyirsən vur, çıx, böl, üstə gəl, fərq etməz, qayğılar çoxluq təşkil edir. Bəlkə elə böləndükcə də çoxalır !

“Qalanlara” şeirində şair dünyada yaşayan varlıqları və insanları üç yerə bölür: ölənlər, qalanlar, bir də əbədi olanlar. Şairin lirik qəhrəmanı bunları uzaqdan, kənardan seyr edir:

Ölənlər vardı, ölənlər ki –
nə ölümə yaraşıb,
nə ölümü düşünüb öldülər. [57, s. 76]

Lirik qəhrəmanın fikrincə ölənlər də iki qismə bölünür. Bir qisim ölənlər həyatı, cəmiyyəti, insanları, Vətəni qorumaq üçün ölüblər. Ölümə yaraşmasalar belə. Bir qisim insansa dünyanı bölə-bölə, “mənim!”- deyə-deyə ölüb gediblər: “….Dünyanın işlərini bölənlər vardı ki, sonsuzluq karvanına qoşulub getdilər…”. İndi qalanlar – hələ yaşayanlar var, hər şey mənim! - deyənlər var. Amma unudurlar ki, əbədi olanlar dərin dəryalardı, yalnız Günəşdir, Yerdi, Aydır. Deməк, qalanlar da müvəqqətidir. “Hər şey mənim!” – deyənlər görəsən bunu dərk edirlərmi? Fərqindədirlərmi, ömür çox da uzun deyil, hər an qırıla bilər. Şairin qənaətincə əbədiyyətin insan ömrünə dəxli yoxdur:

İndi qalanlar var,
Hələlik torpağın üstü,
Günəş, ay, dərin-dərin
dəryalar sizindir…
İşlədiniz bol-bol, istədiyiniz qədər,
qalanlar!
Axı, dərin-dərin dəryalara,
Günəşə, aya nə var?
Ən əbədi yalnız onlar! [57, s. 76]

Günəş də, Ay da, Dəryalar da nemətini hər kəsə bərabər bölür, təmənnasız verir. Heç kəsi fərqləndirmir. Əbədi yaşarlıq hər şeyin fövqündə dayanan ilahi varlıqlara məxsusdu. Çoxlarının dərk etdiyi, bildiyi, lakin əməl etmədiyi bu adi həyat fəlsəfəsini şair bir daha poetik şəkildə qabardır, diqqətə çatdırır.

Həyat hadisələrini bədii təfəkkürün süzgəcindən keçirən Nurəngiz Gün gördüyü, duyduğu hər bir fakta öz poetik münasibətini bildirir. Cəmiyyətdə baş verən

xoşgəlməzlikləri bədii fikrin ifadəsində ədəbiyyata gətirir. Sözlə, bəzən sərt, ağır formada, bəzən də sadə, mülayim şəkildə misralara yükləyir və oxucusuna çatdırır. "Qəfəs Respublikası" şeiriylə şair böyük, geniş, vəhşi təbiəti qəfəsə salanları sərt şəkildə tənqid edir. Meşələr şahı aslanın, pələngin, bəbirin, ya ürkək, qorxacaq ceyranın, cüyürün və ya güllərin qoynunda nəğməsilə hər kəsi bihuş edən bülbülün qəfəsə salınması onların məhvi, təbii imkanlarının, güc-qüvvələrinin yox olması deməkdi. Şairin qənaətincə vəhşi təbiət deyil, insanların hərisliyi, acgözlüyü, eqoizmidir. Hər şey öz yerində, yurdunda, məskənində möhtəşəmdir, canlıdır, yaşarıdır,- deyir şair:

Kim düşünüb qara bəbir əsarətini?
Hara sığar bu bəbirin zilləti?
Məhbusa bax! Gözlərindən qığılcım yağır!
Aman zalım! Kimdir belə o pələngi danlayır?!
O pələngin gözündən xəlvəti yaş damlayır… [57, s. 78]

Şair bütün heyvanların, quşların çarəsiz, yazıq durumlarına dözmür, sanki üsyan edir. Qəfəsdə olan Qızılquş, akvariumdakı balıqlar, Qurd oğlu qurd - ormanlar bəyi, Şir- meşələr padşahı indi canlıların ən alisi, əşrəfi sayılan insanların əlində aciz və əsirdirlər.

Görkəmli xalq şairi Balaş Azəroğlunun da bu səpkidə bir çox şeirləri var. Onun hovuza salınmış qızıl balıq haqqında poetik fikirləri əsl sənət nümunəsidir. Hovuza salınmış Qızılbalıq buraya sığmayıb tez-tez hovuzdan kənara sıçrayır. Lakin sahibi balığı götürüb yenə hovuza atır. Azadlıq sevər şair dilə gəlib haray qoparır: "- Ey insan, vurma əllərini, Toxunma! // Onu dalğası adam boyu qalxan Dənizə aparmayacaqsan əgər! Əl vurma nahaq!" – deyir. Həyat ruhən də, cismən də azad olmalıdır. Şairin fikrincə, "İstədiyin azad həyat, azad dünya yoxdursa, yaşamağa dəyməz, onda qalır yalnız istəyincə ölmək! // Əgər onu da sənə çox görməsələr".

Ömrü üsyanlar, inqilablar, mübarizələr, çarpişmalar içində keçən Balaş Azəroğlu həmişə azadlıq üçün döyüşüb, vuruşub. Azadlığın nə demək olduğunu çox yaxşı bilirdi. Onun üçün ölümə getməyə, əlbəttə, dəyər, - deyirdi:

Əl vurma,
O balığa, ey insan!
Əgər onu
Azadlığa çıxarmayacaqsan!   [15, s. 39]

Şairin lirik  "Mən"i tələb edir, lazım gəlsə bunun üçün  vuruşmağa da hazırdır.

Müqayisə üçün deyək ki, Nurəngiz Günün  lirik qəhrəmanı isə başqa cür düşünür, fərqli müraciət edir, sanki yalvarır:

Mərhəmət et, ver sındırım,
Bu yalançı – akvarium – dənizləri…
Atım geniş dəryalara
Qıpqırmızı yazıq balıq gözlərini…  [ 57, s.  80]

Bu balıqlara dəryaların qoynunda azadlıq, bir də xırda, yaşıl yosunlar gərəkdir, çörək  qırıntıları yox! Bu cür münasibət, müraciət isə yalnız Ana – Şairə məxsusdur. İki şairin cahil insana müraciəti fərqli olsa da məqsəd eynidir: Cismən də, mənən də Azadlıq!

Sirkdə belində it gəzdirən şir hər şeyə dözür, çünki  özü də itlə bir yerdə yaşayır, onun yediyi yalı yeyir. "Şir öyüdü görməmiş, şir südü əmməmişdir, o! // Yox, yox belə deyildir, yazıq zora tabedir  - yalnız yuxusunda  şir oğlu şirdir"!

Balaş Azəroğlunun  "Fil" şeirinin eyni adlı qəhrəmanı  da qəfəsdədir.  "Sirkdə gördüyü adi bir səhnənin  təsiri  altında şair, qəlbinin odunu, alovunu, sıxıntısını, azadlıq harayını dilə gətirir.  Tamaşada  sirk  artisti qadın nəhəng  filin ağzına bir parça qənd atmaqla onu istədiyi hərəkəti yerinə yetirməyə məcbur edir. Əyilən, sürünən, yatan, qadını kürəyinə mindirib, düşürən  fil görəsən  öz torpağında, yurdunda,  meşələrin qoynunda olsaydı bu hərəkətləri  edərdimi?  Burada da öz dəsti-xəttinə,  amal və  məqsədinə sadiq  qalan şair, şeirin sonunda səbrlə, təmkinlə həyat fəlsəfəsini  açıqlayır:

Ağacları kökündən çıxaran xortum,
Ayaqlar altına sərildimi,
Şirləri quru  yarpaq kimi əzən dizlər

Bir parça qənd üçün əyildimi,

Daha o fil deyil, oğlum! [ 16, s. 106]

Şairin düşüncəsinə, fəlsəfi yozumuna görə asan, firavan həyat naminə öz böyük arzusundan, dünyasından, xəyallarından, ən ümdəsi, azadlığından əl çəkənlər cılız, misgin həyat yaşayan insanlardır. Ancaq insan, dünya, cəmiyyət azadlıqdan ibarətdir. Başqa hər şey yalandır, mənasızdır.

Nurəngiz Günün fəlsəfəsi zülmə, zillətə, ədalətsizliyə, zorakılığa qarşıdır. Onun lirik qəhrəmanı azadlığın təşnəsidir, tərəfdarıdır. Və istəyir ki, meşələr şahı pələng, şir, bəbir meşəsində yaşasın, balıq dəryasında üzsün, Qızıl quş dağlarında qanad çalsın. Bunun üçün qəfəs sahibinə yalvarır da: - “Aç qəfəsi, boşla bu məxluqları azadlığa!” - deyir. Lakin Balaş Azəroğlunun lirik qəhrəmanı azadlığa başqa yöndən, sərt yanaşır. “ Qoy fil özü azadlığını qazansın! Qənd üçün əyilməsin! Bu qəfəsi sındırsın, dağıtsın! Hər şeyi ayağı altına salıb məhv etsin! Və sonra da qaçıb meşəsinə, ormanına getsin!”

Nurəngiz Günün lirik qəhrəmanı həyat həqiqətlərinə yumşaq yanaşır. Öz fəlsəfi görüşlərini, düşüncələrini ortaya qoyan şair hər kəsin yaşam tərzinin demokratik şəkildə azad olmasını istəyir. Amma, unudur ki, zalım ovçu tutduğu ovunu öz xoşuyla, istəyərək buraxan deyil. Demək, bircə yol qalır, o da azadlıq üçün çarpışmaq, döyüşmək, vuruşmaq və onu qazanmaq! Azəroğlunun həyat fəlsəfəsi də məsələyə bu cür yanaşmağı tələb edir.

Nurəngiz Günün “Tərcümeyi-hal” şeirinin maraqlı sujet xətti var. Bir bağlı otaqda insan və pişik bir-birlərinə baxsalar da çox darıxırlar. İnsan pişiyi başa salır ki, sən bu evdə az xumarlan. Sənin nəslin, səcərən pələngdən başlayır. Sən gərək indi meşələrdə, ormanlarda olasan…

Öz tərcümyi-halına da nəzər salan insan düşünür ki, axı onun da nəsli dağlarda, düzlərdə, təbiətin qoynunda döyüşüb, vuruşub, yaşayıb. O niyə indi bir otağa sığınıb qalıb:

Mən də pişik şəklindəyəm

Əyləşmişik…

O bir küncdə,

Mən bir küncdə…

O miyoldayır,

Mən yalvarıram.

O meşəyə qaçmaq xülyasında,

Mən eşiyə…

Qapılar möhkəm-möhkəm bağlı…

Fağır-fağır baxışırıq…. [57, s. 96 ]

Lirik qəhrəmanın həyat fəlsəfəsi burda başqa istiqamətə yönəlir. Təkamül nəticəsində bir çox canlılar, eləcə də təbiət öz ilk formasını dəyişib. Əlbəttə, şairin lirik "Mən"inin məqsədi heç də elmi araşdırmalar aparmaq deyil. Sadəcə mənəviyyatda gedən cılızlaşmanı, fağırlaşmanı, ətaləti üzə çıxartmaq, səbəblərini soruşmaqdır. Deməli, şair bilmək istəyir ki, bu qədər dəyişmədən sonra geriyə, əslə, ilkinliyə qayıtmaq mümkünmü?! Əlbəttə, yox! Çünki gəldikləri o yollar elə möhkəm bağlanıb, qapanıb ki, çətin onu aça və geriyə qaça bilsinlər!

"İlğım" şeirində şair sanki bu məsələyə bir az aydınlıq gətirmək istəyir. Geriyə qayıtmaq, hər şeyi təzədən, istədiyin kimi yenidən başlamaq olardı. Amma Zaman adlı bir məfhum da var ki, buna heç vaxt aman, imkan verməz:

Uzaqdan rənglər qarışır, yuxularım qımışır,

Uzaqdan bir səs qışqırır,

Taleyimdir ardımla qoşur… [57, s. 98]

Hər şey uzaqda qalıb. Görünən isə qarışıq rənglər, illiuziyalardı. Ardınca qoşan, qaçan taleyin də sənə çatmağa imkanı, zamanı yoxdur. Qarşı tərəfdə - öndə də illuziyalardır, İlğımdır, ona da yetməyə sənin əlin, gücün, qüvvən, vaxtın çatmaz.

Qarşıda ocaq odlanır, bütün xırman çırtıldayır,

Qarşıda xaniman yanır, fərqində yoxam, qollarım çatmayır… [57, s. 98]

Təkamüllər üçün bir insan ömrü yetərli deyil. Bu günlə yaşayan insan arxaya – dünənə və önə - sabaha əl uzatmaq, nələrisə dəyişmək, dəyişdirmək gücündə, iqtidarında deyil.

Uzaqdan ömrümü sellər aparır, gecdir, girincdir, əfsus!

Uzaqdan arzular fəryad qoparır, heçdir, bivecdir, əfsus! [57, s. 98]

Beləliklə, Nurəngiz Günün lirik qəhrəmanı həyat, təbiət, insan haqqında düşüncələrini önə çəkərək, özünəməxsusluğunu qoruyaraq həyat həqiqətlərini, gerçəkliyini birbaşa diqtə edir. Şairin şeirlərindəki ideya, məqsəd aydınlığı ilə, fəlsəfi fikirlərin yükü ilə bahəm oxucuya çatdırılır, təbii ki, poetik sözün gücü çərçivəsində və nəticəsində. Orijinal, təbii, səmimi hisslərdən yoğrulmuş bu poetik nümunələr eyni zamanda insanlara da böyük, səmimi duyğular, aydın fikirlər aşılayır.

### 3. 3. Sabir Rüstəmxanlının şeirləri fəlsəfi aspektdə

Sabir Rüstəmxanlının poeziyasında fəlsəfi fikirlərin, düşüncələrin poetik ifadəsi xüsusi yer tutur. Şairin bu səpkidə yazdığı kifayət qədər nümunələri vardır. Bu tip şeirlərin əksəriyyəti onun 2004-cü ildə çap olunmuş "Seçilmiş Əsərləri"ndə yer alıb. Müxtəlif vaxtlarda, dövrlərdə, anlarda yazılmış, həyat həqiqətləri ilə zəngin olan bu növ əsərləri şair kitabda bir araya gətirərək özü sistemləşdirir. "Xəbər gözləyirəm", "Gəncə qapısı", "Sağ ol, ana dilim", "Qan yaddaşı", " İçimdəki dərd ağacı", "Tanrı işığı" adlı fəsillərin altında toplanan əsərlər Sabir Rüstəmxanlının fəlsəfi dünyasından ayrı-ayrı yarpaqlardır.

Hər fəslin, yəni başlığın altında şairin öz izahı, yozumu, qeydləri də yer alıb. Bu qeydlər fəslin ümumi məzmununu əhatələndirib izah edir. Deməк, şair Müstəqillik illərində əvvəlki yazılarına – poetik yaradıcılığına yenidən nəzər salır və onları bu günün gözü ilə işləyib cilalayır. Məsələn, "Xəbər gözləyirəm" şeiri belə başlayır:

Xəbər gözləyirəm, kimdən, hayandan?
Hansı məmləkətdən, hansı zamandan?
Hansı ocaqlarda alışan közdən?
Cavab almadığım neçə sualdan? [186, s. 27]

Şeir bütövlükdə çox oxunaqlıdı, səmimi hisslərin məcmusudur. Lakin şairin fikirləri tam açılmır. Onun nə istədiyi, hansı xəbəri gözlədiyi sətiraltı qalır. Nəzərə

alsaq ki, şeir keçən əsrin 70-ci illərinin sonunda, daha dəqiq desək, 1977-ci ilin mayında yazılıb, onda hər şey başa düşüləndi. Bu dövr sovetlərin ən çox inkişaf etdiyi, rişələrinin dərinləşdiyi, genişləndiyi, dünya üzrə böyüdüyü zaman kəsiyidir. Əgər şairin Müstəqillik illərində yazdığı Ön sözü, izahı olmasaydı, söhbətin yalnız Cənubdan, Arazüstü sərhəd dirəklərinin sıralanmasından, 50 milyonluq soydaşlarımızdan ayrı düşməyimizdən getdiyini düşünərdik. Şair nə vaxtsa bütün bunların sonu olacaq xəbərini gözləyir, deyərdik. Amma yox, təkcə bu deyil. Şair özü bunu belə izah edir: "Yetmiş ildir dünyanın altıda birində qırmızı alov yanır. Kənarda dayananlar da, alovun içindəkilər də bilir ki, bu söndürülməlidir. Amma öz-özünə yanıb qurtarmayana qədər yaxın düşmək olmur. Mübarizə adına qalxsan, səni də yandırar. Lakin sərçə kimi hərə bir damla su atsa yanğın böyüməz… vaxt dəyirmanını da işlədən elə o damlalardır…" [ 186, s. 27].

Demək, şair həm də Azadlıq, Müstəqillik, Bütövlük, Böyük İstiqlal xəbərini gözləyir.

Mənə ana kimi yanan bir xəbər,
Məni Vətən kimi duyan bir xəbər,
İtmiş sevgi kimi qayıdıb gələn,
Ömrün baharını oyadıb gələn,
Muştuluq bir xəbər, şirin bir xəbər,
Şəfəqdən don geyən aydın bir səhər! [186, s.28]

Bu xəbər isə on dörd ildən sonra, yəni 20 Yanvar qırğını ilə gəldi. Əsas o idi ki, o xəbər şair üçün gəldi. Və o günləri şair yüzlərcə şeiri-şeriyyətilə vəsf etdi. (O şeirlər haqqında I Fəsildə yazılıb.)

Bəxtiyar Vahabzadə yazır: "…Rüstəmxanlı inam tərənnümçüsüdür. "İnanıram möcüzənin olacağına"- deyən şair Vətənin bu günkü tərəqqisindən və böyük uğurlarından çıxaraq daha böyük möcüzələrin, xarüqələrin eşqilə yaşayır" [218, s.7].

"Nəyə gərək belə, qardaş" şerində şair qədim abidələri söküb-dağıdan, keçmişin izini, xatirəsini yaddaşlardan cahilliklə silib atan bəzi üzdəniraq acgöz "qardaşlara" üzünü tutur:

Milyon- milyon nəsil keçib,
bu torpağın özü qalıb.
Yer altında, yer üstündə
keçmişimin izi qalıb. [186, s. 50-51]

Şair göstərir ki, onsuz da yerüstü, yeraltı sərvətlərimizin çoxunu yadlar, işğalçılar çəkib aparıb. Bir hissəsini zaman itirib, yellər qoparıb. Bəs yerdə qalanını sən niyə dağıdıb aparırsan? Bir toyuq hini üçünmü? Çəpər üçünmü?

"Sabir Rüstəmxanlının poetik təxəyyülü özümüz və zəmanəmiz haqqında həqiqəti axtarmaq üçün təkcə tarixin və yaddaşın laylarını qaldırmaqla kifayətlənmir, həm də müasirlərinin əməllərini sınaqdan keçirir. Oxucusunun belə bir sual üzərində düşünməyə, narahat olmağa sövq edir ki, "gələcəyin tarixini necə yaradırıq!?" [172, s. 48]. Cəmiyyətin içində olan kəsirlər, insanın mənəvi aləmində, dünyasında olan çatışmazlıqlar, problemlər lirikada müəyyən dərəcədə öz əksini tapır. Şair burada Vətən üçün yadlaşan, özgələşən, özgə dəyirmanına su tökən, yadları tərifləyib, özünü, yurdunu unudan "qardaşlardan" da bəhs edir və haqlı olaraq göstərir ki, belə oğullardansa yerdən çıxan bir saxsı parçası daha doğma, daha əzizdir. Çünki o tarixin bir parçasıdır. İnsan mənəviyyatının parametrlərini ölçən şairin lirik qəhrəmanı bu qərara gəlir ki, insanın və cəmiyyətin mənəvi aləmlərinin yüksəlişi üst-üstə düşərsə ictimai-siyasi proseslər daha yüksək templə gedər. Bir-birinə təsir edən bu qüvvələr istənilən problemin aradan qaldırılmasına zəmin yaradar.

"İçimdəki dərd ağacı" şerində şair ürəyində boy verən dərd ağacının yarpaq-yarpaq, budaq-budaq hər gün böyüdüyünü üzgün-üzgün yazır:

Əzabımdan şirə əmən,
Fəryadımdan küləklənən,
Mən qısılıb çəkildikcə
Ürəyimdə ürəklənən,
Dönük qardaş, soyuq bacı…
Ürəyimdə dərd ağacı… [ 186, s. 53-54]

Lirik qəhrəmanın "ayaqlarını deşib keçən" dərd ağacı yadlara söykənir, onlardan ilham alır. Deyəsən "qucağında yuva qurmuş,// şübhələri qızışdırıb,

pislikləri qurdalayan… // sevincini nə zamansa ildırımtək vuracaq” bu dərd ağacından yaxa qurtarmaq mümkün deyil. Beləcə, “Sabir poeziyası şair yaşa dolduqca müdrikləşir, dünyalaşır, əbədiləşir” [ 207, s. 55].

“Boş qalmış yuvalara dəyməyin” şeiri uçub getmiş köçəri quşların boş qalmış yuvalarından bəhs edir. Çox böyük fəlsəfi yükü var. Şair yanğı ilə söyləyir ki, “Öyməyin özünüzü, gücünüzü öyməyin, // Dəyməyin, bu sahibsiz qalmış yuvalara, dəyməyin…” Çünki payız ötəcək, qış keçəcək, yaz gələcək, gedənlər mütləq qayıdacaq, o yuvalara dönəcək. Həyat yenidən başlayacaq, o yuvaları ətcə balalar tutacaq. Şairin qınaq obyekti və təsviri bir yuvanın timsalında həyatın bütün gözəlliklərini, özəlliklərini açıb göstərməkdir.

Sabir Rüstəmxanlının “Sağ ol, ana dilim” şerini fəlsəfi şeirlərin sırasında təhlil etmək yerinə düşərdi. Şeir eyni adlı kitabda 1983-cü ildə çap olunandan sonra onun haqqında kifayət qədər fikirlər səslənib, məqalələr, resenziyalar yazılıb. Şeir, doğurdan da, düşündürücü və qürurvericidir:

Torpağım ikiyə bölünən zaman,
Bu dil bölünməyən torpağım oldu…[185, s.15]

Vətəni parçalamaq, bölmək, torpaqlarını zəbt etmək olar. Lakin dili bölmək, parçalamaq qeyri mümkündür. Bəlkə də dünyada yeganə dövlətdir ki, Azərbaycan öz torpaqları ilə həmsərhəddir. Onun parçalanıb ayrı-ayrı ölkələrin təkibində qalmasına rəğmən xalq öz dilini qoruyub, saxlaya bilib. Bu, əlbəttə, çox ümidvericidir. Dəxli yoxdur bu ayrılıq, mərkəzdən gen düşmək nə qədər çəkəcək. Bunu, yəqin ki, tarix göstərəcək. Lap əsrlər keçsə belə ana dili yaşarıdır, ölməzdir. “Sabirin “Sağ ol, Ana dilim” şeirində bu mövzuda yazılan digər şeirlərindən fərqli olaraq bədii mətn kataqoriyasında hifz olunan bir fəlsəfi konsepsiyanın izləri və mahiyyəti var” [225, s. 15].

Haqq dedin dabanından soydular səni,
Ancaq məhv olmadın, anam, can dilim!
Ordular sarsıdan qəhrəman dilim! [185, s.17]

Bu, bir həqiqətdir ki, tarixin, zamanın o üzündə qalan dillər, xalqlar olub. Başqa

dillərin içində əriyib itən dillər xalqını, yurdunu, torpağını, Vətənini də itirib, öldürüb. Bu mənada bizim ana dilimiz və xaqımız çox şanslı və qəhrəmandır. Uzun illər başqa-başqa ölkələrin, xalqların təsir dairəsində yaşamağa məcbur olsa da özünü və dilini qoruyub, saxlayıb, unutmayıb, itirməyib. Məhz buna görə şair haqlı olaraq yazır:

Hardasa bircə kəlmə sözüm yaşasa,
Oranı halalca yurdum bilmişəm. [185, s.16]

Fəlsəfə elmləri doktoru Rahid Ulusel şairin poeziyasından danışarkən yazır: "Sabir Rüstəmxanlının bədii sənəti dünyanın mənəvi zənginliklərini özünə mənimsəmiş bir poetik yaradıcılıqdır. Fəqət dünyanı içən bu poeziya sanki üç mərhələni yaşayır: "Dünya" "Azərbaycan"dan keçərək "Əsər" olur. Burada meyar Azərbaycandır. Şairlə dünya arasında bir Azərbaycan var" [207, s. 48]. Göründüyü kimi, alimin fikirləri çox dəqiqdir və təhlili aydındır. Daha sonra R. Ulusel öz fikirlərini davam etdirərək deyir: "Azərbaycanı qəbul etməyənləri şair qəbul edə bilmir. Çünki Azərbaycan sınanmış bir torpaqdır. Buradan təkcə dəvələr, karvanlar, tacirlər, xəzinələr yox, sivilizasiyalar, mədəniyyətlər, ictimai-siyasi quruluşlar, hakimiyyətlər gəlib keçib. Lakin ötüb keçməyib" [207, s. 48]. Müəllifin bir fikrini də burda səsləndirmək yerinə düşərdi: "Azərbaycan köklü tarixi metaforalara uğrasaydı çoxdan aşınmış, yox olmuşdur". Bütün bunlar tarixi gerçəklikdir, dəqiq faktlardır. Çünki Azərbaycan bu gün də yaşayir və bütöv keçmişini də yaşadır - nə vaxtsa yenə bütövləşmək üçün!

Bəxtiyar Vahabzadənin "Sağ ol ana dilim" kitabına yazdığı ön sözdə belə fikirlər var: "Əsrimizin səviyyəsinə müvafiq müasir şeir bizim yalnız hisslərimizi deyil, ağlımızı da tərpətməli, bizi düşündürməlidir. Bir filosofun dediyi kimi: "Düşünürsən, demək yaşayırsan" [218, s. 6-7].

"Ruhumuz sərhədsiz olduğu üçün" şerində də yenə şair dil, Vətən, Azərbaycan və onun tikə-tikə bölünmüş torpaqlarından, dünyaya səpələnmiş qaçqın, didərginlərindən danışır. "Bu Vətən torpağı çox qəribədir, // Hələ sərhəddini tapa bilmirəm." -deyən şair Dərbənddən, İrəvandan, Qarayazıdan, Göyçə gölündən, Böyük Fizulinin dəfn olunduğu Kərbəladan söz açır. Şeir haqqında Bəxtiyar Vahabzadə belə yazır: "Ruhumuz sərhədsiz olduğu üçün" şerində ana dilimizin,

mənəviyyatımızın ululuğundan, sərhədsizliyindən böyük qürur hissi ilə söhbət açılır… Dilimizin böyüklüyünü, tarixiliyini bundan gözəl, bundan bədii və bundan tutarlı deməyi ağlıma gətirmirəm” [218, s. 6].

“Mənsiz qalacaq”, “Ömür yarı oldu”, “Anamın duası”, “Qaragilə”, “Qar yağışı”, “Arxa”, “At haqqında iki xatirə”, “Xatirələrin imtahanı” kimi şeirlər də şairin fəlsəfi düşüncələridir, – desək yanılmarıq. Sabir Rüstəmxanlının bu tip şeirlərindən bəhs edərkən filologiya elmləri doktoru Cavanşir Yusifli belə yazır: “Sabirin bütün şeirlərində… uşaq ikən ucadan oxunan kitablara qulaq kəsildiyi, dağların o üzündə yaşayan, xırmanda işləyən insanların qanlarında çiçəkləyən dərdin “ləçəklərinin” duyulduğu kənd evinin təmiz havası, bu havanın gah mistikaya, gah da o qanın içində çiçəkləyən dərdin yollarına düşüb özünün tam şəkildə, bütöv varlıq kimi dərk etməyə səsləyən atmosferi var. Bu şeirlərin hamısı həmin təmiz havadan asılıb. Həmin o atmosferin içində yaşayır” [225, s. 27].

“Şair heykəlləri” şerini Sabir Rüstəmxanlı Bakının küçə və meydanlarında ucaldılmış yazarların heykəllərinə həsr edib. Şair burada heykəllərin görkəmindəki dərdi, ələmi təsvir edir:

Bakı meydanlarında
heykəl şairlərimiz
boynu bükülü…
Üzlərinə tariximin
qəmi çəkilib…[185, s. 32]

Dahi Nizami, Böyük Füzuli, Nəsimi, Natəvan, Nəriman Nərimanov, Cəfər Cabbarlı… Bu heykəl şairlər hər kəsin gözü önündədir. Heykəltaraş onları olduğu kimi yaradıb - qəmgin, fikirli, düşüncəli, əlləri qoynunda, üzüntülü. Şair bütün heykəlləri ayrı-ayrı təsvir edəndən sonra yazır ki, “Bir heykəltaraş olsaydım Fəryad heykəli də yaradardım…// Hər şairin yanında, dərdinə ortaq olan, bir qardaş heykəli də yonardım…” Düşünürsən ki, böyük mədəniyyətə malik bir xalqın tarix boyu müstəqilliyi heç yarım əsr də çəkməyib, həmişə döyüşdə, vuruşda, qovğada olub, başını qaldıran kimi bir ölkənin zərbəsinə tuş gəlib, onun hakimiyyəti altına düşüb. Onda düşünürsən ki, bu millətin həssas qəlbli, Vətənini, Xalqını sevən yazarlarını da

başqa cür təsəvvür etmək qeyri mümkündür.

Bəxtiyar Vahabzadə yazır: “Sabir nədən danışır danışsın, istər mənəvi sərvətimiz olan nağıllardan, bayatılardan, istər yerüstü sərvətimiz –tarixi abidələrdən, qalalardan… Bakıdakı şair heykəllərindən, istəesə də ömürdən, gündən, fərqi yoxdur, hər yerdə “dilinin Leylası” Vətəndir”. [218, s.7]

Sabir Rüstəmxanlının düşündürücü şeirlərindən biri də “Qara durna” adlanır. Bu durnanın balaları hələ yuvada olarkən bir-birini didib öldürür, sonra da yuvadan atırlar. Deyilənə görə onların nəsli kəsilmək üzrədir. Şair sanki yalvarır:

Aman durna, dimdiyini öz başında sınama
Sən gücünü yurddaşında, qardaşında sınama! [186, s. 96]

Bu qardaş qırğını, vətəndaş müharibələri şairə yaxşı tanışdır:

Vaxt olub ki, öz gülləmiz özümüzə tuşlanıb,
Öz zəmimiz əlimizlə biçilməmiş xışlanıb… [186, s. 96]

Odur ki, şair qardaş qırğınına səbəb olan bütün vətəndaş müharibələrinin əlehinədir. Çünki Vətəni Xalqın birliyi qoruyub saxlaya bilər.

“M. Ə. Sabirin qəbri üstündə” şeiri də şairin həyat həqiqətlərini əks etdirmək baxımından çox qiymətlidir. Şair təəssüflə göstərir ki, bu Vətənin övladları nəyinki böyük Sabir kimi onu sevib, dərdinə yanırlar. Əksinə, onun sərvətini çapıb-talamaqdan yorulmur və gözləri doymur. Şair belələrini “Vətənin çiynindən asılmış dilənçi torbası” na bənzədir.

“Sabir Rüstəmxanlı şeirlərinin təqdirəlayiq keyfiyyətlərindən biri həyatda müşahidə etdiyi ziddiyətlərin məntiqi əlaqələndirilməsi yolu ilə təzadların harmoniyasını tapmaq və onu metaforik səviyyədə oxucunun mühakiməsinə yönəltmək cəhdidir” [174, s. 48].

Sabir Rüstəmxanlının “Ömür yarı oldu”, “Mənsiz qalacaq”, “Bir bəstəkara”, həmçinin “Anamın duası”, “Qaragilə”, “Məktəb yolları”, “Vəsiyyət” kimi şeirləri də onun fəlsəfi düşüncələridir. Bu düşüncələr, eyni zamanda, şairin bədi-fəlsəfi həqiqətləridir.

Tədqiqatlar göstərdi ki, Sabir Rüstəmxanlının Müstəqillik illərindəki poeziyasında fəlsəfi şeirləri çox deyil. Onun səksənininci illərdə yazdığı dərin məzmunlu, düşündürücü şeirlərinin davamı sanki az-az gəlir. Olan şeirlər də təbiət, məhəbbət, cəmiyyət mövzusu içərisində əriyir. Şairin bütün yaradıcılığını ardıcıllıqla izlədikdə, incələdikdə məlum oldu ki, Sabir Rüstəmxanlı XXI əsrin əvvəllərindən başlayaraq öz böyük, qlobal düşüncələrini nəsrində işlədib. Yəni əsrin əvvəlindən son illərə qədər Sabir "Xətai Yurdu", "Göy tanrı", "Ölüm zirvəsi", "Şair və şər", "Akademikin son əsəri" kimi doqquz roman, beş povest və onlarca hekayə yazıb. Bu əsərlərin hər biri şair yazarın cəmiyyət, onun problemləri, insan, onun yaşadıqları, yaşatdıqları, ağrıları, tarixi dönəmlər və s. məsələlər haqqında dərin fəlsəfi düşüncə və duyğuları, gördükləridir. Şair öz oxucusunun əlindən tutub dünənə - keçib gəldiyimiz yolla apara bilir, bu günün ağrı-acılarını göstərə bilir, sabah ola biləcəkləri aydınlaşdıra bilir.

Akademik İsa Həbibbəyli yazır: "Bədii düşüncə ilə ictimai və elmi təfəkkürün vəhdəti, həmçinin, ilhamla idrakın sintezi Sabir Rüstəmxanlı yaradıcılığının özünəməxsusluğunu müəyyən edir" [68, s. 38].

AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu isə "Sabir Rüstəmxanlının romanları" adlı geniş tədqiqat əsərində yazır: "...Sabir Rüstəmxanlının romançılığı heç də təsadüfi səciyyə daşımır; çox təbii şəkildə, yaradıcılıq intibahlarından, qələm zərurətindən doğulur. "Həqiqətin böyüyü"nü demək üçün şeir və publisist qələmi azlıq edəndə, yaradıcılığının janr təkamülü Sabir Rüstəmxanlını həm də roman yazmağa sövq etmişdir" [46, s. 253].

Demək, əsrin əvvəllərindən başlayaraq Sabir Rüstəmxanlı öz fəlsəfi fikir və düşüncələrini nəsrində oxucusuna ötürüb. Bu romanlar şairin yaradıcılığının çox böyük hissəsini tutur.

Beləliklə, Sabir Rüstəmxanlının poetik yaradıcılığında təbiətə, cəmiyyətə, insanlara fəlsəfi yöndən yanaşma tərzi də xüsusidir və bu onun özünəməxsus yaradıcılıq üslublarından biridir. Bütün oxucuların, həmçinin tədqiqatçıların diqqət mərkəzində olan bu fəlsəfiyönlü əsərlər həm də ədəbiyyatımızın formalaşmasında, zənginləşməsində mühüm rol oynayır.

### 3. 4. Əbülfət Mədətoğlunun fəlsəfi dünyası

Daima axtarışda olan Əbülfət Mədətoğlunun poetik yaradıcılığında fəlsəfi yönümlü şeirləri də kifayət qədərdir. Yaş artdıqca, həyat təcrübəsi çoxaldıqca şairin dünya, kainat, cəmiyyət, insan, insanlıq haqqında duyğu və düşüncələri, hadisə-predmetlərə baxış bucağı da dəyişir. Bu mənada onun övladlarına, ayrı-ayrı həmkarlarına, dost-yoldaşlarına müraciətən yazdığı şeirlərin hər biri həyatın bu və ya digər üzünü, qlobal məsələlərini açıb göstərir. “Dünya”, “Bilirsən hərdən...”, “Deyərsən”, “Dünyanı qoruyun”, “Bu tale”, “Düzlük qoydu düzdə məni” kimi şeirləri şairin fəlsəfi dünyasından ayrı-ayrı fraqmentlərdir.

Добавлено примечание ([AM1]): у

Əbülfət Mədətoğlu həyatın sərt həqiqətlərini, gerçəkliyi, ziddiyətləri, təzadları şeirə gətirir və öz fəlsəfi düşüncələrini də bu əsərlərində sərgiləyə bilir.

Baxdım, gözümü aldatdım,

Dözdüm, dözümü aldatdım,

Özüm özümü aldatdım...

Çıxdım axırıma-axırıma... [155, s.115]

Şair Tofik Abdin Əbülfət Mədətoğlunun “dərdi özündən böyük misraları” haqqında belə yazır: “Mədətoğlu şeirlərinin hər birində altından xətt çəkiləcək və ayrıca bir şeirdən nümunə veriləcək ağrılı misralar çoxdur... Bütün bunlar onun ŞAİR olduğunun subutudur, o da bəllidir ki, Əbülfət Mədətoğlu dərd şairidir” [155, s.117].

Dərdin yoldaşı kimdi?

- Mən!

Dərdin qardaşı kimdi?

- Mən!

Dərdin sirdaşı kimdi?

- Mən!

Dərdin başdaşı kimdi?

- Mən!

Bəs onda dərd kimdi?

Bax onu hələ bilmirəm... [155, s.200]

Şeiri kiçik olduğundan bütövlükdə yazdım. Şairin özü dərdin içindən boy verdiyi üçün yazdıqları da dərdin ağrı-acılarını əks etdirməlidir. Bu dərd onun yurd itgisindən tutmuş həyatda hər türlü əzab-əziyyətlərinə qədər hər şeyi əks etdirir:

Nə sərtdir zaman qılıncı,

Əsəbdi çalan qılıncı,

Babamdan qalan qılıncı -

Çalarsan, qalam deyərsən... [155, s.116]

Əbülfətin hər xırda şeirində böyük bir məna, fikir gizlənir. Hər dərd, hər ağrı həyatın sərt üzüdür. Şair bir insan olaraq həyatı kənardan seyr etmir, o sərt üzlə tez-tez qarşılaşır və bu ağrını yaşayaraq poetik şəkildə oxucusuna da ötürə bilir. Şairin "Akif Səmədə", "Göz yaşlarım gözlərimdə çiçəklər...", "Günəş şüası" kimi şeirlərində öz dərdi ilə yanaşı qəfil dünyasını dəyişmiş dost itgisinin ağırlığını da əks etdirir. Həmçinin, "Tələbə dostlarıma", "Əli Hacı bəyin doğum gününə", "Şahin Kərim oğlu Məmmədova", "Dədə Süleymana", "Dədə Süleymana ikinci xitab" və s. şeirlərində də bir həyat fəlsəfəsi poetikləşir. "Sıxdım barmaqlarımı,// Əsəbimi dişimlə sıxdığım kimi..."- deyən şair hərdən də gileylənir: "Topa tutub dağıtmayın, bulud deyiləm...// Yağmağım yaz yağışıdı...- bir an çəkəcək..."

Əbülfət Mədətoğlu hansı mövzudan yazır yazsın, orda bir Vətən sevgisi, yurd yanğısı, dil ağrısı, torpaq itgisi, insan amili başlıca rol oynayır. Poetik düşüncələrində vətənpərvərlik, insanpərvərlik, yurdsevərlik qırmızı xətt kimi keçir. Təbiətdən, məhəbbətdən də yazanda orada mütləq fəlsəfi ruh hakimdi. Ümumilikdə götürsək, bütün yaradıcı insanların yaratdığı mənəvi sərvətlər hər kəsə məxsus olan bədii-estetik dəyər və sərvətdir. Bu mənada Əbülfət Mədətoğlunun mənəvi dünyası zəngindir. O, sələflərindən əxs etdiyi zənginliyi öz dövründən, qəlbindən də keçirib, daha da genişləndirib və möhkəmləndirib.

Ürək üz tutub çəmənə,

İstəyir güllə danışım...

Çəməni basıb sinəmə,

Anlaşan dillə danışım...

Səsimi çəkib başıma,

Sığınıb olan yaşıma,

Qapını döyən qışıma

Aynan, həm ilnən danışım... [159, s.226]

Əsərin sujet xətti şairin fəlsəfi baxışının açılmasına xidmət edir. Şeirin lirizmində şairin ustalığı da aydın görünür.

Yaşının müdrik çağlarında Əbülfət Mədətoğlu dərin ağlı, güclü intilekti, həyat təcrübəsi ilə yazdığı hər bir əsərində gerçəkliyin fəlsəfəsini açmağa çox önəm verir. Bu duyğu, düşüncələr hadisələrin açılmasında mühüm rol oynayır. Çünki şairin hadisə-predmetlərə nüfuzedici müşahidə qabiliyyəti çox güclüdür. O, ilk baxışdan xırda görünən hər hansı bir mətləbi ümumiləşdirib bəşəri bir hadisəyə çevirə bilir.

### 3. 5. Elçin İsgəndərzadənin fəlsəfi düşüncələri.

Həyatın, dünyanın, kainatın, cəmiyyətin hər üzündə, hər izində bir fəlsəfi anlam axtaran Elçin İsgəndərzadənin poetik yaradıcılığında fəlsəfi şeirləri də kifayət qədər var. Şair öz ovqatında bu fəlsəfi dərinliyə enir, onu poetik şəkildə çözməyə çalışır. "Tanrının gözü üstümdədi", "Sevdalı bir qış nağılı", "Avtoportret", "İraqda vuruşan Amerikalı əsgərə məktub", "İtki", "Yaşam düsturu", "Ömür saatı" və onlarca bu tip

şeirlər şairin həyata baxışının fəlsəfi anlamını, düşüncələrini ifadə edir. Xalq içində alqışlar var: "Tanrının gözü üstündə olsun", "Tanrı sənə yar olsun", "Tanrı səni qorusun", "Tanrının yadından çıxmayasan"... və s. Bu alqışlar əbəs yerə yaranmayıb. Yerin, Göyün bir yaradıcı qüvvəsi var. Biz o qüvvəyə Tanrı deyirik. İnsanı yaradan qüvvə həm də onun qoruyucusudur. Kainatın bu sirli qüvvəsi – yaradıcı qüvvəsi həmişə Şairlərin yanındadır. Çünki şairlər də yaradıcıdır, əbədi qalacaq Söz yaradıcısıdır. Bir də "Tanrı eşqi Ona qovuşmağa şansdır və insanı özünə qaytarmaqdan keçir... Bəndənin özünə qayıtması isə ilk növbədə nəfsinə qalib gəlmək və Tanrının yaratdığı rəngarəgliyə, bakirəliyə, ilkinliyə xələl gətirə biləcək mənəvi-əxlaqi qüsurlardan xilas olmaq dözümü, səbri və bacarığıdır" [86, s.9].

"Ömür pəncərəsi" şeirində Elşin bu günlərin və sabahların təsvirini verir. Bir növ onun rəsmini çəkir. İnsan ömrü çox da uzun deyil. Tarix üçün bir andır. Bu gün cismən canlı olan insan sabah olmaya bilər. Bu da təbiətin təbii qanunudur. Pəncərə önündə oturub bağı, bağçanı, bu rakusdan həyatın özünü seyr edən lirik qəhrəman düşünür ki, sabah o olmayanda pəncərədən əsən külək, bu söyüd ağacı, yem axtaran sərçə belə onunüçün mütləq darıxacaq. Axı bu pəncərə ağzına qonan sərçəyə o hər gün dən verir. O, pəncərəni açanda küləklər isti otağa girib pərdələrlə necə oynayır... Demək, insan oğlu təkcə insanların deyil, dəli küləklərin, ağacların, kiçik sərçələrin belə yaddaşında yaşaya bilər. "Hər gün belə o sərçə gələcək bir umudla,// Pəncərəmdə yellənəcək bir külək... Mən olmayacam..."

Tənqidçi Vaqif Yusifli yazır: "Məncə, hər bir şairin bu dünyada bir pəncərəsi olmalıdır. Şair məhz o pəncərədən dünyaya, dünyadakı gözəlliklərə, ürəklərə, sevgilərə, hisslərə, duyğulara boylanmalıdır. O pəncərədən boylanan dünya şairin öz dünyasıdır" [233, s. 216].

"Üşüyür" şeiri adi bir təbiət hadisəsinin təsviri, əks-sədasıdır. Üzü payıza getdikcə havalar soyuyur, quşlar isti ölkələrə uçur. Təbiəti seyr edən şairin lirik qəhrəmanı düşünür ki, bu soyuqda təkcə insanlar deyil, havanın, boş qalmış yuvanın, küləkli göylərin özü belə üşüyür:

Havalar soyuduqca,

Hava özü üşüyür.

Küləklər sovrulduqca

Göyün üzü üşüyür...

...Üşüyür budaqlarda

Boşalan yuvalar da...

Havalar soyuduqca

Üşüyür havalar da. [81, s.294]

Elçinin poeziyasında bir anın, bir günün, bir fəslin, bəzən bir ilin ovqatı əbədiləşir. "Üşüyür" şeiri adını çəkmədən payızdan danışır. Hər an təbdən - təbə düşən şair gördüklərini mənalandırır, ona fəlsəfi don geyindirib təsvir, tərənnüm edir. Həyat təkcə gözəl deyil, həm də təzadlıdır, min bir əzab-əziyyətlidir. Hər anın öz hökmü olduğu kimi, şair təbiinin də öz yüksəlişi, enişi var. Bu mənada Elçinin həyat gerçəkliyini, hadisələrini götürüb, onun fəlsəfi çalarlarını açmağa çalışması, onun bədii-fəlsəfi yöndə təsviri, izahı, bunun üçün lazımı bədii ifadə vasitələrindən geniş istifadə etməsi şairin fəlsəfi baxışlarının, düşüncələrinin təsahürüdür.

"Gəlməyən sonralar" şairin lirik qəhrəmanının öz ümidləri, arzuları, xəyalları, sabaha olan inamı haqqında poetik fikirləridir:

O gəlməyən günləri dəli kimi axtardım,

Dəli kimi gözlədim...

Hamı kimi yaşayıb biri kimi gözlədim,

Biri kimi istədim... [81, s.258]

Yaxşı sabahların xəyalı, arzusu ilə yaşamaq hər bir gəncin gündəlik istəyidir. Şairin lirik qəhrəmanı da bu yolu seçib. Lakin gözlədiyi o xəyallarının sabahı gəlmək

bilmir. Xəyal qırıqlığı yaşayan lirik qəhrəman öz-özünə verdiyi sualların ağrısı içində yaşayır:

Heç bilmədim niyə gəlmir o günlər,

Niyə olmur xəyallar,

Niyə bitmir ağrılar,

Niyə yoxdu o kəslər,

Niyə çoxdu bu dərdlər?? [81, s. 258]

Gözlədiyi sabahlarda özlədiyi özəl insanlar var. Gedənlər çoxdur, gələnlərsə yox. Şairin lirik üəhrəmanının nastaliji hisləri bu günlə, sabahla poetikləşir.

Murad Köhnəqala Elçinin fəlsəfi şeirlərindən bəhs edərkən yazır: "Onun son illər yazdığı şeir və poemalarında fəlsəfi mövzulara meyl güclüdür. O, hər yeni şeirində mövcudluq, yaşam, ölüm kimi əbədi problemlərə cavab axtarır" [92, s.141]. Murad Köhnəqala şairin bir çox şeirlərini, həmçinin "Ömür saatı" şeirini təhlil edərək Elçinin ruhən ekzistensializm fəlsəfəsinə yaxınlaşdığını göstərir. Şair bu şeirində "olum"la "ölüm", başlağıcmı, sonmu?- deyə düşünür və oxucusunu da düşündürür. Tədqiqatçı daha sonra yazır: "Bu və digər oxşar fəlsəfi mövzuların ədəbiyyatda işlənməsi, yazılan əsərlərin təkcə məzmun dərinliyi və məna yükünün deyil, ideya-estetik səviyyəsinin də yüksəlişinə səbəb olur" [92, s.143].

Elçinin təbiətə xitabən yazdığı "Həqiqət", "Qəriblik", "Ağ-qara xatirələr", "Məndən savayı", "Donuq nəğmələr", "Xatırla" kimi poetik nümunələrinin hər biri şairin lirik-fəlsəfi düşüncələridi. Elçin ovqat şairidi. Lakin onun hər şeyə baxış bucağında bir fəlsəfi fikir dayanır. Onun özünəməxsus bir fəlsəfi dünyası var. Bu fəlsəfi baxış təbiət və cəmiyyət hadisələri ilə qarışmış, çuğlaşmış şəkildə təsvir olunur. Hər təbiət şeirinin içində bir fəlsəfi fikir gizlənib, oxucunu düşünməyə, onu dərk etməyə məcbur edir:

Soyuq kimi gəzişir canımda ağrılar da,

Çoxdan əllərimdə qışdı,

Çoxdan gözlərimdə soyuqdu…

…Qış kimi gəlir bəzi şeirlər də… [81, s.390]

Şairin ovqatından doğan şeirlər onun poetik fəlsəfi dünyasından ayrı-ayrı yarpaqlardır. Bu fəlsəfi dünyanın da öz fəsilləri var. Onlar tez-tez dəyişir və yeni – yeni şeirlər yaranır – "…Qış kimi gəlir bəzi şeirlər də…" Demək, Elçin İsgəndərzadə öz poeziyasını ideya-məzmun, forma yenilikləri, bədii kəşvlərlə zənginləşdirə bilir. İstər ənənəvi heca vəznində, istərsə də sərbəst şəkildə yazdığı poetik parçalar öz bədii siqləti ilə seçilir, fəlsəfi məzmunu, duyumu ilə fərqlənir.

### 3. 6. Müstəqillik illəri şeirində bədii idrakın beynəlmiləl xüsusiyyətləri

XXI əsri dünya xalqlarının, onların mədəniyyətinin, elminin, ədəbiyyatının yaxınlaşması, inteqrasiyası kimi xarakterizə etmək olar. Dövlət və xalqların əlaqə qurması, milli mədəniyyətlərin yaxınlaşması, bir-birini zənginləşdirməsi, bədii təfəkkürün beynəlmiləlçi xüsusiyyətləri və s. baxımından bu dövr çox əlverişli zaman kəsiyi olmuşdur. Beynəlxalq tədbirlər – elmi konqreslər, konfranslar, simpoziumlar, həmçinin fərdi səyahətlər əvvəlki dövrlərə nisbətən xeyli artmış və xalqların, millətlərin yaxınlaşmasında mühüm rol oynamışdır. Millətlər, xalqlar arasında ədəbi əlaqələr möhkəmləndikcə həm bədii, həm də elmi əsərlər yüksək vüsət almışdır.

Akademik İsa Həbibbəyli özünün "Azərbaycan Ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" adlı əsərində yazır ki, "Milli ideallarla bəşəri ideyaların sintezi Azərbaycan ədəbiyyatını səciyyələndirən əsas xüsusiyyətlərdən biridir" [69, s. 3]. Daha sonra alim qeyd edir ki, "Azərbaycan ədəbiyyatında dünyəvi hadisələr, xüsusən ölkənin coğrafiyası və tarixi ilə yaxın əlaqəsi olan xalqların taleyi ilə bağlı motivlər, sujetlər, obrazlar da özünəməxsus yer tutur. Azərbaycan yazıçıları mənsub olduqları xalqın böyük ədəbiyyatını yaradarkən məsələlərə geniş miqyasda

yanaşmaqla hadisələri, şəxsiyyətləri və prosesləri epoxanın fonunda və fövqündə əks etdirmişlər" [69, s. 3].

Bu mənada Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında bizə yaxın dost və qardaş ölkələrin tarixi, bu günü, insanları, təbiəti, bir sözlə, onların yaşayışı və dünyasının təsvir, tərənnümü ədəbi problem kimi qarşıya qoyulmuşdu. Hər bir yazar bu mövzuda da öz qələmini sınamış və bütün ədəbi janrlarda maraqlı əsərlər yaranmışdır. Xüsusilə bu səpkili əsərlər içərisində şeirlər çoxluq təşkil edir.

Ölkəmiz Müstəqilliyini qazandıqdan sonra Müstəqil də xarici siyasət yürütməyə başlamışdır. Bununla bağlı İsa Həbibbəyli yazır: "Xalqımızın, cəmiyyətimizin müstəqil salnaməsi olduğu kimi, müstəqil elmin, incəsənətin və ədəbiyyatının da özünəməxsus inkişaf yolu vardır. Bu tarix şərəfli, qürurverici, böyük uğurlarla dolu olduğu qədər də, çətin və məsuliyyətli yollardan keçmişdir" [162, s. 3].

İkinci dəfə hakimiyyətə gələn Heydər Əliyev xarici siyasətə xüsusi önəm verirdi. "Azərbaycan... üç rəngli bayrağını Birləşmiş Millətlər Təşkilatının binasında ən yüksəklərə qaldırmış, bu ümumdünya tədbirlərinə rəhbərlik etmək

səlahiyyətlərinə qədər ucalmışdır" [162, s. 3]. Ulu öndərin xarici səfərlərində şair-yazıçıların da mütləq iştirak etməsi, həmçinin, müstəqil olaraq yazarların özlərinin də tez-tez dost ölkələrə ezamiyyətləri poetik tutumlu əsərlərin meydana gəlməsinə rəvac verirdi. Demək, "Xalqımız ictimai- siyasi, iqtisadi və mədəni inkişafın yüksək tempi ilə bir zamanlar dünyada az tanınan bir toplumdan hazırda dünyanın hər tərəfində qəbul edilən, örnək göstərilən millətə çevrilmişdir" [162, s. 3].

Bu səpkidə Xalq şairi **Sabir Rüstəmxanlının** poetik yaradıcılığı diqqəti çəkir. O, tək öz yurdunun, elinin, xalqının təsvir, tərənnümü ilə kifayətlənməyib, dünya ölkələrinə səyahət etdikcə gördüyü şəhərlər, xalqlar, bu xalqların adət-ənənələri, tarixi, həmçinin gözəllərini də vəsf eləyərək ədəbiyyata gətirib. Bu əsərlərdə biz şairin özündən əvvəlki ədəbi nəsillərin ideya-bədii davamını görürük. Çünki bütün ədəbi nəsillər beynəlxalq mövzuda yetərincə əsərlər yazmışlar.

Sabirin hər hansı bir şeirinin təhlili zamanı aydın olur ki, şairin poeziyasında təbiət təsvirindən tutmuş mövzunun ideya-bədii xüsusiyyətlərinə, məqsəd və

məzmuna görə hər bir detal xalqlar dostluğunun tərənnümünə köklənib. Lakin şair poetik yaradıcılığında milli koloriti də unutmur. O, gördüyü, təsvir etdiyi hər bir predmeti öz vətəninin təbiəti ilə, xalq adət-ənənələri ilə müqayisə edir. Yəqin ki, bu da təbiidir. Çünki hadisələrə realist-romantik yanaşan şair bu səpkidə yazdıqlarını öz bədii təfəkküründən keçirərək qələmə alır.

Xalq şairi Söhrab Tahir öz həmkarı Sabir Rüstəmxanlı haqqında qeyd eləyir ki, Sabiri təkcə öz rayonunda yox, Azərbaycanda yox, Cənubda da çox istəyirlər. onun beynəlxalq-ictimai fəaliyyəti Avropada da məşhurlaşıb. Onu DAK (Dünya Azərbaycanlıların Konqresi) sədri seçiblər. Deməli, Sabir respublikamızda ictimai xadim, Xalq şairi kimi, Cənubi Azərbaycanda Təbriz qeyrəti çəkən oğul kimi, beynəlxalq aləmdə, diaspor dünyasında da öz sözünün kəsərliyi ilə tanınır və sevilir.

Beləcə, Sabir Rüstəmxanlı həm DAK sədri kimi, həm bir vətəndaş şair kimi, həm də millət vəkili olaraq Müstəqilliyimizin ilk otuz ili ərzində xarici dövlətlərə çox səyahət etmişdir. Getdiyi, gördüyü, gəzdiyi ölkələrin tarixindən, təbiətindən, insanlarından, adət-ənənələrindən maraqla söhbət açan şair oxucusunu da bu ölkələrlə tanış edir və onlarla doğmalaşdırır, onları sevdirir.

Şairin "Əbədi sevda" kitabında "Dünya ovcumdadır" adı altında toplanan [188, s. 457- 498] "Misir şeirləri", "Türkiyə duyğularından", "Hindistandan üç yarpaq", "Amerikada Şuşa həsrəti", "Quzey-Qafqaz ağrıları", "Avstraliya aborigenləri", "Çin səddinin üstündə", "Kıprısda ilk səhər", "Batumidə dəli olub təbiət" və s. kimi şeirləri ayrı-ayrı dünya ölkələrinə səfərlərinin poetik əks-sədasıdır – desək, tam yerinə düşər. Hər ölkənin təbiətini, insanlarının xarakterik xüsusiyyətlərini, müsbət keyfiyyətlərini öz bədii təfəkkürünün süzgəcindən keçirərək tərənnüm edən şair onları fərqləndirir… Qahirədə yazılmış "Nil üstündə duman" şeirinə nəzər salaq; şeiri bütövlükdə yazıram, çünkü onu bölmək sadəcə mümkün deyil:

Nil üstündə duman,
Dumanın içində fironları yada salmış zaman,
Zamanın içində qoca bir karvan,
Karvanın içində tarix adlı sarvan,
Sarvanın əlində ömrü bitirən fərman.

Fərmanın içində

O dünyanın cənnətinə güman…

Gümanın içində şirin bir yalan…

Yalan içindəsən balaca dünyam…

Fırlan ha fırlan… [188, s. 468]

Bu şeir parçasında Misirin tarixi ilə bu günü səsləşir və birləşir. Zamanın dumana bürünmüş tarixindən bu günə gələn karvan güman, yalan içində fırlanaraq dövr etməkdədir.

… Axır Nil çayı…

Çeşmələrdən doğulan ümman….

Ruhumuz da tarix çeşməsidir,

Bəlkə budur doğru olan?! [188, s. 468]

Şeir Sabir yaradıcılığı üçün xarakterik olsa da, həm də uğurlu bir poetik tapıntıdır. Fəlsəfi yükü ağır, düşündürücüdür. Sirli dünyadan möhkəm yapışan Fironların həyatı və sonu, özüçün fırlanan, fırlandıqca fəsilləri yaradan, fəsillər içində insanları - bütün canlıları qocaldan, qocaldıqca onları cənnət-cəhənnəm adlı gedər-gəlməzə yola salan, həm var, həm yox olan dünya, əlbəttə ki, son ucu hər kəs üçün yalan dünyaya çevrilir.

Şairin daha bir şeiri "Dünyanın açarları" adlanır. Əvvəlki şeirinin sanki fəlsəfi davamıdır:

Dünyanın keçmişi, gələcəyi bir,

Hardasa başlanır, hardasa bitir…

Çox yollar gəlmişik, gedəcəyik də,

Birdən tapılmışıq, itəcəyik də…

Ha düşün, düşünmə, dəyişən deyil,

Sirrindən bizlərə pay düşən deyil. [188, s. 467]

Dünyanın sirlərindən ona görə baş aça bilmirik ki, onun açarlarını tapa bilməmişik. Qapıların o üzündə qalan açarları hələ kimsə üzə çıxarda bilməyib.

Sirrimiz də, izimiz, düzümüz də elə qapıların o üzündədir. – Şairin gəldiyi qənaət budur.

Sabir Rüstəmxanlının poeziyasında, göründüyü kimi, təbiət, həyat, dünya, kainat uzlaşır və birləşir. "Məscid həyətində", "Ehram", "Qızıl qanad", "Çin səddinin üstündə", "Torpağa çəkir" kimi onlarla şeirlər şairin ağır çəkili poetik parçalarıdır.

"Çin səddinin üstündə" şeirinin poetik düşüncəsi dərin və mənalıdır. Şair bir səyahətində bu səddin üstündən keçir. Sərhəd boyunca uzanıb gedən nəhəng divar heyrətamizdir. Bu divarın hörülməsində nə qədər ağır insan əməyi, zaman, vaxt itkisi var:

Göz işlədikcə uzanan divar,
Ilğıma bürünmüş quzey vadiləri...
Gözlərimə dolan acı,
yaşanmış bir tarixin
kədəri [188, s. 476]

Xalqlar, dövlətlər arasında çəkilmiş bu sədd vəhşiliyə, hərisliyə, cahilliyə, acgözlüyə qarşı yönəlmiş ellikcə müqavimətin bariz nümunəsidir:

Min ildən sonra
İlk dəfə duydum
yorğun qanadlarımın
ağrısını...
İlk dəfə gördüm
yolum harda qırılır,
vüqarım harda sınır... [188, s. 476]

Şair bu divarı Araz üstündən çəkilmiş tikanlı məftillərlə müqayisə edir. Çox kədərlənir və düşünür:

Yadıma düşdü sərhəd məftilləri,
Milyon ürək telini qıran
əsarət telləri!
Bir qanadlı millət vardı...

Şeytan min illərdi
divar çəkir, tel çəkir,
quyu qazır,
bağlamaq üçün yolunu...
Yürüşündən qoparıb
özlərinə bənzətdilər onu! [188, s. 477]

Şair göstərir ki, birinin yolunu kəsmək, başqa birisinə quyu qazmaq şeytan xislətli insanların köhnə fəaliyyətidir, əməlidir. Bu Araz üstündəki sərhəd dirəkləri, qırılmış, kəsilmiş yollar Çin səddinə bənzəsə də, şair bəlkə də fərqinə varmır ki, onların məna-məqsədi başqa-başqadır. Birinci divarı – Çin səddini bir el, bir xalq yığılaraq, birləşərək vətənini, yurdunu qorumaq üçün tikib. İbrətamizdi!.. İkinci divar – tikanlı məftilləri isə bir xalqı parçalayıb haqqına girmək üçün çəkilib.

Tədqiqatçı Sabir Bəşirov yazır: "200 ilə yaxındır ki, həm yazılı, həm də şifahi ədəbiyyatımızda Araz çayı ən çox xitab olunan coğrafi addır... Sanki olanların – ayrılığın, tikanlı məftillərin səbəbkarı Araz imiş. Araz – ayrılıq sözünün sinoniminə çevrilib" [27, s.109].

Dünya coğrafiya xəritəsində Afrika qitəsinin xüsusi yeri var. Böyük ürəyə bənzəyən bu qitəyə səyahət edən şair maraqlı poetik nümunələr yaradıb. "Namibiyanın göylərinə yazılmış şeirlər" adı altında toplanan bu əsərlər şairin Afrika haqqında poetik düşüncələridir. "Afrika-qırmızı ürək", "Namibiyanın göyləri", "Qara olanda nə olar", "Torpağa çəkir" kimi şeirlərdə Afrikanın təbiəti, insanlarının işgüzarlığı, təmizliyi vəsf olunur:

Afrika – qara dərilərin
qırmızı ürəyi,
Afrika – yer təndirinin
qızarmış çörəyi!..
Üstündə yüz millətin
barmaq izi,
Afrika – zülmətdən boylanan
köz dənizi.... [188, s. 479]

Günəşin yandırdığı qara dərili afrikalı yüz millətə çörək verib, özü isə aclıq içində zülmətdən boylanır:

Afrika qızıl yarpaq, yanan alov dilimi,
Hər ürəkdən od alıb şölə çəkən bir ocaq,
Günü ağarmadıqca dünyanı qaraldacaq! [188, s. 479]

"Fil dözümlü, dəvə kinli – Afrika" zaman-zaman milli müstəqillik uğrunda çox çarpışmışdır. Azadlıq ideyalarını, azadlıq şüurunu, milli ləyaqət hissini bərpa etmək, həyata keçirmək üçün Afrika qaynar dənizə dönmüşdü... Bir çox müstəqil dövlətləri olan qaraların mübarizə əzmi bu gün də çox böyükdür, genişdir və nikbindir.

Düzlüyü ilə bizdən irəlidədir
Qara Afrika,
Kimsənin cibində gözü yox!- [188, s. 485]

deyə şair xalqları, dövlətləri yenə müqayisə edir. Çünki hər yerin yaxşı, yararlı qanunlarını görmək, götürmək heç də pis olmazdı, - düşünür.

Dünyanın mərkəzi, ağlı, qaralı, min bir xalqın, tayfanın yığışdığı, yaşaya bildiyi Amerikada şair Şuşanı xatırlayır:

Nə davamız olaydı,
Nə də ki qaçqınımız...
Nə də bizi korşaldan
paslı qoca qınımız!
Oturaydıq Şuşada! [188, s. 487]

Müharibələrə nifrət ruhu şair xislətinin poetik çağrışından boylanır. Acgözlük, hərislik, millətçilik, başqa millətləri görməzdən gəlmək millətlərin dinc yanaşı yaşamasına imkan vermir. Halbuki bütün milli dəyərləri, dinc yanaşı yaşamaq siyasətini qoruyub saxlamaqla sabahları döyüşsüz, qansız, qaçqınsız açmaq və yaşamaq olar.

Beləliklə, şairin beynəlxalq mövzuda yazdığı bu poetik nümunələr xalqların, millətlərin, dövlətlərin dostluğunun əks-sədasıdır – desək, yanılmarıq.

Hələ keçən əsrin 80-cı illərində Ulu Öndər Heydər Əliyev "Xalqların dostluğu ədəbiyyatların dostluğudur" adlı məqaləsində yazırdı: "Ədəbiyyatların qarşılıqlı təsiri yeni şey deyildir. Bütün ümumbəşəri mədəniyyət kimi dünya ədəbiyyatı da, sadəcə olaraq, milli mədəniyyətlərin və ya ədəbiyyatların məcmusu deyildir, ən əvvəl onların məhz tarixi qarşılıqlı təsir və qarşılıqlı nüfuz prosesində yaranan müəyyən vəhdətidir. Heç bir xalq başqa xalqların nailiyyətlərindən istifadə etmədən inkişaf edə bilməz" [39].

Demək, Sabir Rüstəmxanlının poeziyasında bu tarixi ənənələr qorunub saxlanılmış və inkişaf etdirilmişdir.

**Qabil**in də yaradıcılığında Dünya ölkələrinin təsvir və tərənnümü xüsusi və önəmli yer tutur. Böyük, geniş, əhatəli, obrazlı yaradıcılıq diapazonuna malik Qabil istədiyi forma, məzmun, ideya istiqamətində yadda qalan, ədəbiyyatımızda özünə layiqli yer tuta biləcək əsərlər yazıb. Öz xələfləri kimi Qabil də Vətən və Dünya əlaqələrini qarşılaşdırır. Mənəvi "Mən"indən çıxış edərək yalnız milli deyil, həm də bəşəri duyğuları dilə gətirib poetikləşdirir. Burda İnsan, Zaman, Dünya önə çəkilir. Eyni Zaman çərçivəsində fəal vətəndaşlıq mövqeyində müasir sosial narahatlıqlar, xalqların həyat tərzi, onların ədəbi,elmi yaxınlaşması, ictimai quruluşlar və s. dünya bəşər kontekstində qaldırılır.

Şairin "İlahi qisməti" şeirlər toplusunun "Gəzə - gəzə" adlı fəslində onun xarici ölkələrə səfərləri zamanı yazdığı şeirləri toplanıb. Bu şeirlərin hər biri bir ölkədən, bir xaqdan, bir millətdən xəbər verir. Qabilin bir məşhur şeiri var: "Gedən yerim olaydı". Bir ruh halını təsbit edən əsərdi. Kimliyindən - yaşından, işindən, dinindən - asılı olmayaraq hər kəsi duyğulandıracaq bir əsərdi. O əsərin bu "Gəzə-gəzə" fəsildə yer alması, düzü, təccüblü idi. Sonra aydın oldu ki, darıxanda getməyə yer, məkan arayan şairin xarici səfərləri də bir ruh halının, ovqatının təcəssümüdür, nəticəsidir. Bu şerləri şair müxtəlif zaman ölçülərində, müxtəlif məkanlarda qələmə alıb. Lakin onları bir ideya birləşdirir: şairin ürəkdolu, dünyadolu, xəyaldolu təxəyyülü, poetik düşüncəsi, ölkələrə, xalqlara olan hörməti, insanlara olan sevgisi.

"İtalya", "Gecəyarı Qahirənin küçələrində", "Kipr", "Atatürkün heykəli", "Salam, Otello!", "Teymurləngin şərəfinə", "Qabilin Qars səfəri", "Pompey",

"Salvadori" kimi şeirlər Qabilin dost ölkələrə həsr etdiyi poetik nümunələrdir.

Əvvəlcə onun "Gedən yerim olaydı" şerinə nəzər salaq:

Yuxum ərşə çəkiləydi...
Dan yeri - qızarmış gözlərimdə
söküləydi... təki...
Səhər başımda sevdalı fikirlər,
Harasa gedən yerim olaydı... [96, s. 210]

Şerin mövzusu məhəbbətdirmi? Bəlkə də. Amma təkcə o deyil. Burda təbiət də var, insan da var, insanların sığındığı bir od-ocaq, ev də var, bu evin həyətində gözətçiyə, xəbərçiyə cevrilmiş bir Alabaş it də var:

Gedəydim payi-piyada,
Külək, yağış, qar canımı üzəydi...
Büdrəyib yıxılanda
Kötüklər,
daşlar dizimi əzəydi...
Cəhənnəmə ki..
Təki gedən yerim olaydı... [96, s. 210 ]

Filologiya elmləri doktoru Vaqif Yusifli yazır: "Görəsən, insanın bir xoş qılığa, ünsiyyətə, sevgiyə təşnəliyini hansı şair "Gedən yerim olaydı" şeirindəki kimi ifadə edə biləcək?" [227, s. 372]

Həmişə harasa getmək xəyalı ilə, arzusu ilə yaşayan və sonda bunu reallığa çevirən şairin xarici səfərləri bu mənada çox rəngarəngdir. Sovet dönəmində "Ədəbiyyat günləri" adı altında ayrı – ayrı ölkələrə səfərlər təşkil olunurdu. Bu səfərlərdə ölkələrarası ədəbi-mədəni əlaqələr güclənir, həmçinin, təbliğ olunur, təşviqat işi aparılırdı. Belə səfərlərdən biri 1977-ci ilin noyabr ayında İtalyada keçirilmiş "Azərbaycan on günlüyü" idi. Səfər çərçivəsində ədəbiyyat, mədəniyyət xadimləri öz sahələri üzrə çıxışlar təşkil edir, musiqiçilər muğam, xalq mahnılarını ifa edirdilər. Yazarlar isə bu ölkənin tarixi, ədəbiyyatı, məşhur şəhərləri, təbiəti, tanınmış şəxsləri haqqında mütləq bədii - puplisistik əsərlər, şer-poemalar yazımalı

idilər. Qabilin "İtalya"sı da belə günlərin əks-sədasıdır:

İtalya! Başdan-başa sənəd məbədi,
Yer üzündə intibahın solmaz baharı! [96, s. 189]

-deyə şair İtalyanın intibah dövrü tarixi şəxsiyyətlərini - rəssamlarını, sərkərdəsini tərənnüm edir. İlk operanın beşiyi olan bu ölkə Mikel Ancelo, Rafeollo, Leonardo da Vinçi kimi sənət adamları, Haribaldi kimi vətənpərvər sərkərdələr yetişdirib. Lakin bu, İtaiyanın tarixi keçmişidir. Bu günündən bəhs edərkən şair İtalyanın işsizlər ordusuna çevrildiyini, əhalinin burada heç də yaxşı yaşamadığını vurğulayır. Bir növ, kapitalizm cəmiyyəti kimi onu tənqid edir. Yollarının pullu, pulsuz olduğunu, torpaqlarının Xüsusi, Ümumi olduğunu və s. göstərir. Bu da, təbii ki, sovet cəmiyyətinin təbliğatının nəticəsi idi. Çünki dünyada əsas cəmiyyət, ictimai quruluş kimi Sosializm cəmiyyəti götürülür və onun qanunları əsas qanun kimi təbliğ olunurdu..

"Pompey" şeirində şair Vezuvi vulkanından sonrakı xaraba qalmış Pompeyi təsvir edir. İndi turistlərin məskəninə çevrilmiş bu şəhərin lava selində necə yandığından danışır. Sonda şair amansız təbiət hadisəsini insanları hər an təhdid edən Neytron silahı ilə müqayisə edir.

"Salam, Otello" əsərini isə şair məşhur "Otello" tamaşasına baxandan sonra yazıb. Məhəbbətin yaratdığı qısqanclıq və onun doğurduğu acı nəticəyə Qabil başqa yöndən, başqa bucaqdan yanaşır və fərqli fikir söyləyir:

Dezdemononu boğmaq
Bu saat hünər deyil!
Kafərləri boğmayan
İgid deyil, ər deyil ! [96, s. 224]

Şair göstərir ki, əsl hünər, kişilik, ərlik Vətəni işğal edənləri məhv etməkdir. Bu günlər türkün, eləcə də bütün müsəlmanların güclü, igid qəhrəmanlara, generallara çox böyük ehtiyacı var. "Bu gün bir yumruqdadır, müsəlmanın əlacı.// Bu gün bir vəhdətdədir, müsəlmanın əlacı!"- deyir şair. Bu bir yumruq, bir vəhdət, bir qeyrət bəs edər ki, bütün müsəlman aləmi, eləcə də Qarabağ yağı tapdağından, işğalından, əsirliyindən azad edilsin.

1941-ci il oktyabrın 10-da Leninqradda Nizami Gəncəvinin 800 illik yubleyi qeyd olunub. Bu zaman kəsiyi İkinci Dünya müharibəsinin ən ağır günlərinə düşür. Leninqrad Hitler ordusu tərəfindən mühasirəyə alınmışdı. Şəhər aclıq içində, soyuq, şaxtalı günlərini yaşayırdı. Bütün bunlara baxmayaraq dahi Nizaminin yubleyi təntənəli surətdə keçirildi. Tədbirdə Elimlər Akademyasının, Yazıçılar İttifaqının, Ermitajın, Rus muzeylərinin nümayəndələri iştirak edirdi. Qabil bu məclisi əks etdirən "Çalmasında qızıl ulduz gəldi Nizami" şerini yazıb. Əsərdə çox fəxrlə göstərilir ki, xeyirin şər üzərində qələbəsinə xeyir-dua vermək üçün Nizami səhnəyə çalmasında qızıl ulduzla gəldi. Tədbiri təşkil edənlər də böyük Nizamidən məhz bunu gözləyirdilər. Nizaminin dahiyanə əsərləri böyük qələbənin açarı olmalı idi.

Leninqrad... blokada... Nizami!
Top səsləri... konanada... Nizami!
Çalmasında qızıl ulduz gəldi o.
Vətən ağır ayaqdadır bildi o... [96, s.187]

Tədbirə qatılan akademiklər, şairlər, bəstəkarlar da şinel geyimində və siahlı idilər. Cəbhəyə gedəcəkmişlər kimi döyüşə hazır görkəm almışdılar.

Kövrəlmişik...göz incisi bu zalda...
Nizaminin söz incisi bu zalda...
Rəssam, memar, bəstəkarlar silahlı...
Akademik saçları qar ...silahlı... [96, s.188]

Çünki on bir ay mühasirədə qalan Leninqrad özü də ön cəbhədə idi. Belə ağır günlərdə o, sanki böyük Nizami dühasına sığınmışdı.

1999-cu ilin fevralın 2-də Xalq yazıçısı Anar, Qabil başda olmaqla bir qurup yazar Anarın 60 illik yubleyini keçirmək üçün Naxçıvana gəlirlər. Tədbirdən sonra Anar təklif edir ki, yaxşı olardı burdan Türkiyənin İqdır, Qars şəhərlərinə də səyahət etsinlər... Bu səyahətin nəticəsində "Qabilin Qars səfəri" şeiri yaranır. Şeirdə şair sovet dönəmi ilə bu günümüzü – Müstəqillik illərini müqaisə edir. Bağlı sərhədlər, bağlı yollar indi açıq, aydındır: "Qars açıq dünənə baxanda, // Yol açıq dünənə

baxanda..// Əl açıq, qol açıq,  dil açıq dünənə baxanda... // Bu açıq zamanın şükranla qədrini bil açıq...”- deyir şair.

Müstəqillik illərində yazılmış “Terek qanlı Fərat olub” şerində şair bir ovuc çeçenin Müstəqillik uğrunda necə mübarizə apardığını, necə döyüşdüyünü, vuruşduğunu, milli azadlığa qovuşmaq üçün hər birinin necə partizana çevrildiyini əks etdirib:

Etibarlı səngərlərdə,
Sirli dağlarda,
Məmə deyən, pəpə yeyən,
Partizan olur...
Öz qanına boyandıqca
Nəsimi kimi,
Bi ovuc xalq qundağacan
Qəhrəman olur!                    [96,  s. 280]

“Kipr” və  “Atatürkün heykəli” şeirlərində müəllif  Kiprin gözəl təbiətini, zümrüd sularını, ay-ulduzlu diyarını təsvir edir, sonra bu diyarda iftixarla ucalan, şah vüqarla dayanıb millətinin əzmini, qeyrətini  seyr edən Atatürkün heykəlini tərənnüm edir. Bu böyük şəxsiyyət türk xalqına hürriyyət, cumhuriyyət gətirib, dar ayaqda olan Azərbaycan xalqına  kömək əlini uzadıb:

Atatürkün heykəli
Deyil adi tamaşa.
O hürriyyət rəmzidir,
Cumhurriyyət rəmzidir! – [ 96, s. 220]

Xalq şairi Süleyman Rüstəm Rəsul Rza haqqında “Mənə-onun köhnə dostuna inanın” adlı məqaləsində hələ 1970-ci ildə yazırdı: “Onun yaradıcılığında ən çox cəlb edən – müdrikliyidir. Rəsul müdrükdir, amma bu həyatdan təcrid olunmuş bir öyüdçünün təkəbbürlü müdrüklüyü deyil, həyatın özünün müdrüklüyüdür. Bir də onun poeziyası əbədi gəncliyi ilə seçilir... Və məncə bu əbədi gənclik, yorulmaz yaradıcılıq axtarışı onun poeziyasını müasirləşdirir. Yalnız bu günə deyil, çox

uzaqlara istiqamətləndirir” [196, s. 18].

Bu sətirləri Qabilin yaradıcılığına da şamil etmək yerinə düşərdi. Qabil təkcə bu gün üçün yazmayıb. Onun bütün Şərqi gəzərək yazdığı “Nəsimi”si, ya elə dost ölkələrin tərənnümü olan bu şeirləri, və ya yüzlərcə şeiriyyəti hər gələn əsrlə və nəsillə təzələnib, gəncləşib oxunacaq, yaşayacaq və təbii ki, müəllifini də yaşadacaq əsərlərdir.

Daha sonra Süleyman Rüstəm yazır ki, “Rəsul Rza böyük hümanistdir. Onun hümanizminin əsasları, qaynaqları şairin xalqla dərin, qırılmaz əlaqəsidir. Xalqın dərdi – Rəsulun dərdidir, xalqın sevinci – Rəsulun sevincidir. Onun yaradıcılığını həmişə cavan saxlayan və insani edən də məhz budur” [196, s.18]

Bu fikirləri də Qabil və onun poeziyasına aid etmək olar. Xalqından ayrı yaşamayan, onun dərdini öz dərdi bilən, sevincinə sevinən Qabil insani keyfiyyətləri ilə də çoxlarından seçilib, fərqlənirdi. Bu keyfiyyətlər haqqında Bəkir Nəbiyev belə deyir: “Rəsmi məqaləçilik tələblərindən bir qədər kənara çıxıb bu yazımda Qabildən bir yoldaş, dost və insan kimi də danışmağa ehtiyac duyuram. Qabil – insan fenomeni həqiqətən də açıqlanmağa möhtacdır və ayrıca bir mövzudur” [170, s. 353]. Daha sonra akademik göstərir ki, “Qabil ədəbi, mədəni həyatın əlamətdar həyatı ilə bağlı yüksək səviyyəli hökumət qəbullarında da olub, rəsmi məclislər də görüb, eldə-obada şərəfinə ziyafətlər də verilib... Onillərboyu mən şairlə Azərbaycanımızın bir çox bölgələrini gəzmiş, keçmiş SSRİ-nin və onun ayrı-ayrı respublikalarının paytaxtlarında olmuş, nümayəndə heyətinin tərkibində xarici ölkələrə də getmişəm. Beləcə ünsiyyət adamı olmağından və mənəvi paklığındandır ki, onunla bir dəfə görüşən... öz dilindən məzəli söhbətlərini eşidən, özünün və başqalarının şeirlərini dinləyən hər kəs Qabili ən yaxın, ən səmimi dostu kimi həmişə əzizləməyə hazırdır” [170, s. 353].

Qabilin insani keyfiyyətləri barədə şair İsa İsmayılzadə “Yollar, sizə minnətdaram”, Xalq şairi Zəlimxan Yaqub “Qabilnamə”, Tofiq Hacıyev “Qabilin qabilliyi”, Xalq şairi Vaqif Səmədoğlu “Böyük şair, böyük qardaş”, lirik şair Nüsrət Kəsəmənli “Yaxşı adamların həsrətindəyik” kimi məqalə-xatirələr, həmçinin, Qabilin yubleyləriynən bağlı Xalq yazıçısı Çingiz Abdullayev, Arif Əmrahoğlu,

yazıçı Əzizə Türkan və b. xatirə-təriflər yazıblar [ 98, s. 376-490]

Demək, Müstəqillik illərində də Qabil özündən əvvəlki ədəbi nəslin yaxşı ənənələrini davam etdirə bilib. Onların vətənpərvər, yurdsevər, xalqsevər, müdrik şeirlərindən bəhrələnib, yaradıcılığını da, bir insan kimi özünü də bu yöndə təsdiq edib. Yəqin ki, yaşı, səhhəti ilə bağlı bu dönəmdə şair xarici ölkələrə az səfər edib. Lakin dost, qardaş ölkələrdə baş verən bütün tarixi hadisələrə, dönəmlərə öz münasibətini bildirib.

"Azərbaycan şeiri öz inkişaf tarixi ərzində heç zaman 1990 - cı illərdə olduğu kimi dinamik, hadisələrə çevik reaksiya verən, ictimai-siyasi mühütlə nəfəs alan, o mühiti əks etdirən, ondan qidalanan, azadlıq ideyası ilə coşub-daşan, eyni zamanda da poetik anlamda dünya ədəbi prosesi ilə qovuşmağa can ataraq onda gedən prosesləri əxs etməyə çalışan və bu səbəbdən də bədii-estetik anlamda bir çox dəyişikliklərə uğrayan olmamışdır" [162, s. 402]. Bu mənada Müstəqillik illərində tanınmış şairəmiz **Nurəngiz Günün** də xarici səfərləri çox olub. Dost ölkələrin ədəbiyyatını, mədəniyyətini əxs edən şair bu ölkələr haqqında da kifayət qədər bədii nümunələr yaradıb. Yazarın Türkiyəyə hər gedişi yeni bir əsərlə yadda qalıb. Onun "Qar romanı" böyük, ölməz türk şairi Nazim Hikmətin 100 illiyinə həsr edilib. "Quzey Kıprız rüzgarları" da türk xaqının tarixini, bu gününü əks etdirir. Bu poemalar haqında "Poemaların əks etdirdiyi tarixi gerçəklik" fəslində yazdığımdan burda ondan bəhs etməyəcəyəm. Lakin şairin Nazim Hikmət haqqında maraqlı şeirləri də var. "Vətən, məslək, düşüncələr", " Bu axşam", "Çöl bir qərib heyrətdə" kimi şerlərdə şair Nazim Hikmətin bütöv obrazını yaradıb. Şeirlərin bəziləri keçən əsrin 80-ci illərində qələmə alınıb. Bu illərdə Rusiyada mühacirətdə yaşayan Nazim Hikmətə, onun sərbəst şəkildə yazılmış şeirlərinə, ümumilikdə poeziyasına qarşı Azərbaycanda böyük, sonsuz bir məhəbbət vardı. Bu məhəbbətin yaranmasında, formalaşmasında Xalq şairi Rəsul Rzanın da böyük rolu danılmazdır. Nazim Hikmətlə dost olan R. Rza onun şeirlərini tərcümə edib Azərbaycan mətbuatına çıxartmışdı. Bu şeirlər ənənəvi şeirlərdən həm məzmunca, həm formaca fərqləndiyi, seçildiyi üçün oxucuların diqqətini cəlb etmişdir. Bu dönəmdə Nazim Hikmətin şeirlərinə nəzirə yazanlar, onun kimi sərbəst şeirlərini qələmə alanlar da vardı.

Nurəngiz Gün isə onun məşhur misralarını epiqraf kimi götürərək birbaşa şairin özünə müraciətlə, onun üslubunda maraqlı şeirlər yazmışdır.

"Vətən, məslək, düşüncələr" şeiri Nazim Hikmətin misraları ilə başlayır: "Düşünmək! Nə müqəddəs bir iş! // Nə fəlakətdir! Nə bəxtiyarlıq!" Sonra şair öz fikirlərini pıçıldayır:

Sən-30-da 3.000 səhifəlik
3 cildin üstündə ac oturan şair!
Nə çox düşünürsən belə?! [57, s. 28]

Vətənindən uzaq düşən bu dənizgözlü, div gövdəli, dəliqanlı şair indi qürbətdə qərib məzarda uyuyur. Nurəngiz Günün lirik qəhrəmanı düşünür ki, o, Vətənində kimsəni satmayıb, vətəninə xəyanət etməyib. Gərək vətən onu - öz balasını unutmasın. Onun kədərini, həsrətini, nisgilini anlasın...

"Bu axşam" şeiri isə Nurəngiz Günün Novodeviçe məzarlığında uyuyan Nazim Hikmətin məzarı üstündə düşüncələridir. Bu poetik parçada şairin bayram axşamlarında həmkarlarını başına toplayıb necə kaman çalmasından, sonra da çıxıb buludlara baxa-baxa düşüncələrə dalmasından bəhs edir. Görəsən qərib şairin qəlbindən nələr keçib? Yadına kimlər düşüb? Bəlkə Vətəndən gələn buludlara nəsə pıçıldamaq istəyib, nəsə soruşmaq istəyib?

İndi lirik qəhrəman o buludları da götürüb şairin görüşünə gəlib:

Əhlikef türkünün
Ən yalqız nəhəngi!..
"Gəlmişdik...Gedirik..."
Mən ilə buludlar.... [57, s.30]

Şeirin üslubu, sərbəst şəkildə yazılması Nazim Hikmətin şeirlərini xatırladır. Qeyd olunmalıdır ki, Nurəngiz Günün poeziyasının əsas hissəsini sərbəst şeirlər təşkil edir.

"Çöl bir qərib heybətdə" şeri də Nazim Hikmətin məşhur misraları ilə başlayır: "Su başında durmuşuq... Mən, pişik, bir də çinar..." Şairin sevdiyi yerə gələn lirik qəhrəman burdan ona səslənir: "Paşam hey!!! Biz də o yerdə durmuşuq... //Su

önündə dayanmışıq, suyun bağrını yarmışıq – Mən, əjdaha, bir də küçük... // Göl - bir qərib heybətdə!..”

Demək, Nurəngiz Günün şeirləri Nazim Hikmətin üslubunda yazıldığından bir növ sanki N. Gün şairi öz dilində, üslubunda oxşayıb tərənnüm edir:

Məsləkmi çulğayır, vətənmidir, bu cür ağrıdır?
Toxta Nazim baba, Vətən sənin talehində, baxtında,
Vətən sənin infarktında, saçlarının ağında...
Sən Vətəninin dəmir barmaqlığında!!! [57, s. 29]

Qəribə bənzəyişdir, qəribə paradoksdur. Qərib ölkədə Vətəni qəlbində, ağ saçlarında gəzdirən şairi Vətən öz dəmir barmaqlıqlar arasında görmək istəyir. Bu ədalətsizlikdir, haqsızlıqdır, Vətənin öz övladına qarşı sayqısızlığıdır. Nurəngiz Günün lirik qəhrəmanı bu haqsızlara nəsihətvari məsləhət də verir:

Hərdən xatırlayın, xatırlayın siz...
Yad edin, qardaşlar, Nazim babanı!
Yad edin, qürbətdə kor-peşiman
O tənha məzarı...
Dəliqanlı, bir tək Nazim balanı... [57. s. 29]

Müstəqillik illərində sərhədlər açılandan sonra Nurəngiz Gün xarici ölkələrə, ən çox dost, qardaş ölkələrə səyahət edib. Türkiyə, İraq – Bağdat, Kipr, İsveç kimi ölkələrin tarixindən, məşhur insanlarından, sənətçilərindən, şair-yazıçılarından, bu xalqların adət-ənənələrindən bəhs edən şeir-poemalar yazıb.

Nurəngiz Günün Bağdadla bağlı şeirləri “Bağdad mənzərələrindən” adı altında toplanıb. Şair burda baş verən özbaşınalıqları, günahsız insanların, qadınların, uşaqların öldürülməsini təsvir edir.

“Cavab ala bilmədim” şerində boş qalmış leylək yuvasından bəhs olunur. Güllələrin açıldığı ölkədə nə güllər açar, nə quşlar yuva qurar. Şairin qənaətinə görə viranəyə, xarabaya dönmüş Bağdad indi Günəşin də uzaqlaşıb batdığı yerdədir.

Nurəngiz Günün Cənubi Azərbaycanla bağlı da kifayət qədər şeirləri var. Mübahisəli olsa belə, həmin şeirlərin təhlilini burada verməli olduq. Doğma olsaq

da, hələlik ayrı olduğumuzu, ayrı salındığımızı, ayrı düşdüyümüzü, onların qardaş ölkələrin cərgəsindən boylandıqlarını nəzərə aldıq.

Nurəngiz Günün valideynləri Cənubi Azərbaycandan olub. Bəlkə buna görə onun bu səpkidə yazdıqları daha yanğılı, kövrəkdir. Şairin "Ərk qalasına", "Bakı-Təbriz Bayatıları", Cənublu şairə Mədinə Gülgünə həsr etdiyi "Daha çağırma", "Olsaydı", "Ayrılıqlar boyum biçimi" kimi əsərləri lirik səpkidə yazılıb, çox oxunaqlıdı, duyğuludu,vətənpərvərlik hissləri ilə zəngindir, doludur.

Anasının doğmaları "37"-nin qurbanı oldu, Təbrizə sürgün edildi. Ana isə dözüb dayandı. Düşündü ki, bir gün gedənlər dönəcək, qayıdacaq. Onu intizarla, həsrətlə sınağa çəkməyəcəklər. Lakin illər keçdi, gedənlər gəlmədi. Onlarla əlaqə yaratmaq da mümkün olmadı. Bakıda ölən anasına ağı deyən şairin səsini-sözünü Təbrizdə nənə eşitmədi.

Nənəm, di çal laylanı
Təbrizdə...
Boş qalmış dizin üstə,
Oxşa cavan balanı... [57, s. 109]

Müxtəlif vaxtlarda qələmə alınan bu poetik parçalar həyat gerçəkliyinin içindən boy verir:

Torpaq cadar oldu ki,
Yollar qabar oldu ki...
Həsrət nə uzun çəkdi,
Ürək qubar oldu ki!?

Nənəm nağılın vardı,
Demədin qar apardı.
Əllərini əlimdən
Acı rüzgar qopardı... [ 57, s. 117]

Şairin Cənubla –Təbrizlə bağlı şeirləri yalnız ağrı-acının, dərdin, faciənin poetik təsviridir. “Ərk qalasına” şeri də bu qəbildəndir. Bir vaxtlar dəmir darvazalı, daş hasarlı, igidlər məsgəni, qoruyucusu olan Ərk qalası indi:

Əl vurunca yorğunluqdan
Ovum-ovum töküləsi
o daş qala...
Daş çəpəri daş səbrinə
sirdaş qala... [57, s. 116]

Akademik Teymur Kərimli “Nurəngiz Günün poeziyası” adlı məqaləsində yazır: “Bəlkə də təbiiliyindən, səmimiliyindən, fitriliyindən doğan Nurəngiz Günün şeirləri oxucuya bir başlanğıc yoluxdurmaq qabiliyyətinə malikdir. Bu mənada onun əsərlərini oxumaq bir qədər “ təhlükəlidir”. Bundan sonra onun kimi düşünmək, onun kimi şeir demək, onun kimi pıçıldamaq və onun kimi hayqırmaq istəyirsən”. Daha sonra akademik şairin anası haqda olan “Anam Böyükxanıma” şerinə də öz münasibətini belə bildirir: “Anasından sonra bu dünyanın mənasızlığını dərk edib həyatdan əl üzmək fikrinə də düşür, ancaq yaxşı ki, o özü də anadır və balasının xətrinə bütün ağrı-acılara dözüb yaşamalıdır. Klassik mərsiyələr səviyyəsində qələmə alınmış bu ürəkdən gələn beytləri hiss-həyacansız oxumaq mümkün deyil” [89].

Göründüyü kimi Nurəngiz Günün poeziyası yaşarı poeziyadır. Çünki yaşarı mövzuların məcmusudur. Hay-küydən, pafosdan uzaq, həyat hadisələrini reallıqla əks etdirən bu poeziya həm də səmimi hisslərin tüğyanıdır. Xəyal qırıqlığına uğramış bir könlün ağrısıdır. Bir sözlə, hərəsi bir ovqatdır. Şair nə yazıbsa, xüsusilə, Cənub mövzusunda ürəyinin, qəlbinin odu-közü ilə yazıb. Yazdıqlarına dərdin özünü, sevincin üzünü, nifrətin bozunu, həsrətin izini gətirib. Bu şeirlər ağılar, oxşamalar qədər lirikdi, səmimidi, xəlqidi.

“Torpaq məni tez basacaq bağrına,// Baxmayacaq hicranıma, ağrıma!”- deyə Cənublu şairə Mədinə Gülgünə müraciətən yazdığı şeir böyük ustad Şəhriyarın üslubunu, dilini xatırladır:

Axı mən nə deyim belə naxışa,
Tutub məni ucdantutma yağışa...

İslanmışam, bəlkə yağış yığışa?
Faydası yox, göydəkini çağırma,
Çağırma, Gülgünüm, daha çağırma! [57, s. 119]

"Bədənimdən qanad açıldı" şeirində şair xəyali olaraq Cənuba uçur, Savalanı, Təbrizi dolaşır, doğmalarını səsləyir:

Salam, Dədə Şəhriyar!
Xoş gördük, a Savalan!
Salam... Baba yadigarım,
Dərdi qoca Təbrizim...
...Üzüdönük bilmə məni...

Nurəngiz Günün Cənubla bağlı şeirləri onun ağrı-acılarından doğulub,-desək yanılmarıq. Ümumiyətlə, ağrı, əzab, həsrət, hicran Nurəngiz Gün şeirlərinin ana xəttini təşkil edir. Onun yaradıcılığından qırmızı xətt kimi keçir. Şair hansı ölkəyə gedibsə o ölkənin, xalqın dərdini, çatışmazlıqlarını, ağrısını vəsf eləyir. Çünki Nurəngiz Gün sözün həqiqi mənasında həyat gerçəkliyini olduğu kimi əks etdirən realist şair idi. Onun poeziyası pafosdan, yüksək mübaliğədən, yalançı sevgidən, sevincdən çox uzaqdır. Gördüyünü çağıran, gördüyünü yazan, görüyünü təsvir, tərənnüm edən şair həm də cəmiyyətin içindən boy verən bəlalardan müdrikləşmiş insan-ana idi.

Beləliklə, Nurəngiz Günün dost, qardaş ölkələrə səyahətləri zamanı qələmə aldıqları ədəbiyyatımızda özünəməxsus yer tutur. Şair başqa ölkələrə gedərkən həm də Azərbaycan ədəbiyyatını, mədəniyyətini təbliğ edib, Qarabağ dərdini danışıb. İsvecdə olarkən böyük bir zalda "Xocalı simfoniyası" poemasının fraqmentləri əsasında hazırlanmış tamaşa göstərilib. Həmşinin, şairin İstanbul, Bağdadın dövrü mətbuatında şeirləri tərcümə edilərək çap edilib.

**Elçin İsgəndərzadənin** xarici səfərləri zamanı yaranan şeirləri onun poetik yaradıcılığının bir hissəsini təşkil edir. Şairin seçilmiş əsərlərinin birinci cildində "Ölkələr... İnsanlar...Sevdalar..." başlığı altında toplanan şeirlər bunu deməyə əsas verir [81]. Qardaş Türkiyəyə səyahətlərində İstanbulun tərənnümü xüsusi yer tutur. "Röyalar şəhəri İstanbul", "İstanbulda ilk bahar", "Atatürkün məzarında", "Salam

tokat", "Qazi Osman məqbərəsi", "Nazim Hikmətə", həmçinin Fələstinli Xaliqin havası", "Parisdə gecə", "Şam şəhərində..." kimi poetik nümunələri diqqəti çəkir. Dünya xalqlarının dərdini, ağrısını öz içindən keçirərək poetikləşdirən Elçin İsgəndərzadənin "Fələstinli Xaliqin havası" şeiri diqqəti xüsusilə çəkir:

Dua kimi oxuyur Xalid
Mahmud Dərvişin şeirlərini,
İlahi, sən özün qoru
Fələstin şairlərini,
Fələstin göylərini,
Fələstin körpələrini,
Fələstin göyərçinlərini...
Fələstinin günahsız didərginlərini... [81, s.188]

Şair didərginliyin, qaçqınlığın, yurd itgisinin nə demək olduğunu çox yaxşı bilir. Özünün çəkdiyi ağrı-acınının kiminsə çəkməyini istəmir.

Elçin İsgəndərzadənin bu səpkili əsərləri Azərbaycan ədəbiyyatının sərhədlərini, üfüqlərini genişləndirir. Türk dünyası, Avropa, Şərq ölkələri onun şeirlərinin baş qəhrəmanına çevrilir. Bu əsərlərdə klassika ilə müasirliyin, şairliklə rəssamlığın, insanla təbiətin qovuşuğu, tərənnümü var. Şairin həyat gerçəkliyinə olan münasibəti poeziyasının da xarekterini, hüdudlarını müəyyən edir. Elçin özü Türk dünyasının tərcümanıdır. Məhz buna görə Türk dünyası, onun tarixi, şəhərləri, təbiəti, insanları, onların mənəvi dünyası, yaşadıqları, mübarizələri belə xüsusi özəlliklə təsvir olunur. "Bir yaz gecəsi endim göylərin maviliyindən,// Endim İstanbulun qoynuna!" Və ya "Uçaq qanadlarından baxdım İstanbula,// Uçaq qanadları altında buludlar, işıqlar, minarələr və umudlar"! Təsvir şairin öz mənəvi dünyasıdır.

III FƏSLƏ aid məqalələr və konfrans materialları:

1. Məmmədova, B. H. Nurəngiz Gün poeziyasının fəlsəfi yükü // – Bakı: AMEA M. Fizuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2016. № 6, – s. 346-351 [124].

2. Məmmədova, B. H. Nurəngiz Günün poetik ağrısı // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, Humanitar Elmlər seriyası, – 2016. № 1, – s.139-142 [126].

3. Məmmədova B. H. Sabir Rüstəmxanlının poeziyasında bədii idrakın beynəlmiləl xüsusiyyətləri// – Bakı: Bakı Dövlət Unversiteti, Dil və Ədəbiyyat, – 2018. № 3, – s. 80-84 [135].

4. Məmmədova B. H. Qabilin şeirlərində həyat fəlsəfəsi // – Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Azərbaycan Ədəbiyyatşunaslığı, 2019. № 1. – s. 39-45 [140].

5. Məmmədova, B. H. Müstəqillik dövrü Azərbaycan şeirində dost və qardaş ölkələrə poetik münasibət// – Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Azərbaycan ədəbiyyatşunaslığı, – 2019. № 2, – s. 223-227 [147].

6. Мамедова Б. Г. (Бардалы). Межкультуртые основания поэзии Сабира Рустамханлы. Тамбовский Государственный Университет имени Г. Р. Державина. Экология языка и речи. Материалы VIII Международной научной конференции, – Тамбов: – 21-23 ноября, – 2029, – с. 272-275 [116].

# IV FƏSİL
# MƏNƏVİ AZADLIĞIN ASPEKTLƏRİ –MƏHƏBBƏT VƏ TƏBİƏT ŞEİRLƏRİ

## 4.1. Qabil şerində məhəbbət notları

Mənəvi təmizlik, gözəllik, kövrəklik, səmimiyyət, saflıq Qabilin məhəbbət şeirlərində ehtiva olunur. Şairin sırf məhəbbət şeirləri kəmiyyət etibarı ilə çox deyil. Onun təbiət, vətən və fəlsəvi şeirlərə ilə müqayisədə sevgi şeirləri azdır. Lakin keyfiyyətcə yetərlidir. Şairin ilk gəncliyində yazdığı məhəbbət şeirlərinin əsas xəttini sevgi və ayrılıqlar, həsrət və hicran, qarşılıqsız sevgi duyğuları və xəyal qırıqlığı təşkil edir. “O qız məndən uzaqdır”, “İlk bahar, son bahar”, “Tufan səsi”, “Dəniz yandırdı məni”, “Sənsiz”, “Hələ”, “Nədir”, “Saçların” kimi şeirləri bu qəbildəndir. Bir həqiqət də var ki, Qabil realist-romantik şairdir. Realist və romantik keyfiyyətləri yeni məzmunda, yeni vəhdətdə, bir arada şeirində əks etdirə bilir.

**“O qız məndən uzaqdır”** şerində lirik qəhrəmanın sevib-seçdiyi qızın iki obrazı göz önündə canlanır. Birinci obrazda şair xəyalının məhsulu olan zirvədə qar misallı, qüsursuz, göz oxşayan, mehriban, fədakar, sevgisinə sədaqətli bir gözəl qız təsvir olunub. İkincidə isə sonsuz sevgini duymayan, qiymətləndirməyən, onun yaratdığı əzabı, istirabı, möhnəti görməyən adi bir qız canlanır göz önündə.

Arzumun zirvəsi səni sanırdım,
Yoxdu taleyimdən özgə istəyim.
Xoşbəxtlik deyəndə səni anırdım,
Gülərmi deyirdim sənsiz ürəyim? [94, s. 45]

Şairin lirik qəhrəmanı xəyalında yaratdığı gözəllə həyatda olan qızın arasında böyük fərq olduğunu, məsafəcə də bir-birindən çox uzaq olduqlarını səmimiliklə, ağrı ilə söyləyir.

Qabilin məhəbbət şeirlərində bir Dəniz obrazı da var. Bütün görüşlər,

sevgilər, ayrılıqlar Xəzərin sahilində baş tutur. Sevgi xatirələri də gilavar ətirli ləpələr qədər həzindi, kövrəkdi, duyğuludur. "**Tufan səsi**"ndə olduğu kimi. Xəzərin tufanı da məhəbbət hisslərinin tüğyanı kimidir. Lakin bir fərq var. Dalğaların tüğyanı bu dəniz varkən o da həmişə olacaq. Məhəbbətin tufanı isə getdikcə öləziyib sönəcək:

Bəlkə bir də bu sahildə
Dayanmadıq biz...
Yuxuda da görüşməyə
Həsrət qaldı qəlbimiz... [94, s. 54]

Çünki qız Dənizdən də, onun həyatından da çıxıb getməkdədir.

**"Dəniz yandırdı məni"** şeiri də dənizli xatirələrdi. "Sənsiz dənizə çıxdım, dəniz yandırdı məni..." deyir lirik qəhrəman. **"Gecə keçir", "Sənsiz", "Həsrətin", "Saçların", "Hələ", "Nədir"** şeirləri də eyni ahənglə yazılıb.

Mən burada Qabilin dəniz ətirli məhəbbət şeirlərini Xalq şairi Nəbi Xəzrinin lirikası ilə müqayisə etmək istəyirəm. Hər iki şairin poeziyasında, xüsusilə lirikasında Xəzər dənizi müqəddəs məkan kimi tərənnüm olunur. Xəyali sevginin ünvanlı məsgəni bu dəniz, onun qumlu sahilləri, lacivərd göyləri, qırçın ləpələridir. Bu oxşarlığın əsl səbəbi, bəlkə də, hər iki şairin Bakıda doğulub böyüməsi olub. Nəbi Xəzrinin Xəzərlə bağlı məşhur şeirlərində - "Dağ və dəniz", "Sənin üçün", "Bir sevgi gəmisi sahilə çatdı", "Dəniz, göy, məhəbbət", və s. – həzin lirizim, şux məhəbbət motivləri daha güclüdür. Onların coxuna mahnı da bəstələnib.

İstəsən yuxuna gələrəm sənin,
Gələrəm dəniz kimi...
Üzünə incilər çilərəm sənin,
Çilərəm dəniz kimi... [73. s. 51]

Qabilin şeirlərində isə həsrət, kədər daha çoxdur və öndədir. Bir az da irəli getsək, Mikayıl Müşviqin də lirikası Xəzərlə, onun göz oxşayan, könül ovsunlayan gümüşü, qırçın ləpələri ilə bağlıdır.

Qabil bir də ömrünün son baharında lirik şeirlər yazıb. Lakin bu şeirlər əvvəlkilərdən xeyli fərqlənir. Bu səpkili şeirlərdə bir az yumor var, bir az fəlsəfə,

bir az xatirə, hüzn, həzinlik, şirinlik və s. **"Məhəbbətdən savayı"** şerində şair hər cür şan-şöhrəti, vəzifəni, var-dövləti məhəbbətlə müqayisə edir və təbii ki, üstünlüyü məhəbbətə, eşqə, sevgiyə verir: "Məhəbbətdən başqa, hər şey hədər, savayı"...

Şairin bu dönəmdə yazdığı və dillər əzbəri olan bir şeri də var: "**Məhəbbət deyil"**. Lirik qəhrəman insana, onun duyğularına xas olan bütün müsbət keyfiyyətləri bir-bir sadalayır və göstərir ki, bunlar məhəbbət deyil:

Mən səni görməyə adət etmişəm,
Adət məhəbbət deyil!
Səni görməyəndə xiffət etmişəm,
Xiffət məhəbbət deyil!
Sənə min ehdiram, hörmət etmişəm,
Hörmət məhəbbət deyil!
Gözündə çağlayan mehribanlığa
Heyrət etmişəm,
Heyrət məhəbbət deyil! [96, s .272]

Əslində isə bunlar məhəbbətin ayrı-ayrı hissələri, necə deyərlər, atributlarıdır. Çünki hörmətsiz, heyrətsiz, xiffətsiz məhəbbət də olmur.

Şairin məşhur şeirlərindən biri son baharın - payızın xatirəsi olan **"Gətirmə" şeiridir.** "Onsuz da ömrümün xəzan çağıdır, // Xəzanın üstünə xəzan gətirmə..." Şeirdə təbiətin də payız vaxtıdır, aşiq olan insanın da. Təbiətin payızı ilə insan ömrünün payızı qarşılaşdırılaraq elə təsvir, tərənnüm olunur ki, sanki rəssam fırçasından çıxmış bir təbiət lövhəsinə baxırsan:

Ürəyim mehə bənd gül yarpağıdır,
Onu qoparmağa tufan gətirmə!
... Tutqun göylərimin yoxdur hüdudu,
Tutqun göylərimə duman gətirmə! [96, s. 271]

Şairin bir çox şeirləri var ki, onları təbiət şeirləri sırasında təhlil etməli olduq. Bu tip şeirlərdə hər ikisi, həm təbiət, həm də məhəbbət bir arada, bir yerdə elə təsvir olunur ki, onları ayırmaq, fərqləndirmək qeyri mümkündür. Məsələn,

“Suqovuşanda”, “Küləkli havalarda, yağışlı havalarda”  və s.

**“Tranvay parka gedir”** sujetli şerinin qəhrəmanları da sevən cütlükdür. Gecə saat birə kimi işləyən tranvayın sürücüsü və onun pul yığan kondoktorunun sadə, amma möhkəm sevgisi bir sağlam ailənin təməlidir. Bəkir Nəbiyev göstərir ki:

“... müxtəlif peşə sahibi olan sadə adamların: taksi sürücüsü, tramvay konduktoru, bank xəzinadarı, uzaq səfərlər kapitanı və başqalarının bəzən bir-iki səciyyəvi cizgi ilə yaradılmış silsilə surətlərini şeirimizə ilk dəfə Qabil gətirib” [170, s. 348].

Şair Vaqif Səmədoğlu isə yazır: “Mənim mənsub olduğum nəslin bir çox şairi Qabilin “Tramvay parka gedir” şeirindən çıxıb. Bu tramvayın içində gəlmişik ədəbiyyata” [98, s. 422].

Qabilin  müstəqillik illərində - ömrünün  ahıl çağlarında yazdığı lirik şeirlər ünvanlıdır. Çünki birbaşa özəl olaraq öz  Qızıl və Birliyyant toylarından danışır. Bu əsərlərin baş qəhrəmanı onun əlli illik həyat yoldaşı olan Bəyim xanımdır. İnstitutu bitirəndən sonra müəllim işləmək üçün təyinatla Yardımlıya  gedən  Qabil  dağların qoynunda öz əbədi, ömürlük sevgisini də tapır. Sanki dağlara elə Bəyim xanımı tapmaq üçün getmişdi. Çünki burada çox yaşamır. Xəzər üçün, Bakı üçün darıxır və Bəyim xanımı da götürüb Bakıya qayıdır:

Çatır son mənzilə ömrün karvanı,
Əlli il yol gəldik bu səhrada biz.
Baxtımıza düşən  əhdi-vəfanı,
Əmanət saxladıq bu dünyada biz.

Haqdan yanan çıraq çətin ki sönə,
Qocalır məhəbbət, soyumur ürək,
On səggiz yaşında görünür mənə,
Hacı Bəyim xanım - ağ saçlı çiçək!     [96, s. 277]

Şair məhəbbətin uzunömürlü olmasını, əbədi yaşamasını öz həyat kekayəsindən çıxış edərək poetikləşdirir. Bu əbədi sevgini, sevgisini Haqqa bağlasa da, onun özünün də ilahi məhəbbətə müqəddəs yanaşmasından irəli gəlir.

Beləliklə, Qabilin məhəbbət lirikası da yüksək şeiriyyətdən xəbər verir. Onun şeirlərindəki ideya və obrazların hər biri varlığa fərdi münasibətin təzahürüdür, özünəməxsusdur, öz dəsti-xəttidir, özəlliyi, sadəliyi ilə, bəzən də zəngin fəlsəfi yükü ilə seçilir, fərqlənir.

### 4. 2. Sabir Rüstəmxanlının lirikasında məhəbbət motivləri

Məhəbbət bütün şairlərin əzəli, əbədi mövzusudur. Nizami, Füzuli, Vaqifdən başlayaraq hər bir şair öz sevgisini ifadə edib, özünəməxsus kövrək, şirin, həzin, umu-küsülərlə dolu bir məhəbbət dünyasının tərənnümü ilə yadda qalıb, xatırlanıb. Öz fərdi duyum, düşüncəsi, arzu və təfəkkür tərzi ilə seçilib, fərqlənib. Əslində, elə bütün poetik tutumlu şeirlərin arxasında bir sevgi, ilahi eşq dayanır. Böyük məhəbbət böyük ürəklərin yuvasındadır, yaradanın yaratdığına ülvi nemətidir. Bu neməti qənimət bilən şairlər onu ömrü boyu vəsf eləyiblər. Mənəvi azadlığın göylərində ruhun qidasına çevrilən məhəbbət, həm də qəlbin bitib-tükənməyən duyğu selidir.Yaşam arenasıdır. Həm şair ömrünün ilk və son baharında, həm də fəsillərin ilk və son baharında vəsf olunan, ən çox müraciət edilən şeir mövzusudur. Məhəbbət şeirləri hər bir şairin könül dünyasının, xəyal aləminin zənginliyindən, bədii təfəkküründən, özünəməxsus xarakterik xüsusiyyətlərindən asılıdır.

"Dünya özü nə qədər təzadlı, mürəkkəb, izah olunmazdırsa, insanlar da belədir. Hər bir fərd bir dünyadır" [27, s. 108]. Əgər bu fərd həm də şairdisə, demək, onun dünyası həm də poetikdir, daha zəngindir və bu zənginliyin məcmusundan hər kəsə pay düşür.

Sabir Rüstəmxanlının yaradıcılığında da məhz belə bir zəngin, təbii, real, romantik məhəbbət lirikası xüsusi önəm daşıyır və çoxluq təşkil edir. "Əbədi sevda" toplusunda çap edilən şeirlərin başlıca qayəsi də məhz məhəbbətdir, ilahi eşq, sevgidir. Mənəvi azadlıq dünyasının boyük neməti, sərvətidir. Şair ömrünün bəlli zaman çərçivəsində, belə demək mümkünsə, insan ömrünün yazında təbiət mövzusu sevgi mövzusuna güzəştə gedir. Bu dövr üçün lirik şeirlər daha çox yazılır və

üstünlük təşkil edir. Təbii ki, şair ömrü boyu istədiyi anlarda zaman-zaman bu mövzuya qayıda bilir. Lakin ömrün müdrik yaşında yazılan sevgi şeirləri daha çox fəlsəfi yön alır. Bir az məsləhət xarakterli, bir az da nəsihətvari səslənir.

Sabir Rüstəmxanlının lirik qəhrəmanı sevdiyi gözəli təbiətin qoynunda tərənnüm edir. "Sevgimə toxunma" adı altında toplanan, poetik tutumu ilə daha çox diqqəti çəkən şeirlər Vətən gözəlinin vəsvi, tərənnümüdür. "Sənin gözlərində", "Səs", "Sual", "Daha istəmirəm", "Qorxmuram", "Buraxma", "Sadiq sevgilim", "Təzad" və s. kimi şeirlər şair sevgisinin poetik göstəricisidir. Aşiqini hər halında təsvir edən lirik qəhrəman heç də yorulmur, usanmır, bezmir, hər cəfasına dözür və bununla qürurlanır, özünü xoşbəxt sanır. Çünki sevir və sevdiyi də bu Vətənin gözəlidir, bu yurdun qızıdır, sonasıdır! Bəzən yaxın olduğu qədər, həm də çox uzaqdır. Lakin fərq etməz. Əsas odur ki, bu sevgi var, realdır. Onun qəlbinin hakimidir, həyatının mənasıdır, günlərinin qövsi-quzehidir!

Akademik Bəkir Nəbiyev tanınmış şair Çingiz Əlioğlu haqqında yazdığı "Atlantlar, yaxud cəfakeşliyin poeziyası" adlı məqaləsində Çingiz və onunla həmyaşıd olan Sabir Rüstəmxanlını 60-cılar ədəbi nəslinə ikinci dalğa ilə qoşulan şairlər hesab edir və göstərir ki, bu zaman kəsiyində onlar ədəbi prosesin fəal iştirakçısı olmuşlar: "Bütünlüklə altmışıncılar hər cür ideoloji yasaqlara sinə gərərək ədəbiyyatımıza yeni mövzu və problemlər gətirdilər, nəsrdə və poeziyada insana baxışın mahiyyətini dərinləşdirdilər, mənəvi azadlığı təravətli təsvir və ifadə vasitələrilə tərənnüm etdilər" [169, s. 349].

Demək, Sabir Rüstəmxanlı bir şair kimi bu mühitdə formalaşıb. 60-cıların müstəqillik ruhundan, ab-havasından qidalanıb, onlardan çox bəhrələnib. Lakin peşəkarcasına ədəbiyyata 70-ci illərdə qədəm qoyub. Və elə ilk kitabı da 1970-ci ildə işıq üzü görüb. Burdan belə bir nəticə çıxartmaq olur ki, şairin lirik şeirlərinin çoxu, yazılma tarixindən göründüyü kimi, bu dönəmlərə təsadüf edir. Yəni, 60-70-ci illərdə şairin lirik qəhrəmanının saf, təmiz, ülvi hissləri "Bir zaman doğmaydıq", "Uçub gedərik", "Şam işığında yazılmış şeir", "Gəl gedək o köhnə görüş yerinə", "Əllərin", "Kəndimizin qızlarına", "Sənin yaxşılığın", "Səndən küsmüşəm", "Çiynimdə ilk dəfə", "Qurumuş çiçək" kimi şeirlərdə təsvir, tərənnüm olunur.

Sabir Rüstəmxanlının yaradıcılığında lirik şeirlər yetərincədir. Fikrimizcə məhəbbətin yaşı olmadığı kimi, sevgi şeirlərinin də yaşa, müstəqillik illərinə o qədər də dəxli yoxdur. Bu səpkili şeirlər müəllifin "Əbədi sevda" [ 188 ] və "İki kəlmə" [ 187] adlı kitablarında toplanıb. Hər iki kitabda "köhnə" məhəbbət şeirləri, "təzələri"nə qarışıb. Onların çoxunda yazılma tarixi göstərilməyib. Ancaq diqqətlə oxuyanda fərq hiss olunur, bəlkə də aydınca görünür:

Bu da bir yoldu... nəsə,
Özü sözündən kəsə...
Daha sevilmirəmsə,
Ölümə nə qaldı ki?! [188, s. 204]

Bu, lirik qəhrəmanın ötüb keçən, yaşa dolan ömrünə, zamanına elegiyasıdır.

Ömrümə bir yeni səhər açılır,
Sən də günəş kimi çıxıb gəlirsən.
Tənhalıq, yorğunluq, payız qüssəsi...
Sən bir qaranlığı boğub gəlirsən. [188, s. 313]

Müstəqillik illəri şair ömrünün payızına doğru gedir. Lakin bu dövrün də öz poetik duyğusu var. Lirik "mən"in hiss və düşüncəsi, duyğu və intuisiyası çox güclüdür. Məşuqunun hal və hərəkətlərindən, görməsə belə, xəbərdardır. Onun nə düşündüyünü, nə etdiyini, necə sevə bildiyini, ondan necə qaçmaq imkanlarını asan dərk edir və dərhal da cavab verir:

Qorxmuram
Məni atıb getməyindən,
Ani bir yuxu kimi
    əriyib itməyindən...
.... Baxmadan atılsa da
    göndərdiyim son yazı...
Ümidsiz boşluqlara
    açılsa hər səhərim...
Məni qorxutmur əsla!
Sanma azadam deyib,

Quş olub uçacaqsan!
Sevgim dünya boydasa,
Hayana qaçacaqsan?! [ 188, s. 203]

Sevgisinin dünya boyda böyük, sonsuz olduğuna inanan Aşiqin təəssüratları da çox güclüdür. Bu, böyük məhəbbətin hüdudlarından çıxmaq qeyri mümkündür. Çünki dünyanı bürüyən bir əbədi sevda onu da ağuşuna alacaq.

Sabir Rüstəmxanlı poeziyasının mərkəzində onun fikir və ideyası dayanır. İdeyasız poetik nümunə olmadığı kimi, fikir yükü olmayan şeir də zəif və sönükdür. Bu mənada şairin şeirlərində məqsəd-qayə, arzu-ideya, təbii-səmimiyyət ön planda verilir və lirik qəhrəmanın mənəvi dünyasını, daxili aləmini çox zərif, incə tərzdə açıb göstərir. Eyni zamanda, təlatümləri, ziddiyyətləri, təzadları da üzə çıxarda bilir. “Nəyimə gərəkdir” şeirində olduğu kimi:

Bu çəmən çiçəklər arasında...
Səni bitirmirsə,
Bu səhər səni gətirmirsə
günəşiylə bir,
Bu bahar mənimçün
gəlməmiş demək! [188, s. 226-227]

Aşıq üçün bir həqiqət var. Sevdiyi insan yoxdursa, demək, heç nə yoxdur. Şairin bədii həqiqəti ülvi hisslərin məcmusudur. Lirik qəhrəman bir ürək dolu ülvi məhəbbətdən yoğrulmuş obraz kimi canlanır. Və sanki onun daxili monoloqunu eşidirik: “Ayağımdan daş kimi asılsa da kədər, // Bu yolu keçəcəyəm! Sənsizlikdən sənə qədər!” [188, s. 228] Aşiqin daxili dünyasını, mənəvi aləmini açıb göstərən yığcam, aydın, bədii və şirin təhkiyə oxucunu inandırır ki, bu əsl məhəbbətdir!

Sabir Rüstəmxanlının poetik dünyasında cəmiyyətlə bağlı vətənpərvər, insanpərvər şeirləri nə qədər sərt, çevik, hərarətlidirsə, məhəbbət lirikası bir o qədər zərif, səmimi, duyğulu, yumşaqdır. Bu vəhdəti duymaq üçün onun lirikasını bir dəfə oxumaq kifayətdir. Son dövrlər yazdığı “Sevgimə toxunma”, “Son nəğmə”, “Vəsiyyət”, “Qayıdacağam”, “Sözün acizliyi”, “Varisim”, “Bir an kimi”, “Bunlar yoxsa” və s. kimi onlarca şeirləri bu qəbildəndir.

Məni çoxdan almısan adamlar cərgəsindən,
Ruham, səsəm, xəyalam dünyanı yalqız gəzən.
Mən eşqə çevriləndən bu dünyalıq deyiləm,
Ancaq qayıdacağam nə zaman sən istəsən! [188, s. 214]

Səsə, xəyala, ruha çevrilən lirik qəhrəmanın öz aşiqi üçün necə çırpındığı, ümid dolu bir ürəyinin necə döyündüyü aydın hiss olunur.

Sevgi motivində ayrılıqlar xüsusi yer tutur. Çünki ayrılıq sevginin ölçü vahididir, barometridir. Deyildiyi kimi, ayrılıq bir küləkdir, o zəif hissləri söndürür, güclü məhəbbəti isə alovlandırır. Sabirin lirik qəhrəmanı da bu ayrılıqlarla imtahana, sınağa çəkilir:

Payızda elə bil yaz dönür geri,
Köhnə bir həsrətlə çırpınır ürək.
Ancaq bu gözəllik içində təkəm,
Təkəmsə gözəllik nəyimə gərək?!

Lakin bu ayrılığın sonunda mütləq görüşmək, qovuşmaq imkanı da var:

Bu gün səndən danışır Günəşin gülən üzü,
Görüşünə tələsir uzun gecəm... gündüzüm...
Yenə bir ayrılığı kəsib bitirir bu gün,
Bütün yollar, cığırlar sənə gətirir bu gün. [188, s. 234]

Günəşin gülən üzü də, gündüzün özü də ayrılığın ömrünü kəsib, bitirib... İndi bütün yollar, cığırlar aşiqin hüzurundadır! Bu yolun son ucunda lirik qəhrəmanı öz Aşiqi gözləyir.

Xalq yazıçısı Anar “Xalq və tarix qarşısında cavabdehlik” məqaləsində Sabir Rüstəmxanlının yaradıcılığından bəhs edərkən yazır: “Sabir yaradıcılığında lirik duyğular, məhəbbət şeirləri, ən incə hisslərin ifadəsi də önəmli yer tutur. Təsadüfi deyil ki, onun mətnlərinə bir çox gözəl mahnılar yazılıb” [3].

Lirik qəhrəman şairin özüdür. Onun məhəbbəti tək bir gözələ aid deyil, bu gözəli yetirən, böyüdən Vətənə, təbiətə, ailəyə, cəmiyyətədir. Ən lirik şeirində belə şairin öz mənəvi dünyası çağlayır. Həyatın özü qədər müxtəliflik, rəngarəngliklər də bu

poeziyanın əsasını təşkil edir. Hər yaşda həyata bağlılıq, həyatı sevmək şair ömrünü tərk etmir. Bu səmimi hisslər, duyğular işığında parlayan şeirlər hər bir oxucunu dərhal özünə cəlb edir. Elə poeziyanın özəlliyi, gözəlliyi də bundadır.

Səni sevmək –
Ürəyini bir bülbül yuvasına çevirmək,
ömür ağacında...
Səni sevmək –
İlk arzu, son niyyət.
Əbədiyyətdə ölümsüzlük
və ömürdə əbədiyyət. [188, s. 236-237]

Şairin məhəbbət şeirlərinin bir çoxuna musiqi yazılıb. Bu mahnı mətnləri bir müqəddəs sevgi nəğməsidir. "Ürəyimdə eşqimizin ocaq yeri", "Halımı sorma", "Gecdi daha" və s. kimi şeirləri məhşur mahnıların sözlərinə çevrilib.

Sabir Rüstəmxanlının şeirlərinin bir hissəsini qoşmalar, gəraylılar təşkil edir. Bu şeir parçalarında da sevgi hissləri xüsusi yer tutur.

Mehi sən, küləyi sən,
Qəmi sən, gülməyi sən,
Bu ömrün hər şeyi sən,
Getmə, ömrümdən, getmə.

Ağacamsa, çiçəksən,
Süfrəyəmsə, çörəksən,
Sən yaşamaq deməksən,
Getmə, ömrümdən, getmə. [188, s. 409]

"Baxma mənə", "Ayrılıq", "Burda vardı bir mələk", "Çıxır", "Qalmaz", "Sözsüz danışıq", "Nə var", "Atıb gedir" kimi qoşmalar lirik qəhrəmanın məhəbbət dünyasından ayrı-ayrı yarpaqlardır. Lirik "mən"in duyğulu anlarını təsvir edən bu şeirlərin hər biri bir sevgi məktubudur:

Ruhuna işıq tutduğum,
Zəhərin bal tək udduğum,

Sevə-sevə qocaltdığım

Qız da məni atıb gedir... [188, s. 421]

Azərbaycan ədəbiyyatında özünəməxsus yeri olan yazıçı Hidayətin də Sabir haqqında maraqlı fikirləri var: “Onun müxtəlif yaradıcılıq formalarında özünüifadəsi, hər şeydən əvvəl, vətəndaş mövqeyindən güc alır. Sabir bütün hallarda azərbaycanlıdır” [224, s.15].

Beləliklə, Sabir Rüstəmxanlı lirik şairdir. Onun poetik axtarışları göz önündədir. Bu çoxşaxəli, çoxcəhətli, müasir və aktual olan poeziya Sabir yaradıcılığına xas xüsusiyyətlərdir. Gözəli, gözəlliyi, yüsək əxlaqi, mənəvi dəyərləri tərənnüm etmək əsl poeziyanın başlıca vəsifəsidir. Bu mənada şairin lirik janrın imkanları daxilində yaratdığı lakonik, bədii keyfiyyəti yüksək olan, koloritli şeirləri ədəbiyyatımızda özünəməxsus yer tutmaqdadır. Bu, canlı obrazlar qalereyasında həyatilik, insani hisslərin real, canlı, səmimi təsviri güclü təəssürat yaradır və oxucusunu yaşamağa, yaşatmağa və yaratmağa səsləyir.

Demək, Azərbaycan mədəniyyətinin daha sağlam və demokratik düşüncəli, azad fikirli, geniş dünyagörüşlü və yüksək estetik zövqlü mədəniyyət xadimi olan Sabir Rüstəmxanlının poetik dünyası, poetik yaradıcılığı ədəbiyyatımızda önəmli yer tutmuşdur.

## 4. 3. Nurəngiz Gün lirikasının özəllikləri

Böyük, yenilməz, azad sevgisi, qəlbinin səsi, duyğularının əks-sədası ilə ədəbiyyata gələn Nurəngiz Gün şeirlərinin böyük bir qismini əzəli, əbədi mövzu olan ilahi eşqə, sevgiyə, məhəbbətə, ayrılıqlara həsr edib. Belə poetik nümunələr, lirik şeirlər şairin yaradıcılığında yetərincədir. Onun “Ağ qanadlar” adlı [ 55] şeirlər kitabına nəzər salanda da bunu aydın görmək olar. “Belə işlər...”, “Boşluq”, “Biz ki qu quşlarıydıq”, “Cadugərmiş bu ayrılıq”, “Bu sevda son sevda, gülüm...” və s. şeirləri bu qəbildəndir. “Belə işlər...” şeiri xüsusilə diqqəti çəkir:

... Əvvəl sən gəldin,

Sonra kədər....
Əvvəl sən tovladın,
Ovçu sonradan ovladı,
Əvvəl özül, sonra divar,
Əvvəl sən başladın,
Sonra dedi - qodular.
Əvvəl sən güldün,
İndi mən...
Əvvəl mən öldüm,
İndi sən...
Ah məhəbbət...
Sənə də rəhmət,
Mənə də.... [55, s. 37]

Göründüyü kimi, burada böyük sevginin, eşqin təsviri, tərənnümü yoxdur. Amma bir uğursuz məhəbbətin nəticəsi - ağrısı, könül yarası var:

Əvvəl özül, sonra divar,
Əvvəl sən başladın,
Sonra dedi-qodular...

Dedi-qoduların qurbanı olan ilk məhəbbətin uğursuzluğu birinci, axırıncı dəfə deyil. Böyük Füzulinin "Leyli və Məcnun"unda Ananın qızına nəsihəti yada düşür. Tənqidçi Vaqif Yusifli yazır: "Sevgi şeirlərinin əksər qismi məhz həsrət motivləri üzərində qurulur. Böyük Füzuli həsrətin, kədərin gözəlliyini təsvir edirdi. Bu təsvirlərdə Dərd pataloji mənadan uzaq idi" [228, s. 222]. Daha sonra tənqidçi düşünür ki, "Görəsən müasir poeziyada sevgi öz aliliyini, müqəddəsliyini saxlaya bilibmi?" Axı əsrlərdən bəridir sevgi ilə poeziya qoşa qanad kimi dərk olunub, sevgi ən gözəl hisslərini poeziya vasitəsilə ifadə edib! Tədqiqatçını sevindirən bir cəhət də vardı ki, "Füzulinin yandırdığı şam hələ sönməmişdir, bu şamın ətrafındakı pərvanələr bir-bir həlak olur, amma o şam hər təzə aşiqin can atdığı, yanmaq istədiyi bir alov kimi işığını əsirgəmir. Sözün Füzuli ucalığına tapınan şairlərimiz məhəbbət

mövzusunda da təzə söz deməyə, sevgi hisslərini orijinal vasitələrlə ifadə etməyə çalışırlar” [228, s. 222]

Nurəngiz Günün “Boşluq” şeiri çox orjinal və qısadır. Lakin çox düşündürücüdür; yəqin ki, bu boşluq ölən məhəbbətdən sonra yaranıb. Bir az da dəqiqləşdirsək, əvvəl uğursuz sevda, sonra boşluq yaranıb, daha sonra boşluğun əks-sədası olan bu poetik parça meydana gəlib. Müəllifin qənaətincə heç bir duyğunun yaşanmadığı həyat dəhşətli bir boşluqdur:

Bomboş bir səssizlik,
bomboş....
Boşluqda nə sevgi, nə nifrət,
nə səadət, nə hiss, nə səs!
Atlıydım, bəs hanı?
Qamçım vardı, bəs hanı?
Atım sizə qalsın,
qaytarın qamçımı!
Qamçılamaq istəyirəm
bu boşluğu! [55, s. 44]

Lirik qəhrəman bu boşluğu qamçılamaqla sanki ölən məhəbbətinin intiqamını almaq istəyir! Və ya bəlkə də yeni yaranan kini, nifrəti ilə bu boşluğu doldurmağa çalışır!

Xalq şairi Bəxtiyar Vahabzadə də bir vaxtlar yazmşdı:

Sən getdin, elə bil dünya boşaldı,
Yaz da köçüb getdi, yeri boş qaldı...
Bahar ürəyimi sənsiz qış aldı...
Mən yaza vurğunam, qışı neylərəm. [216, s. 282]

Demək, şairin təsvir etdiyi kimi, sevgisiz dünya köçüb gedən yazdan sonra başlanan qarlı qışa bənzəyir.... Hər şairin öz xəyalı, “hər aşiqin öz dövranı” olsa da məhəbbətlər, hisslər eynidir. Onlar zaman, məkan tanımır.

Bəxtiyar Vahabzadənin Nurəngiz Günün fikir, düşüncələri ilə səsləşən başqa bir şeiri də var:

Ayrıldıq, güc gəldi bizə hücumlar,
Ayrıldıq... usanıb, tənədən, sözdən...
Bizdən razı qaldı yadlar, qohumlar...
Biz razı qalmadıq öz-özümüzdən... [216, s. 287]

Dedi-qodulardan, sevgiyə hücumlardan sonra ayrılıq gəldi... Və arada can verən məhəbbət, sonra yaranan boşluq qaldı...

Nurəngiz Günün sənətkarlığı onun az sözlə böyük fikir ifadə etməsidir, istədiyini deyə bilmək bacarığıdır. Çox danışmır, ah-uf etmir, kimisə qınamır, günahkar axtarmır, hər əzaba, əziyyətə dözür və sakitcə bu ağrıdan qıvrılaraq pıçıldayır:

Adicə küldü,
Barmaqlarım arasından
tökülür...
Odunu pay vermişəm...
Kül ilə oynayıram...
Hamıya yanan canım,
İndi özüm yanıram!
Ocağımı sönmüş görüb
Insan, səndən utanıram! [ 55, s. 28]

Görkəmli tənqidçi və ədəbiyyatşünas Kamal Talıbzadə Xalq şairi Nəbi Xəzrinin lirikasından bəhs edərkən yazır: "Məhəbbət insanın ən ali, ülvi, müqəddəs hissidir. Məhəbbətsiz, həm də həqiqi, sədaqət və etibarla yoğrulmuş məhəbbətsiz insan daxilən boşdur, mənasızdır. Məhəbbət insanı ucaldır. Yaşadır, böyük-böyük işlər görməyə sövq edir. Odur ki, şair şeiri sevgidən ayırmır, hər ikisini əkiz qardaş adlandırır, qəti deyir ki, bunlardan biri olmasa o, öz məqsədinə çata, istədiyi zirvəyə yüksələ bilməz" [ 205, s.194].

Bu bir həqiqətdir. Doğurdan da "... məhəbbət əbədi məfhumdur, əbədi hissdir. Müasir insan isə həmişəki insan deyil. Onun məhəbbəti də yeni keyfiyyətlərlə zənginləşmişdir" [205, s. 194]

Bu mənada Nurəngiz Günün məhəbbət lirikası özünəməxsusdur, xüsusidir, onun təsvir, tərənnümü də fərqlidir:

Sən orda... bilməm indi....
nə yuxusu görürsən.
Mən cəfaları bağrıma basdım burda...
İndi sən
Ayın üzündən baxırsan,
Su üzünə köçmüsən.
Üzün, gözün teyxa yaş!
Apaydın güzəran... [57, s. 127]

Gecənin qoynunda, bir gölun kənarında, ayın aydınlığında ətrafını seyr edən Aşiqin gəldiyi qənaətdir. Ondan uzaqlaşan sevgisi göylərdə, ayın üzərində qərar tutub. Ay isə indi, budur, gölün içində əks olunub: "Üzün-gözün teyxa yaş, apaydındı güzəran...". Deməк, ondan ayrılan Məşuqun halı heç də fəna deyil. Lakin Aşiq haqqında bunu demək olmaz. Onun da üz-gözü su içindədir. Yanaqları boyunca damlalar axır. Amma bu damlalar gölün sərin sularından deyil, axan qaynar göz yaşlarındandır:

Gizləmə sərvim, gizləmə,
Bərabərmiş hökmümüz,
Məni də o kökə salmış
Səni məndən ayıran... [57, s. 127]

Şairin "Sevgi ağacına elegiya", "Bir az sonra", "Cadükərmiş bu ayrılıq", "Biz ki qu quşlarıydıq" kimi şeirlərinin hər biri bir qəlbin sevgi harayı, hicran hıçqırıqlarıdır, - desək, yanılmarıq. Onun "Biz ki qu quşlarıydıq" şeiri diqqəti daha çox cəlb edir. Çünki istər bədii siqləti ilə, istərsə də məzmun, forması ilə bir-birini tamamlayan bu poetik parça hər sevəni düşündürər. Öz sevgisini qorumaq, yaşatmaq, qiymətləndirmək baxımından da bir örnəkdir. Və şairin özünəməxsus çox orijinal əsərlərindən biridir:

İkimizə bir yuva,
İkimizə bircə dən... Bəs idi...

Qonşularımız idi yaşıl göllər,
Amma dimdiyimizə sıxılan
"O tək damla"
demə təsəlliymiş göylərdən.... [57, s. 122]

Böyük sevgiyə bir koma, yarıya bölünəcək bircə dən də bəs idi. Yetərdi ki, o ilahi eşqin qədrini biləsən, onu yaşatmağı bacarasan! Amma bu heç də hər zaman hər Aşiqə qismət olmur:

Aman, ovçu!!!!
İndi qov kimi bu boşluqda
Hey uçur, hey uçur...
Günahımız, ruhumuz, xəyallarımız...
Biz ki.... Qu quşlarıydıq! [57, s. 122]

Şən mahnılarının sədasına üfüqlər oyanan, asimanda buludları yaran, yorulmayan, günəşi başının üstünə çətir tutan, "cənnət ağacının" budaqlarında oynaşan qu quşları.... Təəssüf ki, bir nəğməsi ilə yerə, göyə səs salan Qu quşları çox yaşamadı. İnsafsız bir ovçunun yersiz müdaxiləsi ilahi nəğməyə son qoydu. Bircə təsəlli var ki, onların son nəğməsi həmişə eldə, dildə səslənəcəkdir, çünki oxunacaq yaşarı nəğmələrdir.

Nurəngiz Günün hər şeiri bir problemin təsvirinə, həllinə yönəlib. Bu cür problemlər isə həyatda çoxdur. "...Müasir insan bu problemlərin mərkəzində durur: öz məhəbbəti, arzuları, həyatı, taleyi, düşüncələri, əməyi, Vətən eşqi ilə, sevgi və nifrəti ilə, ümid və inamı ilə, sevinc və kədəri ilə, təbiətə sonsuz vurğunluğu, nəhayət humanizmi ilə" [ 205, s. 194].

Şairin həyatdan götürdüyü adi bir hadisə, fakt, detal poetik uğura, poeziya nümunəsinə çevrilir. Ideya baxımından da zəngin olan şair düşüncələri böyük fikir yükü ilə də qəlbə yol tapır, çünki hər misra səmimi hiss, həyəcanı əks etdirir. Təbii ki, hər bir ideya, fikir istənilən bədii əsər üçün danılmaz faktordur. Bu isə Nurəngiz Gün yaradıcılığının mayasını, ruhunu təşkil edir. Onun şeirlərinin hər biri – məhəbbət, təbiət şeirləri belə fəlsəfi ümumiləşdirmələrlə ayarlanıb. Sevgisi də, nifrəti də, öz axarı ilə təbii şəkildə oxucusuna çatdırılır. Həyat ziddiyyətlərlə, əksikliklərlə

doludur. Şairin lirik qəhrəmanı bu təzadların içərisində öz sevgisinə sadiqdir, öz məhəbbətinə sədaqətlidir. O, Aşiqini də sevgiyə, sədaqətə səsləyir. Və öz sevgi nəğməsini də elə özü kimi oxuyur:

Ay lolo,
Sevinəndim, güləndim,
Ay lolo,
Bir sevgiyə büləndim,
Ay lolo,
Gül bağçamı aldılar,
Ay lolo,
Yağış olub çiləndim... [57, s. 100]

Öz atəşində özü yanır, amma əğyara da, sevdiyinə də, onu ayrılıqla imtahana çəkən taleyinə, bəxtinə də küsmür, incimir. Sevgi bağçasını əlindən alanda gücü yalnız yağış olub o bağa yağmağa çatır. Təki ordan – könül dünyasından, məhəbbətindən uzaq düşməsin. Nə qədər yansa da Səməndər kimi bu sevgisindən usanan, qorxan, çəkilən deyil. Özü də, sözü də birdir:

Bu yerlərdən üz çevirib
gedən yar!
Qanadım yox qanadlanam,
mənəm, odsuz yananam!
İçib nəhrləri, keçib bərəni,
durub bu sahildə heybət içində
Elə öz-özümə havalananam! [56, s. 77]

Ayrılıqdan doğan təzadlar, fəryadlar, ahlar da Nurəngiz Gün poeziyasında əbədi yaşarlıq qazanıb:

Quyuymuş bu ayrılıq,
Udub gülüşlərimi,
mat qoyub, qurudub məni... [57, s. 123]

Məhəbbətlə uçan xəyallar indi şaxta vurmuş yarpaq kimidir. Torpaq üstə xəzana dönüb:

Bu ayrılıq məndə
yarpaq-yarpaq solacaq.
Bu ayrılıq sinəmdə dönüb
torpaq olacaq...
Of, tanrım! Cadügərmiş bu ayrılıq. [57, s. 123]

Nurəngiz Günün lirik "Mən"i nə qədər böyük, ülvi, sarsılmaz, bitməz-tükənməz eşqlə sevsə də yenə son anda ayrılığa düçar olur. Ona görə şairin bu səpkili şeirlərində bir süstlük, ağırlıq, ümidsizlik, sonsuz kədər, yanğı var. Lakin həssas qəlbə malik xanım şairənin şeirlərində bir nikbinlik, xoş ovqat da yer alıb. Hər halda lirik qəhrəman xoşbəxtdir, çünki sevib, sevilməyi bacarıb, hisslərini bəyan edib. Nə deyibsə ürəkdən deyib, səmimi deyib. Həm də idrakla, ağılla deyib. "...Müasir şeiri təkcə ürəklə - şair ürəyi ilə yüksəltmək olmaz, həqiqi şeir rübabını yanar ürəklə yanaşı böyük amal, dilək, idrak, ağıl birlikdə çalmalıdır. Ürəksiz deyilən ağıllı kəlam saxta olduğu kimi, ağlın süzgəcindən keçməyən hiss və duyğular da kasıb və natamamdı, ağlın fəzasında qanad açmayan ürək cansız və sönükdür" [205, s. 203].

Bəzən şair həyatın diqtəsinə də boyun əyir, onu eşidir, ancaq öz yolundan da dönmür. Bu diktəyə qarşı öz diqtəsini qoyur:

Bir qəfil diksinmədən
telefonumun dəstəyi
qara, burma saplağından
asılı qaldı havadan...
Səsinin kişi kədərinə
mən ağladım...
Sonra işlərimə davam etdim,
...Sevmək həyatmış, həyat bu sayaq...
O bu cür sayır, mən bu cür oyaq! [57, s. 124]

Həyatın hər üzünü müşahidə edən şair onu olduğu kimi qəbul edir, bir sənətkar olaraq həyat həqiqətlərini aydın, sadə dildə, realist detallarla oxucusuna çatdıra bilir. Gördüklərini əyaniləşdirmək, canlandırmaq, bədii detala çevirib təsvir etmək onun şeirlərininəsas üslub xüsusiyyətləridir. Psixoloji gərginliklərə də bu yöndən yanaşır, təsvir etdiyi obyektə işıq salmağı, onu aydınlatmağı bacarır. Həqiqi poeziyanın özü də elə əsl həyat deməkdir:

Bir bu ağac idi, bir də kölgəsi,
Bir biz idik, bir də sınıq könlümüz,
Ruhumuzda çiçəklərin nəfəsi,
Sinəmizdə nəhəng sevgi nəğməsi,
Bir də çörək idi...
Gərək ki, bir nəməkdan idi,
bir baş da soğan.
Vəssalam.
... Süfrə diksinmişdi, duz dağılmışdı....
Çörək qupquruydu, soğan da acı,
Nəyimiz yandırdı ki,
Elə bu zaman
Əli baltalı gəldi,
Kəsdi bizim ağacı! [57, s. 126]

Göründüyü kimi, bu bir həyat hekayəsidir. Lirik qəhrəman paxılın, rəzilin adını çəkməsə də, onun gördüyü işin ağırlığını, naqisliyini sakitcə təsvir edə bilir. Ağac kölgəsində cütlüyün xoşbəxtliyi aydın görünür. Hər şeyin fövqündə dayanan bu xoşbəxtlik bir ömrə bəs edərdi, əgər əli baltalı gəlib o ağacı kəsməsəydi... Həyat hadisələrini poetik tərənnüm edən Nurəngiz Gün onun tipik, xarakterik xüsusiyyətini, psixologiyasını da açıb göstərə bilir.

"Gedək, sərvim, Günəşi bərabər öpək" şeirində şair "varaq-varaq" olmuş bir sevgidən bəhs edir. "Yetdin mənə. Yetdin, amma hansı zillətdən sonra?// Fələyin beli qırılsın... Soluq-soluq qalmış, yurdunu rüzgar dağıtmış yetim bir ağac kimidir aramızda duran görüş...// Gül bağçamız bağlı qalmış... Otlar basıb... tikan bitmiş..."

Şairin lirik "mən"i gecikən məhəbbət görüşünün yalnız yanğısını duyur... Keçən zaman da, ötən illər də bu sevgini pərən-pərən etmiş, fələk onu aldatmış, ağlatmış, dağlatmışdı!... Buna Günəş də şahiddir!...

Bənzərsiz, qeyri-adi misraların hər biri lirik qəhrəmanın yaşadığı aylar, illər, günlərdi... Bir şeirdə onun keçən ömrünün böyük bir hissəsi canlanır. İllər uzunu gözlədiyi görüş indi ona sevgidən, sevincdən çox əzab, əziyyət gətirib. Vaxtında olsaydı ömrü-günü, taleyi dəyişərdi... Üzüntülü mühakimələr də bu duyğuları yaşatmağa, dirçəltməyə qadir deyil. Ülviyyətinə xal düşmüş platonik sevgi ölümə məhkumdur!

Gedək, ölmək gərək!
Bu şahid Günəşi, şəhid Günəşi,
Gedək bərabər öpək! [57, s. 132]

Şairin "Sevgi ağacının elegiyası" şeirində də eyni hisslər hakimdir. Bir zamanlar söykəndikləri, onları qoruyan yaşıl taclı alma ağacı da rüzgarın dəli küləklərinə, qar-yağışına dözməyib ayaqüstə ölmüşdür. Daha onun nə barı-bəhrəsi olacaq, nə də yaşıl yarpaqları:

Döz buna, buna şair-
Özəyində sevgisi,
Ruhunda alma rəsmi,
Yığışıb öz içinə
Bu tənha guşə içrə
ağac çoxdan ölmüşdü... [57, s. 141]

Burda əsas çəhət odur ki, şair təsvir etdiyi hadisələri gaxilən yaşayır və görünür ki, bu onun daxili "Mən"inin bir parçasıdır.

Beləliklə, Nurəngiz Günün lirik şeirlərinə nəzər saldıq. Məlum oldu ki, Xalqının ruhu ilə yaxından bağlı olan şairin lirikasında misralar səmimidir, realdır, orda lirik qəhrəmanın ürəyinin qanı, qəlbinin hərarəti açıq hiss olunur və bu keyfiyyətlər öz oxucusunu inandırır. Həmçinin, bu şeirlər şairin öz mənəviyyatının tərənnümüdür. Onun ruhundan, varlığından qopan poetik duyğularıdır. Şairin

özünəməxsus dəsti-xəttində orijinal, təbii, hər kəsin qəlbinə yol tapan, düşündürən, böyük sevgi poeziyası var ki, bu poeziya, zənnimizcə, həmişə yaşarıdır, əbədidir...

### 4. 4. Əbülfət Mədətoğlunun məhəbbət şeirləri

Əbülfət Mədətoğlu lirik şairdir. Onun poetik yaradıcılığında əzəli və əbədi mövzulardan biri olan məhəbbətə həsr olunmuş şeirləri kifayət qədərdir. Kitablarında və son dönəmlər dövrü mətbuatda dərc olunan şeirlərinin əksəriyyəti sevgiyə və ona verilən mənəvi, əxlaqi dəyərə həsr olunub. Çox da böyük olmayan bu nümunələr əsl sevgidən, ilahi eşqdən yaranıb poetikləşir. Az sözlə öz sevgisini izhar edən şairin lirik "mən"i həm də gözəlin mənəvi dünyasını açır, onun sevgiyə, eşqə, Aşiqinə layiq olduğunu göstərir.

"Mənim kimi sevə bilsən" toplusunda şairin bu tip şeirləri yetərincədir. Kitabda adsız şeirlər rəqəmlərlə sıralanıb və bunlar 207 əsərdir.

Arzum göz qamaşdırır,
Billur çil-çıraq kimi !
Mən səni necə tutum
Özümdən qıraq kimi?..

Gözümdən yol asılır,
Sinəmə od basılır,
Hər gün başdan yazılır,
Həsrətim varaq kimi...[159, s. 35]

Tədqiqatçı alim Rüstəm Kamal şairin sevgi şeirlərindən bəhs edərkən həmin kitabın ön sözündə yazır: "Əbülfət Mədətoğlu ömrüboyu sevda tarixçəsni və sevdalı

anların hekayətlərini yazır... O, sevgi etiraflarını, ömür-gün xatirələrini, xəyal qırıqlığını bayatı-oxşama üstə kökləyir, "yeddiliyin" (yeddi hecanın) çevrəsinə salıb gözləyir" [159, s. 3-5]

"Yaşadıqlarını yazan şair" məqaləsində filologiya üzrə fəlsəfə doktoru Akif Əli də belə yazır: "Ə. Mədətoğlunun yeni şeirlər kitabı namusla, vicdanla yaşanmış bir ömrün dərin izlərini özündə qoruyub saxlayan həm dəyərli salnamədir, həm də həssas bir könül dünyasının pıçıltılarını yaşadan ciddi sənət əsəri" [155, s. 9].

Qaldır görüm gözünü,
Görüb öpüm gözünü,
Öpüb hörüm gözünü
Kipriyinin ucuna.. [155, s. 155]

Daha sonra Akif Əli qeyd edir ki: " Bu günün oxucusu üçün daha önəmlisi – sənətkarın mənəvi dünyası, onun fikir-düşüncələri, ideyaları, həqiqətən yaşadıqları, duyduqları və yaşayıb - gördüklərini qələmə almaq məharətidir" [ 155, s.10].

Şairin "Ehdiyacın elçi daşı" şeirlər toplusunda onun mənəvi dünyasını əks etdirən, sorağına çıxdığı gözəlin naz-qəmzəsini əks etdirən poetik parçalar diqqəti cəlb edir. "Ya gəl, ya get", "Sənin", "Olmuşam", "Tək sən, tək mən", "Səndən", "Özün günahkarsan", "Bilmədim", "Aparsa", "Düşüncə..." kimi şeirlər bu qəbildəndir. Şairin lirik qəhrəmanı sevdiyini anlamaq, duymaq, dərk etmək üçün hər cəfaya, ağrı-əzaba dözüb, dayanır. Daşıdığı hicran yükünü də sevə-sevə tərənnüm edir. İnanır ki, vüsal uzaqda deyil. Aşiqi də mütləq onun bu saf, təmiz məhəbbətini yüksək şəkildə dəyərləndirib, qiymətləndirəcək.

O gün gəlib çatacaq,
O günə nə qalıb ki?
Mənə sevgi verən qız,
Məndən sevgi alıb ki?

Yaş öpdükcə üzümü,

Həsrət bükür dizimi...

Tapammadım özümü,

Canımda can qalıb ki ? [157, s. 175]

Sevgi dünyasında da sevincdən, sevgidən çox dərdə bələnən lirik qəhrəman bunu taleyin payı kimi qəbul edir və yenə də öz sevgisi üçün mübarizəsindən əl çəkmir. Üzünü sevdiyinə tutub sanki diktə edir: " İlk baxışdan sevməyi // Sənə də oyrədəcəm,// Özüm yandığım kimi // Səni də göynədəcəm, -// Özgə fikrin olmasın!"

"Əbülfət Mədətoğlunun lirik "Mən"i məhəbbət məbədinin bütün hücrələrini dolaşır. O, məşuqunun sevincindən çox əzabından dadır. Həsrətin üzərindən vüsal körpüsü salmağa çalışır, neyləmək ki, zəhməti əlində qalır". Bu sözlərin müəllifi yazıçı Qərib Mehdi sonra yazır: " Əbülfət gerçəyi söyləyən şairdir. O, yaxşı bilir ki, yalançı təsəllilərə uymaq, şirin vədlərə aldanmaq heç bir yaranı sağaltmır" [119a].

"Dörd divar... Allah, o və mən" şeirlər toplusunda [161] şairin kifayət qədər sevgi şeirləri toplanıb. "Bir udum sevgi", "Sənə olan sevgim", "Mənzərə", "Özünü", "Sənin mənzərən", "Gözlərin" və s. şeirlər şairin lirik qəhrəmanının sevgi duyğularıdır. Hicranın bəzən kölgə saldığı bu azad sevgi lirik qəhrəman üçün bir təşnədir. "Səsin Günəş şüası, //Sən Tanrımsan, mən asi...// Səpilsin yar duası- Qoy tək-tək ürəyimə"-deyən lirik "Mən" heç də ümidini kəsmir. Sonda tək qalsa da yenə Aşiqinin vəsvindən usanmır, yorulmur. Burada poetik mənanın orjinal gözəlliyi emosional təsirin sirrini açır. Lirik qəhrəmanın hər şeyə qalib gələn saf, işıqlı bir həyat eşqi var:

Mənim duyğularım Leyli xəstəsi...

Xəyalım, xatirəm hicran bəstəsi...

Ürəyim eşq adlı bir gül dəstəsi...

Qorxmuram düşməkdən dilə, yazıram... [161, s. 256]

Beləliklə, Əbülfət Mədətoğlunun poeziyasında məhəbbət şeirləri də önəmli yer tutur və lirikasında çoxluq təşkil edir. Bu növ şeirlərdə şair sanki Fizuli ənənələrinə sadiq qalaraq, sevgidən çox, onun dərdə mübtəlasını vəsv edir. Dərdin içindən boy verən bu tip şeirlər isə poeziyamızın zənginləşməsində mühüm rol oynayır. Çünki onların hərəsi bir əhval-ruhiyyənin ifadəsi olan hiss və duyum şeirləridir.

### 4. 5. Elçin İsgəndərzadənin məhəbbət lirikası

Şairlər məhəbbətlə doğulub böyüyürlər. Onların dünyaya, kainata, insanlara, Vətənə, gözəllərə, gözəlliyə sevgisi o qədər böyük, sonsuzdur ki, bəlkə ona görə hər kəsdən seçilərək hər şeyi sevgi ilə vəsv edə bilirlər. Elçin İsgəndərzadənin də poetik yaradıcılığında məhəbbət şeirləri kifayət qədər önəmli yer tutur. “Sənsizliyin rəsmi”, “Sənsizlik”, “Ümidli misralar”, “Yağmur türküsü”, “Tənhalıq türküsü” kimi şeirlər Elçinin məhəbbət, sevgi, eşq düşüncələridir. Müxtəlif vaxtlarda yazdığı “Bilirsənmi”, “Sevgilim”, “Sənli xatirələr”, “Sevda ayrılıqları” kimi şeirlər şairin sevgi dolu ovqatı, xatirələridir.

Şairin iki misralıq şeirlərində lirik qəhrəmanın mənəvi dünyası, arzu-istəyi əks olunub:

Qaranlıqda yaz yağmuru tək,
Sevgidən ağlayıb kiridi ürək... [81, s. 414]

Mənim ömür əlifbamda, bilirsən,
“A”-dan öncə, gülüm, sən, sən gəlirsən! [81, s. 419]

Elçin İsgəndərzadənin poeziyasında sırf sevgi şeirləri o qədər də çox deyil. Bu tip şeirlər son ucda ya Vətən məhəbbəti ilə bitir, ya da təbiətlə, çəmiyyətlə paralel təsvir, tərənnüm olunur. “Elçinin şairliyində istilik, məhəbbət, torpağa, Vətənə bağlılıq daha güclüdür. Onun poetik yaradıcılığının əsas motivini yurd sevgisi, Vətən

yanğısı, əsl vətəndaşlıq qayəsi... təşkil edir" [6]. Bu da, təbii ki, dövrlə, zamanla bağlı idi. XX əsrin 90-cı illəri – qarışıq, dolaşıq, ağır keçid dövrü məhəbbətin, sevginin də üzərinə kölgə salmışdı. Bu müqəddəs hisslər arxa plana keçmişdi sanki. Bir tərəfdə Vətən, onun müstəqilliyi uğrunda mübarizə, həmçinin Qarabağ üçün ermənilərlə savaş dururdusa, digər tərəfdə isə yaşamaq üçün əsl məhəbbətin yerini pul-para "məhəbbəti" tutmuşdu. Onda şair bu süni məhəbbəti şaxta vurmuş bənövşəyə bənzədirdi. Yazın ilk gülümsəyən günəşinə aldanan bənövşə ardınca gələn şaxtanı görmür və dərhal da məhv olur.

"Sevda ayrılıqları" şeirində şair keçən ayrılıqlarla bu günkü ayrılıqları müqayisə edir, onun səbəblərini arayır:

Ən gözəl ayrılıqlar sevdalarda qaldı,

Ən gözəl sevdalar ayrılıqlarda...

Biz hər ikisində....

İndi də ayrılıq var, sevda var,

...İndi ayrılıqlar sevdadan deyil... [81, s. 334-335]

"Möcüzəymiş, möcüzə" şeirini isə məhəbbətin düsturu hesab etmək olar. İnsan həyatında əsl sevginin necə böyük, müsbət rol oynadığını, onun xarüqələr yarada biləcəyini şair bir daha təsdiq, təsbit edir; yaşa, zamana, qara, qışa baxmayan məhəbbət məhz özü istədiyi zaman gəlir və insanı dəyişdirmək gücündədir:

Ömrün boranına, yayına baxmır,

Allahın yaş adlı payına baxmır...

... Buza dönmüş qəlbdə atəş yandırır,

Tutulmuş gözləri işıqlandırır...

...Yaşatmaq qüvvəsi, həvəsi onda,

Ən böyük cazibə qüvvəsi onda...

Bu şeir “Məhəbbət nədir?” sualına tam, dəqiq cavab verir. Şairin lirik qəhrəmanı məhəbbətin yaratdığı xarüqələri bir-bir poetik şəkildə üzə çıxardır. Şairin digər şeirlərində də-“Sənsizliyin rəsmi”, “Sənsizlik”, “Nakamlıq”, “Unut”, “Sənsizliyin rəngi”, “Ay qız”, “Ayrılıq dərdi”, “Ayrılıq -2” kimi şeirlərində şairin lirik qəhrəmanı yaşadığı ayrılıq anlarının rəsmini şəkir, onu rənglərə ayırır. Bu ayrılıq əsil sevginin məhəng daşıdır. Ayrılığın səbəbi bilinmir. Görünən odur ki, gedən Aşiq özündən sonra bir boşluq qoyub. Bu boşluqda hər kəs darıxır və onu gözləyir:

Gəl, gülüm, gəl.

Yüz ildi yolunu gözləyirik sənin –

Qərib qapı, əkdiyin qırmızı çiçək,

mübarək Ay...

Bir də həsrət yuvasına dönmüş

sevdalı ürək.. [81, s. 116]

Demək, Elçin İsgəndərzadənin sevgi, məhəbbət, ayrılıq dolu lirik şeirləri onun yaradıcılığının bir hissəsini təşkil edir. Qısa, lakonik, səmimi, sevgi dolu şeirlər Elçinin özünəməxsus dəsti-xəttidir. Onun Lirik qəhrəmanın ilahi eşqi, sevgisi ilahi yaradanadır:

Alnımda Tandrının əli,
Sevdaların ən gözəli!

Bəzən də bu sevgi təbiətin bənzərsiz gözəlliyinədir:

Quşlar ötüşür budaqda...
Su da susub bulaqda... [81, s. 416]

Bütün bunlarla yanaşı lirik qəhrəman düşünür ki, “Ömrün səhrasında həyat ağacı -// Bir meyvəsi şirin, birisi acı”, bu şirinli, acılı dünyanın verdikləri taleh, qismətdir.

### 4.6. Təbiət Vətənləşmiş obraz kimi

Şairi təbiət yaradır, cəmiyyət formalaşdırır, eşq hər şeyin fövqünə qaldırır! Mənəvi güc-qüvvəni, zövqü təbiətdən alan söz adamlarının ilk mövzusu da çox zaman təbiət özü olur. Bəlkə də təbiətin əsrarəngiz gözəllikləri olmasaydı insan öz şairlik duyğusunu, istedadını dərk etməkdə, üzə çıxartmaqda çətinlik çəkərdi. Unutmayaq ki, hər kəsə nəsib olmayan şairlik istedadı elə təbiətin - yaradanın öz seçilmişlərinə bəxş etdiyi əvəzsiz nemətdir.

O seçilmişlərdən biri, parlaq istedad sahibi **Nurəngiz Günün** ilk şeirlərinin baş qəhrəman da məhz təbiət olub. Onun poeziyasında təbiət və təbii hadisələrin təsvir, tərənnümü mühüm yer tutur.

Ümumilikdə təbiət şeirləri məna və məzmununa görə üç yerə, üç qismə bölünür:

Birinci qisim şeirlərdə yalnız sırf təbiət gözəllikləri, təbii gözəlliklər vəsf olunur.

Ikinci qisim şeirlərdə təbiət Vətənləşir. Burada ülvi, solmaz, unudulmaz, müqəddəs Vətənin təbiəti poetikləşir.

Üçüncü qisim şeirlərdə isə təbiət insanilәşir. İnsan təbiətə, təbiətsə insana təsir edir.

Bu mənada Nurəngiz Günün poeziyasında təbiət hər üç halında əks olunub. Şair gah təbiətin özünü vəsf edir, gah onun dili ilə Vətəni tərənnüm edir, gah da təbiəti şairanə seyr edə-edə onunla insan kimi dərdləşir, danışır, bir sözlə, təbiəti insanilәşdirir. Bu səpkili şeirlər Nurəngiz xanımın yaradıcılığında yetərincədir. Xüsusilə, şair yaradıcılığının ilk dövrlərində birinci qism təbiət şeirlərinə daha çox üstünlük verib.

Göy üzü rəngbərəngdir –
mavi, sarı, çəhrayı, abı, narıncı,
Görən rənglər selindən üz tutuban
hara gedir bu cığır?

Quşların civiltisi bihuş
    etdi ağlımı,
Oh! Bu aləmin içindən
necə anım halımı?
Ən gözəl himn –
bu quşların mahnısı!
Ən gözəl gün –
bu səhərin hüsnü, havası! [57, s. 8]

Şair bu misralarla təbiətin ülvi gözəlliyindən göz oxşayan, qəlb ovlayan bir peyzaj yaradıb. Onun lirik qəhrəmanı bu mənzərənin önündə heyrətini, rəğbətini gizlətməyərək bihuş olub. Çünki qəlbi təbiətlə baş-başadır, onunla bir döyünür. Səhərlər Günəşin al-qırmızı şəfəqlərlə göy üzünə qalxması, bu şəfəqlər altında gül-çiçəklərin üzə gülümsəməsi, quşların civiltisi, hay-həşirlə yuva qurması, dən axtarması, daha nələr... şairin ilk təbiət şeirlərinin baş mövzusudur.

Nurəngiz Günün başqa bir şeiri – **"Oh, necə bayram istədi könlüm"** adlanır və yenə təbiətin quş səsindən, quş nəğməsindən, sevincindən bəhs edir. Bu şeirin baş qəhərmanı isə torağayılardır. Onların yaz çağı oxuması, budaqdan budağa uçuşu şair qəlbini riqqətə gətirir. O da istəyir ki, qüssə-kədərdən uzaq olub, beləcə quşlara qoşulsun, sevinsin, oxusun, bayram etsin:

Torağaylar pırr edib uçdular torpaqdan,
Bir də haçan görəcəyəm mən belə bayramı,
    ay Allah! [57, s.10]

Nurəngiz Gün canlı təbiətə - quşa, çiçəyə, böcəyə, ağaca, yarpağa, onları yetirə, bitirən torpağa sevgi ilə yanaşır, sevgiylə qələmə alır. Şairin özü də təbiidir, təbii olduğu qədər də səmimidir, çünki özü də təbiətin bir parçasıdır. Bu şeirlərdə o həm də özünü ifadə edir.

Ədəbiyyatşunas alim Yaşar Qarayev yazır: "Elmi - texniki tərəqqi dövründə təbiətin səsinə daha çox qulaq asmaq lazımdır. Qoy texnikanın səsi poeziyamızda dənizin, bulağın, çayın, küləyin, meşənin səsini batırmasın" [105, s.79]. Daha sonra

alim haqlı olaraq göstərir ki, tehnikaya, krana olan marağın bənövşə məhəbbətinə qarşı çevrilməməsi üçün mənəvi məsuliyyət poeziyanın öhdəsinə düşür.

Şairin **ikinci qisim** şeirlərində təbiət şeirləri Vətən şeirləri ilə birləşir, çuğlaşır, onları ayırmaq, fərqləndirmək qeyri-mümkündür. Məsələn, "Quş, məkan, şair və Vətənə dair aydın cavab", "Torpaq yuxularım", "Ora bizimki deyil", "Yol uzunu arzular", "Yalnız ilğım müstəsna" və s. kimi şeirlərində təbiət füsunkarlığı, gözəlliyi ilə bərabər həm də müqəddəsləşir, çünki bu Vətənin təbiətidir, Vətənin otu, çiçəyi, torpağıdır!

Qayıtdım bu torpağa
Bu torpağa dönüncə
dizlərim titrəyir....
Bu torpağın önündəyəm,
Eləcə mil durmuşam,
dil tutulub, nəfəs təntiyir... [57, s. 15]

Şair bir çox xarici ölkərə səyahət edir, müxtəlif insanlarla, təbii gözəlliklərlə qaşılaşır. Lakin yalnız Vətənə qayıdanda bu torpağın önündə dizləri titrəyir, nəfəsi təntiyir. Çünki bu torpaq əyilməz, basılmaz böyük Vətəndir! Öz ağrıları, həsrəti ilə bərabər onundur. Onun həyatıdır, arzuzu, xayalı ilə bütövlükdə onun özüdür.

"...Bu torpağın üstündə Araz adlı bir çay axır...// Qubar dolu suyundan hönkürüb şərbət içmişəm... // Kənarında çəpər var!.. Bu çəpərin küncündə ölmək üçün üç arşın yer seçmişəm..." – Qara torpaq önündə əyilən lirik qəhrəman bu torpaqda uyuyan ulularını da xatırlayır. Adi, qara torpaq ona görə müqəddəsdir ki, onun qoynunda əzizləri yatır. "Bu torpağın üstündə bir qoşa məzar var. // Bürünüb göz yaşına, sərilib soyuq daşına, // bu candan ruh çıxınca, tabım, tavanım çatınca içim yanar, yaxılar...// biri atam, biri anam?!" - deyir şair. "Torpaq yuxularım" adlı bu şeir torpağın təsvirindən çıxıb Vətənləşir, ululaşır, müqəddəsləşir, insaniləşir... Şairin keçmişi ilə bu günü birləşir.

Xalq şairi Sabir Rüstəmxanlı yazır: "Nurəngiz Gün uzaq xatirələri, unudulmuş yurdları, köhnə sevgiləri yada saldıqca onların rənglərini də yada salır, unudulmuş arxaikləşmiş kimi görünən sözlər onun şeirlərinin nəbzinə çevrilir, söz xalısına

vurulan bu qədim, təbii rənglər, pası təmizlənmiş kəlmə çeşmələri onun ifadə tərzini fərqləndirən cəhətlərdəndir" [193, s. 6].

Şair növbəti bir şeirində yenə üzünü təbiətə tutur; lakin bu şeir də sırf təbiət hadisəsi deyil. Müəllifin lirik qəhrəmanı "Hansı daha yaxşıdır?!" sualına cavab axtarır:

- Hansı quş daha yaxşı?

- Qaraquşdan, bayquşdan,
darğa qarxadan başqa
hamısı...
Ən sevgilisi –
.... fikirli, boynu bükük Şənəbub... [57, s. 17]
`

Çünki onun oxuduğu nəğmələr daha çox düşündürücüdür. Sonrakı sual:

- Hansı məkan daha yaxşı?

- Tikansızsa hasarı,
demək olar hamısı...

Ən dadlısı –
O məkan ki, azadlıq

qoxuyur onun
göylərində ab-havası.

Və azadlıq havasının... küyü yox,

Özü gəzir təbəssümdə, gözlərdə. [57, s. 17]

Nurəngiz Gün sözləri, ifadə vasitələrini çox diqqətlə, qayğı, sevgi ilə seçir, "Lirik mən"ini ifadə edə-edə Vətəni də, onun torpağını, daşını, havasını, suyunu, azadlığını da ifadə etmiş olur. Vətəndə hər şey gözəldir. Yaşıl çəmənin al-qırmızı çiçək qoxusu ilə birgə, yaşıl dünyanın özü bir xoşbəxtlikdir. Lakin ən böyük xoşbəxtlik Vətənin azadlıq qoxusudur! Azadlıq ab-havasıdır. Bu. Nurəngiz Gün poeizyasının başlıca, əsas qırmızı xəttidir. Vətənin poetik təsvir və tərənnümü də bu qırmızı-qızılı xəttdən keçir.

Nəhayət, "Ən yaxşı Vətən hansıdır" sualına cavabı da maraqlıdır: "Türkün eli böyükdür, o Vətən ki, basılmayır ulusu! Və insanı!" [ 57, 17-18]

Göründüyü kimi, şeir təbiətin təsviri ilə başlayır, Vətənin azadlıq havası ilə

bitir. Görkəmli ədəbiyyatşünas Yaşar Qarayev “Poeziyanın illəri və yolları” məqaləsində yazır: “Müasir şeir artıq, “Təbiət lirikası”, “Məhəbbət lirikası” və “İctimai lirika” kimi bir qəlbə və sxemə sığa bilmir. Onlar arasında sərhəddi müəyyən etmək həmişə çətin olmuş, indi isə lap mürəkkəbləşmişdir. Bu gün təbiət problemi birinci dərəcəli ictimai və birinci dərəcəli müasir problemdir. Ana təbiətin insan və bəşər həyatında nəinki əxlaqi-estetik amil kimi, hətta ictimai Vətəndaşlıq amili kimi də rolu xüsusilə aşkar, göz qabağında, qabarıq olmağa başlamışdır” [ 105, s. 80].

Təbiət- Cəmiyyət - Vətən özü də ayrılmaz, bütöv varlıqdır. Bütöv də xarakterizə olunur. Onlar bir-birinə qarışmış, çuğlaşmış formada təzahür edir. “Və bizi də bu günkü təbiət lirikası birinci növbədə məhz humanizmin və Vətəndaşlığın ifadə olunduğu lirika kimi maraqlandırır. Həm füsunkar, həm də düşünən, müdrik, fəlsəfi təbiət obrazı bugünkü lirikada xalis ictimai bir obrazdır” [105, s. 80].

**“Yol uzunu arzular”** şeirində Nurəngiz Gün ideyasına, arzu-niyyətinə sadiq qalaraq xəyallarının, yuxularının çin olmasını düşünür. “Vətənin gecələri də Salim olaydı,// pəncərələr aya, Günəşə açılaydı; // torpağım nura qarışaydı; // yurd qeyrəti hər şeydən ucada dayanaydı”. Bir sözlə:

Yuxular çin çıxaydı,
Gömgöy bənövşə arzular
Nə saralıb, nə solmuş olaydı,
...Bir gün də bir sübhçağı
Təbrizimlə Bakımda
Şəhid ruhlar... məzarlar
Vüsal cəngilərindən
agah olmuş olaydı! [57, s. 31]

Burda da şeir yenə təbiətin tərənnümü ilə başlayır, lakin Vətənin bir yarasının ağrısı və bu ağrıdan doğan acı həsrət ilə bitir. Vətən anlamında Təbrizlə-Bakı qoşa qardaş olsalar da bir-birinə həsrətdir. Arada rəqiblər dayanıb. Nə vaxtsa bu həsrətə son qoyulacaq, onda şəhid ruhları da vüsal cəngilərindən oyanacaqlar!.. Bu, şairin ən böyük arzularından biridir.

“Təbii sərvətlər həm də mənəvi sərvətlərin beşiyidir. Əxlaqı saflıq və bütövlük üçün məsuliyyət problemi ilə bağlı anlayışdır. “Təbiət” və “Cəmiyyət” poeziyası lirik və ictimai poeziya indi qarşı-qarşıya durmur” [ 105, s. 78]. Çünkü onlar bir-birinin izləyir və eyni arada təsvir, tərənnüm olunur.

Nurəngiz Günün məhşur əsərlərindən biri onun **“Yol gedirəm”** şeiridir. Şeirə şairin və ya onun lirik “mən”inin ömür yolu da demək olar. Çünki əsər ömür boyu gediləcək bir yolu təsvir edir. Təkcə yolu yox, həm də uğrunda çabaladığı, mübarizə apardığı müqəddəs arzuları, görüləcək işləri də tərənnüm edir:

Dodaqlarımda təbəssüm,
Bəbəklərimdə ümid və qürur,
İçimdə ağlamaq ehtiyacı... [57, s. 9]

Şair o qədər sakit, sadə şəkildə təsvir, tərənnüm edir ki, oxucu bu yolu çox aydın görür: Üzü dağlara qalxan ot basmış ulu bir yoldur. Bu yolda bir tənha yolçu addımlayır. Dodaqlarında təbəssüm, gözlərində ümid, qürur əks olunsa da, hiss edirsən ki, tək olduğu üçün daxilən çox kövrəkdir, incədir, dindirsən göz yaşları selə dönəcək... Bu uzaq yolu tək getdiyi üçün kimlərdənsə incikdir. Amma bunu hiss etdirmir. Çünki qürurludur, sadəcə yolunu, öz yolunu tutub təmkinlə gedir:

Saçlarımda rüzgarım,
Ruhumda ana laylası,
Başımda məğlub eşqim,
Yol gedirəm, sinəm qaralanadək... [57, s. 9]

Bu yolda ona kömək edən, təpər verən əsən sərin rüzgar, anasının laylası və xeyir-duasıdır. Baxmayaraq ki, “önündə silsilə dağlar, sərt qayalar, soyuq dəniz” var, həm də qürub çağına az qalıb, yenə yolundan dönmür, çünki məramı, məqsədi qətidir.. Amma, yox, - heç də tək deyil:

Arxamda sarp enişlər,
Çiynimdə Günəş tayası,

Ağuşumda Jaləm və titrəyişim...
Yol gedirəm, yol olanadək... [57, s. 9]

Heç vaxt batmayacaq Günəş onunladır; Ağuşundakı körpə qığıltısı, titrəyişi, qorxusuz, qayğısız gülüşü də onunladır! Bu yol onun olanadək, məqsədinə çatanadək gedəcək! Sona qədər gedəcək! İnsanlardan uzaq düşsə də bu dağlar, dərələr, sarp enişlər onunladır! Deməк, lirik qəhrəman öz yenilməz gücünü, qüvvəsini təbiətdən, onun tükənməz sehirli, sirli rüzgarından alır!

Əsər Nurəngiz Gün yaradıcılığının manifestidir, pasportudur, - desək, yanılmarıq. Onun həyatının mayası, qayəsidir, - desək, yenə yanılmarıq. O qədər təbii, inandırıcı, səmimi deyilib, yazılıb ki, heyrət etməyə bilmirsən.

Sabir Rüstəmxanlı Nurəngiz Günün "Yol gedirəm" kitabına yazdığı ön sözdə ən çox bu şeir haqqında maraqlı fikirlər söyləyib: "Yol gedirəm yol olanadək" misrası... şair ömrünün mənasını gözəl ifadə edir". Daha sonra Sabir yazır ki, "Amma bu qəribə bir yoldur. Günlərlə evindən bayıra çıxmasa belə Nurəngiz xanım həmişə bu yolun üstündə və həmişə hərəkətdədir. Bir ucu ana dünyasında, bir ucu Günəşi öpmək həsrətində olan bu yol əbədiyyət yoludur; görüşlər, ayrılıqlar yoludur; eniş-yoxuşları, dolanbacları ilə bərabər doğma yoldur... şeirlər isə yol üstü düşüncələridir" [193, s. 4].

Sabir Rüstəmxanlının şeirə yanaşması da orijinaldır, dəqiq və aydındır. Əslində təbiət də, yol da rəmzidir, lakin, eyni zamanda, həm də realdır, həqiqətdir. Bu şeirdə Təbiət və İnsan bir yerdə, bir arada, bir məkanda əks olunur.

**"Bu axşam"** şeiri şairin uçan xəyallarının bir axşamlıq ovqatıdır. "Əgər qəh-qəhə çəksəm, dolu buludları qucmaq istəsəm, dəli deməzlər ki, mənə"? Şair xəyalı susqun çəmənə sərilib, dərdini dinləmək istəyir. Çünki bu çəməndə, bu yaşıl təbiətdə böyük Türk şairi Nazim Hikmət uyuyur. Lirik qəhrəman onun qəbri üstündə onunla dərdləşir, onunla danışır:

Üz tutub, əl uzadıb günbatana
Elə bu axşam
Uzaq üfüqlərini haylasam,
Haraylasam səninçün,
Bax bu daş bəbəklər,
Qranit ürək üçün

Dəli deməzlər ki mənə?”...     [57, s.  30]

Bu şeir də təbiətlə, onun təsviri, tərənümü ilə  başlayır. Lakin yurdundan, yuvasından  uzaq düşmüş, qərib çəmənlikdə əbədi  uyuyan  şair Nazim Hikmətə deyilmiş bir elegiya ilə bitir. Şair  “Əhli kef Türkünün ən Yalqız Nəhəngi!” deyə müraciət etdiyi Nazim Hikmətə daha bir şeir həsr edib. Nazim Hikmətin məşhur şeirindən epiqraf gətirdiyi bu poetik  parça da bir peyzajdır. “Su başında  durmuşuq, mən, pişik, bir də çinar..” Şeir Nazim Hikmətə məxsus poetik  axınla davam edir. Şairin könül  duyğuları  göl ətrafında dolaşsa da,  qəmli notlarla ötsə, oxusa da, bu torpağı, gölü,  həyatı sevir, onlara bağlıdır. Nurəngiz Günün  qələmi ilə təbiətin bir parçası canlı,  xarakterik bir obraza çevrilir. ( Bu şeirlər haqqında yuxarıda yazılıb. Lakin həm də təbiətlə, insanla bağlı olduğu üçün burda da qeyd etməli olduq.)

Nurəngiz Günün “Zaman özü təsdiq etdi”, “Üç ilğım”, üç təsəlli”, “Kövrək cüyür, ürkək  cüyür”, “Can durnalar, qorxursuzmu?!”,  “Qərib Xədicə gülü, qıl körpüsü və  qəfəssiz bülbüllər”, “Qanadsızlıqdır”, “Bəyaz dünya yaşamada”, “Meşə balladası”, “Dinlə qızılım,  torpaq” kimi şeirləri  üçüncü qisim təbiət şeirlərinə  aid etmək olar.  Bu əsərlərdə  canlı təbiətin təsviri ilə yanaşı  şairin lirik “Mən”nin düşüncələri də xüsusi yer alıb. Bu düşüncələr daha çox fəlsəfi çalarla  müşahidə olunur. Təbiətə, onun qaynar həyatına fəlsəfi baxış daha çox  önəm daşıyır. Məsələn, şair bülbülü  qəfəsdə görür. Amma bülbülün məsgəni güllü-çiçəkli bağça-bağdır. Dar qəfəsdə  donub qalmış bülbül  çətin ki, oxuya  bilsin. Odur ki, şair son qəpiyini  verib qəfəsi alır və onun qapağını açıb bülbülü təbiətə  uçurur:

Aldım bu qəfəsi,
Açdım bu qəfəsi,
Açdım və  buraxdım səni,
Uç, uç!
Geniş ormanlar yaxşıdır,
Baxma ki, pələngi, aslanı var.
Toxunmaz onlar sənə..
Uç, uç...
Ormanlar bir yaşıl nağılın yağışıdı...[57, s. 38]

Şeirin ahəngində təbiəti sevməklə yanaşı bir humanizm, yaxşılıq, nəcib keyfiyyətlər də aşılanır. Azadlığın - yaşıl çəməndə, gülün qoynunda cəh-cəh vurmağın həsrətini çəkən bülbül üçün bundan böyük xoşbəxtlik ola bilməz:

Uç bülbül!
Halal xoşun olsun sənin,
Intizarı saralmış,
Qocalmış Azadlığın! [57, s. 38]

Və ya onun **"Zaman özü təsdiq etdi"** şeirində dibçəkdə əkilmiş toxumun aqibəti təsvir olunur. Nə qədər qulluq edilsə də, torpaq, su verilsə də toxum cücərmir, bir-birinə sarılıb məhv olan cücərti, şairin fikrincə, yəqin ki, geniş, dərin torpaq qatı, böyük meşə arzusundadır. Odur ki, bu dar, havasız qabda, dibçəkdə böyüyə bilmir. Bu da təbiətin öz qanunauyğunluğudur, spesifikasıdır. Onu dəyişdirmək cılızlığa, adiliyə, heçliyə gətirib çıxaracaq. Dibçəkdə palıd əkənlər də var. Amma bu təbii ki, təbiətdəki əsrarəngiz palıd olmayacaq. Yalnız onun cüzi oxşarına çevriləcək:

O meşənin bu toxumu
bu güldanda bitə bilməz.
Bir ağıllı demiş bunu –
Bitsə də nə faydası,
Kara gəlməz, çiçək tökməz,
üzə gülməz. [57, s. 44]

Şairin "Pələng yuxusu" da eyni məqsəd, eyni ahənglə yazılıb. Təbiətin, meşələrin şahı hesab olunan pələng dəmir qəfəsdədir. O meşədəki azadlığını, sevincini, xoşbəxtliyini indi yalnız yuxularında görür: "Dəmir qəfəsdəki o pələng – //o dəmir qəfəsdəki yuxusunda gördü ki, // yan-yörəsində balta, bıçaq, rəndə var...// Qəfəsdən o üzdəsə yaşıl ağaclar...// Dəmir qəfəsdəki o pələng// Gecə yarı bir nəfəsə // Hücum etdi o qəfəsə...." [ 57, s. 49]

**"Kövrək cüyür, ürkək cüyür"** şeirinin qəhrəmanı maral balası təbiətin qoynunda, çöldə, düzdə olsa da həyatı üçün təhlükə çoxdur. Çünki "Çöllərin gözəllik carçısı"nın nə arxası, nə dayağı, nə hayanı var. Bu zərif varlıq hər an ovçu tələsinə

düşə bilər. Özünü qorumaq üçün isə təbiət ona nə buynuz, nə tikan, nə zəhər verib. Yalnız badamı gözləri, ürkək baxışları, qaçacaq uzun qılçaları var... Çöllərin ürkək, ala gözlüsünün həyatı yalnız bu vəhşi təbiətdə insanların insafına, vicdanına, mərhəmətinə qalıb. Meşələrin şahı pələngdirsə, kraliçası da bu cüyürdü:

Kövrək cüyür, ürkək cüyür,
Gəl bu düzdən çıx get, cüyür! [57, s. 52]

Nurəngiz Gün, göründüyü kimi, təbiət şeirlərində təbiətə, onun sərvətinə, gözəlliklərinə daha böyük, geniş rakusdan yanaşır. Onun baxış bucağında yurdsevərlik, insanpərvərlik dayanır. O hər otun, çiçəyin dilini bilir, nəfəsini duyur, sonra vəsv edir və təbiətin qayğısını, narahatlıqlarını da dilə gətirir, üzə çıxarır. Oxucusunun əlindən tutaraq bu təbiəti gəzdirir və onun təbiiliyini qorumağa çağırır. Arada təbiətin nizamını, düzümünü pozmamaq üçün çaldığı həyəcan təbilində də bir ürkəklik, ehtiyat intizarı var.

**"Böcəklə böcəkçiyin səyahəti"**ndə adamların ayağı altında qalacaq böcəklərin taleyindən nigaranlıq təbii, axarı bir dillə bəyan edilir. Müasir insanla qədim insanlar böcək dilində müqayisə olunur.

**"Meşə balladası"**nda susuz qalmış, palıdı ayaqüstə ölmüş, maralı qocalmış, kirpisi müavin olmuş, tülküsü başqa yerə dadanmış, çaqqalları naqqallıq edən meşənin bugünkü durumundan, xoş olmayan vəziyyətindən söhbət açılır.

**"Ört üstümü, ört meşəm"** şeirində vələsin dili ilə təbiətdən – meşədən onun sərinliyindən, gözəlliyindən, başqa canlılardan uzaq düşməsindən, şəhər həyatında yaşamağın çətinliyindən bəhs olunur:

Aç qoynunu, aç meşəm!
Mən səninçün qəribsəmişəm!
Aç qoynunu, aç meşəm!
Söz deməyə gəlmişəm! [57, s. 103]

Beləliklə, Nurəngiz Gün poeziyasında təbiət və onun əsrarəngiz gözəllikləri, həmçinin Vətənin təbii, müqəddəs torpağı, ulu dağları, axar çayları, sirli meşələri istənilən səviyyədə, yetərincə təsvir və tərənnüm olunub. Şairin şeir dünyasında

poetikləşmiş canlı bir təbiət obrazı yaradılıb. Bu təbiətdə hər şey var. İnsanlar da və bütün digər canlılar da. Yəni təbiət bütöv halında əks olunub. Eyni zamanda, onun yaradıcılığında təbiət peyzajları da xüsusi yer tutur.

Əvvəldə qeyd etdiyimiz kimi, şairlər öz ilkin ilhamını təbiətdən, onun gözəlliklərdən alırlar. İlk qələm təcrübələrini də məhz bu təbiətin vəsfinə, tərənnümünə həsr edirlər. Xüsusilə bu təbiətin göz oxşayan quşqonmaz dağları, al-yaşıl dərələri, sıx meşələri, buz bulaqları olanda. Elə Yardımlının təbiəti kimi. Bu yerlər **Sabir Rüstəmxanlının** poeziyasında özünəməxsus şəkildə təbii, real, incə, zərif boyalarla yetərincə təsvir, tərənnüm olunur:

Suların sinəsində kölgə olub axırıq,
Gözəlliyin önündə dayanıb, lal baxırıq,
Zirvələrin başına dolanırıq, qalxırıq,
Yardımlı yollarında... [186, s. 13]

Dağların başına dolanıb qalxan yollar boyu təbii gözəllikləri görmək bir duyğulu hissdirsə, onu özününküləşdirib vəsf etmək xüsusi istedad, daha böyük ürək tələb edir. "Yarıb dumanı, çəni zirvədən qartal uçur...// Meşələrin sükutu adamları qorxudur... // Yardımlı yollarında..."

Təbiətlə üz-üzə, göz-gözə dayanan şair öz arzusunu, niyyətini, istəyini də dilə gətirir. Ən azından o da təbiətin bir parçasıdır, bir hissəsidir. Deməyə haqqı var ki,

Min illik palıdlardan bir ömür borc alaydım,
Keçilməz dərələrə özüm körpü olaydım,
Buz sulu, saf aynalı bulaq olub qalaydım,
Yardımlı yollarında... [186, s. 13]

Əbədi olanların yanında, təəssüf ki, insan ömrü çox qısadır, anidir, ötəridir. Bunu bilən şair öz ömrünü söz ömrünə calayır. O söz ki, lirik qəhrəmanın mənəvi dünyasıdır. Elə bu dağlar, dərələr, yollar qədər zəngindir, füsunkardır, sevgiyə sədaqətlidir və əbədidir:

Azərbaycan yollarının ilqarı dönməz,
Bu yol ilə düzlük gedir, həqiqət gedir.

Azərbaycan yollarının sonu görünməz,
Əvvəlisə nəğmə kimi qəlbimizdədir! [186, s. 18]

Sabirin təbiət şeirləri dərhal Vətənləşir və onun ağrısının, acısının vəsfinə keçir. Bir şeirdə həm Vətənin təbiəti, onun təbii gözəlliyi var, həm də onun nisgili, dərdi, ağrı-acısı əks olunub. Yardımlı yollarının bütöv Azərbaycan yollarına gedib çıxdığını göstərən şair onların əbədiyyət olduğunu bir daha vurğulayır. Sonu görünməyən bu yolun əvvəli ululardan keçib gəlib, Azərbaycanın Bütövlük rəmzidir. Lakin əriş, arğac kimi Vətənin belinə dolanan yolların, təəssüf ki, bu gün çoxu qırıq-qırıq, kəsik-kəsikdir.

"Tufanların qılıncıyla qırılmayan yol, // Füzulinin məzarında qırıla bilər..." Və ya başqa bir istiqamətdə, başqa bir yöndə talan edilən, dağılan, yağmalanan yol da var: "Bir yol gedib itkinlərlə itib uzaqda, // Bir cüt yol da Babəkimin kəsik qolları!" Cənuba, Şərqə uzanan yollar kəsik-kəsik, qırıq-qırıq olsa da, iti yaddaşlarda, böyük, ulu sözlərdə və bütöv dildə - ana dilində bu Bütövlük, Birlik yaşayır! Yəqin sabahların birində o yollar bərpa ediləcək! O, qırıq, kəsik yollar - qollar birləşəcək, bütövləşəcək! Bütöv Azərbaycan yaranacaq!

Qabilin bu mövzuda məşhur misraları var:

Astara yolları uzanıb gedir
Təbrizə birbaş!
Geri dönməliyik bu yolu qardaş!..

Sabir Rüstəmxanlının lirik qəhrəmanı bu yolun kəsiyindən hayqıraraq sanki deyilənlərə, olanlara cavab verir:

Geri dönməliyik! – Asanmı məgər?
Düzlərə gör necə duman enibdir!
Təbrizə uzanan bu yollar təki,
Tarixin özü də çəpərlənibdir! [186, s. 29]

Düzlərdən keçən yollar çoxdan dumana bələnib və çəpərlənib! Keçmisə dönmək, o yolları bərpa etmək çətincə, yenisini çəkmək, yaratmaq daha asan və mümkündür! Amma şair olanlara hələ ki, başqa bucaqdan, başqa rakusdan yanaşır:

Yollarım qırılmaz, baharım solmaz,
Araz qırağında batmayaq yasa!
Sərhəd çəkilməklə millət ayrılmaz,
Ruhunda ayrılıq yaranmayıbsa! [186, s. 29]

Təbii yollar çəpərlənib bağlanıbsa, ürəkdən-ürəyə gedən, ruhumuzda yaşayan, əbədi olan bir yol da var! Bu yol Ana dilindən keçir. Demək, bu yolu olan milləti, xalqı ayırmaq, parçalamaq mümkün deyil! Ruhumuz sərhədsiz olduğu üçün payımız da elə o sərhədsiz göylərdən enib gələcək! Şeirin məğzi, mayası məhz bu arzuya söykənir və bu arzuya köklənib. Odur ki, şair həm də ümidlə yazır:

Yollar açılacaq bir gün bilirəm!
Bəlkə Yardımlının dağları üstdən!
Bəlkə Cəbrayılın, bəlkə Culfanın,
Bəlkə, Astaranın bağları üstdən! [186, s. 9]

Sabir Rüstəmxanlının sırf təbiət şeirləri, yəni yalnız təbii gözəllikləri vəsf eləyən poetik nümunələri o qədər də çox deyil. Çünki, o təbiət şeirlərini dərhal vətənləşdirir və ya insaniləşdirir. Bəzi halda isə onu siyasiləşdirir. “Yardımlı yollarında”, “Zirvənin dərdi”, “Yollarımız”, “Geri dönməliyik”, “Yardımlının dağları”, “Biçin nəğməsi” kimi onlarca poetik əsərində şair təbiətin tərənnümündən çox Vətənin ağrı-acılarını, onun tarixini xatırlayıb qələmə alır.

Şair öz tarixi yaddaşındakı olmuşları, düşüncələrini, fikirlərini, arzu-niyyətini təbiətə müraciətən deyir. Yəni sözünü oxucuya bu yolla ötürə bilir və istəyinə də nail olur. Son dövrlərdə onun yazdığı təbiət şeirləri də bu mənada saf duyğu – düşüncələrinin əks-sədasıdır,- desək, yanılmarıq. “Bakı küləyi”, “Bakı”, “Dünya gözəldi, ancaq...”, “Oğuz bəyləri”, “Əriyib gedəcək”, “Qış”, “Ayla üz-üzə”, “Qar işığı, ulduz unu”, “Kənd gecəsindən bir işartı” kimi şeirlərində şair təbiət hadisələrini insaniləşdirir, sanki adi, təbii qar-yağışla, dağ-daşla deyil, insanla danışır, insanla dərdləşir, insana müraciət edir:

Salam, qoca dağlar, qocaman dağlar
Bu uzun ayrılıq keçdi an kimi.

Min ildən sonra da qayıdacağam,
Ana qucağına qayıdan kimi! [188, s.162]

Şair düşünür ki, harda olur-olsun, nə qədər vaxt keçir keçsin mütləq bu dağlara qayıdacaq. Min ildən sonra da olsa, ana qucağı kimi bu yerlərə - Vətənin bir parçası olan bu ulu dağlara yenə dönüb gələcək. Sabirin təbiət şeirlərində Dağ obrazı da önəmli yer tutur.

Həmçinin, Sabirin "Dünyadan umduqlarım", "Təsəlli", "Min ildən bir", "Şükür ki, bu dağlar öz yerindədir", "Yenə kənd yolunda" kimi şeirlərində həm Vətən, həm də İnsanlar təbiətin qucağında, bir yerdə, bir arada təsvir, tərənnüm olunur. Bu şeirlərdədə məhəbbət motivləri daha güclüdür. Lakin lirik qəhrəman təbiətin qoynunda öz sevgisi üçün Günəşə yalvardığına görə daha çox təbiətin insaniləşməsinə uyğun gəlir:

Ey gün, daş olub, durma,
Keç, sənə yalvarıram!
Hicranın qədəhini
Iç, sənə yalvarıram!
Qayçıyla saatları
Biç, sənə yalvarıram!
Yarım gəlsin, sonra gör,
Heç sənə yalvarıram? [188, s. 178]

Şairin lirik qəhrəmanı təbiətin qoynunda, Günəşin altında öz sevdiyini gözləyir. Amma vaxt, zaman keçmir, sanki, Günəş də öz yerində "daş"a dönüb, tərpənmək bilmir. Aşiq üzünü Günəşə tutub yalvarır ki, daşa dönməsin, tez keçib getsin.

Əgər keçən əsrin 70-80-cı illərində şairin yaradıcılığında sırf təbiət şeirləri – peysajlar, lövhələr, təbii gözəlliklərin təsvirləri çoxluq təşkil edirdisə, sonralar, yəni Müstəqillik illərində təbiət şeirlərində Vətənin, insanların problemləri çuğlaşmış, qarışmış şəkildə əks olunmağa başlamışdı. Bu mənada Sabir Rüstəmxanlının təbiət lirikasında İnsan, Vətən, Dünya, Həyat, Cəmiyyət baş-başadır.

Buludu yağışdan, çayları seldən,

Ağlı kəsərindən, qılıncı əldən,
Tanrını ilhamdan, nəğməni dildən,
Gözü işığından, ağlı zəhmətdən,
Ayırmaq istəyən qopsun millətdən!     [188, s. 114]

"Əriyib gedəcək" şeirində söhbət təkcə qışda yağan, dünyanı bürüyən qardan, onun əriməsindən getmir. Şair yenə eyni zaman, məkan içində Cahana ayrılıq nəğməsi çaldıran "soyuq havalar"dan danışır: "Qar yağır... dəyişir vaxtın axarı. // Ağ iplər tor hörür sanki zamana..." Və ya "Qar yağır, heyvanlar, quşlar yuxuda, // Qar yağır, ağarır dünya qorxudan.." Qar dənizində özünü canlı alova bənzədən lirik qəhrəman düşünür ki, "Nəğməm susmadıqca mənim üstümdə // Ayrılıq nəğməsi oxunmayacaq!"

Xəlil Rza Ulutürk Sabir Rüstəmxanlının yaradıcılığının ilk dönəmlərindən bəhs edərkən yazırdı: "Rüstəmxanlı poeziyanın geniş və böyük yoluna çıxmaqdadır. Və, əlbəttə, o gözəl bilir ki, böyük poeziya yalnız tərənnüm ilə yetinə bilməz. Böyük poeziya tərənnümçü olduğu qədər də ittihamçı... və tələbkar poeziyadır"[211,s.46].

"Dünyadan umduqlarım", "Təsəlli", "Min ildən bir", "Şükür ki, bu dağlar öz yerindədir", "Yenə kənd yolunda" kimi şeirlərində şairin məramı, məqsədi təbiətlə baş-başa olarkən qəlbindən keçənləri rahatlıqla söyləməkdir:

... Bir bax, o qayalar qaşında mənəm,
Nə olsun bir yolun sonu yetişdi,
Yenə bir cığırın başında mənəm...
Yollara can verdim yol aza-aza,
Yenə kənd yolunda yapayalnızam... [188,s.168]

Şəhər yolunu kənd yolu ilə birləşdirən şairin lirik "mən"i tək, yapayalnız olsa belə bu yollara can verə-verə onu dağ cığırlarına calayır. Bu lirik qəhrəman həm kəndlə şəhər arasında, həm nəsillər arasında, həm öz nəsli-şəcərəsi arasında, həm də bütöv Vətənin sərhəddi boyunca körpü rolunu oynayır. Körpülər də insan kimidir. Sağ, sol qolları var. Sahilləri birləşdirən körpülər də tək-tək salınır. Tək-tək olur. Şair özü də "Zaman məndən keçir" şeirində bu fikri əyani şəkildə bir daha göstərir və təsdiqləyir:

Keçirtdim tarixi əsəblərimdən,
Dünənlə sabahın körpüsü mənəm. [186, s. 249]

Və ya:

... Bitmişəm yer ilə göy arasında -
Bu süzgəc ilahi iradəsidir...
... İlk nədi, son nədi – ürəyim duyur,
Keçmişə yol alan köçürmüş məndən.
Zamana qoşulub bir ömür boyu
Tanrının özü də keçirmiş məndən. [186, s. 250]

Demək, şairin lirik qəhrəmanı, eyni zamanda, yerlə göy arasında da körpüdür. O, ilahi varlıq - yaradan arasında əlaqələndirici vasitədir - yəni peyğəmbər rolunu da yerinə yetirir. Bəlkə də insan oğlu fərqində deyil ki, onun ruhu yerlə göy arasında əbədi yaşarlıq qazanıb. "Zamana qoşulub bir ömür boyu, // Tanrının özü də keçirmiş məndən!.." - deyən şair elə məhz bunu nəzərdə tutur.

Sabir Rüstəmxanlı yaradıcılığının tədqiqatçılarından biri Sabir Bəşirov yazır ki, "Mən Sabir Rüstəmxanlı şeirlərini mövzusuna görə qruplaşdırmaq istədim: şeirlərin yarıdan çoxu Vətənlə, yurdla bağlıdır. Çox az şeirlər tapmaq olar ki, ana dilindən, yurddan, Vətəndən danışmasın" [27, s. 70].

Sabir Rüstəmxanlının bir şeiri də belə adlanır: "İsa Həbibbəyliyə". Maraqla oxunan bu şeir bir fikri də ifadə edir: Yaxşı insanlar arasında da mənəvi körpülər mövcuddur. Bəlkə də həyatın düzgünlüyünü, saflığını, təmizliyini bu körpülər qoruyur, pislərdən uzaq saxlayır və xilas eləyir. Bir sözlə, yaxşılar həyatı, cəmiyyəti, Vətəni, vətəndaşı tənzimləyir.

Ya dəniz ləngərdə ol, gözlərində dan yeri,
Ya sinən hədəf olsun, ömrün düşmən çəpəri..[186, s.330]

Şair təəssüf hissiylə etiraf edir ki, bəzən qiyməti səndən başda, yuxarıda dayanan nadan sərsərilər verir. Dünyanın ixtiyarlı sərsəriləri, nadanları isə çoxdur. Lakin əsas odur ki, həyatın ləngərli dənizləri də, dan yerindən boylanan al Günəşi də var.

Bu çalışan əlimiz, bu danışan dilimiz,

Bu dağılan yuvamız, bu dözümlü elimiz,

Hər şeyi hökm ilə bölübdür adilimiz. [186, s.330]

Şairin lirik qəhrəmanı düşünür ki, "Uca sandığın alçaq, müdrik dediyin naşı..." bu bölgü qarşısında heç nə edə bilməz. Çünki həyatda heç də hər şey göründüyü kimi adi, sadə deyil. Dünyanın ilahi varlığı və onun ədalətli bölgüsü var.

Beləliklə, Sabir Rüstəmxanlı da təbiət şeirləri ilə Bütöv Vətənin obrazını yaradıb,- desək, səhv etmərik. Azərbaycanı qarış-qarış gəzən şair onun təbiətindən – yəni dağlarından, dərələrindən, meşələrindən, cay-bulaqlarından yazaraq bütün Vətəni tərənnüm edir, Vətəni vəsf edir. Bu da təbiidir. Çünki, Sabir Rüstəmxanlı sadəcə Vətəninin aşiqi, vətəndaş şairidir.

**Qabilin** şeirlərində də təbiətin vəsvi, tərənnümü xüsusi yer tutur. Ümumiyyətlə, şairləri təbiətdən, yəni onun gözəlliyindən, ilk yazından və ya solub gedən payızından, qarlı qışından uzaq, ayrı təsəvvür etmək qeyri mümkündür. Hər kəs, hər bir insan təbiəti bu və ya başqa halında, düzümündə görür, təsirlənir, dərk edir. Lakin şairlər təbiətin həm də dilini, sirrini, sözünü bilir, duyur, anlayır. Onlar üçün bu kainat - təbiət bir enerji, ideya, ilham mənbəyidir. Bu mənada Qabilin ilk qələm təcrübələrindən tutmuş Müstəqillik illərində - ömrünün müdrik çağlarına qədər yazdığı təbiət şeirlərində biz onun təbiətə vurğunluğunun şahidi oluruq. Şair təbiətə insan kimi müraciət edir və təbiəti daha çox insanilәşdirir. Daha dəqiq desək, onun bu tip şeirlərində Vətən - Təbiət - İnsan vəhdət halındadır. Bir arada vəsv olunur.

Təbii ki, şair ilk gəncliyində sırf təbiət şeirlərinə daha çox üstünlük verib. Güldən, çiçəkdən, ilk bahardan, qardan, qışdan və s. yazıb. Lakin sonrakı dönəmlərdə bu sırf təbiət şeirlərinə insan, onun ovqatı, təbiətə münasibəti, ona bağlılığı da əlavə olunub. Şairin yeni şeirlərində insanın xarakter, xüsusiyyətləri məhz təbiətin qoynunda açılıb, tərənnüm olunur. Qabilin haqqında danışdığımız poetik nümunələri həm təbiətin, həm də insan ömrünün fəsillərinə hesablanıb. Çünki, insan ömrünün də fəsilləri var. Gəncliyi yaza, orta yaş dövrünü qaynar yaya, müdrik çağlarını payıza, ahıl yaşlarını isə qışla müqayisə ediblər. Odur ki, Qabilin təbiət şeirlərinin baş qəhrəmanı təbiətlə yanaşı həm də İnsandır. Şairin Müstəqillik illərində çap olunmuş "Dənizlər mavidir, meşələr yaşıl" adlı şeir toplusu bu mənada çox

xarakterikdir. Kitabda toplanan şeirlərdə İnsanla Təbiət bir arada xarakterizə olunur. Əksəriyyəti sujetlidir. Şeirlər hər hansı bir hekayəti, anı, yeri, vaxtı əhatə edir. Bəzən yumoristik bir dildə, bəzən isə lirik tonda təsvir olunur. **"Yarpaqlar tökülür"** şeirinə nəzər salaq. Şair Təbiət-İnsan-Gün faktorunu bəzən yan-yana, bəzən də üz- üzə əks etdirir. Fəsildə payızın axırlarıdır. Insan ömrünün də payızıdır. Günün isə qürub çağıdır:

-Şeş-qoşa!
-Pənc-çahar!
Nərd atır qocalar...
Bir şəhər bağında,
Bir payız çağında...

Yaşlı kişilər ən çox sevdikləri "Nərtaxta" oyunu vaxtı həm də söz-söhbətləri ilə dünənə, sabaha üz tutarlar. Sabaha, gələcəyə bu günün gözü ilə baxarlar:

-Xəzandı, Mirələm!
-Görürəm...
Yenə yaz gələcək,
Çöl-bayır güləcək.
-Biz necə?
-Biz çətin...
Yetişib növbətim, növbətin... [ 96, s.344]

Şair İsa İsmayılzadə "Yollar, sizə minnətdaram" məqaləsində bu şeir haqqında yazır: "- O qədər psixoloji dəqiqliklə yazılıb bu şeir, - oxuduqca oxumaq istəyirsən. Özünü o qocaların yerində görürsən, özünə də, onlara da yazığın gəlir. Psixiloji detallar məni heyran elədi: yağışlı-çisginli payız günü, ömrün qürub çağını yaşayan iki qoca - hər dəfə yaza çıxmaq ümidi ilə yaşayan qocalar..." [88, s. 393].

Dumanlı hava, narın-narın yağan yağış, külək əsdikcə ağaclardan tökülən saralmış yarpaqlar və nərtaxta oynayan iki qoca kişi... Şair, bu lövhəni sanki bir rəssam fırçası ilə çəkib.

Qabil üçün mövzu qıtlığı yoxdur. Ən adi təbiət hadisəsindən, onun küləyindən,

yağışından, gülündən, çiçəyindən bənzərsiz şeir nümunəsi yarada bilir. Amma bu şeir təkcə təbiətlə məhdudlaşmır, orda mütləq insan obrazı da var və bu poetik lövhələr İnsana xidmət edir.

Ümumiyyətlə, Qabilin poeziyasında – ayrı-ayrılıqda bir çox şeirlərində dəqiq lövhələr çoxdur. **“Suqovaşanda”** əsərində Kürlə Arazın qovuşduğu məkanda şairin lirik qəhramanı təbiətdən, Vətəndən, məhəbbətdən bəhs edir. Suqovuşanı seyr eləyən Aşiqlə Məşuqun timsalında şair həm əsrarəngiz bir təbiət lövhəsi, həm də məhəbbət lövhəsi yaradıb.

**“Dünya”** şeirində təbiətlə yanaşı kainat da baş qəhrəmandır. “Dünya məndən doyub, mən dünyadan doymamışam”- deyən şair düşünür ki:

Dunyadan doymur kəpənək,
Doymur qanqal, gül-çiçək,
Doymur ağıllı-divanə...
Vallah inanın doymayır,
Dünyadan dünyanın özü! [99, s. 73]

Şeirin fəsəfi yükü ağır olsa da, həm də təbiətlə bağlıdır.

“Bütünlükdə Qabil şeiri üçün sözçülük, uzunçuluq yaddır. O, həmişə ümumi sözlərdən qaçır, həyat həqiqətinin realist təsvirinə, detalların təbiiliyinə və seçilib yerləşdirilməsinə xüsusi tələbkarlıqla yanaşır. “Qoy danışsın təbiət”, “Quba bağları”, “Adsız bulaqlar”, “Göy-göl” və bir sıra digər şeirləri deyilənlərə parlaq sübutdur” [170, s. 349].

Həmçinin şairin müxtəlif vaxtlardan qələmə aldığı , **“Göylərin ürəyi”**, **“Hind okeanı”**, **“Axşam qəribliyi”**, **“Heç nə”** kimi şeirləri təbiətin müxtəlif anlarının, zamanlarının əks - sədasıdır.

Qabilin təbiətlə bağlı bir şeiri var: **“Üzr istə”**. Şeir Xalq şairi Zəlimxan Yaquba müraciətlə yazılıb. Televiziyada çıxış edərkən Zəlimxan Yaquba verilişin aparıcısı sual verir: “Dənizə münasibətiniz necədir?” Şair də böyük coşqu ilə cavab verir ki, mən dənizi sevmirəm, o adi sudur. Mənimki dağlardı, meşələrdi, buz bulaqlardı. Mən

orda göz açmışam, böyümüşəm...” Bu söhbət Bakıda-Xəzərin qumlu sahillərində böyüyən Qabilin xoşuna gəlmir. Dərhal Zəlimxana poetik cavab verir:

Zəlimxan, dənizdən gəl üzr istə,
Özün öz sözünə gül, üzr istə!
...Ana Xəzərimdən gəlməyir xoşun?
Zümrüd sularına qonmayır quşun?
...Ləpələr ərk ilə silləl追 səni,
Dalğalar qeyz ilə silkələr səni! [100, s. 53-54]

Şair bütün şeir boyu Zəlimxanı tənbeh edib, qınayır:

Olmaz sərin baxmaq sərin Xəzərə!
Nizamilər qədər dərin Xəzərə...
Xəzər su olsa da, adi su deyil, şair!
Xəzərin qiyməti bu deyil, şair...

Sonra Zəlimxana məsləhət, öyüd də verir: “Qanın qaralanda Xəzərə tapın, // Qəlbin daralanda Xəzərə tapın...// fərəhdən uçanda qağayıya dön,// aç qanadlarını göy sulara en!...”

Göründüyü kimi, Qabilin şeirdə tərənnüm və vəst etdiyi duyğular, hisslər bizim ədəbi, əbədi mənəvi dəyərlərimizdir.

Şairin Maarif Soltana həsr etdiyi **“Bal gətir”** şeiri də təbiətin özəlliyindən bəhs edir. Min dərdin dərmanı olan təmiz bal yalnız dağlarda olar. Odur ki, şair İsmayıllının təbiətini xüsusilə vəsf eləyir. Bu yerlərin təbiəti də, balı da həm loğmandır, həm də dərman:

İsmayıllı qalın orman,
Gətir ormanlar balını.
Adı baldır, özü loğman,
Gətir loğmanlar balını... [100, .s. 123]

“Doğurdan da, Qabil təbiəti... poeziyada bənzərsiz təsvir vasitələri, əlvan poetik misralarla canlandıra bilir, onun təbiət lövhələrində yalançı, süni boyalar, nəqşlər tapmazsan”. [226, s.365]

Qabilin **"Dənizlər mavidir, meşələr yaşıl"** adlı şeiri bir körpəyə həsr edilib. Şair hələ bələkdə olan körpəyə müraciətən həyatın sərt üzündən, döngəsindən, danışır. Dünyanın yazı ilə yanaşı qarlı, tufanlı qışının da olduğunu xəbər verir:

Dənizlər mavidir,
Meşələr yaşıl,
Yat mışıl-mışıl... [100, s. 21]

Dünyanın – Kainatın - Təbiətin qoynunda göz açan insan üçün sabahların, gələcəyin necə olacağı hələ bəlli deyil. Şair məsləhət görür ki, böyüməyə tələsməsin. Çünki "Bir beşik, bir məzar, bir əvvəl, bir axır var... Bir də nöqtələr..." Odur ki, sona - məzara çatmağa tələsməyin. Şair düşünür ki, görəsən bu beşiklə - məzar arasındakı ömürdə bu körpə necə insan olacaq, salimmi, zalimmi, alimmi... o da sual altındadır. Lakin şair nikbindir:

Gündüzü doğmurmu
Qaranlıq gecə?
Dahilər beşikdə
Dahi olurlar?
...Beşikdən qalxmayıb
Bəs bəşər məyər? [100, s. 25]

Odur ki, şair ürəklə hökm verir: "Böyü, hər dalğaya, dərdə sinə gər, sifətini mərdə, namərdə göstər!" Bu şeirin də fəlsəfi yükü ağırlıq təşkil edir. Lakin təbiətin qoynunda yatan bir körpənin təsviri daha öndədir.

"Qabil deməli olduğu sözü heç vaxt saxlamayıb. Həmişə düşünüb: tanrı bu şairlik istedadını ona verib ki, xalqına gərək olan sözü desin. O, bədii əsərlərində də sözünü deyib, hətta kürsülərdən də çoxlarının deyə bilmədiyi sözü deyib... " [ 62, s. 428-429].

Şairin **"Ulduzlar"** şeiri Yardımlıya səyahətdən sonra yaranıb. Yardımlı dağlarından göy üzünü seyr edən şair tabaq - tabaq ulduzları görür, əvvəl onlara alimlərin gözü ilə baxır:

Oxumuşam neçə yol, eşitmişəm min kərə,

Ulduzun ən xırdası dünyamızdan böyükdür.
Şüası da torpağa çatır milyon illərə,
Sığmır kiçik ağlıma, şəkkim yaman böyükdür. [100, s.26]

Güclə sezilən, görünən bu nöqtə ulduzların Yerdən böyük olacağına şair inanmır. Sonra bu ulduzları yerdəki "ulduzlarla"- böyük şəxsiyyətlərlə, mütəfəkkir şairlərlə, siyasətçilərlə, sərgərdələrlə müqayisə edir:

Rəfailin fırçası, Magellanın yelkəni,
Nəsiminin inadı, Füzulinin fəryadı-
Min ulduzdan birində olubmu, varmı yəni?
Tək bizim planetin Dünya çağrılır adı! [100, s. 27]

Gürşad döyən, sel-sularının axıb getdiyi Yardımlı dağları bəlkə o ulduzlardan daha böyükdür, daha gözəldir. Qoy göydə yanan ulduzlar gecələr kimlərəsə yol göstərsin, az da olsa işıq salsın, istəsə hər kəs birini də seçib götürsün. Lakin bütün bunlar yerin işığına, nuruna, ziyasına, havasına, torpağına çatmaz ki!

Yeganə dünyamızın əsrarlı yaraşığı!
Məndən incimәzlər yəgin ki, belə desəm.
Almır, bəlkə də verir sizə nuru, işığı
Hava, torpağ, su, atəş - dörd birlik, vahid aləm! [ 100, s. 29]

Bəlkə də bu ulduzların yerdəki insanlara təsiridir ki, birinin sinəsində parıldayar, birinin başdaşında!

"Qabil ədəbiyyat tarixində əsl şair, şeiriyyatimizın daima ən gənc şairi kimi yaşayır və yaşayacaq" [98, s. 422].

Bir çox tədqiqatçılar təbiət və məhəbbət şeirlərinin yaşı olmaz, deyiblər. Çünki bu şeirlər hər zaman oxunaqlıdır. Hər yeni gəncliklə, hər yeni nəsillə birgə sanki yenidən doğulur, səsləşir. Dörd bənddən ibarət olan "Küləkli havalarda, yağışlı havalarda" şeiri bir xatirə formasında yazılıb. Əslində məhəbbət şeiridir, lakin təbiət

hadisələri - onun yağışı, küləyi daha çox göz önündədir. Burda da təbiət və insan bir arada təsvir, tərənnüm olunur:

Külək əsir, titrəyir qapı-pəncərə...
Yağış yağır, şırhaşır düşür şəhərə.
Dalda yerə çəkilir bir qız, bir oğlan
Qorxub yağışdan...Biz də belə edərdik,
Küləkli havalarda, yağışlı havalarda... [100, s. 87]

Nostalji ovqatın lirik qəhrəmanda doğurduğu hisslərin səmimiliyi, reallığı, təmizliyi, müqəddəsliyi baxımından şeir çox zəngindir. "...Qabilin əksər təbiət şeirlərində insan-təbiət qarşılaşması; insanda təbiətə xas gözəlliklərin, əhval-ruhiyyənin, təbiətdə insan sevgisinin əks olunması qabarıq nəzərə çarpır" [226, s. 365].

"Qoy danışsın təbiət" şeiri Vətənin bir parçası olan İsmayıllının təbii gözəlliklərindən bəhs edir. Hər bəndi səkkiz misra olmaqla on beş bəndlik şeiri kiçik poema da adlandırmaq olar. Hər bənddə təbiətin bir özəlliyindən, gözəlliyindən söhbət açılır. İlk bənd:

Günəş gah görünür, gah görünməyir,
Duman gah sürünür, gah sürünməyir,
Dərələrdən axan suların səsi,
Yalqız bulaqların kövrək nəğməsi,
Gah batır, gah da ki, çıxır aşkara,
Ürəyim bürünür xoş duyğulara,
Susmaq istəmirəm, susuram fəqət...
Qoy danışsın təbiət!... [99, s.136]

Sonrakı bəndlərdə meşənin, dağların, taladakı dizə qalxan yaşıl otların, hardasa budanmış ağacın, ağlayan budağın, meşə kənarındakı aynabəndli bir evin... təsvir tərənnümü şairin yaratdığı füsünkar peyzajlardır.

Vaqif Yusifli yazır: "Təbiətdəki gözəllikdən və təmizlikdən söz açanda da şair insanı unutmur, insanda da, onun qəlbində, ruhunda, vicdanında bir təmizlik axtarır.

Həyatdakı mənfi halların müqabilində təmizliyi bayraq edən şair bu anlayışı poeziyada ideallaşdırma nöqtəsinə çatdırır” [ 226, s.364]

“İki dağ” şeirində şair təbiətdəki dağla insan qəlbinə çəkilmiş dağı qarşılaşdırıb müqayisə edir. Adları eyni olsa da, yerləri, ağırlıqları, ölçüləri, təsirləri çox fərqlidir. Biri gözəllik mənbəyidir.  Digəri isə:

Bu dağ ana – bacı dağım,
Ürəyimdə çalın-çarpaz...
İşğal aitında torpağım,
Gözüm baxar, əlim çatmaz... [99, s. 178]

Buna bənzər daha bir şeiri “Göylərin ürəyi” adlanır. Burda şair göylərdən yağan yağışla insanların – qaçqınların, köçgünlərin, didərginlərin, bir sözlə, yurd-yuvası talan olmuş, yağmalanmış insanların gözündən axan yaşı müqayisə edir. Şair düşünür ki, bəlkə təbiətin göz yaşları elə bu insanlar üçündür. Amma yox. Axı insanlar göylərdən göz yaşı yox, nicat diləyir, ümüd gözləyir.

Beləliklə, Qabilin təbiət şeirləri  həm sırf təbiətin, onun gözəlliklərinin, həm də insaniləşmiş təbiətin təsviri baxımından çox zəngindir. Təbiət lirikası Qabil poeziyasında özünəməxsus xüsusi önəm daşıyır. Şairin yaratdığı lirik - emosional lövhələr, poetik təfəkkürün süzgəcindən keçən,  ruhu oxşar misralar insanı həyata, təbiətə, məhəbbətə səsləyir.

Bu üç şairin  təbiət şeirlərini  bir-biri ilə müqaisə etsək görərik ki, Sabir Rüstəmxanlı ilə Nurəngiz Günün  təbiət şeirləri ruhən çox yaxındı. Hər iki şairin təbiət şeirləri  sonda mütləq Vətənləşir. Bu təbiət - ərazilər Arazı keçir, Savalanı, Acıgölü, Təbrizi də əhatə edir. Bütöv Vətənin bütöv təbiətini, bütöv dərdini, ağrısını da tərənnüm edir.

Qabilin təbiət şeirləri isə bir az başqa yöndən fərqlənir. Yəni Qabilin təbiət şeirləri daha çox insaniləşir. Bəzən onlar – Təbiət və İnsan  qarşılaşdırılır, eyniləşdirilir və ümumən Kainatla  bir arada vəsf edilir. Onun yaratdığı lirik-emosianal lövhələr poetik təfəkküründən, həssas qəlbindən süzülərək şeirlərində əyaniləşir.

**Əbülfət Mədətoğlunun** yaradıcılığında **təbiət şeirləriinin** də öz yeri, öz çəkisi vardır**.** Onun istər sırf təbiəti əks etdirmək baxımından, istərsə də təbiəti insaniləşdirərək, ona müraciətən sevgisindən, ağrı-acısından söhbət açmaq baxımından və ya təbiəti Vətənləşdirmək baxımından poetik nümunələri kifayət qədərdir. Yaradıcılığının 80-ci illərində, yəni ilk qələm təcrübələrində şairin sırf təbiət şeirləri üstünlük təşkil edir. Vətənin dağları, dərələri, çayları, bulaqları, bir sözlə, təbiəti, bütün fəsilləri, gözəlliyə, ülviliyə pərəstiş şairin tərənnüm obyektidir.

Ağacların nəğməsini
yarpaqlar oxuyur...
Yarpaqların nəğməsini
küləklər...
Çiçəkləri şeh damlaları
oxşayır...
Günəşdən öncə...
Sonra da arılar, kəpənəklər...[160, s. 11]

Təbiət hadisələrinin təsviri, sənətin özündən də qədimdir. Təbiətin qoynunda dünyaya göz açan, burada yaşayıb-yaradan insanın müraciət etdiyi ilk varlıq, ən yaxın dost, sirdaş təbiət özü olmuşdur. Bu mənada Əbülfətin sırf təbiət şeirləri şairin göz açdığı Dağlıq Qarabağın əvəzedilməz təbiətini əks etdirir. Şairin "Payız nəğməsi" daha xarakterikdir:

Düzülər qatara köçəri quşlar,
Soyuqdan istiyə can atıb gedər...
... Budaqlar silkinər, yarpaq tökülər,
Qocalar bir az da düşər, bükülər...
...Açılar ayağı qarın, yağışın,

Bu rəssam təbiət vurar naxışın...[155, s. 204]

Təsadüfi deyil ki, xalq yaradıcılığının, sonrakı dönəmlərdə yaranan sənətin ilk mövzularından biri də məhz təbiət, onun maraqlı dünyası, məna və gözəllikləri olmuşdur. Çünki sənətdə təsvir edilən təbiət və onun hadisələrinin arxasında məhz insan faktoru dayanır.

Əbülfət Mədətoğlu da yaradıcılığının sonrakı dönəmində təbiəti Vətənləşdirir. Xüsusilə yaşadığı Tuğ kəndini əhatə edən təbii mənzərələri vəsf edir. Bu haqda şair özü belə yazır: " Bu dünyada Tuğ adlı bir dağ kəndi var. Şəlaləsi, meşələri, bulaqları və bir də Nilufər çiçəyi ilə kənd uşaqlarının payına düşən hər nə varsa, mənim də canıma-qanıma hopub orada..." Daha sonra şair təssüf hissi ilə söyləyir ki: "Həmin o uşaq ləpirlərində düşmən mina əkir indi... Xatirələrimi göyə sovurmaq üçün... o uşaq isə hələ də "beş-daş" oynayır..." [ 157, s. 70]

"Qartal elə qartaldı", "Ot bitirəcək", "Dağın, daşın....", "Bir qış nağılıdı...", "Gedirəm" kimi şeirlərdə şair təbiətə üzünü tutub dərdini danışır və düşüncələrini, istəklərini, sözünün canını oxucusuna rahatlıqla ötürə bilir : "Bir qış nağılıdı bu qış gecəsi...// Şaxta da, sazaq da köhnə tanışım...// Təkcə evim yoxdu... balalarımı // Başıma toplayıb nağıl danışım... [157, s. 70]

"Olmuşam" şeirində şair üzünü dağlara tutub başına gələnləri danışır. Yəni təbiəti – dağları insaniləşdirir. Onun şeirlərində Dağ obrazı da təbii və realdır. Şair Dağlarda baş verən təbii hadisələri öz dərdi ilə müqayisə edir:

A dağlar, qəriblik əyibdir məni,

Sıxılıb, bükülüb yumaq olmuşam...

Dərd əli ağaclı döyübdü məni,

Gözləri tutulmuş bulaq olmuşam...[155, s. 143]

Birinci Qarabağ müharibəsində xarici qüvvələrin roluna, qanunsuz, ədalətsiz hücumlarına toxunan şairin daha dəqiq, obrazlı misraları var. Özünəməxsusluğunu

qoruyub saxlayan müəllif sakit-sakit olanları - həyat gerçəkliyini, həqiqətləri olduğu kimi bəyan edir:

Gözüm qan ağlayır, gözüm yaş tökür,

Göylər şimşək çaxır, fələk daş tökür..

... Əcnəbi əlində dolaq olmuşam... [155, s.143]

Şair Elçin İsgəndərzadə Əbülfət Mədətoğlunun poeziyasından bəhs edərkən deyir: "Dərdini dərd ovudan şeirlərə çevirib danışan Əbülfət! Dərdin əyilmədən, səssiz-səmirsiz yeriyən dağ rəmzi! Dərdin qəzəb və nifrətdən yoğrulmuş canlı Qarabağ heykəli!" Həmçinin, Elçin İsgəndərzadə Əbülfət Mədətoğlunun başqa xarakterik xüsusiyyətlərini də açıb göstərir: "Əbülfət Mədətoğlu ölümün üstünə gedən şairdir. Ölümün üstünə gedən şair özünü torpağa basdırıb yenidən doğular, torpaqda bitər - ağac olar. Və ağac ömründə də sinəsiylə torpağı qoruyar. Yarpaqları ilə bu torpağa yaşıl nəğmələr pıçıldayar... " [155, s.92]

Bir çox məqamlarda şairin lirik qəhrəmanı sevdiyini təsvir etmək üçün təbiət şeirlərindən geniş istifadə edir. Yəni yenə də təbiəti insanilləşdirir. Yazda Məşuqunun cilvəsini, payızda qəm yükünü, qışda həsrətinin ağırlığını, çəkilməzliyini əks etdirir:

Günəşə baxıram,

Bəxtə Günəşdi!

Çiçəyə baxıram,

Eşqə çiçəkdi... [155, s. 124]

"Bu yaz yağışlarının içində əriyirəm...// Bu qız baxışlarının içində kiriyirəm...."- deyən lirik qəhrəmanın başqa halını da görürük: " Bu axşam qaranlığın çəkisi də ağırdı,// Bu axşamkı təkliyim elə bil ki turş çaxırdı..."

Yaşar Qarayev yazır: "Sənətdə bədiilikdən də ucada duran, həm işığa, həm də ağrıya həssaslığı eyni vaxtda, vəhdətdə ifadə edən bir keyfiyyət var: İnsanilik! Yazıçı şəxsiyyətinin miqyası və ölçüləri insaniliyin də ölçülərinə çevrilə biləndə poetik

imzalar və ünvanlar, həm də, işığın ünvanına, insana həssaslığın və sevginin imzasına çevrilə bilir" [105, s.565]. Bu mənada Əbülfət Mədətoğlunun şeirlərində insanilik potek şəkildə əks olunur. Şairin "Gedirəm", "Ölüm", "Ürəyimdə", "Sahildəki qayaları...", "Havadan asıblar məni...", "Bu yağış elə yağır ki..." , "Bu yağan qar...", "Bir sevgi anı" kimi şeirlərində təbiətlə sevgisi baş-başadır, yan-yanadır:

Bu dumandı, o çəndi,

Gözlərim nəm içəndi...

Ruhum isə biçəndi,

Sözü söz çəmənindən... [161, s. 245]

"Dörd divar... Allah, O və Mən" [161 ] kitabının son söz yerində şair yazır: "Hansısa bir söz haqdan gəlirsə, onu özün də hiss etmədən öncə yaddaşına, sonra kağıza köçürürsən. Bu iki prosesin arasında sığındığın Dörd divar, Allah və O şahidlik edir" [161, s. 257]. Bütün yaradıcı insanların gördüyü, yaşadığı səhnədir. Lakin Əbülfət Mədətoğlu bu səhnəni xüsusiləşdirib, özününküləşdirir. Çünki onun dörd divarının arasında Alahdan, özündən başqa O da – sevdiyi də var. Ona ilham verən, yol göstərən, hər yazdığını sevgi ilə yoğurub bişirən Odur. "...Bu söhbətin qəhrəmanı da, mövzusu da gerçəklikdir və xoşbəxt bir gerçəkliyin özü kimi oxucularıma üz tuta bilməyimi Tanrı mükafatı hesab edirəm. Çünki Sözün yanında olmaq, keşiyində durmaq və Sözlə nəfəs alıb, özünü ifadə etmək heç də asan deyil" [161, s.257].

Beləliklə, həmişə Sözün və Sözünün keşiyində duran Əbülfət Mədətoğlunun təbiətə məhəbbəti, pərəstişi onun lirik şeirlərinin əsas motivləridir. Bü şeirlər onun yaradıcılığında özünəməxsus yer tutur və şairin poetik dünyasını oxucu üçün açmaqla yanaşı, həm də onların mənəvi dünyasının müsbət formalaşmasında, təbiəti elə Vətən, İnsan kimi sevməsində mühüm rol oynayır. Bu şeirlərin poetik işığı şairin lirik "Mən"indən, zəngin, bütöv mənəviyyatından doğur. Onun yaradıcılığının əhatə dairəsinin genişliyindən, böyüklüyündən xəbər verir. Sənətkarın şəxsiyyəti, təbiəti ilə onun doğulub böyüdüyü mühit arasında bir əlaqə, oxşarlıq var. Qarabağın gözəl

təbiətində-dağlarının qoynunda göz açan Əbülfət Mədətoğlu da mütləq o göəlliyi də poetik yaradıcılığında əks etdirməliydi.

**Elçin İsgəndərzadənin təbiət şeirləri** onun poetik yaradıcılığında müəyyən qədər yer tutur. Vətənin əsrarəngiz təbiəti, göz oxşayan dağları, dərələri, meşələri onun təbiət şeirlərinin mayasını, ruhunu təşkil edir. Təbiət şeirləri şairlərin, məncə, ilk qələm təcrübələridir. Təbiətin qoynunda göz açan, boy atan insan ilk öncə onu vəsv eləyir:

Sübh tezdən, insan nəfəsi dəymədən

Yadıma sən düşdün, bənövşə! [81, s.42]

Və ya:

Quşlar ötüşür budaqda –

Su da susub bulaqda... [81, s. 416]

Yaz səhərində təbiət xüsusilə canlı, əsrarəngiz olur. Axşamın qəribliyindən fərqli olaraq səhərlər quşların nəğməsi, bulağın zümzüməsi, güllərin pardaqlanıb açılması, al-əlvan gəpənəklərin çiçəkdən çiçəyə uçması, yaşıl çəmənlik üstündə oynaması ilə həyat yenilənir, canlanır, qaynayır. Bu anlar şairin diqqətindən yayınmır:

Şairə gülür kəpənək,

Səadətin sirrini bilir kəpənək....

Təbiətin qoynunda bir günlük ömrü ilə kəpənək necə də xoşbəxtdir. Çünki o, "səadətin sirrini bilir". Bu səpkili poetik nümunələr göstərir ki, şeirlərdə təbiət obrazı yalnız bədii ifadə vasitəsi deyil, həm də mənəvi sərvətin mənbəyi, özülüdür.

Şairin Lirik qəhrəmanına görə "Yaz gecəsində alça ağacı" Ayın boyasında, işığında bir şairin röyasıdır. Üç günlük Ayı da ovsunlayan bəyaz alça çiçəkləri xoşbəxtdir. Çünki bütün dərdini, ağrı - acısını unudub hər kəsə, hər şeyə gülümsəyir. "Göydə Ay yaşmaqlanıb,// Süd kimi saman yolu,// Çiçəkləmiş alça ağacı,// Bəyaz

ümidlərlə dolu..." Şeirdə təbii gözəlliklə yanaşı bir Ay obrazı da var. Yaşar Qarayev Ay obrazı haqında yazır: "Bəşər və Yer qayğısını şair nəyinki insanın, torpağın, habelə göylərin və Ayın da "gündəlik işi" kimi təsvir edir". Tədqiqatçı Buludxan Xəlilov isə şeirdə bəyazlıqdan söhbət açarkən yazır: "Dünyaya yeni nə gəlirsə, yeni nə doğulursa bəyaz doğulur. Bəyaz doğulmaq ümumi keyfiyyətdir, dünyada bəyaz qalmaq isə fərdidir..." [78, s.24]. Onun sözlərinə görə "Bəyazlıq təmizliyin simfolu olduğundan onda rahatlıq, sakitlik var. Rahatlıq, sakitlik isə hər bir insanın istəyidir... Dəyişməyən, dəyişdirilməsi mümkün olmayan bəyaz ruhlu insanlar da var. Bunlar şairlərdir" [78, s. 24]. Bu da bir həqiqətdir, gerçəklikdir. Çünki hər kəs bəyaz doğulsa da heç də həmişə bəyaz qalmır. Cəmiyyətin, həyatın axarında, burulğanında dəyişənlər, bəyazlığını, saflığını, ilkinliyini itirənlər çoxdur. Yalnız şairlər fərqlənir. Ona görə ki: "Onların ruhu dümağ, bəmbəyaz, ağappaqdır. Burdan boylanır onlar dünyaya. Burdan baxır onlar həyata, cəmiyyətə, insanlara..." [78, s. 25-26]

Pəncərəm önündə üşüyən ağac,

Gəl içəri, ürəyini mənə aç...[ 81, s. 413]

Ağac niyə üşüyür? Bəlkə şair kimi o da tənhadır?... Yox, payızdır, yarpaqları tökülür. Şeir payızın əks-sədasıdır:

Siqaret də çəkmirəm ki,

İçimdən çıxan tüstünü yoza bilim...

Yarpaqlar tökülür.... [81, s.43]

Elçin İsgəndərzadənin poetik yaradıcılığında sırf təbiət şeirləri azdır. Bəlkə də bu dövrlə, zamanla bağlıdr. 90-cı illərdə ədəbiyyata gələn Elçin ictimai-siyasi hadisələrin burulğanına düşdü. Onun təbiət şeirlərinin əksəriyyətində əsir düşmüş Vətən, onun yeri, səması əks olunub. "Abşeron bürküsü" şeirini oxuyarkən düşünürsən ki, şair indi Abşeronun özünəməxsus ab-havasını, qumlu sahillərini, laciverd, qırçın ləpəli dənizini vəsv edəcək. Amma yox. Təsvir bir yay günü Mərdəkanın bürküsü ilə başlasa da mövzu dəyişir, Vətənin dərdi ilə bitir:

Qafamda bir ulu savaş türküsü,

İçimdə Abşeronun narıncı-bəyaz bürküsü...

Mərdəkanda bir-birinə qarışıb

Gilavarla samavarın tüstüsü...

...Gündən günə abadlaşır Mərdəkanda

Ryazanlı Sergey Yesenin küçəsi...

Xocalıda rus balası

Qan tökməkdən doymur ki doymur... [81, s.26]

Çox qəribə paradoksdur. Biz rus şairinin adını ən gözəl, abad küçələrdən birinə vermişik, onu əbədiləşdirmişik. Haqqında dastanlar qoşmuşuq, kitablar yazmışıq, şeirlərlə vəsv etmişik, şəkillərindən, yazdıqlarından bir əbədi muzey yaradmışıq... Digər rus balaları isə Xocalıda bizim soydaşlarımızı - insanları məhv edib, ölümdən yorulmur, çəkinmir, qorxmurlar...

Elçinin Qarabağın təbiətinə həsr etdiyi hər bir şeiri elə Vətən yaralarının, ağrılarının təsviridir. Şuşadakı İsa bulağına yüzlərlə şeir həsr olunub, mahnılar qoşulub. Dillər əzbəri olan bu mahnılar indi də oxunmaqdadır. Amma Elçin İsa bulağına başqa yöndən yanaşır, onun gözəlliyindən, təmizliyindən deyil müqəddəsliyindən danışır:

Şəhid məzarlarına

İsa bulağından bir ovuç su at,

Dirilib ayağa qalxmasalar da,

Rahat uyuyacaqlar,

qan qardaşlarım, rahat... [81, s. 34]

Və ya Şuşanın rəmzinə çevrilmiş Xarıbülbül çiçəyi haqqında da yüzlərcə şeirlər yazılıb. Elçin isə bu gülə də fərqli yanaşıb. Həmkarı Kərim Kərimliyə müraciətlə yazıb:

Sən görən Xarıbülbül –

Bəxtimin qardaşıdı...

Şuşanın göz yaşıdı... [81, s. 44]

"Qarabağa bizsiz gəlir bu yaz da..." şeirini Elçin şair Şahmar Əkbərzadəyə həsr edib. Əsir düşən Qarabağın bizsiz gələn yazı necə olur görəsən:

Ürəyimdə hələ dərddi gül açan,

Novruzgülü mənim kimi bağrı qan,

Xarıbülbül, qovuşarıq bəs haçan...

Qarabağa bizsiz gəlir bu yaz da... [81, s. 16]

1998-ci ilin mart günlərində qələmə alınmış bu şeir başqa cür də yazıla bilməzdi. Hər gələn yazı Vətəndə qarşılamaq arzusu o qədər böyük, sonsuz idi ki... "Bülbül cəh-cəh vurmur, torağay ötmür...// Çadır şəhərcikdə bənövşə bitmir..."// "...Topxananın sinəsinə od düşüb...// Dəli könlüm, mərəçöyüd yetişir..." - Hər misra Qarabağın, Şuşanın zəngin təbiətindən xəbər verir. Lakin bu təbiət də əsirlikdədir.

Müqəddəs sözə söykənən, Vətənə arxalanan, ilahi ədalətə inanan şair heç də bədbin deyil. Qisas qiyamatə qalmaz, -düşünən şair elə qisas da deyir: "Cıdır düzünün bir dəli qayasıdı,// qopub Bakıda qalıb,// qardaşım Aqil Abbas,// Qisas lazımdı, Qisas, Qisas, Qisas!!!" Qisasın otuz ildən sonra alınmasında bu səpkili şeirlərin də köməyi az olmayıb yəqin ki...

IV FƏSLƏ aid məqalə və konfrans materialları:

1. Məmmədova, B. H.  Nurəngiz Günün məhəbbət lirikası // – Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,  Ədəbiyyat məcmuəsi, – 2016. XXVIII c. – s. 111-119  [125].

2. Məmmədova B. H. Nurəngiz Günün poeziyasında təbiətin obrazı// – Bakı: Azərbaycan Dövlət Pedaqoji Unversitetin Xəbərləri, – 2018. № 4, C.66, – s.117-125 [139].

3. Məmmədova, B. H.  Nurəngiz Günün poeziyasında təbiətin tərənnümü// Ağamusa Axundov və Azərbaycan filologiyası. Beynəlxalq konfransın materialları. AMEA Nəsimi adına Dilçilik İnstitutu, – Bakı: – 24-25 aprel, – 2017, – s.177-180 [129].

4. Məmmədova, B. H. Sabir Rüstəmxanlının poeziyasında bütöv vətənin obrazı// – Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Ədəbiyyat Məcmuəsi, – 2018. № 1. XXXII c. – s. 102-108  [131].

5. Məmmədova, B. H. Sabir Rüstəmxanlı lirikasında məhəbbət motivləri// – Bakı: Azərbaycan Unversiteti, İpək yolu, – 2019. № 1, – s. 78-89  [141].

6. Məmmədova, B. H. Qabil poeziyasında təbiətin obrazı// – Bakı: AMEA M. Fizuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2018. № 11. – s. 195-201 [138].

7. Мамедова Б. Роэтика природи и любви в творчестве Нурангиз Гюн// – Москва: Журнал  Современное  педагогическое образование, – 2019. № 12, – с. 197-201 [114].

# NƏTİCƏ

18 oktyabr 1991-ci ildə Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin bərpası haqqında Müstəqillik aktının qəbul edilməsi ilə Respublikamız Müstəqillik dövrünə, dönəminə qədəm qoydu və Şərq dünyasında ilk Müstəqil Respublika olmuş Azərbaycan Xalq Cumhuriyyətinin bütün atributlarını, üçrəngli barağını da bərpa etməklə onun yolunu davam etdirməyə başladı. İndi Respublikamız otuz ildir öz Müstəqillik dövrünü yaşayır. Bu illər tarix üçün çox qısa zaman kəsiyidir. Bununla belə, dünya siyasi arenasında Azərbaycan Respublikası bu zaman dilimində Müstəqil dövlət olaraq özünü, yerini, mövqeyini qoruyub saxlamaqla siyasətdə, mədəniyyətdə, ədəbiyyatda öz sözünü deyə bildi. Xalqımız dünya xalqları içərisində müstəqil bir türk milləti olaraq tanınıb, qəbul edildi. Bütün bunlar tarixin mövzusu olmaqla yanaşı, həm də ədəbiyyatımızın təsvir, tərənnüm obyektidir. Müstəqil dövlətin müstəqil də ədəbiyyatı, mövzu, milli ideya istiqamətləri olmalıdır və bu yaradılmışdır. Min illik tarixə malik Azərbaycan ədəbiyyatı tarixi dönəmlərin, cəmiyyətin ictimai-siyasi quruluşlarının dəyişməsindən asılı olaraq sadəcə mövzusunun istiqamətlərini, hüdudlarını, bəzi xarekterik xüsusiyyətlərini yeniləməklə, həm ənənəvi, həm də novatorluğu, müasirliyi əks etdirməklə diqqəti çəkən əsərlər yaratmışdır. Ədəbiyyat sovet dönəmindəki sosialist realizmi metodundan çox sürətlə uzaqlaşmış, türkçülük, azərbaycançılıq ideyalarını əldə rəhbər tutulmuşdur. Bu ideya ilə ədəbiyyatın formalaşmasında XX əsrin əvvəllərində yaşayıb yaratmış nəhəng söz adamlarının - Mirzə Cəlilin, Nəriman Nərimanovun, Sabirin, Əhməd Cavadın, Hüseyin Cavidin və b. - elmi-bədii yaradıcılığı da mühüm rol oynamışdır.

Milli Müstəqilliyin ədəbiyyat qarşısında qoyduğu problemlərin bədii həlli özünü göstərməkdədir. Milli dəyərləri əks etdirən Milli İstiqlal Ədəbiyyatı, xüsusilə poeziyası yaranmaqda **və** inkişaf etməkdədir. Deməк, ədəbiyyat öz qarşısına qoyduğu missiyanı şərəflə yerinə yetirməkdədir.

Müstəqillik dövrü ədəbiyyatını tarixi keçidlərə görə üç mərhələyə bölmək olar:

Birinci mərhələ - SSRİ- nin çökməsi ilə milli mübarizənin başlanması, 1988-ci ilin sonlarından genişlənən meydan hərəkatı, 90-cı il 20 yanvar qırğını, 1991-ci il Müstəqillik aktı, Qarabağ münaqişəsinin müharibəyə çevrilməsi, Qarabağın işğalı, son olaraq Atəşkəs; Yəni 1988-ci il – 1994-cü ilin mayına kimi olan dönəmdə yaranan ədəbiyyat;

İkinci mərhələ 90-cı illərin ikinci yarısından başlanan, XXI əsrin 20-ci ilinə, yəni 2020 - ci ilin sentyabrına qədərki Atəşkəs dövründə cəmiyyətin, dövlətin möhkəmləndirilməsi, inkişafı üçün daxildə, beynəlxalq aləmdə atılan addımlar. Və bu dönəmdə yaranan ədəbiyyat;

Üçüncü mərhələ - Respublikanın daxilən möhkəmlənməsi, beynəlxalq aləmdə güclənməsi və İkinci Qarabağ müharibəsinin başlaması, Zəfər çalmasıdır. Yəni, 2020-ci ilin sentyabrın 27-dən başlanan İkinci Qarabağ müharibəsi, 44 günlük gərgin döyüşlər, 2020-ci ilin 10 noyabr Zəfər aktı və Qarabağda, həmçinin Şuşada başlanan bərpa, quruculuq işləri və onların ədəbiyyata gətirilməsi.

Hər üç mərhələnin ədəbiyyatda əks etdirilməsi yeni ədəbiyyatın yaranması və formalaşması demək idi. Respublikamızın tarixi taleyində böyük və əsaslı rol oynayan Müstəqillik, Azadlıq, İstiqlal, Bərabərlik, Bütövlük və bütün bunların uğrunda gedən mübarizəni, müharibəni, xalqımızın taleyüklü dönəmlərini, baş verən olayları və hadisələri ədəbiyyatımıza, həmçinin poezyamıza gətirmək yazarlarımızın başlıca məqsəd və vəzifələri olmuşdur. Müstəqillik aktının qəbulundan sonra Dil, Söz, Mətbuat azadlığı da bu problemin həll edilməsini asanlaşdırdı. Baxmayaraq ki, sovetlərin vaxtında da qanunla Azərbaycan dili Dövlət dili idi. Lakin Rus dili onu sıxışdırıb ikinci yerə çıxatmışdır. Demək, Müstəqilliyin ilk günlərindən Azərbaycan dili öz tarixi yerini, missiyasını aldı və rus dilindən, digər qarışıq söz, ifadələrdən təmizlənməyə başladı. Dilin bərpası ilə milli-tarixi yaddaşın da oyanışı, bərpası önə çıxdı.

Bu dönəmdə istər tarixi, istərsə də əbəbi-bədii tədbirlərdə, proseslərdə Respublika Prezidenti Heydər Əliyev həmişə yazarların yanında olmuş, onları və əsərlərini yüksək qiymətləndirmiş və həmçinin dəyərli, məntikli, lazımı tövsiyələrini də vermişdir.

Qarabağ münaqişəsi, az sonra müharibəsi yeni ədəbi problemlər də gətirdi. Keçid dövrünün ağırlığı, çətinliyi yeni mövzular doğurdu və bütün bunlar öz həllini bu və ya digər dərəcədə ədəbi prosesdə tapdı.

Beləliklə, ”Müstəqillik dövrü Azərbaycan şeirində gerçəkliyin əksi” mövzusu üzrə apardığımız elmi tədqiqatlar və araşdırmalar işi bizə aşağıdakı elmi nəticəyə gəlməyə imkan verdi:

1. Müstəqillik dövrü şeirinin özündən əvvəlki poeziyadan oxşar və fərqli cəhətlərini aşkara çıxartdıq. Müəyyən olundu ki, yeni yaranan şeirlərimiz formaca ənənəvi, məzmunca milliliyi qoruyub saxlamaqla yeniliyi, müasirliyi özündə ehtiva edib. Qabilin “Mərsiyyə”si, “Azərbaycan əsgəri”, “37-də”, “Təndir” kimi şeirləri bu qəbildəndir. Və ya Sabir Rüstəmxanlının “Bayrağım”, “Qorxum qalmadı”, “Marş”, “Yol ver yurdun bayrağına”, “Qayıtdı” kimi şeirləri yeni dövrü əks etdirmək baxımından diqqətəlayiqdir. Bu dönəmdə üçrəngli bayrağımızın təsvir və tərənnümü xüsusilə öndə gedirdi. Hər bir şairin Bayraqla bağlı mütləq bir şeiri vardır.

Müstəqillik dövrü şeirinin Sovet dönəminin poeziyasından başlıca fərqini də müəyyən etdik. O, sovet idelogiyasından, sosialist realizm prinsiplərindən, metodlarından uzaqlaşaraq Sovet hakimiyyətinə, onun Qırmızı ordusuna qarşı milli mübarizəni təsvir, tərənnüm edirdi. Həmçinin, Milli Müstəqilliyi, Milli Azadlığı, İstiqlalı, Türk dünyasını, türkçülüyü yüksək şəkildə təbliğ, tərənnüm edirdi.

2. Cəmiyyətdə baş verən oyanış və ləngimələrin, ziddiyyət və həqiqətlərin, qabarma və çəkilmələrin, xalqı və dövləti düşündürən milli özünüdərkin, yeni dövlət quruculuğunda yolların və istiqamətlərin və s. məsələlərin şeirdə necə işlənməsini müəyyən etməklə aydın oldu ki, poeziya qarşısına qoyulmuş problemləri həll etmək gücündədir və bunu qısa zaman kəsiyində həll etməyə çalışıb. Dövləti, dövlətçiliyi əks etdirən şeirlər də əsas ana xətti təşkil edirdi.

3. Həyat gerçəkliyinin poeziyada necə işlənməsini müəyyən etdik. Əslində, Müstəqillik dövründə yazılmış şeir, poemalarının əksəriyyəti həyat gerçəkliyinin, real həqiqətin, baş verən hadisələrin, olayların tam poetik əksidir,- deyə bilərik.

4. Tarixi mövzuların yüksək şəkildə işlənməsini aşkara çıxartdıq;

Nurəngiz Günün “Quzey-Kıprız rüzgarları”, “Qar romanı”, Sabirin “Atəş böcəyi”, “Orxanla görüş”, Elçinin “Bu qala bizim qala”, “Turan savaşçısının nəğmələri” və s. poemalar bu baxımdan əhəmiyyətlidir.

Müstəqilliyin bəxş etdiyi Azadlığın nəticəsində qardaş Türküyəyə səyahət edən Nurəngiz Gün 2002-2003-cü illərdə “Quzey - Kıprız rüzgarları” poemasını qələmə almışdır. Şair bu ərazidə yaşayan türklərin tarixindən, həyatından, adət-ənənələrindən, təbiətindən, təbii sərvətlərindən, həmçinin müharibə və faciələrindən bəhs edən bir tarixi əsəri araya, ərsəyə gətirmişdir.

“Qar romanı”nda şair görkəmli Türk şairi, ömrünü soyuq Şimalda keçirən Nazim Hikmətin həyatını, ölümündən sonrakı dünyasını – ona olan münasibətləri təsvir edir.

Sabir Rüstəmxanlı “Orxanla Görüş” poemasında Orxan, Yenisey çayları arasında yaşayan türklərin tarixindən, mübarizəsindən, ilk dövlət quruluşundan söz açır. Bilgi Xaqanının apardığı müharibələri, daş kitabələri təsvir edir.

“Atəş böcəyi” poemasında isə şair cənublu soydaşımız Mahmudəli Çöhrəqaninin Vətənin Bütövlüyü, Azadlığı üçün çarpışdığını tərənnüm edir.

“Turan savaşçısının nəğmələri” poemasında Elçin İsgəndərzadə Qırğızıstanda-Böyük Manas elində yazın qarşılanmasını, bu xalqın adət-ənənələrini, təbiətini, insanlarını səmimi bir məhəbbətlə rərənnüm edir.

5. Müharibə mövzusunda yazılmış poemaların tarixi yaddaşımızda oynadığı rolun əhəmiyyətini bir daha vurğuladıq. Nurəngiz Günün “Əsrin son yuxusu”, “Xocalı simfoniyası”, Sabirin “Qarabağa dönüş”, Qabilin onlarca şeirləri, Elçin İsgəndərzadənin “Qarabağ xronikası”, “Şahmar şikəstəsi”, “Biganəlik iqlimi”, “Lorka və siyah Ay” kimi poemaları bu mənada qiymətlidir.

Nurəngiz Günün “Xocalı simfoniyası” poeması Qarabağ müharibəsinin kuliminasiya nöqtəsi hesab olunan Xocalı faciyəsinin əks-sədasıdır. Həyat gerçəkliyinin, müharibə dəhşətlərinin təsviri baxımından bu poema daimi yaddaşlarda qalacaq, hər müharibədə yaddaşları təzələyəcək bir əsərdir.

“Qarabağa dönüş” poeması Sabir Rüstəmxanlının Müstəqillik dövründə yazdığı ən böyük poemasıdır. Bu əsərdə Qarabağ, onun tarixi, yaradıcı şəxsləri, mədəniyyət

mərkəzi olan Şuşası, döyüşən igidləri və tarixi Zəfəri böyük təntənə ilə tərənnüm olunub.

90-cı illər, yəni Müstəqillik dövrü ədəbi nəslinə mənsub olan Elçin İsgəndərzadənin bir qarabağlı şair kimi müharibənin ağrı – acısını, faciəsini özü, ailəsi, qohum-qonşusu birbaşa yaşadığı üçün bu mövzuda yazdıqları həyat gerçəkliyinin daha dəqiq bədii ifadəsidir. Şairin "Biganəlik iqlimi", "Lorka və Siyah Ay", "Şahmar Şikəstəsi", "Qarabağ xronikası" kimi poemalarını həm tarixi, həm də müharibə mövzusu kimi dəyərləndirmək olar.

6. Qabilin, Nurəngiz Günün və Sabir Rüstəmxanlının Sovetlər dövründəki poemalarını mövzu, ideya xüsusiyyətlərini, işlənmə dərəcəsini, bir sözlə, oxşar, fərqli cəhətlərini Müstəqillik dövründə yazdıqları əsərlərlə müqayisə etdik. Məlum oldu ki, hər bir şairin xarakterik xüsusiyyətinə, humanizminə görə hər iki ictimai-siyasi quruluşda yazılmış əsərlərdə oxşar cəhətlər çoxdur. Yəni Vətənpərvərlik, yurdsevərlik, xalqsevərlik, müharibələrə nifrət, Azadlıq, Bərabərlik, Qardaşlıq, Dostluq, İstiqlal, Bütövluk ön plandadır və bu, yazarların əsas məqsədi, məramdır.

Lakin fərqli cəhətləri də var: XX əsrin 80-ci illərinin sonunda SSRİ-nin bir çox obyektiv və subyektiv səbəblərdən çökməsi Respublikamızda milli mənlik şüurunun oyanmasına, Azadlıq, Müstəqillik uğrunda mübarizəsinə təkan verdi. Lakin hələ də imperiyasını qorumaq istəyən Sovet hakimiyyəti öz ordusunu Bakıya yeritdi və Qanlı 20 Yanvar faciəsi baş verdi. Bundan sonra ayağa qalxan Xalq və onun ziyalıları, öndə gedən yazarları Respublikanın Müstəqilliyi üçün mübarizəyə geniş şəkildə başladılar. Daha sonra Qarabağ hadisələrinin baş verməsi, Xocalı faciəsi, Qarabağın işğalı ədəbiyyatın yönünü, istiqamətini köklü surətdə dəyişdi. Bütünlüklə sosialist realizmi metodunun üstündən xətt çəkildi. Yeni milli azərbaycançılığa, türkcülüyə, soy kökə həsr edilmiş əsərlər yaranmağa başladı. O cümlədən, Qabilin, Sabir Rüstəmxanlının, Nurəngiz Günün bu səpkidə şeir, poemaları işıq üzü gördü.

7. Dövrün ictimai-siyasi, ədəbi-mədəni hadisələri fəlsəfi-əxlaqi-lirik şeirlərdə yüksək şəkildə əxs olunmuş, fəlsəfi-müdrik fikir-düşüncələr özünəməxsus çəkildə işlənmişdir.

8. Mənəvi azadlığın asbektləri məhəbbət lirikasının başlıca qaynaqları və qayəsi olduğu bir daha vurğulandı. Poeziyanın əzəli, əbədi mövzusu olan ilahi eşq, sevgi lirikada yenə əsas yerlərdən birini tutmuşdur. Müstəqillik illərində məlum hadisələr dönəmində bu tip şerlərin yaranması arxa plana keçsə də, ümumilikdə, lirika çoxluq təşkil edirdi. Yeni dönəmdə çap olunan kitablarda əvvəlki illərin məhəbbət şeirləri də gen-bol dərc edilmişdir.

9. Təbiət şeirlərində Vətənin bütöv obrazı yaradılmış və bu ədəbiyyatda öz yerini tutmuşdur. Yəni təbiət şeirlərinin baş qəhrəmanı Vətən və onun əsrarəngiz təbiətidir. Bu şeirlərdə Dağ obrazı, şəhidlərlə birlikdə vəsv olunan Qərənfil obrazı, Şuşa ilə yanaşı təsvir, tərənnüm olunan Xarıbülbül, İsa bulağı obrazları da bu dövrün poetik məhsuludur. Eyni zamanda, təbiətin İnsaniləşməsi də bu şeirlərin başlıca məğzidir. Çünki təbiət insanın dərd ortağına çevrilmişdir.

Beləliklə, iki Xalq şairinin – Qabilin və Sabirin, həmçinin, xalqının vətənpərvər, sülhsevər şairəsi olan Nurəngiz Günün, qarabağlı şairlər Elçin İsgəndərzadənin, Əbülfət Mədətoğlunun bütün poetik əsərlərini, həmçinin, Gülxani Pənahın yalnız Qarabağ hadisələrinə həsr etdiyi şeirlərini izləməklə, araşdırmaqla, müqayisəli şəkildə təhlilə cəlb etməklə, müəyyən etdik ki, dövrümüzün, çağımızın həyat gerçəkliyini, həqiqətini, müharibənin, onun insanlara, cəmiyyətə, təbiətə vurduğu zərbələrinin ağırlığını poeziyamız istənilən səviyyədə əks etdirə bilib. Eləcə də, təbiətin, məhəbbətin təsvir- tərənnümü yetərlidir. Hər bir şair öz ürəyinin odu-közü, özünəməxsus dəsti-xətti, xarakterik xüsusiyyətləri, bütöv dünyası, müasirliyi ilə bu şeir, poemaları işləyib, cilalayıb, ədəbiyyata gətirib və əbədiləşdirə bilib.

Böyük ədəbiyyatçılar ordusu içərisindən seçdiyim müəlliflərin poeziyası mənəvi dünyamızın qiymətli inciləri baxımından çox zəngindir, vətənpərvərdir, insanpərvərdir, yurdsevərdir, əhəmiyyətlidir, yaşarıdır və dünyəvidir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. Axundova E. H. Nurəngiz Günün ağ qanadları// Kaspi. – 2018, 16 oktyabr. – s. 4.
2. Anar. Qabili çox istəyirəm // Qabil. Dostlarım, tanışlarım. – Bakı: Şirvannəşr, – 2002. – s. 417-418.
3. Anar. Xalq və tarix qarşısında cavabdehlik // – Bakı: Yazıçı, – 2012. № 4, – s. 3.
4. Akimova, E. S. Müstəqillik dövrü Azərbaycan poeziyası ədəbi təmayüllər kontekstində:/ filologiya elmləri doktoru dis./ – Bakı, 2017. – 254 s.
5. Aslan M. Ağla, qərənfil, ağla / M. Aslan. – Bakı: İpəkyolu, – 2014. –104 s.
6. Araz M. İstedaddan xəbər verən misraların işığ // İsgəndərzadə E. – Bakı: Vektor, – 1c. 2017. – s. 5-10.
7. Azərbaycan Ədəbiyyatı tarixi [2 cilddə] / – Bakı: Elm, – c.1. – 2004. – 760 s.
8. Azərbaycan Ədəbiyyatı tarixi / – Bakı: Elm, – c.2. – 2007. – 632 s.
9. Azərbaycan tarixi, IX sinif üçün dərslik / – Bakı: Çaşıoğlu, – 2004. – 280 s.
10. Azərbaycan tarixi, XI sinif üçün dərslik / – Bakı: Çaşıoğlu, – 2002. – 352 s.
11. Azərbaycan Ədəbiyyatı tarixi.[ X cilddə] – Bakı: Elm, – 1c. 2018. – 1072 s.
12. Azərbaycan jurnalı / – Bakı, 1959. № 6. – 250 s.
13. Azərbaycan poeziyası əsrlər mərzində – XX - XX1 əsrlər/ – Bakı: 2006. – 252 s.
14. Azəroğlu B. Ön söz - Yeni axtarış yollarında // Qabil. Rübailər. – Bakı: Şirvannəşr, – 2004. – s. 5-10.
15. Azəroğlu B. Xəzan yarpaqları/ B. Azəroğlu. – Bakı: Azərbaycan, – 2002 – 120 s.
16. Azəroğlu B. Seçilmiş əsərləri / B. Azəroğlu. – Bakı: Öndər, – 2004. – 288 s.
17. Bağırov A. (Turan). Zəfər nəğməsi// Ədəbiyyat qəzeti. – 2021, 19 fevral.
18. Babullaoğlu, Səlim. Şəklin və yolun şeiri // Borçalı. – 2015, 28 yanvar. – s.3.
19. Bərdəli B. Müstəqillik dövrü Azərbaycan poeziyası / B. Bərdəli. – Bakı: Elm və təhsil, – 2014. – 128 s.
20. Bərdəli B. Qabil poeziyası müstəqillik illərində // B. Bərdəli. – Bakı: Nurlan, – 3 c. 2017. – s. 318 - 370.

21. Bərdəli B. Yaxşı insanların həsrətindəyik //Qabil. Dostlarım, tanışlarım. – Bakı: Şirvannəşr, – 2002. – s. 402-409.
22. Bərdəli B. Nurəngiz Gün, yaradıcılığı // B. Bərdəli. – Bakı: Nurlan, –3c. –2017. – s. 371-408.
23. Bərdəli B. Nurəngiz Gün // Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. – Bakı: Elm və təhsil, – 2016. – s. 600-622.
24. Bərdəli B. Sabir Rüstəmxanlının poeziyası müstəqillik illərində // Xalq şairi Sabir Rüstəmxanlı. – Bakı: Elm və təhsil, – 2021. – s. 176-225.
25. Bəyzadə Q. Sabir Rüstəmxanlı yaradıcılığının linqvopoetik tədqiqatı: [2 issədə] / Q. Bəyzadə. – Bakı: Elm, – I hissə, –2001. – 488 s.
26. Bəyzadə Q. Sabir Rüstəmxanlı yaradıcılığının linqvopoetik tədqiqatı / Q. Bəyzadə. – Bakı: Elm, – II hissə, –2001. – 536 s.
27. Bəşirov S. Sabir Rüstəmxanlı: Sərhədsiz ruhumuzun yolçusu / S. Bəşirov. –Bakı: Qanun, – 2006. – 228 s.
28. Böyük Azərbaycan şairi I. Nəsimi.[ Monoqrafiya]./ [kol.müəl.: İ. Həbibəyli [və b.] ( baş. red.)]; elmi red. F. Əzizova; məs. red. A. Bağırlı; AMEA, Nizami Gəncəvi adına Ədəbiyyat İn-tu. – Bakı: Elm, 2019. – 397,[ 3] s.: cədv., gerb, 22sm.
29. Bütün yollar Şuşaya aparır. Məqalələr, şeirlər / red. E. Hüseynbəyli; tərt. ed. F. Hüseyn. – Bakı: Nurlar, – 2021. – 272 s.
30. Cabbarlı N. Yeni nəsil ədəbiyyatı – 1/ N. Cabbarlı. – Bakı: Elm, – 2006 – 380 s.
31. Cabbarlı N. Yeni nəsil ədəbiyyatı – 2 / N. Cabbarlı.– Bakı: Qanun, 2008 – 220 s.
32. Cabbarlı-Abdullayeva, N. M. Çağdaş Azərbaycan şerinin inkişaf meyilləri (1993-2005):/ filologiya üzrə fəlsəfə doktoru dis./ – Bakı, 2015. – 256 s.
33. Cəlilli, Ş. Günəşi Təbriz, günlüyü Şuşa qalası – Nurəngiz Gün // Moderator az. – 2018, 21 sentyabr.
34. Çərkəz S. Nurəngiz Gün işığı / Bayatı, – Bakı: – 2015. Yanvar, – s. 16-17
35. Daşqın Ə. Əsr torpaq – Qarabağ. / Ə. Daşqın. –Təbriz: Özəl yayım evi, – 2013. – 192 s.
36. Ədəbiyyat qəzeti. Böyük Zəfərlə bağlı poema,şeirlər, məqalələr.// – 2021, 18

sentyabr 32 s.
37. Ədəbiyyatımız xalqımızın milli sərvətidir / – Bakı: Nurlan, – 2003. – 112 s.
38. Əliyev H. Müasir poeziyamızın görkəmli nümayəndəsi / Qabil. Dostlarım, tanışlarım. – Bakı: Şirvannəşr, – 2002. – s. 436-439.
39. Əliyev H. Xalqların dostluğu – Ədəbiyyatın dostluğudur // Kommunist. – 1980, 28 noyabr, – s. 2.
40. Əfəndiyev E. Əfsanə davam edir / Qabil. Dostlarım, tanışlarım. – Bakı: Şirvannəşr, – 2002. – s. 474-478.
41. Əfəndiyev E. 3-cü, Axmısan hissimdə, duyğumda şeirim (Qabilin şəxsiyyəti və yaradıcılığı haqqında bir-iki söz) // Ədəbiyyat qəzeti. – 2021, 11 dekabr – s.7
42. Əliyev R. Hünərin nəğməsi //Ədəbiyyat və İncəsənət – 1980, 4 yanvar. – s.6
43. Əliyeva J. Sən mənim bitməyən düşüncəm //525-ci qəzet. – 2015, 19 mart – s. 2.
44. Əliyeva J. Şuşadan dünyaya səslənirik // Bütün yollar Şuşaya aparır. – Bakı: Nurlar, – 2021. – s. 107-109.
45. Ənvəroğlu H. Azərbaycan Ədəbiyyatının yaradıcılıq problemləri / H. Ənvəroğlu. – Bakı: Elm, – 2004. – 168 s.
46. Əlişanoğlu T. Sabir Rüstəmxanlının romanları // Xalq şairi Sabir Rüstəmxanlı. – Bakı: Elm və təhsil, – 2021. – s. 253-364.
47. Əlişanoğlu T. Vaqifə qayıdış həm də elə Qarabağın tarixinə qayıdış deməkdir // Bütün yollar Şuşaya aparır. – Bakı: Nurlar, – 2021. – s. 110-114.
48. Əsgərli Ə. XX əsr Azərbaycan şeirinin poetikası / Ə. Əsgərli. – Bakı: Apastrof, – 2014. – 316 s.
49. Əsgərli Ə. Xəlilrza Ulutürkün poetikası / Ə. Əsgərli. – Bakı: BQU, –2009. – 422 s.
50. Əzizova F. İmadəddin Nəsimi / F. Əzizova. – Bakı: Elm, – 2019. – 404 s.
51. Fuad E. Güney Azərbaycan epik şeiri / E. Fuad. – Bakı: Elm və təhsil, –2016. – 372 s.
52. Fuad E. Turanın əbədiyaşar şairi: Bəxtiyar Vahabzadə / E. Fuad. – Bakı: Elm və təhsil, – 2019. – 216 s.
53. Fuad E. Güney Azərbaycanda çağdaş ədəbi proses / E. Fuad. – Bakı: Hədəf, –

2016. – 176 s.
54. Gənzəli R. Qızıl türklərdən biri / R. Gənzəli. – Bakı: Vektor, – 2015. – 245 s.
55. Gün N. Ağ qanadlar. Şeirlər və poema / N. Gün. – Bakı: Yazıçı, – 1986. –157 s.
56. Gün N. Günəşə dua. Şeirlər və poema / N. Gün. –Bakı: Yazıçı, –1990. –152 s.
57. [a] Gün N.  Tanrı bəşər övladıdır. Povest, hrkayələr / N. Gün. – Bakı: Vektor, – 2004.- 170 s.
57. Gün N. Yol gedirəm. Şeirlər və poemalar / N. Gün. – Bakı: Adiloğlu, – 2004. – 230 s.
58. Gün N. Qalanlara. Şeirlər / N. Gün. – Bakı: Mütərcim, – 2015. – 168 s.
59. Gün N. Xocalı simfoniyası. Poema / N. Gün.- Bakı: Vektor, – 2006. – 86 s.
60. Gün N. Seçilmiş Əsərləri. I cild / N. Gün. – Bakı: Renessans –A, –2019. – 464 s.
61. Hacımusalı O. Turan savaşçısı / O. Hacımusalı. – Bakı: Vektor, – 2018. – 168 s.
62. Hacıyev T. Qabilin qabilliyi /Qabil. Dostlarım, tanışlarım. – Bakı:Şirvannəşr, – 2002. – s. 428-429.
63. Həbibbəyli İ. Ədəbi-tarixi yaddaş və müasirlik /İ. Həbibbəyli. – Bakı: Nurlan, – 2007. – 696 s.
64. Həbibbəyli İ. Ədəbi şəxsiyyət və zaman, Seçilmiş əsərləri,  II c., / İ. Həbibbəyli. – Bakı: Elm və təhsil, – 2017. – 1068 s.
65. Həbibbəyli İ. Böyük qayıdışın əbədi və ədəbi təntənəsi // Vətən bağı al-əlvandır. – Bakı: Skye, – 2021. – 564 s.
66. Həbibbəyli İ. Böyük  zəfərin poetik dastanı // Ədəbiyyat qəzeti. – 2021,28 aprel. – s.6.
67. Həbibbəyli İ. Qarabağ ədəbi mühiti: ənənə və müasirlik // – Bakı: Filologiya və sənətşunaslıq, – 2021. № 1, – s. 6-15.
68. Həbibbəyli İ. Xalq şairi Sabir Rüstəmxanlı: millilik, vətəndaşlıq və müasirlik // Xalq şairi Sabir Rüstəmxanlı. – Bakı: Elm və təhsil, – 2021. – s. 3-39.
69. Həbibbəyli İ. Azərbaycan Ədəbiyyatı dövrləşdirmə konsepsiyası və İnkişaf mərhələləri/ İ. Həbibbəyli. – Bakı: Elm, – 2019. – 452 s.
70. Həsənzadə N. Hünərin tərənnümü // Qabil. Dostlarım, tanışlarım. – Bakı: Şirvannəşr, – 2002. – s. 469-473.

71. Hüseynoğlu S. Ruhla zaman arasında / S. Hüseynoğlu. – Bakı: Azərnəşr,- 2001. – 140 s.
72. Hüseynli N. Bu yaşdan sonra yaşamaq da, yazmaq da qənimətdir //Qabil. Dostlarım, tanışlarım. – Bakı: Şirvannəşr, – 2002. – s. 442-448.
73. Xəzri N. Seçilmiş əsərləri / N. Xəzri. – Bakı: Lider, – 2004. – 246 s.
74. Xalq şairi Sabir Rüstəmxanlı. Həyatı və yaradıcılığı ( kollektiv)./ elmi red. T. Mustafayev. – Bakı: Elm və təsil, – 2021. – 484 s.
75. Xəlilzadə F. Özü şeirlərindən boylanan insan // Qabil. Dostlarım, tanışlarım. – Bakı: Şirvannəşr, – 2002. – s. 413-416.
76. Xəyal S. Qabil / S. Xəyal. – Bakı: Yurd, – 2006. – 200 s.
77. Xəyal S. Sabir Rüstəmxanlı / S. Xəyal. – Bakı: MBM, – 2012. – 104 s.
78. Xəlilov B. Bəyaz doğulan şeirlər / B. Xəlilov. – Bakı: Vektor, – 2014. – 100 s.
79. Xəlilov, Q. Mehparə.// Ədəbiyyat və incəsənət, – 1958, 31 may. – s. 3.
80. İbrahimov M. Uğurlu yol // Ədəbiyyat və incəsənət, – 1987,15 may. – s.4
81. İsgəndərzadə E. Seçilmiş əsərləri [5 cilddə] / E. İsgəndərzadə. – Bakı:Vektor, – I c. – 2017. – 432 s.
82. İsgəndərzadə E. Seçilmiş əsərləri / E. İsgəndərzadə. – Bakı: Vektor, –II c. – 2017. – 396 s.
83. İsgəndərzadə E. Seçilmiş əsərləri / E. İsgəndərzadə. – Bakı: Vektor, –V c. –2018. – 448 s.
84. İsgəndərzadə E. Cənnətin bütün sevgiləri sənin olsun //– Bakı: Bayatı, 2015. – yanvar, – s.1.
85. İsgəndərzadə E. Günəşin elçisi / E.İsgəndərzadə. – Bakı:Vektor, – 2018. – 208 s.
86. İsgəndərzadə E. Qürbət hücrəsində / E. İsgəndərzadə. – Bakı:Vektor, – 2013. – 215 s.
87. İsaqoğlu V. Şuşanı özündə gəzdirən adam / V. İsaqoğlu. – Bakı: Heroqlif, – 2018. – 72 s.
88. İsmayılzadə İ. Yollar, sənə minnətdaram // Qabil. Dostlarım, tanışlarım. –Bakı: Şirvannəşr, - 2002.- s. 376-401.
89. Kərimli T. Nurəngiz Günün poeziyası //525-ci qəzet. – 2005, 17 sentyabr. –s.3.

90. Kərimli T. Şərqin qapısından dünyaya // T. Kərimli. – Bakı: Çaşıoğlu, – 2009. – 192 s.
91. Kəsəmənli N. Yaxşı adamların həsrətindəyik // Qabil. Dostlarım, tanışlarım. – Bakı: Şirvannəşr, – 2002 – s. 410-412.
92. Köhnəqala M. Ağ poeziyanın işığı/ M. Köhnəqala.– Bakı: Vektor, –2019– 192 s.
93. Kürçaylı Ə. İnsan qüdrətinin tərənnümü /Qabil. Dostlarım, tanışlarım. – Bakı: Şirvannəşr, – 2002. – s. 483-489.
94. Qabil. Seçilmiş əsərləri / Qabil. – Bakı: Azərnəşr, –1988. – 335 s.
95. Qabil. Təmizlik / Qabil. – Bakı: Yazıçı, – 1983. – 224 s.
96. Qabil. İlahi qisməti / Qabil. – Bakı: Gənclik, – 2001. – 408 s.
97. Qabil. Nəsimi / Qabil. – Bakı: Şirvannəşr, 2002. – 500 s.
98. Qabil. Dostlarım, tanışlarım. / Qabil. – Bakı: Şirvannəşr, – 2002. – 600 s.
99. Qabil. Seçilmiş əsərləri / Qabil. – Bakı: Şərq-Qərb, – 2004. – 248 s
100. Qabil. Dənizlər mavidir, meşələr yaşıl / Qabil. – Bakı: Şirvannəşr, – 2003. –216 s.
101. Qabil. Ömrün gecə qatarı / Qabil. – Bakı: Şirvannəşr, – 2007. – 304 s.
102. Qabil. Rübailər / Qabil. – Bakı: Şirvannəşr, – 2004. – 280 s.
103. Qabil. Azərbaycan SSRİ Prezidentinə şair Qabilin sualları // Azərbaycan. – 1990.19 oktyabr. – s.2.
104. Qarayev Y. Seçilmiş əsərləri: [5 cilddə] / Y. Qarayev. – Bakı: Elm, – c.1 –2015. – 668 s.
105. Qarayev Y. Seçilmiş əsərləri / Y. Qarayev. – Bakı: Elm, –c. 2. –2015. – 632 s.
106. Qarayev Y. Seçilmiş əsərləri / Y. Qarayev. – Bakı: Elm,– c.3.– 2015. – 908 s.
107. Qarayev Y. Seçilmiş əsərləri / Y. Qarayev. – Bakı: Elm,– c.4.– 2016. – 776 s.
108. Qasımbəyli Y. Milli oyanış və özünəqayıdış lirikası / Y. Qasımbəyli. – Bakı: Elm və təhsil, – 2012. – 452 s.
109. Qasımzadə Q. Ədəbiyyatda millilik və beynəlmiləllik / Q. Qasımzadə. – Bakı: Elm, – 1983 – 274 s.
110. Qoca F. Ön söz. Pənah Gülxani, Əhmədli Salatın. Torpaq sənin, vətən sənin. – Bakı: Uniprint, – 2015. – s. 3-8.
111. Quliyeva M. Nəsimi və söz / M. Quliyeva. – Bakı: Elm, – 2019. – 160 s.

112. Quluzadə Ə. Şəhid şəhər / Ə. Quluzadə. – Bakı: Ozan, – 1998. – 68 s.
113. Qurbansoy H. F. İmaddədin Nəsimi / H. F. Qurbansoy. – Bakı: Elm, – 2019. – 36 s.
114. Мамедова Б. Поэтика природы и любви в творчестве Нурангиз Гюн //– Moskva: Журнал Современное педагогическое образование, – 2019. № 12, – с.197-201.
115. Мамедова В. Г. (Бардалы) Габиль и Нурангиз Гюн об истори и современности // Беларусский Государственный Университет. Материалы IV Междинародной научно-практической конференции. – Минск: – 19-20 марта – 2020, – с. 406 - 410.
116. Мамедова Б. Г. (Бардалы) Межкультурные основания поэзии Сабира Рустамханлы // Тамбовский Государственный Университет имени Г. Р. Державина. Экология языка и речи. Материалы VIII Международной научной конференции. –Тамбов: – 21-23 ноября – 2019, – с. 272-275.
117. Мамедова Б. Г. (Бардалы). Исторические поемы периода независимости Азербайджана// -Алматы: Казахский Национальный Педагогический Университет имени Абая. Хабаршы. Серия «Филологические науки», – 2021. № 1 (75), – с. 251-257.
118. Mammadova (Bardali), B. (2022). Karabakh in azerbaijani poetry during the period of independence the problem of reflecting the war. *Universidad Y Sociedad*, 14(S5), 561-569. Recuperado a partir de https://rus.ucf.edu.cu/index.php/rus/article/view/3324
119a. Mehdi, Q. Şeirlərindən tanıdığım şair// Ədalət. – 2018, 10 dekabr. – s.3
119. Mehdi Q. Elçin – el üçün / Q. Mehdi. – Bakı: Vektor, 2014. – 136 s.
120. Mehrəliyev E. Zaman və ədəbiyyat. / E. Mehrəliyev. – Bakı: MBM, – 2009. – 296 s.
121. Mehrəliyev E. Müharibə və ədəbiyyat / E. Mehrəliyev. – Bakı: Azərnəşr, –2000. – 228 s.
122. Məmmədova B. (Bərdəli). Qabil poeziyasında vətəndaş mövqeyi // – Naxçıvan: AMEA Naxçıvan bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu, Axtarışlar jur.,

– 2013. № 2, – s. 72-74
123. Məmmədova B. (Bərdəli). Qabil poeziyasında Qarabağ mövzusu // – Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Ədəbiyyat məcmuəsi, – 2015. XXVI c, - s. 229-235
124. Məmmədova B. (Bərdəli). Nurəngiz Gün poeziyasının fəlsəfi yükü // – Bakı: AMEA M. Fizuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2016. № 6, – s. 346-351
125. Məmmədova B. (Bərdəli). Nurəngiz Günün məhəbbət lirikası //- Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Ədəbiyyat məcmuəsi, – 2016. XXVIII c, – s.111-119
126. Məmmədova B. ( Bərdəli). Nurəngiz Günün poetik ağrısı //- Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, Humanitar elmlər seriyası, – 2016. № 1. – s. 139-142.
127. Məmmədova B. (Bərdəli). Sabir Rüstəmxanlının poeziyasında vətənpərvərlik duyğuları // – Bakı: AMEA N. Gəncəvi adına Ədəbiyyat İnstitutu, Ədəbiyyat Məcmuəsi, – 2017. XXXİ c. – s. 121-126.
128. Məmmədova, B. (Bərdəli). Qabil poeziyasının zirvəsi “Nəsimi” // Nəsimi-600, AMEA N. Gəncəvi adına Ədəbiyyat İnstitutu, III Beynəlxalq Elmi Konfransın materialları, – Bakı: – 23-24 iyun, – 2017, – s. 304-307.
129. Məmmədova, B. (Bərdəli Nurəngiz Günün poeziyasında təbiətin tərənnümü // Ağamusa Axundov və Azərbaycan filologiyası. AMEA Nəsimi adına Dilçilik İnstitutu. Beynəlxalq konfransın materialları, – Bakı: – 24-25 aprel, – 2017, – s. 177-180.
130. Məmmədova B. (Bərdəli). Qabil poeziyasında milli müstəqillik uğrunda mübarizənin inikası // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, Humanitar elmlər seriyası, – 2018. № 1, – s.78 - 81.
131. Məmmədova B. (Bərdəli). Sabir Rüstəmxanlının şeirlərində bütöv vətənin obrazı // – Bakı: AMEA N. Gəncəvi adına Ədəbiyyat İnstitutu, Əbəbiyyat məcmuəsi, 2018. № 1, XXXII c, – s. 102 - 108.
132. Məmmədova, B. (Bərdəli). Nurəngiz Günün “Ağ qanadlar” poemasında

gerçəkliyin əksi // Azərbaycanşunaslığın aktual problemləri. Bakı Slavyan Unversiteti, IX Beynəlxalq elmi konfransın materialları. – Bakı: – 3-4 may, – 2018, – s. 335-337.

133. Məmmədova, B. (Bərdəli). Qarabağ mövzusu Sabir Rüstəmxanlının poeziyasında // Humanitar elmlərin aktual problemləri. Beynəlxalq konfransın materialları, Azərbaycan Unversiteti, – Bakı: – 14-15 may, – 2018. – s. 295-297.

134. Məmmədova B. (Bərdəli). Sabir Rüstəmxanlının poeziyasında müharibə və sülh amili // – Bakı: AMEA M. Fizuli adına Əlyazmalar İnstitutu, Əlyazmalar yanmır, 2018. № 2(7), – s. 80-84.

135. Məmmədova B. (Bərdəli). Sabir Rüstəmxanlının poeziyasında bədii idrakın beynəlmiləl xüsusiyyətləri // – Bakı: Bakı Dövlət Unversiteti, Dil və ədəbiyyat, – 2018.№ 3(107), – s. 323-325.

136. Məmmədova B. H. Nurəngiz Günün poeziyasında təbiətin obrazı // – Bakı: Azərbaycan Dövlət Pedoqoji Unversitetin Xəbərləri, 2018. c. 66, № 4, – s.117-125.

137. Məmmədova B. (Bərdəli). Sabir Rüstəmxanlının poemalarında tarixi gerçəklik // – Bakı: AMEA M. Fizuli adına Əlyazmalar İnstitutunun Xəbərləri, 2018. № 1(6), – s. 38-42.

138. Məmmədova B. (Bərdəli). Qabil poeziyasında təbiətin obrazı //- Bakı: AMEA M. Fizuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2018. № 11, – s.195-201.

139. Məmmədova B. (Bərdəli). Nurəngiz Günün poemalarında müharibə və insan amili // – Bakı: AMEA M. Fizuli adına Əlyazmalar İnstitutu, Əlyazmalar yanmır, –2018. № 1(6), – s. 19-27.

140. Məmmədova B. (Bərdəli). Qabilin şeirlərində həyat fəlsəfəsi // – Bakı: AMEA N. Gəncəvi adına Ədəbiyyat İnstitutu, Azərbaycan ədəbiyyatşunaslığı, – 2019. № 1, – s. 39-45.

141. Məmmədova B. (Bərdəli). Sabir Rüstəmxanlı lirikasında məhəbbət motivləri// – Bakı: Azərbaycan Unversiteti, İpək yolu, – 2019. №1, – s. 78-89.

142. Məmmədova B. (Bərdəli). Əbülfət Mədətoğlunun poeziyasında müstəqillik illərinin əksi // Azərbaycanşünaslığın aktual problemləri, X Beynəlxalq Elmi konfransın materialları, Bakı Slavyan Unversiteti, – Bakı: – 7 may, – 2019. – s. 335-338.
143. Məmmədova B. (Bərdəli). Gülxani Pənahın poeziyası müstəqillik illərində//– Bakı: AMEA M. Fizuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2019. № 9, – s. 234-238.
144. Məmmədova B. (Bərdəli). Əbülfət Mədətoğlunun yaradıcılığında Vətənin poetik təcəssümü // – Bakı: AMEA N. Gəncəvi adına Ədəbiyyat İnstitutu, Filologiya və Sənətşunaslıq, – 2018. № 2, – s. 71-75.
145. Məmmədova B. (Bərdəli). Elçin İsgəndərzadənin poemalarında Birinci Qarabağ müharibəsinin əksi // –Bakı: AMEA N. Gəncəvi adına Ədəbiyyat İnstitutu, Azərbaycan ədəbiyyatşunaslığı, – 2021. № 1, – s. 133-140.
146. Məmmədova B. (Bərdəli). Elçin İsgəndərzadənin poeziyasında Vətənin obrazı // – Bakı: AMEA N. Gəncəvi adına Ədəbiyyat İnstitutu, Filologiya və sənətşunaslıq, – 2021. № 1, – s. 39-44.
147. Məmmədova B. (Bərdəli). Müstəqillik dövrü Azərbaycan şeirində dost və qardaş ölkələrə poetik münasibət // – Bakı: AMEA N. Gəncəvi adına Ədəbiyyat İnstitutu, Azərbaycan ədəbiyyatşunaslığı, – 2019. № 2, – s. 223-227.
148. Məmmədova, B. (Bərdəli). Elçin İsgəndərzadənin poeziyasında Birinci Qarabağ müharibəsinin əksi// Ədəbiyyatda Qarabağ mövzusu. Qərbi Kaspi Unversiteti, Respublika konfransının materialları, – Bakı: – 24 aprel 2021, – s.184-188.
149. Məmmədova B. Balaş Azəroğlunun yaradıcılıq yolu / B. Məmmədova. – Bakı: Nurlan, – 2007, – 176 s.
150. Məmmədov, Ə. Qabil - vətəndaş mövqeli böyük şair // Təzadlar. – 2009, 2 aprel. – s. 3
151. Məmmədova, S. Azərbaycan ədəbiyyatında yeni yaradıcılıq meyllərinin təşəkkülü: / filologiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2009. – 151 s.
152. Məmmədli F. Qadın - şair ürəyi // G.Pənah. Qarabağ dərdi. – Bakı: Çinar-çap,

– 2005. – s. 3-5.
153. Məmmədəliyeva A. Təmizlik şairi Qabil // Qabil. Dostlarım, tanışlarım. – Bakı: Şirvannəşr, – 2002. – s. 440-441.
154. Mədətoğlu Ə. Dərdini danışan adam / Ə. Mədətoğlu. – Bakı: Şirvannəşr, – 1999. – 104 s.
155. Mədətoğlu Ə. Döymək istədiyim qapılar / Ə. Mədətoğlu. – Bakı:Vektor, –2004. – 246 s.
156. Mədətoğlu Ə. Cəzayam sevdiyim qıza / Ə. Mədətoğlu. – Bakı: Heroqilif, –2017. – 224 s.
157. Mədətoğlu Ə. Ehtiyacın elçi daşı / Ə. Mədətoğlu.– Bakı: Şuşa,– 2002. – 208 s.
158. Mədətoğlu Ə. Nilufər çiçəyi / Ə. Mədətoğlu. – Bakı: Səda, – 1995. – 60 s.
159. Mədətoğlu Ə. Mənim kimi sevə bilsən / Ə. Mədətoğlu. – Bakı: Gənclik, – 2012. – 232 s.
160. Mədətoğlu Ə. Allah, məni unutma / Ə. Mədətoğlu. – Bakı: Çinar-Çap, – 2006. – 192 s.
161. Mədətoğlu Ə. Dörd divar...Allah, O və Mən / Ə. Mədətoğlu. – Bakı: Adiloğlu, 2021. – 271 s.
162. Müstəqillik dövrü Azərbaycan Ədəbiyyatı: [2 clddə] / AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, elmi red. İ. Həbibbəyli. – Bakı: Elm və təhsil, – c.1. – 2016. – 800 s.
163. Müstəqillik dövrü Azərbaycan Ədəbiyyatı: [2 cilddə] / AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, elmi red. İ. Həbibbəyli. – Bakı: Elm və təhsil, – c. 2 – 1088 s.
164. Mustafayev Ə. Yox özgə şərhə ehtiyac / Qabil. Dostlarım və tanışlarım. – Bakı: Şirvannəşr, – 2002. – s. 454-457.
165. Nadir, F. Tanrının söz adamı // Borçalı. – 2015, 28 yanvar. – s. 3.
166. Nəbiyev B. Seçilmiş əsərləri [5 cilddə] / B. Nəbiyev. – Bakı: Çinar-Çap, – c.1. – 2009. – 492 s.
167. Nəbiyev B. Seçilmiş əsərləri / B. Nəbiyev. – Bakı: Çinar-Çap, – c.2. – 2009. – 558 s.

168. Nəbiyev B. Seçilmiş əsərləri / B. Nəbiyev. – Bakı: Çinar-Çap, – c.3. – 2009. – 616 s.
169. Nəbiyev B. Seçilmiş əsərləri / B. Nəbiyev. – Bakı: Çinar- Çap, – c.5. – 2009. 612 s.
170. Nəbiyev B. Mən onu belə tanıyıram // Qabil. Dostlarım, tanışlarım. – Bakı: Şirvannəşr, – 2002. – s. 339-357.
171. Nəbiyev B. Ön söz// Qabil. Seçilmiş əsərləri.– Bakı: Şərq-qərb,– 2004.–344 s.
172. Nəbiyev B. Həyatın təravətli əksi // Rüstəmxanlı Sabir. Gəncə qapısı. – Bakı: Yazıçı, – 1981. – s. 3-10.
173. Nəsibova H. Müasir Azərbaycan poeziyasında milli azadlıq hərəkatı (1985-1995) / H. Nəsibova. – Bakı: Elm, – 2001. – 100 s.
174. Nəsibova H. Azərbaycan lirikasında insan kosepsiyası/ H. Nəsibova. – Bakı: Elm, – 2013. – 136 s.
175. Musabəyli, A. Əlyazmalarda Nəsimi ardıcıllarının poetik irsi // Nəsimi - 600. Ey Nəsimi, cahanı tutdu sözün, III Beynəlxalq Elmi konfransın materialları. – Bakı: – 23-24 iyun, – 2017, – s. 189-193.
176. Nəsimi İ - 600. Metodik vəsait. / – Bakı: Azərbaycan Milli Kitabxanası – 2019. – 57 s.
177. Novruz C. Səhv düşməsin yerimiz // Qabil. Dostlarım, tanışlarım. – Bakı: Şirvannəşr, – 2002. – s. 419-421.
178. Pənah G. Dədə Şəmşir harayı / G. Pənah. – Bakı: UniPrint, – 2007. – 320 s.
179. Pənah G.Yurd yanğısı / G. Pənah. – Bakı: Şur, – 199. – 160 s.
180. Pənah G. Torpaq sənin, vətən sənin / G. Pənah. – Bakı: UniPrint, – 2015. – 438 s.
181. Pənah G. Bura vətəndir / G. Pənah. – Bakı: Azər, – 2001. – 400 s.
182. Pənah G. Qarabağ dərdi / G. Pənah. – Bakı: Çinar-Çap, – 2005. – 400 s.
183. Pənah G. Bütöv bir canıq, Azərbaycanıq / G. Pənah. – Bakı: Skye, – 2021. – 660 s.
184. Pənah G. Vətən adlı dinim var / G. Pənah. – Bakı: Skye, – 2021. – 698 s.

185. Rüstəmxanlı S. Sağ ol ana dilim / S. Rüstəmxanlı. – Bakı: Gənclik, – 1983. – 208 s.
186. Rüstəmxanlı S. Seçilmiş əsərləri / S. Rüstəmxanlı. – Bakı: Şərq-Qərb, – 2004. – 344 s.
187. Rüstəmxanlı S. İki kəlmə / S. Rüstəmxanlı. – Bakı: Şərq-Qərb,– 2016.– 512 s.
188. Rüstəmxanlı S. Əbədi sevda / S. Rüstəmxanlı. – Bakı: Təhsil, – 2012. – 576 s.
189. Rüstəmxanlı S. Zaman məndən keçir / S. Rüstəmxanlı. – Bakı: Azərnəşr, –1995. – 592 s.
190. Rüstəmxanlı S. Özümüzdən böyük sözümüz / S. Rüstəmxanlı. – Bakı: Qanun, – 2019. – 656 s.
191. Rüstəmxanlı S. Xəbər gözləyirəm / S. Rüstəmxanlı. – Bakı: Gənclik, – 1979. – 202 s.
192. Rüstəmxanlı S. Gəncə qapısı/ S. Rüstəmxanlı. – Bakı: Yazıçı, 1981. – 204 s.
193. Rüstəmxanlı S. Ürəyimdən keçən yol // N. Gün. Yol gedirəm. – Bakı: Adiloğlu, – 2004. – s. 3-6.
194. Rüstəmxanlı S.Qarabağa dönüş. Poema. // Ədəbiyyat qəzeti. – 2020, 24 dekabr – s. 2 - 8.
195. Rüstəmxanlı T. Sabir Rüstəmxanlı yaradıcılığında Cənub mövzusu // – Bakı: AMEA M. Fizuli adına Əlyazmalar institutunun Elmi əsərləri, – 2019. № 1, – s. 24-33.
196. Rza R. Xatirələr işığında/ R. Rza. – Bakı: AME, – 2001. 501 s.
197. Rza R. Seçilmiş əsərləri [5 cilddə]/ R. Rza.– Bakı: Öndər,– c. 4– 2005.– 336 s.
198. Rzayev Y. Bədii söz və milli azadlıq şüuru / Y. Rzayev. – Bakı: Nurlan, – 2007. – 150 s.
199. Sadıq F. Ön söz. // G. Pənah. Dədə Şəmşir harayı. – Bakı: UniPrint, – 2007. s. 3-9.
200. Sadıq F. Əslində // Qabil. Dostlarım, tanışlarım. – Bakı: Şirvannəşr, – 2002. – s. 458-461
201. Sultanlı A. Gülxani Pənahın poeziyası/ A. Sultanlı. – Bakı: Skye, – 2020. –288 s.

202. Şərifova S. Sabir Rüstəmxanlı yaradıcılığının janr müxtəlifliyi / S. Şərifova. – Bakı: Elm və təhsil, – 2021. – 116 s.
203. Şərifova, S. Azərbaycan bədii janr ənənələrinin Sabir Rüstəmxanlı yaradıcılığında yenidən bərpası // Ədalət. – 2019, 25 dekabr. – 3.
204. Talıbzadə K. Seçilmiş əsərləri / K. Talıbzadə. – Bakı: Elm, – 2015. – 352 s.
205. Talıbzadə K. Ədəbi irs və varislər / K. Talıbzadə. – Bakı: Azərnəşr, – 1974. – 322 s.
206. Tahir S. Ön söz // G. Pənah. Bura Vətəndir. – Bakı: Azər, – 2001. – s. 3-8.
207. Ulusel R. Sabir Rüstəmxanlı: sözün dağ paytaxtı/ R. Ulusel. – Bakı: Qanun, – 2017. – 80 s.
208. Ulusel R. Mədəniyyət düşüncəsinin təkamülü və müasir dünya ədəbiyyatının əsas meyilləri // – Bakı: Tənqid. Net, – 2011, № 8.
209. Ulusel R. Mədəniyyətlərin ipək yolu. Azərbaycandan dünya məkanına / R. Ulusel. – Bakı: Təhsil, – 2003. – 188 s.
210. Ulusel R. Sabir Rüstəmxanlının həyatı və mühiti, ədəbi və ictimai fəaliyyəti// Xalq şairi Sabir Rüstəmxanlı. – Bakı: Elm və təhsil, – 2021. – s. 40-132.
211. Ulutürk X. Sabir Rüstəmxanlı haqqında / X. Ulutürk. – Bakı: Mürtəcim, 1998. – 112 s.
212. Ulutürk X. R. Ön söz // Sabir Rüstəmxanlı. Seçilmiş əsərləri. – Bakı: Şərq-qərb, 2004. – 344 s.
213. Ulutürk X. R. Seçilmiş əsərləri / X. R. Ulutürk. – Bakı: Şərq-Qərb, – 2004. – 247 s.
214. Ulutürk X. R. Uzun sürən gənclik / X. R.Ulutürk. – Bakı: Azərnəşr, – 1994. – 170 s.
215. Ulutürk, X. R. Yaddaşa inam // – Bakı: Azərbaycan, – 1988. № 6, – s.184
216. Vahabzadə B. Seçilmiş əsərləri / B. Vahabzadə.– Bakı: Öndər,– 2004.– 321 s.
217. Vahabzadə B. Əsərləri 1990-1999/ B. Vahabzadə. – Bakı: Elm, – 2008.
218. Vahabzadə B. Vətəndaşlıq qüruru ilə // S.Rüstəmxanlı. Sağ ol, ana dilim. – Bakı: Gənclik, – 1983. - s. 3-10.

219. Vahabzadə Bəxtiyar. Seçilmiş Əsərləri [5 cilddə] / B. Vahabzadə. – Bakı: Azərbaycan, – c.II. – 2002. – s. 576.
220. Vəziroğlu A. Çağdaş Azərbaycan poeziyasında milli vətənpərvərlik mövqeyi (1980-1990) / A. Vəziroğlu. – Bakı: Ulu, – 2002. – 168 s.
221. Vəfalı A. Qırx bir ildir ki... // Qabil. Dostlarım, tanışlarım. – Bakı: Şirvannəşr, – 2002. – s. 479-482.
222. Vətən bağı al-əlvandır: ( İkinci Qarabağ müharibəsinə həsr olunmuş əsərlər)/ tərt.ed. G. Pənah. – Bakı: Skye, – 2021. – 564 s.
223. Yaqub Z. Seçilmiş əsərləri / Z. Yaqub. – Bakı: Şərq-qərb, – 2004. – 350 s.
224. Yazıçı jur. Sabir Rüstəmxanlı. /– Bakı: Oğuz eli qəzetinin xüsusi buraxılışı. – 2012. Sentyabr, – 32 s.
225. Yusifli C. Sabir Rüstəmxanlı: yaddaşın poetikası / C. Yusifli. – Bakı: Qanun, – 2006. – 72 s.
226. Yusifli V. Qabil şeiri / Qabil. Dostlarım, tanışlarım. – Bakı: Şirvannəşr, – 2002. – s. 361-369.
227. Yusifli V. Xırdaca gəmiyəm, öz bayrağım var / Qabil. Dostlarım, tanışlarım. – Bakı: Şirvannəşr, – 2002. – s. 370-375.
228. Yusifli V. Poeziyanın yolları və illəri (1960-2000) / V. Yusifli. – Bakı: Mütərcim, – 2009. – 404 s.
229. Yusifli V. Poeziya və zaman / V. Yusifli. – Bakı: Mütərcim, – 2012. – 380 s.
230. Yusifli V. Ədəbi həyat / V. Yusifli. – Bakı: Vektor, – 2014. – 316 s.
231. Yusifli V. Nurəngiz Günün ağ çiçəkləri// – Bakı: Bayatı, – 2015, yanvar. – s.7.
232. Yusifli V. Müstəqillik dövrünün şeiri // Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. – Bakı: Elm və təhsil, – 2016. – s. 384-401.
233. Yusifli V. Bu, Elçin İsgəndərzadədir / V. Yusifli. – Bakı: Vektor, – 2015. – 230 s.
234. Yusifli V. Xocalı simfoniyası // Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. – Bakı: Elm və təhsil, – 2016. – s. 182-185.
235. Yusifoğlu R. Azərbaycan poeması: Axtarışlar və prespektivlər / R. Yusifoğlu. – Bakı: Elm, – 1998. – 300 s.

## Türk dilində

236. Adıgüzel H. Sabir Rüstemhanlı / H. Adıgözel. – İstambul: Bayraq yayımları, – 2003. – 168 s.

237. Akpinar Y. Azeri Edebiyyatı araşdırmaları/ Y. Akpinar. – İstanbul: Dergah Yayınları, – 1994. – 512 s.

238. Bilimsel Eksen. Uluslararası hakemli dergi // – Ankara: 2018. № 25, –178 s.

239. Bilimsel Eksen. Uluslararası hakemli dergi // – Ankara: 2019. № 27, –172 s.

240. Durmuş, M. Bolşevik İhtilatinden Sonrakı Azerbaycan Sahası Türk Edebiyyatında Şiir ve Poema Türü //1 Türkkoloji, C. XV sayıl, – Ankara, 2002. –
s. 261-267.

241. İmam G. Filosofların Tutarsızlığı/ G.İmam.– İstambul: Klasik,– 2009. – 120 s.

242. İsgenderzade E. Mavi Marmara/ E. İsgəndərzadə. – Ankara: 2014. – 192 s.

243. Küçükmehmedoölu, Ö. Böyük yazarımız Anar ve şair Ali Akbaşla Edebiyyat söhbeti// – İstanbul: Kardeş kalemler dergisi, – 2009. № 36, – s. 59.

244. Tamella Abbasbeyli. Yüregimi Türkiyeye sovqat götürün – Ankara: Çağrı dergisi, – 2016. – Mays, s. 9-14.

245. Zefer Özcan. Türkiye sevgisini Sovyetler de yokedemedi// – Ankara: Aksion dergisi, – 2009. – Nisan, – s.18-23.

246. Nasrattınoğlu İ. Ü. Azerbaycanda bir sanat güneşi – Nurengiz Gun// – Ankara: Size dergisi, – 1987. Ocaq, – s. 11-14.

247. Heyyət, C. Azerbaycanda elm ve edebiyyat semasında parlaq ulduz: Nurengiz Gun // – Tehran: Varlıq dergisi, – 2006. Mart, – s.133-143 (Fars əlifbasında)

248. Gün N. Səlam insan. Şeirlər toplusu/ N. Gün. – Təbriz: 2018. 145 s. (Fars əlifbasında)

## Rus dilində

249. Червяченко Г. А. Поема всоветской литературе/ Г.А. Червяченко. – Растов: 1978 изд-во, Ростов уита, – 192 с.

250. Числов, М. Современный литературный процесс и картинка. – Москва: 1975. Мысль, – с. 199-231.
251. Шукюров, С. Исторические поемы Азервайджана:/ Дис. Док.фил.наук./ – Ваку, 1984. – 305 с.
252. Овчаренко О. Русский свободный стих, // – Москва: Современник, – 1984. – №5 – с.97-104.
253. Степанов Ю. Современная роэзия: тенденции в начале XX1 века // – Москва: Дети-Ра, – 2008. №9, ( 47 ).
254. Гынянов Ю.Н. Поетика. История литературы. Кино./ – Москва: Издателство Наука, – 1977.
255. Тынянов Ю. Н. Проблема стихотворного языка/– Москва: 2007. – 184 с.
256. Фризман Л.Г. Жизнь лирического жанра./ – Москва: Издательство Наука, – 1973.
257. Юнг Карл. Избранное/ – Минск, 1998. – 320 с.

## İnternet rezusları


258. https://kulis.az
259. http:www.anl.az. >v> se_ 1
260. www.adam.az.internet sayıtı
261. www.ayb.az
262. www.azyb.az
263. www.azyb.az.home contact
264. www.AzNews.az
265. https://www.rezahamraz.com/
266. https://az.m.wikipedia.org<wiki
267. https://www.youtube.com.
268. profliqa.blogspot.com
269. https:// modern. az.
270. https://edibiyyatqazeti.az. nefs /gunde...
271. https://kaspi.az
272. www.adalet.az
273. www.science.gov.az
274. https://www.Turkologiya.orq
275. www.trt.net.tr "Avrasiya Bilgi" jurnal
276. https:525.az /news/166802-sabir-rüstəmxanlının-qarabağa-dönüşü.
277. https://www.turkyurdu.com.tr
278. https://www.turkjsurg.com
279. https://525.az.Sabir Rüstemxanlı
280. https://az.baku-art.kom>xalq şairi Sabir Rüstəmxanlı
281. https://www.azadşuşa.com Milli ideya və ideologiya
282. https://az.wikipedia. org/wiki/- Gülüstan müqaviləsi
283. https://az.wikibooks. org/wiki/-Türkmənçay müqaviləsi.
284. https://kaspi.az>xalq şairi-qabilin…
285. https://Wikipedia qabil

286. https://modern.az>news>heyder-e…

287. https://medeniyyet.az>page>news

288. https://www.bakupust. az/qarabağa-dönüş-niyə-önəmlidir-isa həbibbəyli

289. https://1905.az

290. https://az.m.wikipedia.>wiki>